

İsa Musayev (Yarıcan Miskəroğlu) 1947-ci ildə Gürcüstanın Ağbulaq nahiyəsində (Gürcüstan SSR-inTetri-skaro rayonunda) yerləşən Kosalar kəndində dəmirçi Kərimin ailəsində dünyaya gəlmişdir. Kiçik yaşlarında şəxsi həyatında faciə baş vermiş, sol gözünü itirmişdir. Bu hadisə onu dərin psixoloji sarsıntıya məruz qoymuş, lakin malik olduğu hərtərəfli parlaq istedadı onu elmi-bədii yaradıcılıq yoluna çıxara bilmişdir. 1965-ci ildə Arıxlı orta məktəbini əlaçı attestatı ilə, 1970-ci ildə isə Azərbaycan Xalq Təsərrüfatı İnstitunu (AzXTİ-ni) fərqlənmə diplomu ilə bitirmişdir. Ali məktəb auditoriyalarında “iqtisadçı-mühəndis” ixtisasına yiyələnməklə yanaşı, sözügedən institutun nəzdində fəaliyyət göstərən “Tər sətirlər” adlı dərnəyin fəal üzvlərindən biri olmaqla, alim-xanəndə Vəli Məmmədovun rəhbərlik etdiyi “Mədəniyyət Universiteti"nin diplomunu almışdır. İsa Musayev 1970-ci ildən bu günədək ümumi həcmi 216,6 çap vərəqi olan 83 adda elmi əsər, o cümlədən, 8 elmi monoqrafiya və 18 dərslik və dərs vəsaiti nəşr etdirmişdir. İsa müəllim 1970-ci ildən AzXTİ-də pedaqoji fəaliyyətə başlamış, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin İnformatika kafedrasında aparıcı dosent kimi elmi-pedaqoji fəaliyyətini davam etdirir. 2011-2013-cü illərdə İnformatika kafedrasının müdiri vəzifəsində çalışmışdır. Ötən əsrin 60-cı illərindən bədii yaradıcılıqla məşqul olan İsa Musayev müxtəlif janrlarda qələmini sınamış, şeirlər, poemalar və bir pritça yazmışdır. İsa müəllim bu kitaba daxil edilməyən və uzun illərdən bəri nəşr ediləcəyi günü gözləyən “Ay işığına ömür oxu” adlı romanın da müəllifidir. O, bədii yazılarının nəşrinə cəhd göstərməmiş, onları üzə çıxarmaqdan çəkinmiş, əsasən “İqtisadçı” qəzetinin ədəbiyyat səhifələrində, “Yeni səslər” almanaxında və ADİU-nun 85-illik yubileyi ilə bağlı olaraq professor Maarifə Hacıyeva tərəfindən tərtib edilib nəşr edilmiş “İqtisadi və ədəbi təfəkkür işığında" adlı kitabda bəzi şerlərini çap etdirmişdir.

Əsas elmi monoqrafiyaları aşağıdakılardır:

1. Dil, Yaddaş, Vətən, Vətəndaş (Assosiativ incələmələr). Bakı,1995.
2. Problemə yiyələnmək səlahiyyəti. Bakı, 1999.
3. Assosiativ kibernetika. Bakı, 2000.
4. Assosialogiya və ya assosiasiyalar nəzəriyyəsi. Bakı, 2001.
5. Assosiativ dünya. Bakı, 2001.
6. İqtisadi assosialogiya. Bakı,2005.
7. İqtisadiyyatın idarə edilməsinin assosiativ optimallaşdırılması. Bakı,2005.
8. Assosialogiya. Bakı, 2010.

ÖTƏN ÖMRÜN GÖY QURŞAĞI

İSA MUSAYEV



**İSA MUSAYEV**

# *ÖTƏN ÖMRÜN GÖY QURŞAĞI*

**BAKI - 2017**

## Bitib-tükənməyən xeyirxahlığa görə dərin səmimi minnətdarlıq ifadə edənin sevimli oğlunun ad günü münasibəti ilə dediklərinin cəfakeş anasının dilindən qələmə aldıqları

## Ad günün mübarək!

Anan sana qurvan olsun, a gözümün işığı!
Keçən-keçdi, olan-oldu, nə danım, nə gizlədim!
Allah vursun, kasıflığı, kasadlığı, qıtlığı,
İstədiyin marojnuydu, qıyıf ala bilmədim.

Bir urvatlı əyin-başa veriləsi pul qəhət...
Qazancımız daş-divarda, vurhavur öy tikirdik.
Ayaq yalın, baş da açıq, şivot şalvar, çit xələt...
Allah bilir, nə zulumnan boya-başa yetirdik.

Əsgər getdin, bir ləyaxlı yola sala bilmədik,
Bolin doldu, qəhərləndi, mən də doldum, nə danım.
Daşdan yumşaq, nə tapdıqsa, qanax olduq, var dedik,
İndi dərmən möhtacıdı bir vaxt sağ olan canım.

Allaha çox şükür olsun, hardan-hara çatmışıq!
Əlim allah ətəyində, dilim ozan olufdu.
Arzum budur, azalmasın üstünə düşən işıq,
Allah özü bu qisməti bizə yazan olufdu.

Ürəyinə qurvan olum, ürəyin şir ürəyi,
Diləyinə qurvan olum, nur tökülür üzündən!
Göydə allah, yerdə sənsən, hamımızın gərəyi,
Anan Niyar təbrik edir, öpür qara gözündən.

*10 mart, 2008-ci il.*

# İsa Musayevin elmi-ədəbi-bədii yaradıcılığı barədə bir-neçə söz

İxtisasca "iqtisadçı-mühəndis" olan, uzun illər ərzində "Kibernetika", "İnformasiya və kodlaşdırma nəzəriyyəsi" və "İnformatika" kimi elm sahələrində uğurlu elmi araşdırmalar aparan İsa müəllim ədəbi-bədii yaradıcılıq sahəsində də çoxcəhətli istedada malik olduğunu nümayiş etdirmişdir. Belə ki, o, qələmini həm poeziyanın, həm də nəsrin müxtəlif janrlarında sınamış və müəyyən uğur qazana bilmişdir. İsa müəllim cəsarətli araşdırıcı, təvazökar insan, novator şairdir. Onun "Dil, Yaddaş, Vətən, Vətəndaş" adlı assosiativ incələmələr kitabında yuxarıda adı çəkilən elm sahələrində əldə edilmiş nəticələr Azərbaycan-türk dünyagörüşünün, folklorunun, mifologiyasının, etimologiyasının araşdırılmasına tətbiq edilmiş və indiyədək cavabı açıq qalmış bir sıra suallara tutarlı cavablar verilmişdir. Müəllif sözügedən əsərdə dil və yaddaş məsələlərini tamamilə yeni planda – özünün işləyib hazırladığı və "assosialogiya" adlandırdığı yeni elmi istiqamət müstəvisində həll etmiş və çox maraqlı nəticələrə gəlmişdir. Bu əsər gənc nəslin milli ruhda tərbiyə edilməsində çox faydalı mənbədir.

İsa müəllim "Ay işığına ömür oxu" adlı roman müəllifidir. Burada Azərbaycan-türk həyat tərzi, məişəti, arzu və istəkləri, həzz və iztirabları canlı bədii lövhələrlə işlənmişdir.

İsa müəllim səmimi, lirik şeirlər müəllifidir. O, 1983-cü il, noyabrın 2-də "İqtisadçı" qəzetində çap etdirdiyi "Mənim küçələrim" adlı şeirində oxucunu özünün yaratdığı "dümağ, tərtəmiz, parlaq, işıqlı" küçələrindən keçməyə dəvət edir:

Mənim küçələrim – şeirlərimdi,
Heyrətim, həsrətim, sehrlərimdi.
Gəlin də, keçin də küçələrimdən,
Onları sizinçün yaratmışam mən." - deyir.

İsa müəllim 1979-cu il, noyabrın 22-də "İqtisadçı" qəzetində dərc edilən "İllər" adlı şeirində:

"Bir ahım od aldı, bir şux baxışdan,
Qolunu boynuma doladı illər.
Vurğun heyrətimin dili tutuldu,
Qımışıb başını buladı illər.

Gördüm nəşəni də, gördüm dəmi də,
Tamarzı-tamarzı yedim qəmi də,

Mən özüm cəhənnəm, sevdiyimi də,
Məni yaxan oda qaladı illər" -

deyə ömür payına qane olduğunu səmimi etiraf edir.

İsa müəllim həm də aforizmlər yaratmağı sevir:

"Aydın fikir, səlis dil,
Sağlam düşünənindir."

"Boş qaba qapaq,
Boş başa papaq."

"Dağ dağa qovuşmaz,
yal-yamac olmasa"

"Dağı dağa qarşı qoyan,
Ömürlük ağlar qalar"

"Su doğsa da bil, duzu,
Sudur duzun qorxusu"

"Hər qıy vuran qartal olmaz,
Qartal olan dərhal olmaz." və s.

İsa müəllim 1987-ci il, yanvarın 1-də "İqtisadçı" qəzetində dərc edilən şeirlərinin birində soruşur ki:

"Könlümə işıq düşüb,
Kim yatıbdı, kim oyaq?
Hay verin, ümidlərim,
Kim yatıbdı, kim oyaq?

Dərd varmış haça dilli,
Sirr varmış içi bəlli.
Nur varmış bəd əməlli
Kim yatıbdı, kim oyaq?

Bu yurdun daşı yandı,
Bağrının başı yandı;
Gözdə göz yaşı yandı,
Kim yatıbdı, kim oyaq?

Hanı dəyirman daşı?
Boylanır Divin başı.
Oyat Cırtdan qardaşı,

Kim yatıbdı, kim oyaq?

Cavab ver Ulu Dünya,
Səbri dopdolu Dünya.
Düymənin qulu Dünya,
Kim yatıbdı, kim oyaq?

İsa müəllim deyir ki,

“Uşaq olmaq istəmirəm,
Başımı nənəm aldada;
Cavan olmaq istəmirəm,
Başımı sənəm aldada;
Ahıl olmaq istəmirəm,
Başımı nəvəm aldada;
Şair olmaq istəyirəm,
Başıma dönən aldada;
Şair olmaq istəyirəm,
Başına dönəm, aldada.”

İsa müəllim deyir ki,

“Özünü aldatmasın sevib bəyəndiklərim,
Səcdəsinə baş əyib, başına döndüklərim,
Zirvəsinə çatdığım, təkinə endiklərim,
Mənim bu dünya ilə nə alverim, nə işim!
Öz anamın xətrinə bu dünyaya gəlmişəm.”

İsa müəllim deyir ki,

“Budur ha! Yetişdik yarıcan təki,
Şübhəli sonluqdan bağrı qan təki.
Gedirik turşumuş ağ ayran təki,
Halbuki gəlmişdik yaz balı kimi.”

İsa müəllim deyir ki,

“Şükür dərgahına, Ulu Yaradan!
Deyirdim payızam, yazıymışam ki!
İçimə boylandım, içim dup-duru,
Xalisin xalisi, xasıymışam ki!

Varlığım sünbülə dolan dəniymiş,
Yaddaşım al-əlvan bir çəməniymiş.
Könlüm çiçəkləyən yasəməniymiş,
Təpədən-dırnağa nazıymışam ki!”

İsa müəllim deyir ki,

“Bir dərdimdi, bir də mənəm,
Mən Qəribəm, dərd – Şahsənəm.

Güvəyə qurban gedənəm,
Kəhrəba həsrətindəyəm.

Baltanı daşa vurmuşam,
Qurduğumu uçurmuşam.
Üzü qibləyə durmuşam,
Sərdabə həsrətindəyəm.”

İsa müəllim deyir ki,

“Aldanma böhtana, uyma yalana,
Dünyada saf ada sandı, Müəllim.
Qoyma xırdalana, qıyma talana,
Vicdandı, şərəfdi, şandı, Müəllim.
*
Qeyrətdi, qüdrətdi, qoldu, qüvvətdi,
Aqildi, kamildi, ulu hörmətdi.
Əzizdi, təmizdi, ülvi niyyətdi,
Haqq dolu, baxt dolu camdı, Müəllim.
*
Düz adı ustadı, biləndi, başdı,
Rəssamdı, şairdi, heykəltəraşdı.
İnamsız, ilhamsız yaşamamışdır,
Nahaqda naşıdı, xamdı, Müəllim.
*
Qürurdu, məğrurdu, əyilməz dağdı,
Şirindi, sərindi, büllur bulaqdı.
Ülfətdi, hikmətdi, sirdi, soraqdı,
Başından alışan şamdı, Müəllim.
*
Qayğıdı, duyğudu, ılıq nəfəsdi,
Arzudu, ruzudu, ömürlük bəsdi,
İlkindi, yelkəndi, səsdi, həvəsdi,
Bülövdü, bütövdü, tamdı, Müəllim.”

İsa müəllim deyir ki,

Ürəyimdə bir nəğmə var, ay ellər!
O nəğmənin zili zildən zildi, zil!
Qorxuram ki, xata çıxa dilimdən,
Dilə nə var, dil ətdəndi, dildi, dil!
*
Murad üstə bəstələnib hər xalı,
Hər ahəngi Misri, Cəngi misalı!

Bəmi, zili Arazla Kür vüsalı,
Nəqəratı yerdi, yurddu, eldi, el!
*
Mayasına dəli nərə hopandı,
Koroğlunun dodağından qopandı!
Qırın, Dürün dırnağından öpəndi,
Nəğmə deyil, o, kükrəyən seldi, sel!
*
Oxu könül! Nəğmən dəli, sən dəli!
Alış dəli, parla dəli, yan dəli!
Azər - ülvi, bay - nurani, can - dəli,
Yurdum, yuvam Çənlibeldi, Çənlibel!

İsa müəllim çox söz deyib, daha çox söz deyə bilər.

**Maarifə Hacıyeva,**
**professor, filologiya elmləri doktoru**

## Tut əlimdən

Ömrüm-günüm, ay Oxucum!
Təbim cılız, azdı gücüm.
Hər kəlməsi od qaynaqlı,
odlu, sərrast, ötkəm, haqlı,
ruh güldürən, qəlb oxşayan,
yalqızlara həmdərd, həyan,
dərdlilərə məlhəm olan,
ürəklərdə yuva salan
elə gözəl şerim yoxdu.
Şerin al-əlvan bağında,
şer-sənət yığnağında
göz tutası yerim yoxdu.
Qınama gəl.
Hər qıy vuran qartal olmur,
qartal olan dərhal olmur.
Tut əlimdən, qoy isinim!
Açılası mətləbim var,
içiləsi şərbətim var,
biçiləsi həsrətim var,
necə susum, necə sinim?
Tut əlimdən, ömrüm-günüm!

*

Çox sinələr məhrəm olub bu kürsüyə!
Bu kürsüdən çox ilhamlar qanadlanıb,
zirvə!-deyə.
O zirvələr fəth eləyən qanadlara,
dilimizlə fəxr eləyən Ustadlara
baş əyirəm hörmətlə mən.
Di gəl, bu gün coşub birdən
döşə döysəm, "mən-mən" desəm,
vətəncanlı həmvətənim,
gəl incimə, kəlməbaşı Vətən desəm.
Axı mən də bu ümmanın zərrəsiyəm,
Axı mən də öz sözümü gərək deyəm!

*

Gərək deyəm:
Ağ saçları buludlarla rəqs eləyən
başı qarlı,

dağ vüqarlı bir ağsaqqal nəvəsiyəm.
Gərək deyəm:
Dünənimi varaqlayan,
bugünümü daraqlayan,
sabahımı soraqlayan
istəyimin sehridi o.
Sıra dağlar silsiləsi
Ustadlardan biridi o.
Qoy danışsın aram-aram
dəfim, neyim, sazım, tarım.
Qoy danışsın olanlarım!
Zil şaqrasın, ilham alaq!
Bəm inləsin, fikrə dalaq.
Qanımızı qızdırmayan
xaric səslər çiliklənsin çilik-çilik!
Odumuzu sezdirməyən
yad nəfəslər didiklənsin didik-didik!
Qoy gurlasın qəzəb zəngi!
Ərəbzəngi -
Nənəmizin nər nənəsi!
Neçə qeyrət möhtacını
yerə sərsin hər nərəsi!
Dəmir donlu, dümağ atlı,
Ağzı odlu, polad qatlı
qılıncını bir də çəksin
kökübizdən yad üstünə!
Əsli bir də saçlarını
yolub töksün od üstünə.
Qoy təzədən alovlansın yanıq Kərəm!
Qoy təzədən alovlansın, od istərəm.

*

Qoy danışsın aram-aram
olanlarım, qalanlarım.
Qoy danışsın Qaval Daşda
heyrətini çalanlarım.
Gözüylə od ayaqlayan
babamızı, nənəmizi görək bir də!
Odu öpüb, alovları torpaqlayan
Dədəmizi görək bir də!
Füzulinin Məcnun Könlü,
Leyli Ahı yada düşsün!

Qəriblərin, Sənəmlərin
sinə dağı yada düşsün!
Unutmasın Dünənini Bugünümüz!
Qoy Koroğlu meydanından keçib getsin
hər il əsgər gedənimiz.
Şəhidlərə gül aparaq çıraq-çıraq!
Qoy görsünlər, qanlarından
boyamışıq uca bayraq.
Bu torpağa qarışıb da yoğrulaq biz!
Namus, qeyrət qovğasında
Tanrımızın qılıncı tək sıyrılaq biz!
Qoy güc alsın eşqimizin qanadından,
hey ucalsın nur istəkli Azərbaycan!

*

... Açılası mətləbim var,
içiləsi şərbətim var,
biçiləsi həsrətim var,
Tut əlimdən, qoy isinim!
Tut əlimdən, ömrüm-günüm!

*noyabr, 1971-ci il, Bakı.*

## Şerlər
(poetik gündəlik)

### Gördüm

Şümşad boylu, gül yanaqlı gözəlim,
Ürkək baxışında adını gördüm!
Şəlalə zülfünə çatmadı əlim,
Əridim - hicranın odunu gördüm.
*
Gülüşün ağlımı başımdan aldı,
Ötkəm xəyalıma bir lərzə saldı.
Zillətin zənciri boynumda qaldı...
Lal oldum, lallığın vədini gördüm.
*
Ən əziz bir gündə sındı qanadım,
Yazıldı bəxtimə yay-oxla adım.
Ağladım, sinəndən qopdu fəryadım,
Ruhumun dostunu, yadını gördüm.
*
Möhnət sevincimi yelə yüklədi,
Əhdin duz daşını belə yüklədi.
Naləmi ürəkdən dilə yüklədi,
İnsanam, sevginin dadını gördüm!
*18 avqust, 1967-ci il. İridaş.*

### İnciyərmi?

Bahar buludları gözünü sıxsa,
İnci göz yaşından çöl inciyərmi?
Rüzgar sığal versə pərişan telə,
Dağların mehindən tel inciyərmi?
*
Əsir şeyda bülbül dözüb fərağa,
Qönçənin eşqiylə qonsa budağa;
İsitmə göndərsə dodaq dodağa,
Qəlbin istəyindən dil inciyərmi?
*
Əmib dağ çiçəyi sevda şehindən,
Məst olsa səhərin sərin mehindən;

Balçəkən mey içsə gül qədəhindən,
Eşqin şərbətindən gül inciyərmi?
*
Lal olsa heyrətdən çılğın şəlalə,
Əriyər, üzülər gül üstə jalə.
Sədaqət rəmzi tək dolsa piyalə,
Əyilib almağa əl inciyərmi?
*
Naləli bir dilə nəğmə calansa,
Sevginin hökmüylə giley talansa;
İşdir, kəmər olub belə dolansa,
Zülfün qucmağından bel inciyərmi?
*
Kədərin belini dəyanət qırsa,
Etibar ürəkdə şah tək otursa;
Çən-duman göl üstə xəyaldadırsa,
Mehin gəlişindən göl inciyərmi?
*
Əhdinə sadiqsə sevənlər əgər,
Sürünən şayələr ona neyləyər?
İsa, həsrətiylə yandığın dilbər,
Naz ilə sallansa, yol inciyərmi?
*4 oktyabr, 1967-ci il. Bakı.*

## Necəsən?

Dinlə, Qardaş, dinlə, sənə sözüm var,
Bu qələmlə, bu varaqla, necəsən?
Xəyal səyyar, arzu dadlı, ömür kəm...
Yaxın-uzaq bir soraqla, necəsən?
*
Doğma ocaq isindirdi qəlbimi,
Mizrab çəkdi, titrədi könlüm simi.
Dağ döşündə yorğun bir maral kimi,
Xumarlanan Ağbulaqla, necəsən?
*
Dost gəlişi çöhrəsinə nur səpən,
Mərd baxışın mərd gözlərindən öpən,
"Xoş gəlmisən" kəlməsiylə sərpilən,
Ətir saçan gül dodaqla, necəsən?

*
Bahar gəlib bu torpağa, bu elə,
Can verilib hər arzuya, əmələ;
Yaz küləyi daraq çəkirsə telə,
Göy ot üstə kef-damaqla, necəsən?
*
Yaşıl meşə, ürək oxşayan tala!
Çırpı gətir, yol üstə tonqal qala!
Şiş hazırla, tikələri xırdala,
Köz kababı, yüz araqla, necəsən?
*
Ağac altda yerə süfrə salmışıq,
Xoş diləyin əlindən cam almışıq!
Bəxtəvərik, doyunca kam almışıq!
Təşnə dodaq, buz bulaqla, necəsən?!
*
Diz bərkidib kef üstündən duranda,
Nə dilədin, söylə görüm, bir anda?
Xoşhallanıb, gözlər xumar vuranda,
Xalı sərmiş göy otlaqla, necəsən?
*
Axşam mehi, göy buludsuz, yer sərin...
Boz turaclar bəzəyidir bu yerin.
Sərxoş ovçu, titrəyəndə əllərin,
Sözəbaxmaz yar-yaraqla, necəsən?
*
Aşıq Ənvər saz götürüb dinəndə,
Bir mürgülü köz alışdı sinəmdə.
Bir ah çəkdim, cızdağ oldum. Bu dəmdə,
Cızhacızla yanan yağla, necəsən?
*5 may, 1968-ci il. Bakı.*

## Əlvida

Qəlbim qəm dəryası, fikrim biqərar,
Toxundu, uğursuz, daşa, yelkənim...
Ah, yazıq ürəyim, nə günahın var?
Günah özümdədi, özümdə mənim.
*

Bir amal yaşatdı məni hər zaman,
Pozulmaz ilqara səcdəyə endim.
Yoluma çöksüdü qatı bir duman,
Yolumda nabələd yolçuya döndüm.
*
Bilmədim əhdimi zamanmı pozdu,
hardansa boylanan gümanmı pozdu?
Yoxsa, xəyalımda qıvrılıb yatan
şan-şöhrətmi pozdu, ad-sanmı pozdu?
*
Biz ki, ilqar verdik, peyman eylədik,
bəs bizi ayıran nə oldu, söylə?
Biz ki, sevgimizi pünhan eylədik,
bəs onu dillərə kim saldı, söylə?
*
Bunu nə sən dedin, nə də mən, Gülüm,
oğrun baxışımız danışdı, dindi.
Quyruqlu şayələr o gündən, Gülüm,
gah qalxdı, dikəldi, gah da ki, sindi.
*
Eşqimiz car oldu, qoy olsun, nə qəm!
Qırılmaz möhnətin köklənən simi!
Gizli necə yanım, yana bilmirəm,
Alışan alovsuz yana bilərmi?
*
Eşqimiz car oldu...Atam da bildi,
dolandı narazı, gəzdi narazı.
Elə ki, söz düşdü, adın çəkildi,
əridim, dinmədi, süzdü narazı.
*
Min hörmət oxudum ölü sükutda,
O lal baxışlara qurban kəsildim.
Unut onu!-dedi, mən bu "unut"da
batmaq istəmədim, qopdum üzüldüm.
*
Atam inad oldu, anam da susdu,
Təntidim su ilə od arasında.
Hörmətlə savaşda eşqim uduzdu,
Büdrədim üç yağı-yad arasında.
*

Ata böyüklüyü, ana laylası -
bu borcun önündə boğuldum, qaldım.
Gözümdə günahsız eşqimin yası,
Ata nəzərində qalxdım, ucaldım.
*
Mən geri çəkildim...Ah, nələr etdim!
Eşqimi hörmətə güzəştə getdim.
Titrədi varlığım, xəzana düşdü,
qəlbim aha düşdü, amana düşdü.
*
Bəli! Titrədim mən...Titrəyəsiydim -
İnləyən bir eşqin odlu səsiydim.
Atamın, anamın ilk addımıydım,
onsuz da hardasa büdrəyəsiydim...
*
Gəl tut əllərimdən son dəfə, Gülüm!
Əlvida ömrümə - sənli günlərə.
Gəl tut, öz canımdan qopum, üzülüm,
qurtarım əzabdan mən də bir kərə.
Daha nə yer, nə göy gərəyim deyil,
Sən ki, mənimləsən, sil gözünü, sil!
*3 iyun, 1968-ci il, Bakı.*

## Möhtacam

Könül can ayrısı, sızlar dəmadəm,
Bir şeyda bülbüləm, gülə möhtacam.
Canımda taqət yox, gözümdə jaləm,
Bir susuz səhrayam, selə möhtacam.
*
Həsrətim gözümə sığınıb, qalıb,
Fəğanım qəlbimə od-alov salıb;
Gümanım bir şirin yuxuya dalıb,
Xoş keçən aylara, ilə möhtacam.
*
Eşqin yolçusuyam, yoxuşum durur.
Qəlbimdə min dürlü naxışım durur.
Şəhla gözlərində baxışım durur,
Səyriyən dodağa, dilə möhtacam.
*

Nəğməyəm, al-əlvan bəmim-zilim var,
Həsrətim, möhnətim, həm nisgilim var.
Allaha şükür ki, şux sevgilim var,
Di gəl, oxşamağa telə möhtacam.

*28 iyun, 1968-ci il. Kosalar.*

**Deyər**

Gül üzlü gözəlim, incimə dildən!
Ürək istəyini canana deyər.
Leyli cam alarsa, eşqin əlindən,
Dərdini Məcnun tək loğmana deyər.

*

Əridim əlində qansız möhnətin,
Ruhumu taladı dilsiz həsrətin.
Əl üzməz sevən kəs, olsa da çətin,
Neyləsin, ahını yanana deyər.

*

Başımı tovlayır sevdanın dəmi,
Etmə gəl, könlümü həsrət həmdəmi!
Pərvanə yanmazsa, artırar qəmi,
Odlansa:-qurbanam peymana-deyər.

*3 iyul, 1968-ci il. Kosalar.*

**Tapdım - itirdim**

Eşqin od damlası qəlbimə düşdü,
Alışdı, atəşdən uzaq ürəyim!
Varlığım tilova, sanki, ilişdi,
Çırpındı, titrədi... yazıq ürəyim.

*

Dindi pərdə-pərdə könlümdə bir səs,
Sükutu dilimdən didərgin saldı.
İsitdi sinəmi odlu bir həvəs,
Dincliyim görəsən hayanda qaldı?

*

Qədirsiz sandığım, cansız bildiyim,
ürəksiz bildiyim, qansız bildiyim,
ruhuma yad gələn hər nə vardısa,
dəyişdi, can aldı nə vaxt, hardasa?!

*
Xəyalım sığmadı öz məcrasına,
İlham sığal verdi söz məcrasına!
Arzumun əlçatmaz zirvələrində,
Könlümün ən dərin guşələrində
bir körpə məhəbbət, bir məsum ülfət
titrəyə-titrəyə alışdı, yandı,
qalxıb vicdanımla qoşa dayandı!
*
O, elə məğrurdu, elə çılğındı,
qıy vurdu, xiffətin bağrı yarıldı!
O, elə qaynadı, elə çalxandı,
məzlum donuqluğun beli qırıldı.
*
Di gəl, yaşamadı, şimşəkdi, söndü...
Külü buza dönmüş ocağa döndüm.
İsinə bilmirəm o vaxtdan daha,
Bədənim qüzeydi, ürəyim kaha.
*
Mən onu itirdim - varlığım itdi,
Ağzımın ləzzəti onunla getdi.
Mən onu itirdim - itginəm özüm,
Özümü axtarır, özümü, gözüm.
*
Hay verdim, harayım harda əridi?
Səsimin üstünə dağmı yeridi?
Fikrimin qanadı harda qırıldı?
Əhdimin simimi darda qırıldı?
*
Yox-yox! Qırılmadı! Onun eşqinə
köklədiyim simlər dardadı yenə!
Di gəl, nəğmə demir o simlər daha,
İndi də dəm tutub fəryada, aha.
*
Mən indi anladım məhəbbət nədir,
Mən indi duydum ki, bu, nə qüvvədir!
Mən indi bildim ki, indi bildim ki,
MƏHƏBBƏT - vicdanın almaz qaşıymış!
Mən indi bildim ki, indi bildim ki,
HƏYƏCAN - məhəbbət qasırğasıymış!
Ülvi bir məhəbbət sahibi - ÜRƏK,

necə saf olurmuş - büllur bulaq tək!
Mən indi bildim ki, indi bildim ki,
ÜMİD - arzulara gedən cığırmış!
Mən indi bildim ki, indi bildim ki,
İNAM - eşq evinə od daşıyırmış!
Sən demə, bu sirli təlatümlərdə
XƏYAL düşüncənin ağ yelkəniymiş!
Könül dara düşüb, boğulan yerdə
İLHAM haray salıb, car çəkən imiş!

*

Eşqim şimşək idi, çaxdı da, söndü...
O getdi, mən isə leysana döndüm...
Tanıya bilmirəm özüm-özümü,
Yoldan çəkəmmirəm bir an gözümü...

*19 oktyabr, 1968-ci il. Bakı.*

## Yadigar

Yadigar!
Bu sözdə qorunma nişanəsi var.
Yadigar -
bildirdən bu ilə qalan qar!
Yadigar - əvəzi ödənilməyən can!
Yadigar -
oğula atadan,
qıza anadan
əmanət verilən namus, qeyrət, ar!
Yadigar - etibar, vəfa heykəli,
Dünənin sabaha uzanan əli!
Yadigar götürmüsən məni də guya?
Bəs əmanətə xəyanət nə üçün, a gidi Dünya?

*21 oktyabr, 1968-ci il. Bakı.*

## Yun corab

Necə doğma, necə əzizsən mənə,
Ay naxışı xana-xana, yun corab!
Söylə, necə doğma bilməyim, axı
özü hörüb səni anam, yun corab!

*

Hər ilməndə əl dayanıb, mil durub,
Varlığını xoş nəfəsi qızdırıb.
Həsrətdənmi, qayğıdanmı xal vurub,
mil sinənə, şana-şana, yun corab?
*
Alov susar, asta-asta köz düşər...
Ürək dinər, aralığa söz düşər.
Hər duyğudan fikrə yeni iz düşər,
işləyəndə həsrət qana, yun corab!
*
Oğul dərdi, qız qayğısı, ev yükü
hər ananın şax qəddini tez bükür.
Bir şey olsa, qəhərlənir, yaş tökür...
Borc deyilmi bu, qanana, yun corab?
*
Tələbəyəm, nə adım, nə qulluğum,
nə də elə sən bəyənən aylığım...
Mən neyləyim, yox olsun yoxsulluğu!
Nə göndərim, söylə, ona, yun corab?
*
...Xəyal uçdu, qan kükrədi, söz dindi,
İlham selə, həvəs dalğaya döndü!
Hissim, ruhum doğmalıqla isindi,
bir şer yazdım yana-yana: "yun corab",
göndərirəm mən də ona, yun corab!
*19 dekabr, 1968-ci il. Bakı.*

## Var

Sinəm - cıdır düzü, at çapır hicran,
Ayrılmamışıq da deyəm, yeri var.
Həsrət qəh-qəh çəkir, vüsalsa giryan,
Qəlbimin nə boyda dərdi-səri var!
*
Bilirəm, od tutub alışsam əgər,
yanarsan halıma sən məndən betər.
Nəmli həsrətimi kipriyinə sər,
axı gözlərində atəş yeri var!
*
İsayam, sinəmdə qalmaqaldı, gəl -
sevincim dərdimi itgin saldı, gəl.

Toy-büsatdı, Gülüm, çalhaçaldı, gəl,
utancaq eşqimin gör nələri var!
*2 fevral, 1969-cu il. Kosalar.*

## Qorxma!

Çəkinmə, sevgilim! Alnı açıq gəz!
Əhdimi, sözümü danmaram, qorxma!
Vüqarım - Şah dağı, eşqim - Bisütun!
Əyilmərəm, qorxma, sınmaram, qorxma!
*
Qartalam qayadan qanadlanmışam,
Qarlı zirvələri beşik sanmışam.
Bu sevda oduna elə yanmışam,
yüz boran-qar ola, donmaram, qorxma!
*
Həyat bir meydandı - ad alasıyam!
Tanrı ətəyindən od alasıyam.
Eşqimin barından dad alasıyam,
ölərəm, bu yoldan dönmərəm, qorxma!
*3 fevral, 1969-cu il. Kosalar.*

## Qorxuram

Sürət qatarıydım, yüküm - vaqonlar,
İstəyim, əməlim, fikrim - vaqonlar.
"KÖRPƏLİK" - ilk adım, əzəl addımım,
titrəyən, büdrəyən, gözəl addımım.
"GƏNCLİK" - ilk çatdığım əzəl duracaq,
mehriban, həm rəvan, gözəl duracaq.
Dayanmaq istədim, olmadı fəqət,
qoymadı bir azca dayanım, ŞÖHRƏT!
Könlümdə min arzu durmuşdu dik-dik!
Ruhumda yurd-yuva qurmuşdu MƏRDLİK.
CƏSARƏT - zülməti yaran həvəsim,
ŞILTAQLIQ, ÇILĞINLIQ odlu nəfəsim!
Gedirdim durmadan. Duracaq hanı?
Harda çatacaqdır bu yolun sonu?
Ah son dayanacaq! Necə olacaq?

"İNSAN"mı? Bilmirəm...
Hələlik yoldayam, mənzil kəsirəm.

*

Birdən bir səs gəldi qulaqlarıma,
Tormozlar duyğumu çəkdi tarıma!
"SEVDA" stansiyası! Dayanam gərək!
QIRMIZI yandırdı, deyəsən ürək.
Dayandım! Cüt nəbzim susdu bir anlıq,
sardı gözlərimi qatı qaranlıq.
Çəkdi kimsə məni "EHTİYAT yol"a,
az qaldı varlığım viranə qala.
Üşüdüm yad yuva soyuqluğunda,
Doğması olarmış soyuqluğun da!

*

Ayrıldım yükümdən, arzum istəyim...
Başqa birisinə...Eh necə deyim?...
Kiminsə taleyi mənə yük oldu,
bu yük öz yükümdən çox böyük oldu.
Dəyişdi səmtini fikrim, niyyətim,
Ülvi bir söz uddu mənəviyyətim.
Düşdüm qrafikə, yenə yoldayam,
Əllərim uzalı... Gör nə haldayam!

*

ƏQİDƏM - teplovoz, yüküm - vaqonlar!
EŞQİM, MƏHƏBBƏTİM,
HİSSİMDİR onlar!
Uçuram, önümdə yarılır ZÜLMƏT,
Fəqət çəkilməyir gözümdən HƏSRƏT!
VÜSAL - yaşıl işıq, ulduz tək uzaq,
HİCRAN qaya salıb yol bağlayır bax!
ŞÖHRƏT diş qıcayır,
XİFFƏT söz yayır,
NİFRƏT - əldə qılınc, kəsib doğrayır!

*

Gedirəm...nə deyim?...yolum da yarı...
Budur EHTİYAT da yandırır SARI!
Gedirəm, qəlbimdə, di gəl, qorxu var,
Qorxuram hardasa dayandıralar.

*9 mart, 1969-cu il. Bakı.*

## Peşmanam

Qəlbinə toxundum, uğursuz kimi,
İncik baxışların gözümə batdı.
Qopdun sən ömrümdən bir ulduz kimi,
Gedişin bir dünya yoxluq yaratdı.
*
Sən getdin, o gündən peşimanam mən,
Son görüş gözünü çəkmir gözümdən.
Sən getdin, od getdi, kül mənə qaldı,
Haçadil sükutun könlümü çaldı.
*
Xəcalət qəlbimi, küt bıçaq kimi
didir sən gedəndən, üzə bilməyir.
Elə incidirsən, kür uşaq kimi,
ürək də nazına dözə bilməyir.
*
İçimə elə bir kölgə düşüb ki,
güləndə ürəkdən gülə bilmirəm.
Qəlbimə elə bir ləkə düşüb ki,
heç bir etirafla silə bilmirəm.
*
Daha yanmayıram öz odumda mən,
Məni yandıran da, yaxan da sənsən.
Çaxnaşan fikrimin burulğanında
çırpınan da sənsən, axan da sənsən.
*
Getmisən, gəlişin qorxudur məni,
Baxışın, gülüşün qorxudur məni.
Bilirəm, o gözlər yenə təmiz, tər,
qaynayan, çağlayan büllur bulaqdı.
Bilirəm, doğrusu, qorxuram. Əgər
ona əksim düşsə, bulanacaqdır.

*14 mart, 1969-cu il. Bakı.*

## Azəriyəm mən

Günəş - ilk amalım, ülvi xəyalım,
Qəlbimin alışmaq, yanmaq həvəsi,
Ulu keçmişimin ümid şöləsi!

Canımda, qanımda yaşayıbdı o,
Qəmimi oduyla daşıyıbdı o!
O nur saflığının vurğunuyam mən,
Azərəm - atəşin çılğınıyam mən!
Günəş məhəbbətim, Günəş həsrətim,
könlümdə min rəngli od qalayıbdı!
Eşqimi alovla cilalayıbdı!
Oda vurulmuşam - Azər olmuşam!
Bu yolda əziyyət, bu yolda zillət...
Zülmətin başına qılınc çalmışam,
Şərin yuvasına talan salmışam!
Yox,yox! Öyünmürəm bu zəfərimlə!
Dünyanı titrədən bu hünərimlə
bəzən büdrəmişəm, təpələnmişəm,
dağlara, daşlara səpələnmişəm!
Vaxt olub, atəşim yandırıb yeri,
Özüm öz odumda isinməmişəm.
Vaxt olub, mat qoyub dilim dilləri,
Varlığım dağlanıb, mən dinməmişəm!
Yağı gətirdiyi murdar əməllər
saplanıb köksümə bir xəncər kimi,
yeriyib beynimə əqrəblər kimi,
hörümçək toruna salıb hissimi,
içimdə qırıbdı məğrur səsimi;
Üfunət üfürüb boğazıma yad,
İnilti qatıbdı avazıma yad!
Fəqət ölməmişəm, boğulmamışam,
Özgə qapısında qul olmamışam!
Misri qılınclarda od tapmışam mən!
Koroğlu, Qoroğlu, yurdun Zor oğlu!...
Xaqanlar üstünə at çapmışam mən!
Nəğməli dillərin əzbəriyəm mən!
Dili nur, qəlbi nur Azəriyəm mən!

*17 aprel, 1969-cu il. Bakı.*

## Adam ol!

Nə deyim mən sənə, nə deyim, ay dost!
Heç yerə sığmayır gileyim, ay dost!
Qəribə bir söhbət, pozuq bir ülfət...
Məsləhət kinayə səsi verərmiş!
Çılpaq bir həqiqət, təmiz bir niyyət,
Riya görünərmiş, don geyinərmiş!

*

Ruhumuz bir simə köklüydü bir vaxt,
Əqidə tay-tuşu, məslək tay-tuşu!
Bir zaman izimiz bir idi...Ancaq
indi başqa-başqa yollar tutmuşuq.

*

İtmək asan şeydi, nə var itməyə!
Üyünüb, ələnib tapılmaq çətin!
Yad bir düşüncəyə, yad əqidəyə,
qaraya ağ kimi, yad yamaq kimi,
qondarılmaq çətin, yapılmaq çətin!

*

Düzün düz dostu var, əyrinin əyri,
Yağ suya qarışmaz min il də qalsa!
Əsrlər yorsa da ürək, nə xeyri -
düşüncə çürüsə, fikir qocalsa!

*

Dedim:- yad qoltuğu boğacaq səni,
Minnət çirkabına bulanma, yazıq!
Aldanma, alçaltma ləyaqətini,
Haqqını özgədən dilənmə, yazıq!

*

Əyilmə ad üçün, əyən olsa, sın!
Çünki, küt qılınca gərək deyil qın!
Çalış, öz işığın, öz odun olsun!
Dünyanı boş-bekar dolanma, yazıq!

*

Quyruq ad aldımı "nəcib" işindən?
Ördək nə qazandı qaz yerişindən?
Demirəm, əl götür hər vərdişindən,
Deyirəm, adam ol, sülənmə, yazıq!

*13 may, 1969-cu il. Bakı.*

## Təbiət və biz

Bir yarpaq tərpəndi -
bir nəğmə dindi,
Həzin meh oynadı körpə budaqla.
Mirvari şeh düşdü -
min rəng öpüşdü
bir ləçək üstündə, titrək dodaqla.
Özümüz kimiydi!
Vüsal dəmiydi!

*

Bulud yırğalandı -
gül sırğalandı.
Bulağın ahına lilpar göynədi.
Dalğa əl uzatdı,
sahilə çatdı,
yorulub başını daşa söykədi.
Arzumuz kimiydi!
Nə aləm idi!

*

Üfüqlər qaraldı -
xəyala daldı.
Ulduz pərən-pərən, xatirələr tək.
Ay görüş yerinə
can atdı yenə.
Fəqət...geri döndü, diyirlənərək.
Ömrümüz kimiydi!
Zilin bəmiydi!

*14 may, 1969-il. Bakı.*

## Vətən səsi

*C. Cabbarlı - 70*

"Cəfər!"
Bu səs kimin səsi?
Hansı qəlbin od təşnəsi?
Hansı dodaq səyriməsi?
Deyin, bu səs nəyin səsi?
Torpağınmı pıçıltısı?
Yarpağınmı xışıltısı?

Xan Arazın gileyimi?
Dəli Kürün diləyimi?
Ya Xəzərin nəğməsimi?...
Hər kiminsə, hər nəyinsə,
O, doğmalıq nəğməsidir!
Ana yurdun öz səsidir!

*

Vətən səsi,
El nəfəsi.
Onu bu səs silkələdi,
Ona bu səs "yarat!"-dedi.

*

Vətən səsi -
"Yaş içində gülənlərin",
nahaqqı haqq bilənlərin,
kül bənizli, qor dodaqlı,
əli bağlı, qolu bağlı
milyonların iniltisi,
qandalların cingiltisi -
yuxusuna qor ələdi,
Onu bu səs silkələdi!

*

Vətən səsi -
Məscidlərin, minbərlərin
iniltili əzan səsi;
həqiqəti uydurmalar
pəncəsində əzən səsi;
yerə qadir, göyə qadir,
adından çox şeyə qadir
"Bir Allahın" varlığına
Elxanların üsyan səsi,
şübhə dolu qəh-qəhəsi -
yuxusuna qor ələdi,
Onu bu səs silkələdi!

*

Vətən səsi -
üfunətin,
bəd niyyətin,
qan çanaqlı həqarətin
hələ dil-dil ötən səsi;

Oqtayların ayağında
yerlə yeksan şəxsiyyətin
dizin-dizin sürünməsi;
İnsanlığın pərdələnən
çöhrəsi də;
həm zilinə, həm bəminə
dərd ələnən nağməsi də -
yuxusuna qor elədi,
Onu bu səs silkələdi!

*

Vətən səsi!
Ona bu səs "oyan!"-dedi.
"Qartal kimi zirvələrdə
dayan!"-dedi.
Millətinin qanadıyla
ucaldı o!
Od nəfəsli bu torpaqdan
güc aldı o!

*

Vətən səsi
sənətkarın rübabının
səsidirsə,
O, bu səsdə yaşayacaq!
Vətən səsi!
Bu səs varsa,
tarixlərdən-tarixlərə
Cəfərimin imzasını daşıyacaq!
Vətən səsi...

*21 may, 1969-cu il, Bakı.*

## Yanığıyam

Ana yurdum, Kosalarım!
Sevgi barım, könül varım,
Gəl, bağrıma basım səni!
Gəl, eşqimlə, al qanımla
sinəm üstə yazım səni;
Gəl, bağrıma basım səni.
Məhəbbətim,
saf niyyətim,

ülviyyətim,
heysiyyətim...
Nələrim var qucağında!
Xumar gözlü axşamlarım,
xəyal atlı,
nur qanadlı
səhərim var qucağında.
Əziz, doğma nəfəslərin yanığıyam.
Min çalarlı,
su axarlı bu səslərin yanığıyam.

*

Xatirəmin
əlvan rəngli,
eşq ahəngli
varaqları bu yerlərin töhfəsidi.
Könül səsim,
od həvəsim
bu torpağın öz səsidi,
bu torpağın nəfəsidi.
Hər cığırın sinəsinə
muncuq kimi düzdüyüm iz,
hər ağacın kölgəsinə
tapşırdığım bu duyğu, hiss
bu yerlərin töhfəsidi,
bu torpağın öz səsidi.
Çəmənlərin çələnginin yanığıyam,
Çiçəklərin qəşənginin yanığıyam!

*

Mürgü vuran təpələrin
bəzən qızmar, bəzən sərin
sinəsində boy atmışam.
Qara burun, Taya yeri...
Adlı-adsız gədiklərin,
hər enişin, hər yoxuşun
öz yerini, yatağını
xəyalımda yaşatmışam.
Gah nazlanan,
avazlanan,
gah hayqıran Xrama mən
ürəyimi boşaltmışam.
Göy Qayanın havasının yanığıyam,

Quyubulağın şəfasının yanığıyam!
*
Dümağ telli o dağların,
allı-güllü yaylaqların
sinəsində izim qalıb.
Novçalının, Əyriqarın,
diş göynədən bulaqların,
gurultulu,
xırıltılı
dağ çayının,
ağ köynəkli duman-çiskin alayının
qulağına deyilməmiş sözüm qalıb.
Göy talanın, göy meşənin,
boynu bükük bənövşənin
zərif, şehli çöhrəsində
odum qalıb, közüm qalıb.
Qara xallı al lalənin yanığıyam,
Qalmağallı şəlalənin yanığıyam!
*
Doğma kəndim, Kosalarım!
Candan əziz vəfadarım,
Gəl, bağrıma basım səni!
Min arzuyla, min diləklə,
təşnən olan bir ürəklə
sinəm üstə yazım səni!
Gəl, bağrıma basım səni.
Sənli ötən günlərimin yanığıyam,
Əldən gedən günlərimin yanığıyam.
*23 may, 1969-cu il. Bakı.*

### Gözlə

Gedirəm, Gözəlim, gəl yoluma çıx!
Şəhla gözlərinlə yola sal, gözlə!
Həsrət çən çiləsə cığıra, izə,
Çiskindən, dumandan xəbər al, gözlə!
*
Bahar havasını, bu doğma yerin,
çaldım barmağıyla sərin mehlərin.
Yuyanda gözünü şeh çiçəklərin
əhdimi, andımı yada sal, gözlə!

*

Vüsal fırçasıyla rəngləndi könlüm,
Vəfa pərdəsinə köklәndi könlüm.
Demə: - "Gedişinlə təkləndi könlüm",
Qəlbim səninkidir, buyur al, gözlə!

*may, 1969-cu il. Kosalar*.

## Qoşalaşmaq istəyirəm

Pərvazlanır quş həvəsim,
Dağlar aşmaq istəyirəm.
Tanrıma tutub üzümü
Könül açmaq istəyirəm.

*

Əlim ümid ətəyində,
Fikrim arzu yedəyində.
Ömrün büllur qədəhindən
aşıb-daşmaq istəyirəm.

*

Uçur xəyal zər qanadla,
Ülfətim var xəyalatla.
Vətən-deyib, Kainatla
qucaqlaşmaq istəyirəm.

*

İnamıma qul kimiyəm,
Tamahımın hakimiyəm.
Bir rübabın tək simiyəm
Qoşalaşmaq istəyirəm.

*17 iyun, 1969-cu il. Bakı.*

## Neyləsin?

*Məmmədalı əmimə*

Məsləhət istərəm mehriban əmi,
Yaddan dost köməyi uman neyləsin?
Mənzil ayağında, fikir köhləni,
əgər mürgüləsə, azan neyləsin?

*

Şehli yuxusuna zülmət gecənin
xoş bir avaz qatır sular da çin-çin...

Yaddaşı kəsmirsə yol azan kəsin,
çalpaşıq izlərdə güman neyləsin?
*
Qonur çiynimizə çən yavaş-yavaş,
Yenə gileylənir sürücü qardaş.
Yadına gəlmirsə bu torpaq, bu daş,
Çən-çiskin neyləsin, duman neyləsin?
*
Çalır laylamızı dağların mehi,
Yuyur fikrimizi səhərin şehi.
Dünən günortadan alıbdır behi,
həm suyu, həm yağı daman, neyləsin?
*
İsayam, nə deyim, söylə, bu hala?
Heç kəsi qalmasın köçündən dala!
Büzüşüb, söykənib farmaş-çuvala,
gözünü çar-naçar yuman neyləsin?
*9 iyul, 1969-cu il. Qarabulaq.*

**Ay Sona bulağı!**

Yenə səni gördüm, atlandı könlüm,
Vüsal atəşiylə odlandı könlüm.
Sənsiz günlərimi yad sandı könlüm,
Ay Sona bulağı, Sona bulağı!
*
Xəyalım bu dağdan, o dağa qondu,
Nəğməm, öpüş kimi, dodağa qondu.
İlhamım al-əlvan çəmənə döndü,
Ay Sona bulağı, Sona bulağı!
*
Doğmalıq qoynunda isindi canım,
Endi başım üstə sevda dumanım.
Bircə sənə qaldı yenə gümanım
Ay Sona bulağı, Sona bulağı!
*
Xatirat nəğməmi çaldı sazında,
Hər misram dil açdı xoş avazında.
Oxu bu nəğməmi el havasında
Ay Sona bulağı, Sona bulağı!
*18 iyul, 1969-cu il. Yaylaq.*

## Kişilik

Kişilik köklənmiş şux tara bənzər,
Dövran mizrab olub dindirər onu.
Hər sim bu nəğməni bir xalla bəzər,
Zaman ucaldar, gah endirər onu.

*

Bir simi - cəsarət,
bir simi - hörmət.
Bu səsin ən incə xalıdır mərdlik.
İnilti qatammaz bu səsə həsrət,
Bu nəğmə əlində qəm çilik-çilik!

*

Bir simi - etibar,
bir simi - vüqar.
Bu səs göydən gələn erkək səsidi!
Kişilik sözündə minbir məna var,
Ata - kişiliyin bünövrəsidi!

*

Bir simi - məhəbbət,
bir simi - nifrət.
Biri bəmidirsə, biri zilidi.
Etiraf -
yaşar saf!
Fəqət
Həqarət
Kişilik sözünün son mənzilidir.

*19 iyul, 1969-cu il. Yaylaq.*

## Ay meşə

Dağ yamacı, külək həzin...
Nə gözəlsən, ah, ay meşə!
Ciyərimdə buz nəfəsin -
can yarıdı - oxqay! Meşə!

*

Səhər mehi dinə-dinə
sığal çəkir tellərinə.
Sinən üstə gül yerinə
zərrin şəfəq tax, ay meşə!

*

Dərə - anan, ağdı başı,
Köçür qızı, sel - göz yaşı.
Ömür dostu, can sirdaşı
sanır səni dağ, ay meşə!

*

Olub-keçən aydın sənə!
Nə sirr verim özgəsinə!
Ayrılıram səndən yenə
Ürəyimə bax, ay meşə!

*

Həm nəğməyəm, həm istəyəm,
Min arzuda, həvəsdəyəm!
Uzaq-uzaq yol üstəyəm,
gəl, yoluma çıx, ay meşə!

*

Vaxt üyünür...əsir ürək,
Öz yağında yanır istək.
Duyğu titrək, ümid kövrək...
Dost əlini sıx, ay meşə!

*26 avqust, 1969-cu il. Ağbulaq.*

## Qınamıram-qınayıram

Həyat ki, var - bir cəngidi.
Gah şıdırğı, gah səngidi.
acı-şirin ömürlərin
min çalarlı çələngidi.
Bir az həssas, bir az hissiz
ürəklərin
xeyli sirli ahəngidi.
Bu sədada pıçıltı var,
qulaq yırtar.
Bu ahəngdə gurultu var,
sükutdan kar.
Hər nədisə, necədisə,
bircə onu bilirəm ki,
dadlıların ən dadlısı,
qəşənglərin qəşəngidi -
Həyat!-deyib yarananı qınamıram.
Ömrü-günü dar sananı qınamıram.

*

Sevinc də var, kədər-qəm də,
ikisi də bir aləmdə,
ikisi də bir görkəmdə.
Hər alovun kölgəsində
üfunətli nəm gizlənir.
Hər şənliyin çöhrəsində
ilğım-ilğım qəm gizlənir.
Ölüm ömrün öz qoynunda
boya çatır, əzizlənir.
Ömür ölüm qucağında
hər çirkabdan təmizlənir -
Sevinərkən göz yaşında
boğulanı qınamıram.
Qəm içində qəh-qəh çəkib
uğunanı qınamıram.

*

Ömür zaman yedəyində,
arzu güman yedəyində...
Bir məsləkin ətəyində
dizin-dizin sürünən var.
Bir vəzifə qədəhində
zərrin tülə bürünən var.
Ömrü boyu inamının
qanadıyla uçanlar var.
Ümid dolu gümanının
kölgəsini qucanlar var -
Xam xəyallar arxasınca
boylananı qınamıram.
Nur uğrunda zülmətlərə
quylananı qınamıram.

*

Qınamıram
özgə dərdi daşıyanı,
özü üçün yaşayanı
qınayıram.
Qınamıram
qürbətdə qan ağlayanı.
Qürbətdə can saxlayanı
qınayıram.
Qınamıram

dirigözlü şəhidləri.
Dirigözlü meyitləri
qınayıram.
Qınamasın ellər məni,
Mən öləni qınamıram.
Mən
xəyanət becərəni,
çayır kimi cücərəni,
əqidəcə əlilləri,
harınlaşan səfilləri,
vara həris zəliləri,
bığıburma zəlilləri
qınayıram.
Mən qalanı qınamıram.
Mən, talanı qınayıram!

*20 sentyabr, 1969-cu il. Bakı.*

## Səni düşünürəm

*T. Rəhim üçün*

Səni düşünürəm, səndən xəbərsiz,
Əyilib xəyalım yaddaş üstünə.
Fikrim sənsizliyin tutub əlindən,
uçur bir naməlum, yad qaş üstünə.

*

Ruhumu əzmədə, sənsiz, hər nə var,
Əridir ömrümü küsgün duyğular.
Vüsal həsrətiylə ayrılmışam, yar!
Ətəyim sürüşüb atəş üstünə!

*

Taleyim uğursuz - gözündən qara,
Rüzgarmı günahkar? Nə söz rüzgara?
Azdı məhəbbətim, bilmirəm hara,
Od yağdı dumanlı bu baş üstünə.

*oktyabr, 1969-cu il. Bakı.*

## Kül başına, niyə sağsan?!

Sən ki, sevmək bacarmırsan,
Kül başına, niyə sağsan?!
Daş ürəyi neyləsin can?
Kül başına, niyə sağsan?!
*
Bir sevdaya can vermədin,
Vüsala yön çevirmədin.
Gen dünyada gün görmədin,
Kül başına, niyə sağsan?!
*
Qəlbin soyuq, sal buz kimi,
Ruha yadsan, duzsuz kimi.
İşartın var, ulduz kimi,
Kül başına, niyə sağsan?!
*
Hansı hissi doğma sandın?
Heç oldumu əhdin-andın?
Sevgi-dedim, qıdıqlandın,
Kül başına, niyə sağsan?!
*
Gedən-getdi, alan-aldı,
Hər tərəfdə çalhaçaldı!
Sonulamaq sənə qaldı?...
Kül başına, niyə sağsan?!

*noyabr, 1969-cu il. Bakı.*

## İlk görüşə gedəsiyəm

Alış-yan, ay ürək!
Yana dur, səbrim!
Sən də, lal həyəcan, üzül dilimdən!
Çəkil gözlərimdən həsrətim, dərdim!
İlk görüş sınaqdı, bircə anla sən!
Gedəsiyəm mən!
*
Tutma ətəyimdən giley-güzarım!
Xəcalət, alnımı bəzəmə dən-dən!
Utanma, üz göstər, ay etibarım!

Axı söz vermişəm, özün bilirsən!
Gedəsiyəm mən!

*

A könül sirdaşım, nəğməli bulaq!
Gözünü yoluma bu gün dikmə sən.
Qayna əzəlki tək, axdığın tək ax!
Sevgi əsiriyəm daha bu gündən,
Gedəsiyəm mən!

*

Çoxdan vurğununam, gizli deyil bu!
Oxşaya bilməsəm bu gün səni mən,
İncimə! Bir işim düşüb, doğrusu...
Bir dəstə gül bağla aparım, Çəmən!
Gedəsiyəm mən!

*10 dekabr, 1969-cu il. Bakı.*

**Elə uç...**

Ay dilsiz arzumun dili-dilmacı!
Yüz xallı nəğməmdən yaratdım səni!
Məsum bir körpəydin, layla möhtacı,
Röyalı dünyandan qopartdım səni.

*

Cəhd edib oturdun, iməklədin sən,
Dikəldin, fikrimi ətəklədin sən.
Kövrək qədəminə can qurban dedim.
Al-əlvan don biçim duyğumdan-dedim.

*

Odlu istəyimin, vulkan eşqimin,
isinə-isinə hənirtisinə
əngin səmalara uçmaq istədin.
Uç!-dedim, səs verdim mən də səsinə.

*

Uç! Fəqət elə uç, üzağlığınla,
Xəcalət xar olsun, şübhə silinsin!
Uç! Fəqət elə uç, ucalığınla
qıy vurub uçduğun zirvə bilinsin!

*11 yanvar, 1970-ci il. Bakı.*

## Öpüş

"Öpüş yanığısan"-deyib qınama,
Gülüm, "havam-suyum", düzü, öpüşdü.
Sevgimin vüsala doğru uzanan
cığırı öpüşdü, izi öpüşdü.
*
Ayrılıq oduna çox yanıb canım,
Dözməyə qalıbdı bircə gümanım.
Aylar həsrətiyəm... bir də... nə danım,
eşqimin astarı, üzü öpüşdü.
*
Bir ildə bir dəfə bir görüş üçün
yüz dərə-dağ keçib gəlirəm, düşün.
Məhəbbət süfrəsi olan görüşün
kababı naz-qəmzə, duzu öpüşdü.
*
Umu yoxsa əgər, bil, küsü olmaz,
Odu olmayanın tüstüsü olmaz.
Öpüşsüz görüşün istisi olmaz,
Vallah, gül dodağın közü öpüşdü.
*
Əyilsən, dünyada bir eşqə əyil,
Vəfa olan yerdə öpüş ar deyil.
Öpüşlü anların qiymətini bil,
Bil ki, səadətin özü öpüşdü.

*8 mart, 1970-ci il. Bakı.*

## Urvasız kündə

De, niyə baş qoydun yatağa yenə?
Cisminə, ruhuna dərd ələndimi?
Möhtərəm həkimin verdiyi sənə
ümidlər, inamlar pərdələndimi?
*
Görmüşük, sevdalı ürəklər müdam,
Elə çağlayar ki, dərd-azar çaşar.
Kiçilər önündə ölüm qorxudan,
Baş əyər inama şübhə çar-naçar.

*

Görmüşük nakamın sinə dağını,
Aşiqi yaşadan o dağlar olub.
Hiylə niqabını, şər duvağını
yaradıb, yayanlar qorxaqlar olub.

*

Cəfaya dözməsən, sürməzsən səfa,
Sel gətirən şeyi, sel aparacaq!
Əl açar mürvətə, baxar insafa,
Taleyə, qismətə güvənən ancaq.

*

Mən sənə nə deyim, nə diləyim ki,
sovuşsun canından bu dərd, bu azar?
Of, səndən o qədər gileyliyəm ki!...
Üstümə qəm töküb sənsiz, intizar.

*

İncimə, neyləyim, gələ bilmirəm,
Alovsuz alışıb, yanmaq çətindi!
Qəmlənə bilmirəm, gülə bilmirəm,
Haqqı, ədaləti danmaq çətindi.

*

Günahkar mənəmmi? Zamana bir bax!
Mənmi gecikmişəm, sənmi? Nə bilim?
Qarşımda çağlayır ayna bir bulaq,
İçməyə haqqım yox, yansa da dilim.

*

Günah səndə deyil. Günahkarısa
hələ tapmamışam. Xəyal didərgin...
Eh, düzü arzudan ürək yarısa,
kim axı dünyadan nakam gedər ki!?

*

Günah məndədirmi? Gözlərin gərək
elə canalıcı zillənməyəydi.
Səndə nə günah var? Sözlərim gərək
elə həzin-həzin dillənməyəydi.

*

Günah məndə deyil, deyəm: "bağışla,
işimdə, sözümdə qəbahət olub".
Səndə nə günah var? Bir od baxışla
yanana həmişə söz qəhət olub.

*

Günah nə məndədi, nə də ki, səndə,
Odla oda həris bir yerə düşüb.
Günah bizdə deyil, urvasız kündə
xəbərsiz-ətərsiz təndirə düşüb.

*22 aprel, 1971-cı il. Bakı.*

## Lap arxayın ol!

Qəm yemə gözəl yar,
əyilməz ilqar,
Əl üzməz ürəkdən tab, arxayın ol!
Dilim bişə-bişə
gözlə demişəm,
Kişiyəm, zatım var.
Lap arxayın ol!

*

Gözlərin yollarda,
qulağın darda,
Uğursuz təlaşdan qop, arxayın ol!
Özüm bilə-bilə
özümü dilə
salmaram bu yerdə.
Lap arxayın ol!

*

Tutma ətəyindən
hər gileyin sən,
İlqarın gözündən öp, arxayın ol!
Həsrət tikan olsa,
sinəmə dolsa,
"Uf" çıxmaz dilimdən.
Lap arxayın ol!

*

Əl açma hicrana,
sən yana-yana,
Qəlbində bir inam tap, arxayın ol!
Çulğasa fikrini
şübhə, çən kimi,
Dönərəm borana.
Lap arxayın ol!

*21 may, 1971-ci il. Bakı.*

## Əmi

Tutub əllərimdən fikrim, məsləkim,
Gedirəm, yolumda mayaksan, Əmi!
Yolum - zirvə yolu - getdiyin təki,
Titrəsəm, büdrəsəm, dayaqsan, Əmi!
*
Sıldırım qayada yuva qurmağı
Sən öyrətdin mənə: Qartalsan axı!
Sevmədim kölgəndə mürgü vurmağı,
Başımın üstündə bayraqsan, Əmi!
*
Varlığın mizrabsa, arzum da simdi,
Toxunsan dinəcək - əsim-əsimdi!
İtməz yaxşılığın, bu da bəsimdi,
Yuxulu anımda oyaqsan, Əmi!
*
AZƏRdi qəlbiyin odu, atəşi,
SAMİRdi arzuyun zərgər-nəqqaşı.
SEVİNCdi ömrüyün firuzə qaşı,
Bir Gülə havadar Yarpaqsan, Əmi!
*
Vicdanı arzuna hakim sanmısan,
Ulu bir inamla cilalanmısan.
Gündüz alışmısan, gecə yanmısan -
Bədirxan! Bu adla çıraqsan, Əmi!

*15 iyun, 1971-ci il. Bakı.*

## El adəti poladdandı

Ay eloğlu, irad tutsam,
küsmə, neynim, can odlandı.
Göz yaşına göz neyləsin?
Hər nə yağsa, buluddandı.
*
Ana torpaq canımızdı,
Bu dil şərəf-şanımızdı.
Doğma dedim, qanım qızdı,
Vətən dedim, qəlb atlandı.
*

Sabah - deyib uçsaq, yenə
xor baxmayaq gəl, dünənə!
Əyilmədik hər yetənə,
Vüqarımız palıddandı.
*
Ata yurdu səni sıxsa,
yad gülməzmi, gülüş haqsa...
Lap otbitməz səhralıqsa,
Doğmadısa, gülüstandı!
*
Sazdan ayrı tel nə deyər?
Ürək sussa, dil nə deyər?
Eli dansaq, el nə deyər?
Hansı kişi eli dandı?
*
Çox güvənib sağ əlinə,
solu atma, ağ eləmə!
Kəndçi - deyib, lağ eləmə!
Doğma eldən-elatdandı!
*
Çıxma qından, bəyənməzsən,
Gülərlər, sus!-deyəmməzsən.
Sınar, ancaq əyəmməzsən,
El adəti poladdandı!
*18 oktyabr, 1971-ci il. Bakı.*

**Dayanmaz**

Salam götür, hal-əhval tut, Bığlı Kamal, eloğlu,
Dalğa qovur, yelkənimiz sel ağzında dayanmaz.
Təşrif buyur bu məclisə, söz de, söz al, eloğlu,
Şal yanına qumaş çıxart, yoxsa cında dayanmaz.
*
Haqqa vurğunsan bilirəm, haqq yolunda gün aydın,
Haqq igidə qüvvət verər, darda qoymaz, bu aydın,
Arzum budur, xislətinlə haqqa heykəl olaydın,
Coşan ilham meydan istər, qəfəs canda dayanmaz.
*
Ər belindən gələn oğul, ər böyüyər, ər olar,
Mayasına haram düşən müxənnət, bicvər olar.

Özünə tay dost tapmayan tezi-geci xar olar,
Mərdə arxa, bil, namərdin yox zatında, dayanmaz.

*

Balta öc olmaz odunla, sapı odun olmasa,
Qardaş öc olmaz bacıyla, zatı qadın olmasa.
Mərd igidə yaxın durma, əsil-zatın olmasa,
Namus-qeyrət meydanında qılınc qında dayanmaz.

*

Xoşrəftar ol mərdə, fəqət üz göstərmə yaltağa,
Qərarında möhkəm dayan, fürsət vermə yaltağa.
Təşnə kimi sarılsa da şehli yamac-yal, dağa,
Dağ ərisə qəm-qüssədən, yal yanında dayanmaz.

*

Dosta inan, tənha gəzmə, tək aslan da basılar,
Mən nə deyim daha sənə, arifə söz bəs olar.
Sirr qarında, daş dərində qalsa görünməz olar,
Sirr vermə hər cür gədaya, söz ağzında dayanmaz.

*

Yarıcanam, əzəl gündən budur arzum, muradım,
Uçsam əngin fəzalara, dostlar qolum, qanadım.
Çoxlarını bərkə-boşa salıb, təkrar sınadım,
Canbir dosta canım qurban, darda gendə dayanmaz.

*oktyabr, 1971-ci il. Bakı.*

## Tək əlli məhəbbətim

Yenə qəm çiləndi, yenə çən endi
o şəhla gözlərin üfüqlərinə.
Yenə giley dindi, dərd təzələndi,
yenə qor ələndi görüş yerinə.

*

Dümağ yelkən kimi, sənsizliyimi
bu görüş çiynınə taxdım da, uçdum.
Görüşdük, səni yox, duman-çən kimi
nəmli baxışını oxşadım, qucdum.

*

Nədir varlığını titrədən, nədir?
Səninçün səyriyən son ulduzmuyam?
De, niyə gəlişim səni göynədir?
Özümə od ikən, sənə buzmuyam?

*
Bu görüş yerini, vədəni özün
seçmədinmi, daha buna nə sözün?
Eh, düzü əzəli qəfil görüşdən
başlayan çox eşqi belə görmüşəm.
*
Mütidir hörmətin, məzlumdur kinin,
Yazıqsan...Yazıq da deyə bilmirəm.
Sən bir dərdə bax ki, qəlbimdəkinin
qəlbindən keçəni duya bilmirəm.
*
Bilmirəm nə sirdir, ruhunu didir,
Bu məchul aləmin qıfılı min-min.
Elə bilirəm ki, qopan yeridir,
hər görüş, tək əlli məhəbbətimin.
*
Nə qıya bilirəm o şux gözlərə,
Ürəyim dərdinlə dağ-dağ olubdu.
Nə doya bilirəm, dönəm bir kərə,
Varlığım eşqinə dustaq olubdu.
*29 noyabr, 1971-ci il. Bakı.*

## Oldu

Səmimi görüşdük, güldük, danışdıq,
Əzəl qismətimiz səadət oldu.
Zarafat elədik, küsdük, barışdıq,
Təmiz ülfətimiz qəbahət oldu.
*
Baxdım gözlərinə, alındı könlüm,
Bir od qaynarına salındı könlüm.
Yağı baxışınla talandı könlüm,
Bu sevda başıma qiyamət oldu.
*
Dəlixay duyğular azdırdı məni,
Buluda tay tutdum, yerdə kölgəni.
Özgə dənizində yad bir yelkəni
xumarlanan gördüm, fəlakət oldu.
*
Bir durna qatardan üzüldü, qaldı,
Günahım sinəmə yazıldı, qaldı...

O gündən qəlbimdə sızıltı qaldı,
İstəyim eşqimə xəyanət oldu.
*
Öldürün, ömrümə sığa bilmədim,
Şöhrət cilovunu yığa bilmədim.
Mühəndis, müəllim, şairəm - dedim,
İmzam, təxəllüsüm Xəcalət oldu.
*6 fevral, 1972-ci il. Bakı.*

## Ölmərəm

Mən bir bulaq olub, büllur suyumu
O dümağ sinəndən alsam, ölmərəm.
Kükrəyən qan olub, mən öz yolumu
sənin ürəyindən salsam, ölmərəm.
*
Qonsam yanağına qoşa xal kimi,
Süzülsəm dilindən beçə-bal kimi,
Səadət müjdəsi - ilk vüsal kimi,
həsrəti qəlbindən silsəm, ölmərəm.
*
Şübhə yelə dönsə, başımda əssə,
Sovurub aparsa o, hissə-hissə;
Müxənnət ayrılıq yolumu kəssə,
Eşqimin uğrunda solsam, ölmərəm.
*
Ürək istəyindən soyusa əgər,
əhdin qamətini xəyanət əyər.
Sevda köhlənimə haqq olsa yəhər,
Min il tilsimdə də qalsam, ölmərəm.
*
Şimşəklər yolumda qılınc oynatsa,
İldırım səsindən qulağım batsa;
Sevdiyim ürəkdə murada çatsam,
Can versəm, ölmərəm, ölsəm, ölmərəm.
*fevral, 1972-ci il. Bakı.*

## Bayramın mübarək, Ana!

Yaz gəlir, gül taxır Yurd sinəsinə!
Bu güllü bayramın mübarək, Ana!
Nə deyim, nə dilək diləyim sənə,
yaraşsın hüsnünə ağbirçək Ana!
*
Gözümdə nurun var, nəğməmdə laylan,
hər ana deyəndə can demisən, can.
Dilimə dad verən dilinə qurban!
Can deyə bilirəm sənin tək, Ana!
*
"Day dur, dayın gəlsin"-dedin, dikəldim,
"Böyü, toyun gəlsin", budur, yekəldim!
"Nəvə payım gəlsin", mən özüm gəldim,
Darıxma, payın da gələcək, Ana!
*
Gəlişim gurultu, gedişim sükut,
Sürünür arxamca bir baxış bulud...
Qüssəni yelə ver, kədəri unut,
Nə ağrı-acı gör, nə qəm çək, Ana!
*
Qoy enim səcdənə, and içim sənə,
öpüm birçəyindən mən dönə-dönə.
Sən verdin bu səsi, ilhamı mənə,
Hədiyyən ömrümə bər-bəzək, Ana!

*8 mart, 1972-ci il. Bakı*

## Qovuşsaq...

Sanma ilham gəldi, alışdım yazdım,
Yox, namərd ürəkdən gileyimdi bu.
Yüz yol talansaydım, heç danışmazdım,
Odu oğurlanan ürəyimdi bu!
*
De, necə dinməyim? Ağıl müzəffər,
ürəksə uduzub, xəcil olubdu.
Sinəmdə yanğıdan qalmayıb əsər,
alov yoxa çıxıb, köz kül olubdu.
*

Söz-sözə yapışmır, qələm didərgin...
Yanar vulkan ikən buza dönmüşəm.
Sükut - çiynimdə yük, bədənim gərgin...
havadan nəm çəkən duza dönmüşəm.
*
Fəqət qorxmayıram, demə: -dərd əyər.
Sən varsan, varlığın ovudar məni.
Bir ondan qorxuram, qovuşsaq əgər,
buz bağlayan könlüm soyudar səni.
*13 avqust, 1972-ci il. Bakı.*

## Az qalıb

Təşnə könül, toxta bir az, döz bir az,
Yetişməyə nazlı yara, az qalıb.
İridaşa, yurdumuza çatmışıq,
Novçalıya, Əyriqara az qalıb.
*
Min əzab çəksək də Çınqıl-Çataqda,
Gəl, giley etməyək dağa bu haqda.
Çıxaq əvəzini Sona bulaqda -
Ət sulanır, "xatakar"a az qalıb.
*
Səhənguçan, haça Sarxan, Şamdüyə,
Kəmənd atır şimşəklərlə Şindiyə.
Axşam düşür, gün enir ilkindiyə,
İlmə düşər buludlara, az qalıb.
*
Vur öldür! Dincəlmir, dincdurmaz dilim,
Bu yerdə nəğməsiz necə dincəlim?
Dönəcəkmi bir də yönüm, nə bilim?
Allı-güllü bu dağlara, az qalıb.
*23 avqust, 1972-ci il. Yaylaq.*

## Vüsal

Muştuluq istərəm, havalı könlüm!
Bir "hə"-de, gör necə kəlamdı, vüsal!
Tanrının nuruyla, eşqin əliylə
ömür tək ömrümə calandı vüsal.

*

Mən onu istədim arandan, dağdan,
Soruşdum hüsnünü büllur bulaqdan;
Bir payız günündə, bir ağ otaqdan
intizar dünyama boylandı Vüsal.

*

İsayam, əhdimə buta elədi,
Yıxdı subaylığı, xata elədi.
Əmiydim, dayıydım, ata elədi,
Canımdı, qanımdı, balamdı, Vüsal.

*4 dekabr, 1973-cü il. Bakı.*

## Çox sağ ol, Oğlum!

Sən gəldin, gəlişinlə
bir cüt nənə-baba artdı dünyada.
"İnqə"-dedin, "qığğa"-dedin,
gecələr uzandı.
Narahat yatdı Dünya da!

*

Sən gəldin, gəlişinlə
bir damcı arzumuz bir ümman oldu.
Güldün, bu gülüşünlə
ömrümüz çiçək açdı, bar verdi,
İnsan olduq!
Çox sağ ol, Oğlum!

*6 yanvar, 1974-cü il. Bakı.*

## Bu Vüsal

Bir dünyadı körpənin hər gülüşü!
Hər "inqə"yə hopub neçə sir-sual!
Şad ol, könül! Qismətimə gün düşüb -
sevincimin ünvanıdı bu Vüsal;
Eşqimin zər nişanıdı bu Vüsal!

*

Gələn gündən hədd qoyulub çox şeyə:
Bəzənməyə-düzənməyə, gəzməyə.
Yaranıbdı həsrətimi üzməyə -

əhdimin nur ümmanıdı bu Vüsal!
Eşqimin zər nişanıdı bu Vüsal.

*

Gah bələnir, qundaq olur, farağat,
gah təpiyin çör-çözəyi qatbaqat.
"Qığğa" gedir, gah uğunur çataçat,
Canımın cövhər-canıdı bu Vüsal!
Eşqimin zər nişanıdı bu Vüsal!

*

Bir də görürsən ki, baxır mat sənə,
Dodaq büzür, yanğın salır köksünə.
Sanma ki, bu gileyimdi, əksinə -
arzumun ən əlvanıdı bu Vüsal!
Eşqimin zər nişanıdı bu Vüsal!

*

Hərdən küsür, dincəlməyir, yatmayır,
Otaq - daxma, buz bağlayıb çöl-bayır.
Dil açmayıb, qandırammır, qanmayır,
Öz dilinin pünhanıdı bu Vüsal;
Eşqimin zər nişanıdı bu Vüsal.

*

Gah boylanır, gah da gözünü süzür,
Boş əmzikdən nə usanır, nə bezir.
Dayanmışıq hər əmrinə müntəzir -
evimizin Sultanıdı bu Vüsal;
Eşqimin zər nişanıdı bu Vüsal.

*

Hər çiməndə bir yeni tamaşa var:
Dəsmalı tut, köynəyi ver, cəld-çapar!...
Sözün düzü, vallah kim olsa, çaşar -
Çiməndə lap top sanıdı bu Vüsal!
Eşqimin zər nişanıdı bu Vüsal!

*

Araba cağ, doymaq bilmir "səfərdən",
Gözmuncuğu gözləsin bəd nəzərdən!
Vaxt onunla, İsa, yaman ötür şən -
Şeytanların şeytanıdı bu Vüsal!
Eşqimin zər nişanıdı bu Vüsal!

*yanvar, 1974-cü il. Bakı.*

## Qısqanma!

Təki sən incimə, qadası, mən heç...
Onsuz da həyatım eniş-yoxuşdu.
Bircə baxışından mənə görə keç,
Danışsan da xoşdu, sussan da xoşdu.

*

Enərəm gözündən könlünə sənin,
O sirli dünyada səyyah olaram.
Uğursuz təlaşın, yersiz şübhənin
bağrına qan salan cərrah olaram.

*

Qısqanma! Qısqanclıq qılıncdı, qınsız.
Üzər eşqimizi, "of"a yubannıq.
Qısqanma!  Eşq ölər, qalarıq sonsuz,
Nəyimizə gərək elə sultanlıq?

*mart, 1974-cü il. Bakı.*

## Necədir, Oğlum?

Eləmi, yaylağa aparıb Baban?
Yaz görüm, göy yaylaq necədir, Oğlum?
Yayın ortasında pambıqlı şalvar,
yun corab, yun papaq necədir, Oğlum?

*

Sən görən yerlərin hər qarışında
min xatirəm yatır, cavan yaşımdan.
Son şəfəq üzülüb, şər qarışanda
yapıncıda yatmaq necədir, Oğlum?

*

Bir çoban tütəyi mələr uzaqda,
Xəyal havalanar Sona bulaqda.
Bir qoşma doğular dildə-dodaqda...
Gözəllik yaratmaq necədir, Oğlum?

*

Elə ki, qaş-qabaq salladı Şindi,
həftə yağışından qaçmaq çətindi.
Çox şeyə bələdsən, de görüm indi,
şəhər, kənd, aran, dağ necədir, Oğlum?

*

Orda bir bulaq var, çınqıl qalaqlı,
altı buz, üstü su - sirli-soraqlı.
Novçalı, Əyriqar, külək daraqlı
uca Yemlikli Dağ necədir, Oğlum?

*

Çəmən yaxasında Gur bulağa bax!
Zirvə həvəsli ol, Şamdüyəyə qalx!
Sarxanın qaşında şimşək kimi çax!
Gör zirvədə çaxmaq necədir, Oğlum?

*avqust, 1974-cü il. Bakı.*

## Əyriqardadı

Yeri, qadan alım, ərinmə, Oğlum!
Dağların səfası Əyriqardadı!
Yeri, yaxşı geyin, Yemlikli Dağın
sərin-sərt havası Əyriqardadı.

*

Adlı kəhərləri yoxuşda yoran
Sarxanın başında at çapır boran.
Kefli buludların bağrını yaran
qartalın yuvası Əyriqardadı.

*

Dümağ bir gözəldi, yorulub, yatır,
Sarxanın boynuna sarılıb, yatır;
Eşqindən kam alıb, sərilib, yatır,
Səadət röyası Əyriqardadı!

*

Yeri, yaxasıyla şehli dərənin,
öpsün ayağını çiçəklər sənin.
Sulardan yük alan dumanın, çənin
Günəşlə davası Əyriqardadı.

*

İsayam, sevgilim Sarı Çeildi,
O ÜZə həsrətəm, gör neçə ildi!
Yeri, səni görüb kövrəlsə, bil ki,
qəlbimin sədası Əyriqardadı.

*avqust, 1974-cü il, Bakı.*

## Aldanma - İnan

Ya sıyrıl, qılınc tək, pas at ya, qında!
Uyuma tərəddüd arasında sən!
Sızlama sim kimi, mizrab altında,
İnsafsız, zamanın harasındasan?
*
Fikirsiz, xəyalsız insan - buz kimi.
Oğurluq atəşdən işıq umma gəl!
Vədəsiz şığıyan bir ulduz kimi,
Açmamış gözünü, tez də yumma gəl.
*
Nağıldı ömrümüz - naxışlı, çinli,
Əlçatmaz, ünyetməz - dərindən-dərin...
Zirvə yolçusuyuq, yoxuşlu, çənli...
Azmı hiyləsi var dar dərələrin?...
*
Kamal səbirlidi, xəyal səbirsiz,
Əzizdi ürəkçün qan da, saf su tək.
Tərk edər od-ilham bizi, xəbərsiz,
Əyilər qəddimiz qoç buynuzu tək.
*
Məhəbbət sonludu! Düz anla məni!
İlğım tək azdırar yoxsa o, bizi!
Kiri, qoşa tutma onunla məni!
O hara, mən hara? Bax da, Əzizim!
*10 fevral, 1975-ci il. Bakı.*

## Mən də mənəm

Mən bir səyyad, sən bir şikar, bəhs eyləmə mənimlə sən.
Min düyünlü kəməndim var, çəksəm dağ-dağ olar sinən.
Çox çaqqallar oxutmuşam, dərs alıbdı tülkü məndən,
Fitnə-fəsad quyusuyam, ağa qara yaxan mənəm,
Nahaqqa haqq qazandırıb, sudan quru çıxan mənəm.
*
Vəzifə bir at olsa da, daim əlim cilovdadı,
Ətrafımda məndeyənlər, hədəflərim tilovdadı.

Yumurtadan yun qırxıram, cib kəsirəm, pul bal dadır.
Var-dövlətə can sadağa, ömür qurban verən mənəm,
Bu uğurda sinov gedən, dondan-dona girən mənəm.
*
Keçir dövran, ötür zaman, tamah sonsuz, ömürsə dar...
Günüm meyxanə küncündə, sağım, solum nazlı nigar...
Nə gizlədim, bazarım gur, nəvəm yaşda məşuqəm var,
Bu dünyada hər nemətdən doyunca dad alan mənəm,
Sərxoş olub, çal vaxtımda küçələrdə qalan mənəm.
*
Sərrafıyam ağıldan kəm, cibdən taraz olanların,
Ötürürəm harın-harın, əridirəm narın-narın...
Təzə qəbul olanların, ya da kursda qalanların
atasından etibarlı qayğısına qalan mənəm,
Asta-asta, usta-usta yonan, qırxan, çalan mənəm.
*
Qız köçürdüm, cehiz verdim, zər-zibası, qaş-daşıyla,
Toy elədim, oğul toyu, nəməriylə, şabaşıyla.
Mənzil aldım hər birinə, tül pərdəsi, qumaşıyla,
Bir qarıyla üç otaqlı bir mənzildə olan mənəm,
Bu büsatdan vəcdə gəlib, çəpik, çırtıq çalan mənəm.
*
Adım alim, özüm dəllal, puldur, puldur əhdim, andım.
Kəlpeysərlər, qarnıpiylər aspirantım, dissertantım.
Mən də mənəm, bu sevdada az itirdim, çox qazandım,
Xırda-xırda, bala-bala hər əhdinə çatan mənəm,
Dilbilənlər kölgəsində mışıl-mışıl yatan mənəm.

*1975-ci il, Bakı.*

## Qızıma

Gəldin, gözə nur gəldi,
kaman qəddim düzəldi.
Gəlişin nə gözəldi,
Ay qara qaş, qara göz!
*
Arzumun zər tacısan,
Ömrümə nur saçasan!
Vüsalıma bacısan,
Ay qara qaş, qara göz!

*

Xəyal uçar, qəlb əsər...
Fikrim hər gün, hər səhər
görüşünə tələsər,
Ay qara qaş, qara göz!

*

Xalan, maman ad gəzir,
Əmin, dayın müntəzir.
Nənən, baban qoç kəsir,
Ay qara qaş, qara göz!

*

İsa burda, sən orda!
Hərəmiz bir diyarda.
Qalmışam intizarda,
Ay qara qaş, qara göz!

*12 may, 1976-cı il. Bakı.*

## Dindirmə, qadan alım.

Dindirmə, qadan alım,
Lalam, qoy lal olum mən.
Ahım səni də yaxar,
Dinsəm, qalmağalam mən,
Lalam, qoy lal olum mən.

*

Nahaq qəddar, haqq cılız,
Tapdaq olub haqqımız.
Əl uzatma haqqa, cızzz!..
Böhtan ulu, yalan mən,
Əhdi talan olan mən.

*

Mizrab döyər, sim ağlar,
Gör kim döyər, kim ağlar!
Son arzum yetim - ağlar...
Bəxtəvər bir qulam mən,
Sehirli məchulam mən.

*

Kamanam, naşı əldə,
Azadam, başım əldə,
Şalım-qumaşım əldə,

Zəngin bir yoxsulam mən,
Sehirli məchulam mən.
*
Canım şişə çəkilir,
Gönüm köşə çəkilir,
Qanım başa çəkilir,
Susmağa məcburam mən,
Sehirli məchulam mən.
*
Dindirmə, qadan alım,
Lalam, qoy lal olum mən.
Dinsəm, od tutar ahım...
Gərək tək qovrulam mən,
Lalam, qoy lal olum mən,

*5 iyun, 1976-cı il. Bakı.*

## Yan, görüm!

Şümşad boylum, şəhla gözlüm!
Ürkək-ürkək baxsan, görüm!
Şimşək olub, sinəm üstə
əyil, qıvrıl, çax, yan, görüm!
*
Vəfan varsa, vüsal da var!
Əzəli - nur, sonu - bahar!
Firqətindən can od tutar,
Atəşimə bax, yan, görüm!
*
Vermə ömrü nəfsə bada!
Üzmə haqdan əl dünyada!
Sevgimdə yad nə varsa da,
Ara, dağla, yax, yan, görüm!
*
Lal ol, kar ol, saf ol təki!
İnsaf olsun qəlbindəki!
Sakın, namərd gözdən çəkin!
Açıl, saçıl, çıx, yan, görüm!

*30 iyul, 1976-cı il. Bakı.*

## Dur itil!

İrişmə üzümə, şit uşaq kimi,
Düşüb ayağıma, sürünmə daha!
Taladın əhdimi, yalquzaq kimi,
Yersiz and-amana bürünmə, daha!
*
Pişik qılıqlısan, tülkü quyruqlu,
Çaqqal tədbirlisən, aslan buyruqlu.
Qartal caynaqlısan - naməlum oğlu!
İşlət bildiyini, ərinmə daha!
*
Oğru bir it kimi, azdıran səni
çox dedi, baxmadım, aldatdın məni.
Qurd-quşa paylaram murdar tikəni,
Dur itil, gözümə görünmə daha!
*
İtil ki, gələsi olsaq döş-döşə
dırnağından sədəf, gönündən köşə,
olarsa, qanından abi-gülöyşə
çəkərəm, öyünüb-qırınma daha!
*
Ulduza hürürsən, ulduza hələ,
Quyruqsan - boş başın keçib cəncələ.
Çətinə düşəndə boz kəltənkələ
atar quyruğunu, qaçar...Can baha...
Qıvrılma, əbəsdi, qorunma daha!
Dur itil, gözümə görünmə daha!

*oktyabr, 1976-cı il. Bakı.*

## Dözəmmirəm

Dilim gəlmir bəd deməyə,
heç həsrətə dözəmmirəm.
Yaman qıydıq, bilə-bilə
Məhəbbətə, dözəmmirəm.
*
Mən evimdə, sən də bizdə,
Cüt adayıq bir dənizdə.
Həsrətliyik ikimiz də,
Bu zillətə dözəmmirəm.

*

Dörd tərəfim lal-kar divar,
Nə sevinci, nə dərdi var.
Divar üçün nə fərqi var,
Mən möhnətə dözəmmirəm.

*

Xəyalımda Vüsal çaxır,
Gümanımdan Vəfam baxır.
Od isitmir, sükut yaxır...
Bu dəhşətə dözəmmirəm.

*

İsa, haqdı əhdim-andım,
Təklik nədi, indi qandım.
Haqlı-haqsız hey qınandım,
Bu töhmətə dözəmmirəm.

*3 fevral, 1977-ci il. Bakı.*

## Zarafat

Soruşursan: Nə var-nə yox? Necə keçir güzəranım?
Ürək dolu, söz kasaddı, Nədən deyim? Nəyi danım?
Burda həsrət başdan aşır, doğmalıqsa, topuqdandı.
Sükut səsdə qərq olubdu, qalmağalsa, nahaqdandı.
Göydələndə yer veriblər, özü boyda minnəti var!
Altı adam - şest çelovek, yarım düjün külfəti var.
Bir tərəfdən gəlib hərə, hər kəllədə bir fikir var.
Bir otağa təpilibdi rus, azəri, gürcü, tatar...
Çarpayılar sıx düzülüb, gediş-gəliş növbəlidi.
Palto, papaq möhürlənib, xələt, şalvar nömrəlidi.
Hara getsən, növbəyə dur - səbri-qərar tükənsə də -
əl-üzünü yuyanda da, bir qurtum çay içəndə də.
Oğul istər tab gətirə, ovxarlanmış bu şaxtaya.
Pəncərədən balıq assan pərçimlənər boz taxtaya.
Xörəklərdə donuz əti, hünərin var, iştahla ye!
Salatlarda bitki yağı, iştahına buz bağla, ye!
Bir tərəfdə zəhlətökən, anlaşılmaz səs, səda var.
Bir tərəfdə ala-bəzək, zər-zibalı şər-xata var.
Hara baxsan, qat-qarışıq, xəyal çaşar, zənn ilişər.
Gündoğandan-günbatana taksi qovsan, nalı düşər.
Gen küçələr vüqarlıdı, əyilməyə meyl eləməz!
Yerin qoynu dəlmə-deşik, gələn deyil şerə. Qərəz...

İsa, fikri çəkmə dara, onsuz da söz bitən deyil.
Biz durduqca yaşayacaq, bu zarafat itən deyil.
*15 fevral, 1977-ci il. Moskva.*

## Ürək qoruğu

Ürək ürək olsa, nələr elərdim!
Hayıf ki, ürəyim mən deyən deyil!
Hər kiçik qüssədən nəm çəkir qəlbim,
Adam var, ürəyi göynəyən deyil.
*
Başıma daş salır hər qəbahətim,
Sarsılır varlığım xəcalətimdən.
Sözüm əsir düşür, söhbətim yetim,
Sinəmə qor dolur bu adətimdən.
*
Mətləbim çox zaman dönür dilimdə,
Sərrast tuşladığım hədəfə dəymir.
Məndən həyat uman ölür əlimdə...
Bəzən min dürüstlük bir səhvə dəymir.
*
Şərdən aralıyam, hiylədən uzaq,
Fəqət dara çəkir iftira məni.
Nahaq qamçısıyla ürəyim dağ-dağ...
Haqq ala, arzuma çatdıra məni!
*
Yaxşılıq, yamanlıq durub üz-üzə,
Yaxşılıq məzlumdur, yamanlıq xəbis.
Çox zaman xoş sözü öz-özümüzə
çox baha satırıq, qıymayırıq biz.
*
Şübhə kotan salır haqqın kökünə,
Saqqala dən düşür, ağıl bişməmiş.
Günahlı-günahsız dağlanır sinə,
Söhbətə qurd düşür, söz yetişməmiş.
*
Paxıl qılığına, hünərin var, döz!
Bu odda-alovda daş olsa, bişər!
Cürbəcür qoruqlar yaradırıq biz,
Ürək qoruğuna möhtacdır bəşər!
*18 fevral, 1977-ci il. Moskva.*

## Kursda

Məktəbə gəlmişik, dərs oxumağa,
Ağlımız, hissimiz sehirlənibdi!
Adam var, sevincdən dönüb uşağa,
Adam var, kövrəlib, qəhərlənibdi.
*
Qəribə hökmü var hər bir anın da!
Adəticiddilər gülünc olarmış!
Sinif otağında, parta dalında,
İxtiyar alim də nadinc olarmış!
*
Elə bil uşaqlar dəcəlliyini
soyunub, sinifdə qoyub gediblər.
Unudub bir anda gözəlliyini,
uşaqlıqdan bezib, doyub gediblər.
*
Bəlkə buna görə qarışır aləm,
sinifdə hamımız uşaqlaşırıq?!
Bəlkə buna görə süpürülür qəm,
qayğıdan, fikirdən uzaqlaşırıq?!
*
Hər nədir, bilmirəm, sirdi-soraqdı,
Bu məchul aləmdə bir səyyaham mən.
Bir onu bilirəm, əqidəm haqdır,
Ürəyi nur dolu bir cərraham mən.
*24 fevral, 1977-ci il. Moskva.*

## Ömür - gizlənpaç

Titrə qəlbim!
çağla təbim!
al məni!
Apar məni,
qopar məni
özümdən!
Nağıl olum,
oğul olum,
sal məni

YAğı dolu tilsimlərə.
Dözüm mən.
*
Sevdin, tələs!
Əsmə əbəs,
Kamil ol!
Keçən gedir,
İtən itir,
Zənn elə!
Möhnət alar,
Ayrı salar.
Riya çal!
Tərsa salar cəngimizi cəncələ.
*
İlqarım var,
gül yarım var,
nə dərdim!
Sevda dolu,
sevgi yolu - dolanbac.
Axa-axa,
baxa-baxa gedərdim,
Mən neyləyim, axı ömür - gizlənpaç!
*1 mart, 1977-ci il. Moskva.*

**Ata həsrəti**

Zirvə qarı almaz qaşdı hər dağa,
Əymə qəddi, dağ tufana əyilməz!
Kür oğlusan, kükrə Kür tək, ay ata!
Ər kişisən, ər hicrana əyilməz!
*
Ruhum küsür şəklini hər görəndə,
İstəyirəm yeri-göyü titrədim.
Yeniyetmə bir cavansan, çöhrəndə
Yuva salıb dünya boyda həsrətim.
*
Əyilməzəm, əyilirəm önündə,
Zil qaradı, bəxtin kimi, gözlərim!
Ata kimi yaşasam da evində,
Körpə kimi gəlişini gözlərəm.

*

İllər bizi ayrı saldı əzəldən,
Rastlaşaydıq, kam alaydı ürəyim!
Sənsizliyi miras qoydun bizə sən,
Axı belə mirası mən neyləyim?

*

Mən nə deyim bu dövrana, bu hala?
İşə bir bax: mən toxtamış, sən cavan.
Rahatlığım yetim qalıb, çalxala!
Zaman dönsün, dövran çıxsın oxundan!

*

Alaq biz də kamımızı, atacan!
Ulduz olaq, kəhkəşanlar doğulsun!
Rüsvay edək, şəri qovaq dünyadan,
İtgin salaq, haqqa heykəl qoyulsun!

*4 mart, 1977-ci il. Moskva.*

## Səhvlərim...

Vəfan varsa, daha bu mənə bəsdi!
Almazsan - dəyərim qədərindədi!
Lığ boğan bulağı eşmə, əbəsdi,
Eşsən də dərin eş, su dərindədi.

*

Nağılsız, nəğməsiz bir kamanam mən,
Taleyi şübhəli tək limanam mən.
İşi düyün düşən bir cavanam mən,
Nəyim varsa, sənin gözlərindədi.

*

Ağılagəlməzlər başa gələrmiş!
İyrənclər don geyib, xoşa gələrmiş!
Səhvim nə az-nə çox, yaşım qədərmiş...
Ancaq nə yazmışam, düz, yerindədi!

*15 mart, 1977-ci il. Moskva.*

## Bezmişəm

Sir-sifətim tutqundursa, qınama,
Ömür satıb, vəd almaqdan bezmişəm.

Əsəbiyəm, əsəblərim dözməyir -
Gündə yüz yol asılmaqdan bezmişəm.
*
Kəskin haqqı küt yalana dəyişdim,
Zər yəhəri boz palana dəyişdim.
Bilə-bilə, qana-qana dəyişdim -
Ar dalına qısılmaqdan bezmişəm.
*
Nadan oldum, hər parlağa zər dedim,
Qartımışa təzə dedim, tər dedim.
O, xoşbəxtsə, mənə bu yetər dedim,
Rişxəndindən basılmaqdan bezmişəm.
*
Bir diləklə ağız açdım, dinmədi,
Dar günümdə işıqlandı sifəti!
Yüz dağ çəkdi ürəyimə minnəti -
Qu qədrinə qaz almaqdan bezmişəm.
*
İsa, vermə müxənnətə sur- dedim,
Qərarında möhkəm dayan, dur- dedim.
Yol istədi, qıymadım, buyur - dedim -
Nə müddətdi baş çalmaqdan bezmişəm.

*22 mart, 1977-ci il. Moskva.*

## Danlama məni!

Niyə danlayırsan, nahaqdan məni?
Canımı odlara yaxan azdımı?
Mənə dəyən zərbə tutsaydı səni
kökündən qoparıb, yıxammazdımı?
*
Dava asan gələr, gendən baxana,
İşin düz-tarazdı, nə vecinədi!
Dünyanın dərdləri qalmayıb sənə,
tək qarnın tox olsun, qalan heç nədi.
*
Qəlbin buz bağlayıb. Dilucu, səthi
verdiyin təsəlli necə soyuqdu...
Elə danışırsan, elə bil, qəti
mənim azarımdan xəbərin yoxdu.

*

Özgə gövdəsində oğrunca bitən
müftə səxavətdən qudurmadımı?
Gözün görə-görə, qımışıb şən-şən
bağrımın başına od vurmadımı?

*

Kişiydin, verəydin düz cavabını!
Qeyrət qovğasında çəkildin geri!...
Mən özüm çəkərəm öz hesabımı!
Yeri! Yeri daha, danlama, yeri!!!

*22 mart, 1977-ci il. Moskva.*

## İndi başa düşmüşəm

Bir başbilən yol göstərib, getmişəm,
El göz olub, dilə-dişə düşmüşəm.
Arzum - zirvə, yolum - çınqıl, ömür - kəm,
Bilə-bilə bitməz işə düşmüşəm.

*

El tənəsi saçda qara qoymayıb:
Minmək bir ayıbsa, düşmək bir ayıb.
Qohum-qardaş, tanış-biliş qınayıb -
Ad-san üçün dağa-daşa düşmüşəm.

*

Vallah, küsür bu halətdən xəyalım,
Az qalıb ki, müqəvvaya tay olum.
Sağ canıma müştaq olub bu Zalım -
Nə tez, nə gec, indi başa düşmüşəm.

*23 mart, 1977-ci il. Moskva.*

## Şeytan qızım

Bir nəğmədi dodağımda
Vəfam, mənim matan qızım!
Hər şerimi yaddaşına
yazıb, dil-dil ötən qızım.

*

Anasının gül balası,
Balaların ən əlası!
Eşqimin zər piyaləsi,
Dilimə dad qatan qızım!

*

Babasının nabatıdı,
Nənəsinin həyatıdı.
Özü boyda bayatıdı,
Eldən-elə çatan qızım.

*

Əynində paltarı abı,
Ayağında yun corabı.
Yumşaq papış - ayaqqabı,
Ağ köynəyi kətan, qızım!

*

Qəh-qəh çəksən şəlalə tək,
Nur səpilər çiçək-çiçək.
Camalından alar bəzək,
Gözəlləşər Vətən, qızım!

*

Qaşın qara, gözün ala,
Gül yanağın qızıl lalə.
Dodaqların batıb bala,
Qan-qan deyir xatan, qızım!

*

Vüsal kimi qardaşın var,
Sinəsində aslan yaşar.
Gözəlliyin ilkidi ar,
Qardaşından utan, qızım!

*

İsa, hələ harasıdı,
Bu, sözümün yarısıdı!
Ciyərimin parasıdı,
Nazlı-duzlu, şeytan qızım!

*25 mart, 1977-ci il. Moskva.*

## Yeridi

Açdım ürəyimi, süzdü qıyqacı,
Hirsini başıma çaxdı, yeridi.
Dilsiz baxışımı sürütmə çəkdi,
Məni yol üstünə taxdı, yeridi.

*

Bayaq bir idisə, yüz oldu dərdim,
Qəddimi qatlayan duz oldu dərdim.

Sinəmdə səfbəsəf düzüldü dərdim,
Qayıtdı, yoxladı, baxdı, yeridi.
*
Qoparıb canımdan aldı dözümü,
Özümdən didərgin saldı özümü.
Qaladı canımın solan közünü,
Bimürvət yandırdı, yaxdı, yeridi.
*
Boyadı üzümü intizarıyla -
narıncı qarışdı açıq sarıyla.
Taladı dərdimi düz ilqarıyla,
Şübhəmin evini yıxdı, yeridi.
*29 mart, 1977-ci il. Moskva.*

## Özün de

Canım-gözüm!
Döndü üzün?
Necə dözüm?
Özün de!
*
Atdın məni -
Can deyəni.
Xoşmu yəni?
Özün de!
*
Yönün dönməz,
Odum sönməz.
Hanı söz bəs?
Özün de!
*
Dilim bağlı,
Sinəm dağlı.
Kimdi haqlı?
Özün de!
*
Günahkaram!
Ömrüm haram.
Nədir çarəm?
Özün de!

*

Sən insafsız,
Mənsə tabsız.
Qalım yalqız?
Özün de!

*

Qərar qansız,
Hökm amansız.
Neynim sənsiz?
Özün de!

*

İsa küsgün,
Qəlbi üzgün.
Bumu düzgün?
Özün de!

*30 mart, 1977-ci il. Moskva.*

## Bilmirəm

Çox sirli suallar açdım, ağartdım,
Di gəl, sən deyəni qana bilmirəm.
Elə danışırsan, ətim tökülür,
Başıma od yağır, dinə bilmirəm.

*

Əcnəbi danışsa, bu dildə əgər,
Güman ki, o, səndən apaçıq deyər.
Danışa bilmirsən, danışma, yetər!
Kim verib bu haqqı sənə, bilmirəm!

*

Tutumlu yaddaşım var idi, mağıl,
Səni dinləməkdən korşaldı ağıl.
Kişisən, vaxt ikən yoluna yığıl,
Hirsimi gizlədib, dana bilmirəm.

*1 aprel, 1977-ci il. Moskva.*

## Qardaş

Demə: "Evim ayrı, köçüm ayrıdı".
Dünyada şaha da gərəkdi qardaş.
Ayağın büdrəsə, qolundan tutar,
Darda da, gendə də köməkdi qardaş.

*

Arvadın sözüylə oturub-durdun,
Doğma nə vardısa, qırdın, uçurdun.
Müftə səxavətdən azdın, qudurdun,
Əlaman, əlindən nə çəkdi qardaş!

*

Pas atdı ürəyin arvad qınında,
Haqqa kar kəsildi, kar, vicdanın da!
Tamahkar qəlbiyin dar eyvanında
Umusuz, minnətsiz gül əkdi qardaş!

*

Ala qaranlıqdan şər qarışana,
Durdu qulluğunda o, yana-yana.
Ömür sərf elədi sən tək nadana,
Sənə elə gəldi, ödəkdi, qardaş.

*

Vəzifən, maşının, evin-eşiyin,
Baldızın, qaynanan, itin, pişiyin...
Hər şeyin bolluca, bir kişiliyin,
Bu uzun ömürdə gödəkdi, qardaş!

*

Qışda qışlağın var, yayda yaylağın,
Güllü, sarmaşıqlı cənnət tək bağın.
Hazır gəlir yağın, balın, qaymağın,
Ağzı müşəmbəli pətəkdi, qardaş!

*

Böyük qardaşındı, qapını döydü,
Elə qarşıladın, sanki, ögeydi.
Qardaşdı, yenə də boyunu öydü,
Sadiq olan candı, ürəkdi, qardaş!

*

İsanın sözündən incimə, düşün!
Bir sərt enişi var, hər yüksəlişin!
Qada bəd gətirsə, dolaşsa işin,
Sökəkdi, biləkdi, kürəkdi, QARDAŞ!

*1 aprel, 1977-ci il. Moskva.*

**Elədim - elədin**

Ülvi bir duyğuyla, saf bir niyyətlə,
Təkliyimi sənə qurban elədim.

Adını sinəmə silinməz xətlə
yazıb da, könlümü şan-şan elədim.
*
Nəydi axı, söylə, nəydi günahım
ki, cılız canımı cızdaq elədin?
Azdımı qəlbimin fəryadı-ahı,
Sən də bir tərəfdən dağ-dağ elədin!
*
Bax, səni eşqimə almaz qaş kimi,
seçib də, hamıya elan elədim.
Döşəyib yoluna diləklərimi,
Çılğın hisslərimi leysan elədim.
*
Sənsə yedəkləyib gözün öyəni,
Qovrulan dərdinə ortaq elədin.
Adam tapmadınmı, bimürvət, yəni?
Zavallı İsanı dustaq elədin!
*5 aprel, 1977-ci il. Moskva.*

## Etiraf

Bir ürəyim vardı, çaldın apardın,
Sürütmə çəkdiyin dəyanətimdi.
Gör necə bəxtəvər bir yalqızam ki,
pis günüm didərgin, dərdim yetimdi.
*
Sən qədəm çevirib gələn gün bizə,
qüssəmi yüklədim gedərgəlməzə.
Dilin köz kababı, dodağın məzə,
Öpüş təşnəliyim dəlalətimdi.
*
Şığıdı qəh-qəhən qəlbə tuş kimi,
çaldı təkliyimi qızılquş kimi.
Beli incəsindən üzülmüş kimi,
Elə pis-pis duran, xəcalətimdi.
*
Qönçəydi, gül açdı Vüsalım, Vəfam,
Qurudu, soğuldu möhnətim, cəfam.
Səngimək bilməyir məhəbbət davam,
Bu, mənim ən böyük səadətimdi.

*

Eşqimin tabına "etibar"-dedim,
İnam olan yerdə şübhə xar-dedim.
Qısqanclıq nəğməmə qəm qatar-dedim,
Dı gəl, qovammadım, qəbahətimdi.

*

Şairəm, nə deyim, hər işim olub,
Uyğulu, duyğulu gəzişim olub.
Hərdənbir ilhamla görüşüm olub,
Səndən gizlətmişəm, xəyanətimdi.

*7 aprel, 1977-ci il. Moskva.*

## Gəlirəm

Bir az dözümlü ol, ay ömrüm-günüm!
Qalan günlərimi sayıb, gəlirəm.
Soyunub cansıxan qəribliyimi,
sevinci əynimə geyib, gəlirəm!

*

Elə ki, inamım könlümü sardı,
müxənnət şübhəmin gözü bozardı.
Səfil düşüncəmi ümid apardı...
Qüssənin qəddini əyib, gəlirəm!

*

Qəlbim can atdıqca vüsal dəminə,
xəyalım küsənir ömrün kəminə.
Tamarzı qalmadım hicran qəminə,
Qərib qonaqlıqdan doyub, gəlirəm.

*

Möhnəti bəsləyib, başa yetirdim!
Nahaqda qazandım, haqda itirdim!
Hönkürür arxamca vəfalı dərdim,
bir təhər ayrılıb, qoyub, gəlirəm.

*

İsayam, bir quşam, qanadı gümüş!
Ayağım torpaqdan tamam üzülmüş!
Süzürəm, ucalıq necə gözəlmiş!
Səni ucalığa öyüb, gəlirəm!

*21 aprel, 1977-ci il. Moskva.*

## Heyrət

Kim deyibsə, yeddi rəng var,
səhv eləyib!
Tək yaşılın yüz çaları, yüz rəngi var,
illah da ki, bahar ola,
illah da ki, təyyarədən seyr edəsən!
Kim deyibsə, yeddi səs var,
düz deməyib!
Tək bir qəlbin min çalarlı ahəngi var,
illah da ki, söz sinəndə qatar ola,
illah da ki, şeriyyətə meyl edəsən!

*

Kim deyibsə, papaq salar topa bulud,
yanılıb o, tələsib o.
Yaşamayıb həyatı o, külək olub
bil, əsib o, tələsib o!
Yanılmağa bir səbəb yox,
illah da ki, bu zamanda,
illah da ki, yaşın yaxşı bişmiş ola!
Kim deyibsə, gözə inan, ağıldan tut,
yanılıb o, tələsib o.
Tələsiyin qanı qızmar, yurdu soyuq...
Tələsib o,
nadan olub,
bilməyib ki, məkan-zaman mütləq deyil,
bilməyib ki, ağıl, güman mütləq deyil,
bilməyib ki,
əndamı ağ,
görkəmi dağ,
həlim, yumşaq,
topa bulud
gümüşbədən təyyarəni silkə bilər.
Bilməyib ki, səmtsizlik qucağında
xəyal azar, zənn ilişər,
illah da ki, sis-dumanda,
illah da ki, heyrətimiz mavilikdə itmiş ola!

*

Kim deyibsə, boşluqdu göy.
Doğru deyil!
Göy sahilsiz akvariumdu, aydan arı,

təyyarələr balıqları,
illah da ki, Yer görünə,
illah da ki, duyğulara hədd olmaya!
Kim deyibsə, Yer doğmadı, Səma ögey.
Doğru deyil!
Yer vüsalım, Göy həsrətim!
De, həsrətsiz vüsalmı var?
Səma Yersiz qalar yetim,
Yer Səmasız sonsuz olar,
illah da ki, tala-tala,
bəyaz, qırçın, ala-bula,
axışı lal,
kölgəsi xal,
tənbəl, kahal,
sərsəm xəyal
buludlardan şeh ələnə,
illah da ki, Yer üzündə dərd olmaya!

*

Kim deyibsə...
Eh, nə sayım, çox deyilib,
bilən-bilir, dürüstü var, yanlışı var.
Bilən-bilir, hər təzəlik köhnələndi,
hər gələn bir gün gedəndi.
Bilən-bilir, hər ulduzun bir qırpımı,
hər ayın bir doğuşu var,
illah da ki, bədrlənə!
Bilən-bilir, hər duyğunun qığılcımı,
hər ilhamın bir qəh-qəhi, çaxışı var,
illah da ki, vurğun könlün sehrlənə!

*17 may, 1977-ci il. Moskva.*

### Nə var-nə yox?

A könlümün şirincəsi, təkcəsi!
Bir yaz görüm, kefin-halın necədi?
Bal dadırmı Vəfamızın ləhcəsi?
Canım-gözüm, de, Vüsalım necədi?

*

Nə var-nə yox, doğma eldə-obada?
Ata yurdu gül-çiçəyə batıbmı?

Beçə arı qaynaşırmı havada?
Tər qönçələr örpəyini atıbmı?
*
Açılıbmı sir-sifəti babamın?
Çiynindəmi yenə boz gödəkçəsi?
Söylə görüm, yenə Pəri anamın,
əl dəyməmiş üzülürmü düyçəsi?
*
Ləlǝngilin əyriburun dəhrəsi
heç özünü kola-kosa vurubmu?
Anangilin ağırdaban cəhrəsi
Dağdağana söykənibmi, durubmu?
*
De, anamın yenə varmı xanası?
Qara qayçı, bıçaq, kirkid sazdımı?
Abı göyü, tox yaşılı, qarası,
qırmızısı yetəcəkmi, azdımı?
*
Murğuzdurmu gəvəmizin ərişi?
Bərkidəndə qırıldımı, dözdümü?
Mumlanıbmı cəhrəmizin kirişi?
Polad iyi, gön qulağı düzdümü?
*
Ləlǝm yenə öz dəmirçi dilində,
Lal zindanı oxudurmu obaşdan?
Polad çəkic, dəmir maşa əlində,
Dilbilməzə toy tuturmu obaşdan?
*
Anam qurut islatdımı xəngələ?
Yağ-soğanı, sarımsağı boldumu?
Hərdən xəmir küt gələndə çəngələ,
tutuldumu, binəva pərt oldumu?
*
Damağımda qaldı dadı dolmanın,
Qulançarın "qoysarı"sı gözəldi!
Toy şaxında qızqaytaran almanın
İncəbeli qaytarması gözəldi!
*

Ələ düşməz: axsoğlağı, ayranaş,
göy qutabı, gicirtikan kətəsi!

Axşam qatıq, gündüz kabab, səhər xaş,
bir də bizim dadlı fırın kökəsi!...
*
Eh, nə deyim, nə soruşum, bilmirəm?
Sözgəlişi sorğularım qurtarmaz.
Vaxt üzülür, daha bəsdi, deyirəm,
unutdumsa bir çoxunu, özün yaz.

*23 may, 1977-ci il. Moskva.*

**Kosalar**

Görmədiyin yeri pisləmə, nahaq!
Mən deyim, gör necə yerdi, Kosalar.
Başkeçid, Borçalı, Kür üstü bilir,
Ağbulaq elində birdi, Kosalar.
*
Qərib qonaq olsan, başa çəkərlər,
Adını hörmətlə qoşa çəkərlər.
Qudursan, gönündən köşə çəkərlər!
Bir az dəlisoydu, kürdü, Kosalar!
*
Əyri baxsan əgər gəlinə-qıza,
inan ki, başını qoyarlar duza.
Qənim yaranıbdı qanacaqsıza!
Qeyrət meydanında şirdi, Kosalar!
*
Namərdə sur verməz, mərdin quludu!
Nahaqda səbirsiz, haqda uludur!
Gözü odlar görüb, qoynu doludu!
Di gəl, duyğusuza sirdi, Kosalar!
*
İsayam, əhdimi möhürləyibdi,
Özümü özünə mehirləyibdi!
Bu vurğun könlümü sehirləyibdi!
Kəbədi, Qiblədi, Pirdi, Kosalar!

*13 iyul, 1977-ci il. Kosalar.*

## Gizlənpaç

Doğma ocaq, ilıq nəfəs, şirin dil,
Körpə idik, arzu şıltaq, heyrət şən.
Ülviyyətdən yoğrulmuşduq elə bil,
Bu dünyada bir sən idin, bir də mən.
*
Oynayırdıq. Ciçç! -elədim, gizləndin,
Ciçç! -elədim, xata çıxdı dilimdən.
Mən dinşədim, sən şəklənib gözlədin,
Ciçç! -elədim, çiliкləndi qəh-qəhən.
*
Qanad açdı, zaman uçdu, bilmədim,
Ciçç! -elədim, şeh düşdü al yanağa.
O şən illər necə keçdi, bilmədim,
Ciçç! -elədim, meh əsdi gül dodağa.
*
Əl elədim, gəl-gəl dedim, gəlmədin,
Gəl-gəl dedim, gizlənpaçın vaxtıdı!
Ciçç! -elədim, gizlən dedim, yox! –dedin -
Əbləh, indi gizlənpaçın vaxtıdı?
*
Susdum düzü, yoxdu sözüm, nə deyim?
Ürəyimdə od qaladı bu səda.
Buna közmü, yoxsa duzmu, nə deyim?
Varlığımı qarsaladı bu nida.
*
Pəncərəniz, hər yeriniz qıfıl, bənd,
Gəldim, qaçdın, getdim, açdın, pərdə nəm...
Qamət şümşad, gözlər cəllad, saç kəmənd,
"Ciçç"ə görə sürüyürsən, bilirəm...
*29 sentyabr, 1977-ci il. Bakı.*

## Müəllim

Aldanma böhtana, uyma yalana,
Dünyada saf ada sandı, Müəllim.
Qoyma xırdalana, qıyma talana,
Vicdandı, şərəfdi, şandı, Müəllim.
*

Qeyrətdi, qüdrətdi, qoldu, qüvvətdi,
Aqildi, kamildi, ulu hörmətdi.
Əzizdi, təmizdi, ülvi niyyətdi,
Haqq dolu, baxt dolu camdı, Müəllim.

*

Düz adı ustadı, biləndi, başdı,
Rəssamdı, şairdi, heykəltəraşdı.
İnamsız, ilhamsız yaşamamışdır,
Nahaqda naşıdı, xamdı, Müəllim.

*

Qürurdu, məğrurdu, əyilməz dağdı,
Şirindi, sərindi, büllur bulaqdı.
Ülfətdi, hikmətdi, sirdi, soraqdı,
Başından alışan şamdı, Müəllim.

*

Qayğıdı, duyğudu, ılıq nəfəsdi,
Arzudu, ruzudu, ömürlük bəsdi,
İlkindi, yelkəndi, səsdi, həvəsdi,
Bülövdü, bütövdü, tamdı, Müəllim.

*17 oktyabr, 1977-ci il. Bakı.*

## Saz

Alış-yan, ay ürək!
Alışsan gerçək,
özünü odunda yaxasıdı Saz.
İşdi külə dönsən,
qaralsan, sönsən,
gözünün yaşını sıxasıdı Saz.

*

Lal olar şər desən,
dinər haqq desən,
Od olar, qarsayar şəri, yax!-desən,
Qalx!-desən,
Çax!-desən,
Gurla, yağ!-desən,
şıdırğı yağış tək yağasıdı Saz.

*

Sığına-sığına
haqq qucağına,
naşı tənəsindən düşsə yanğına,

sən allah,
nə danla,
nə də ki, qına,
duyğunun incəsi, yuxasıdı Saz.

*

Ortaqdı aşiqin sinə dağına,
Dözəndi hicranın hər sınağına,
Düşsən yığnağına,
coşğun çağına,
qarşına Cəngiylə çıxasıdı Saz.

*

İsa da
susadı
Sarı Telinə,
Açdı ürəyini Göyçə Gülünə.
Aşıq aşıqdırsa, alsa əlinə,
sədləri, hədləri yıxasıdı Saz.

*20 oktyabr, 1977-ci il. Bakı.*

## Nur övladı nuruq biz

Ömür şirin, arzu çin-çin, vurğulu,
Dil qadağsız, əl qandalsız, kilidsiz.
Ürəyimiz, çörəyimiz nur dolu,
Bilsin aləm, nur övladı nuruq biz.

*

Vicdanımız, ad-sanımız ləkəsiz,
Baxtımızı al-qırmızı yazdıq biz.
Niyyətimiz, istəyimiz kölgəsiz,
Mavi göydü, al səhərdi əhdimiz.

*

Alçalmadıq, borc almadıq xoş günü,
Haqqımızı bağrımıza basdıq biz.
Kəsəcəyik hər pisliyin kökünü,
Od oğluyuq, odsevərdi əslimiz.

*

Səadətin, ədalətin yolunda
dayanmışıq, canda işıq, saf, təmiz.
Saat kimi, yurdumuzun qolunda,
Ağ günlərə səfərbərdi nəslimiz.

*21 oktyabr, 1977-ci il, Bakı.*

## Vicdan nəqqaşıyıq

Baxtımız uğurlu,
ömrümüz nurlu,
ləhcəmiz bülbüldən,
ətrimiz güldən.
Belə bir zamanda
pas atsaq qında,
De, sən kimə gərək,
Mən kimə gərək?
*
Bir də ki, dünyada
şərəfli ada
ömür-gün qıymasaq,
bir iz qoymasaq,
yaşasaq mürgülü,
diriykən ölü...
De, sən kimə gərək,
Mən kimə gərək?
*
Adımız müəllim,
işimiz bəlli,
Vicdan nəqqaşıyıq,
mətləb başıyıq.
Soyusaq, korşalsaq,
odu borc alsaq,
De, sən kimə gərək,
Mən kimə gərək?
*
Əri yavaş-yavaş,
ərinmə, Qardaş!
Sinif otağında,
peşə yağında
alışıb yanmasaq,
işıqlanmasaq,
De, sən kimə gərək,
Mən kimə gərək?
*
Rəvan dilimizlə,
əməlimizlə,
Nəcib işimizlə,

İsa, bir sözlə,
Vətəndaş olmasaq,
cilalanmasaq,
De, sən kimə gərək,
Mən kimə gərək?

*27 oktyabr, 1977-ci il. Bakı.*

## Özün bil

Halal çörəyimi kəsən, Əziz Dost!
Qalsan, qal, göz üstə, getsən, özün bil.
Bizdə səxavət də, məhəbbət də var,
Qalsan, qal, göz üstə, getsən, özün bil.

*

Qalsan, varaqlanıb dastan olarıq,
Getsən, uğurlayan leysan olarıq.
Bir çərək yer - desən, meydan alarıq,
Qalsan, qal, göz üstə, getsən, özün bil.

*

Qızmar yayımız var, sərt qışımız var,
Meşəmiz, talamız, yoxuşumuz var.
Bürkümüz, yelimiz, yağışımız var,
Qalsan, qal, göz üstə, getsən, özün bil.

*

Qalsan, qaraköynək saz bülbül olar,
Xındının Kərəmi yanar, kül olar.
Əmrahın Dilqəmi kövrək dil olar,
Qalsan, qal, göz üstə, getsən, özün bil.

*

Hüseyn Saraclı "Dolu hicranı",
Kamandar "Cəlili", Əmrah "Ruhani",
Ədalət "Müxəmməs" çalar, qal, tanı,
Qalsan, qal, göz üstə, getsən, özün bil.

*

Ustad Azaflının "Dübeyti"sində,
Nələr soraqlanır, duyarsan, məncə.
Ənvər Budaqlının xalları incə...
Qalsan, qal, göz üstə, getsən, özün bil.

*

İsayam, qoymaram qəribsəyəsən,
"Ev-eşik mənsizdi, gedim" - deyəsən.

Durram qulluğunda, necə istəsən,
Qalsan, qal, göz üstə, getsən, özün bil.
*27 oktyabr, 1977-ci il. Bakı.*

## Şair ürəyi

Dayan, insaf elə, yandırma belə,
Amandı, odlandı şair ürəyi!
Bir az asta tərpən, duymaq istəsən,
Oyandı, vulkandı şair ürəyi!
*
Tutuldu, buluddu, duruldu, bulaq,
Duyuldu, uludu, buyruldu, uşaq,
Vuruldu, büllurdu, qırıldı, budaq,
Talandı, virandı şair ürəyi!
*
Sükutun süqutu, eşqin vücudu,
Dünyanı duyanın haqqa umudu.
Hiddətin, nifrətin həddi, hüdudu,
Divandı,Vicdandı şair ürəyi!
*
Hikmətə açardı, həyata müştaq,
Dinməsə bezardı, duymasan, dustaq.
Töhmətə düçardı, ağrıya qundaq,
Qınandı, yanandı şair ürəyi!
*
Güldüsə, bahardı, küsdü, qurtardı!
Hər sözü nübardı, bir şirin bardı.
İsanı qopardı, aldı, apardı,
Çalxandı, ümmandı şair ürəyi!
*15 noyabr, 1977-ci il. Bakı.*

## Yan beləcə

Saç könül zinətini, parla, alış, yan beləcə!
Gəl deyək yurdumuzun şəninə dastan, beləcə.
*
Haqqı bayraq eləyib, sülhə könül bağlamışıq,
Veririk fitnələrin qətlinə fərman, beləcə.

*

Bizə pənah gətirir, çarəsizdi, bədxahımız,
Tutur övladi-vətən şər işə divan, beləcə.

*

Daş üstə gül bitirər, ana təbiət, istəsə,
Doğdu Kəpəzim üçün Göy Gölü canan, beləcə.

*

Mənbilən, qalmayacaq yer üzündə həsrət, inan,
Çatacaq Şah Dağına dərdli Savalan, beləcə.

*

Sabahı al-qırmızı bəxtəvər övladımızın,
Xoş keçir günü-gündən ömrü firavan, beləcə.

*

Hər gələn bir gül əksə, cilvələnər bağı-vətən,
İsa, cənnətə dönər Azərbaycan, beləcə.

*17 noyabr, 1977-ci il. Bakı.*

## Nə ola

Nə ola, tale verə, bir də belə şanım ola!
Ömrümü yaşamağa dübarə imkanım ola!

*

Aləmə göstərərəm ilhamımın qüdrətini,
Xoş sözüm, xoş avazım, bir də tar-kamanım ola!

*

Azalıb dadı-duzu musiqi məclisimizin,
Dədə Füzuli kimi bircə qəzəlxanım ola!

*

Açaram, faş elərəm iç üzünü saxtakarın,
Nurlu niyyət siminə köklənən lisanım ola!

*

Məni məftun edə kaş, sevgili canan yenə də,
Könlümün həmdəmi öz gözləri ceyranım ola!

*

Çəkərəm qəm yükünü, dünyanı azad edərəm,
Hər yana işləyəcək nur dolu fərmanım ola!

*

Söz-sənət məclisinə cəm ola ölkələr, İsa,
Məclisin ağsaqqalı Azərbaycanım ola!

*18 noyabr, 1977-ci il. Bakı.*

## Mən nə deyim

Bir könül ki, od ala, şölələnə, mən nə deyim?
Göz kədər fırçasıyla sürmələnə, mən nə deyim?
*
Bir iş ki, əzəlindən düyün düşə, gəlməyə düz,
Taleyi, bəxti, işi köndələnə, mən nə deyim?
*
Hər ürək dünyamıza bir yeni sevda gətirər,
Qəlbinin eşq övladı tərs gələnə, mən nə deyim?
*
Yar yarın istəyini nakam qoysa, bilə-bilə,
Ar udub, gözlərindən od silənə, mən nə deyim?
*
Çox zaman yaxşı pisə, haqq nahaqqa qismət olur,
Qismətim belə imiş, pay bölənə, mən nə deyim?
*
Könlümü qoydu viran, qıymadı, talan elədi,
Sirr sözüm açıq-aşkar, hər gələnə mən nə deyim?
*
İsanın minnətini almadı, ta bilsin özü,
Sözümü lağa qoyub, de, gülənə, mən nə deyim?

*21 noyabr, 1977-ci il. Bakı.*

## Qeyrət elə

Qeyrət elə, coş ey ilham, sükunətdə nə görmüsən?
Zaman keçir, bu minvalla vəsli-eşqə yetərmisən?
*
Nə yaradıb, nə qurmuşuq, nə qalacaq, söylə, bizdən?
Xəcalətdən yanar canım, mən çəkəni çəkərmisən?
*
Ötür günlər, ömür gedir, nə əl çatır, nə ün yetir,
De, sən niyə töyşüyürsən, yoxsa, məndən betərmisən?
*
Nə sən mənsiz, nə mən sənsiz dözəmmirik, nədəndir bu?
Bu surətdə, baş açmıram, qalibmisən, əsirmisən?
*

Sən də, mən də bu torpağa məftun olan aşiqlərik,
Bu qüdrətlə, bu hikmətlə, bu cürətlə bəşərmisən?
*
Bu el-oba, bu sən, bu mən, şəhid ollam, yeri gəlsə,
Bəs sən necə, yeri gəlsə, öz canından keçərmisən?
*
Bil, dəmirçi oğluyam mən, mayam oddur, yanasıyam,
Həm İsayam, həm azəri, əhdimdən bixəbərmisən?
*27 noyabr, 1977-ci il. Bakı.*

## Var

Bu pəri çöhrəlinin gör nə gözəl gözləri var!
Bu necə dan yeri ki, bir cüt əkiz ülkəri var?
*
Gör neçə qan elədi, bir gözucu baxmaq ilə,
Yoxsa, bu mürvətsizin gözlərində xəncəri var?
*
Od alan fəryadıma su çilədi, mən nə bilim?
Sən demə, yağ dağ ikən suyun özgə hünəri var!
*
Məcnuna xəbər verin, sərdari-divanə mənəm,
Dilimin Leylidən də betər şirin əzbəri var!
*
Bir naşı lağ elədi, dözəmmədim tənbehinə,
Yenə bir qanan olsa, deyərdim ki, döz, yeri var.
*
Kim necə bilir-bilsin, mənə qalsa, bu dünyada,
Hər qəlbin öz aləmi, hər ilhamın öz yeri var.
*
İsanın, deyirlər ki, adı-sanı olmasa da,
Söz-sənət yığnağında hərdən yaxşı sözləri var.
*4 dekabr, 1977-ci il. Bakı.*

## Aşıq Ənvərlə deyişmə

Aşıq Ənvər, yaman dolub ürəyim,
Köklə sazı, qadan alım, de gəlsin.
Bir od qala, sinəm üstə, amandı,
Qanad açsın quş xəyalım, de gəlsin.

*

Şair qardaş, bu mən, bu saz, köklüdü,
Sən xəbər al, cavab verim, qulaq as.
Hər nə desən göz üstədi, buyur de,
Qulluğunda müntəzirəm, qulaq as.

*

Dindir sazı, çimirlənim, dincəlim,
Cilalanım, hamarlanım, incəlim.
İlgəklənsin düyün düşən cəncəlim,
Qoy durulsun kefim-halım, de gəlsin.

*

Nəyim varsa, ustadımdan almışam,
Naşılığın başına daş salmışam.
Hərdən Məcnun, hərdən Fərhad olmuşam,
Gah Qəribəm, gah da Kərəm, qulaq as.

*

Qərib-dedin, qərib düşdün, əldə saz,
Kərəm-dedin, yandı ahın cızhacız.
Koroğludan, qoç oğlundan bir ağız,
Diklə zilə, susma, zalım, de gəlsin.

*

Çox töhmətə, çox tənəyə dözmüşəm,
Müxənnətin bağrına köz düzmüşəm.
Bu torpağı qarış-qarış gəzmişəm,
Qurbaniyəm, Ələsgərəm, qulaq as.

*

Mənsurdumu Novruz kimi qərq olan?
"Qaraçı"nın kürəsində qovrulan?
"Bəhməni"nmi naləsidi qıvrılan?
Bir aç-ağart, agah olum, de gəlsin!

*

Ərə getdi "Göyçə Gülü" "Sarıtel"ə,
"Qəhrəmanı"n yandı dili ah ilə.
"Keşiş oğlu" elçi düşdü Müşgülə,
"Məmməd bağrı" oldu vərəm, qulaq as.

*

Mən İsayam, çox aradım "Dilqəmi",
"Dolu hicran" aşiq dərdi, el qəmi.
"Təcnis" üstə buxovlansan qul kimi,
Vermə sazı, çağır, gəlim, de, gəlsin.

*

Ənvər idim, sən ad qoydun: "Budaqlı",
Ömrüm, adım bir-birinə çataqlı.
Bildiyimi dedim yerli-yataqlı,
Söz verərəm, saz vermərəm, qulaq as.

*10 dekabr, 1977-ci il, Bakı.*

## Səbr elə

Sevgilim, səbr elə bir, gör hələ nələr olacaq!
Eşqimiz, ilqarımız dillərdə əzbər olacaq!

*

Qoymaram adımıza zərrə xələl gələ, inan,
Əhdimiz ən müqəddəs anda bərabər olacaq.

*

Bizə qibtə eləyən xain ürəklər, bilirəm,
Paxıllıq caynağında canından bezar olacaq.

*

Alacaq övladımız kamını, Vətən uludur,
Yurdumuz yer üzündə pisliyə çəpər olacaq.

*

Heç kəsin qismətinə göz dikməyib millətimiz,
Bizə əl qaldıranın özü dərbədər olacaq.

*

Dünyamız ağ geyəcək, bəxtəvər gəlin misalı,
hər tərəf yavaş-yavaş dönüb çəmənzar olacaq.

*

Çəkəcək şər əlini insanlığın işlərindən,
İsanın bu sözünə hamı tərəfdar olacaq.

*dekabr, 1977-ci il, Bakı.*

## Sazı qoru

Aşıq Ənvər, köklə sazı!
Namus, qeyrət, ar yeridi!
Bir dövran aç, meydan sula!
Saz meydanı nər yeridi!

*

Qulağını bur mizrabın,
Quluncunu qır mizrabın,

Qulluğunda dur mizrabın -
Aftafanın dar yeridi!
*
Aşıqsansa, mətləb ara,
El içində xeyrə yara.
Bülbül girməz qoltuqlara,
Daldabucaq xar yeridi!
*
Halal otur, halal da dur,
Haqq olanlar halal dadar!
Haram tikə nəfs aldadar,
Tamah təbin gor yeridi!
*
Sözün varsa, qısma, danış!
Közün varsa, sönmə, alış!
Ara, axtar, bezmə, çalış!
Sənət zəhmət, tər yeridi!
*
İki yana baxsan, inan,
Sənət evi qalar viran.
Elə parla, sən elə yan,
Görən desin: nar yeridi!
*
Gitaranı çalan kimi,
Girmə dona yalan kimi!
Bağrına bas balan kimi!
Sazın yeri yar yeridi!
*
İsa uymaz xam səsinə,
Öz sözümü deyim sənə:
Saza dönük çıxan sinə,
Qarsız qalan qar yeridi!
*15 yanvar, 1978-ci il. Bakı.*

**Aşıq Ənvərlə deyişmə**

Aşıq Ənvər, söylə görüm,
düz bazarda gop neçədi?
Dediyim bu tapmacanın
qıfıl-bəndi, tap, neçədi?

*

Qafil olma, bir qulaq as,
Doğru sözdə gop nə gəzir?
Söylədiyin tapmacada
qıfıl, düyün, tap, nə gəzir?

*

O nədir ki, xörəyi od,
özü qaçaq, ürəyi od;
bünövrəsi, dirəyi od,
arxasınca sap neçədi?

*

O raketdi, xörəyi od,
özü şimşək, ürəyi od;
ərşə çatan dirəyi od,
arxasınca sap nə gəzir?

*

O nə candı, güllədədi,
həm də uca pillədədi?
Qalanlara nə söylədi?
O səyyaha bab neçədi?

*

Kosmonavtdı, güllədədi,
Aydan uca pillədədi.
"Salamat qal, Vətən"-dedi,
cürətinə bab nə gəzir?

*

Neçə nəhrə bir gövdədə?
Neçə gövdə bir dövrədə?
Neçə baş var bünövrədə?
Söz gəzdirən qab neçədi?

*

Üç gəmidi bir gövdədə,
Dörd igiddi bir dövrədə.
Yüz baş işlər hər növbədə,
Söz gəzdirən qab nə gəzir?

*

İsa düzdü bu mənanı,
Cavab ara, qurtar canı.
Yoxsa, sazın getdi qanı,
Ürək birsə, tab neçədi?

*

Budaqlıyam, yaxşı tanı,
Söz açmışam ulduz sanı.
Sazı alma, istə canı,
Sazsız məndə tab nə gəzir?
*15 yanvar, 1978-ci il, Bakı.*

**Aşıq Ənvərlə deyişmə**

Halva deyil söz soruşmaq,
İndi də sən bil, hansıdı?
Bu saz, bu söz çəməndirsə,
Çiçək hansı, gül hansıdı?
*
Qürrələnmə imkanına,
Ocaq nəsə, kül də odur.
Üz üzülməz, kəs kəsilməz,
Çiçək busa, gül də odur.
*
O nədir ki, yeyər-içər,
günü-gündən gözəlləşər.
Dörd ilgəkdi, düyün düşər,
İlmə hansı, mil hansıdı?
*
O torpaqdı, yeyər-içər,
O həyatdı, gözəlləşər.
O ömürdü, düyün düşər,
Gün də, ay da, il də odur.
*
Budaqlıdan umma kərəm,
İlişdirsəm sur verməzəm.
Zərbəsiylə kəl öldürən
şir hansıdı, fil hansıdı?
*
Mən İsayam, ağ eləmə!
Sazsız görüb, lağ eləmə.
Fəhm eləsən əməlimə
deyərsən ki: "Fil də odur..."
*16 yanvar, 1978-ci il, Bakı.*

## Birdi

Bir yerdə ki, haqq boğula,
Yox da birdi, var da birdi.
Bir vicdan ki, kar doğula,
Xoş da birdi, zor da birdi.
*
Öyüd vermə hər nadana!
Nadan nədir, mətləb qana?
Namus, qeyrət, ar satana
yad da birdi, yar da birdi.
*
Dil dustaqsa, könül gülməz,
Göz dustaqsa, dərd üzülməz.
Hakim olsa, qədirbilməz,
Yağ da birdi, şor da birdi.
*
Bir cür sürür ömrü hərə,
İstək, niyyət cürə-cürə...
Dirigözlü meyitlərə
ev də birdi, gor da birdi.
*
İsa haqqa nahaq deməz,
Haqq işə can əsirgəməz.
Nanəcibə, fərq eləməz,
"Can" da birdi, "çor" da birdi.
*21 yanvar, 1978-ci il. Bakı.*

## Eyləyəcək

Eşq odu, belə getsə, məni büryan eyləyəcək!
Qəlbi yoldan çıxarıb, cana divan eyləyəcək!
*
Ömrümün axarına məhəbbət şəlalə qoşub,
Zənnimcə, hay-harayı ağlı viran eyləyəcək!
*
Hələ ki, hicran ilə badə vurub, kef çəkirəm,
Deyəsən, kef çəkməyi yar qadağan eyləyəcək!
*

Hələ var, yar hicrinə kəm baxası halım ola,
Deyirəm, nə eyləsə, mənə, böhtan eyləyəcək!
*
Xoşam ki, gəlməmişəm yer üzünə, adsız öləm,
Haqq sözüm, pak əməlim gör, nə tufan eyləyəcək!
*
Şər işi, pis niyyəti boğmağı tapşırıb anam,
Hünərim çatmasa, dərd qəddi kaman eyləyəcək!
*
İsa, çox istədim ki, bildirməyim, baş tutmadı,
Bu qəzəl hər işimi xalqa bəyan eyləyəcək!

*22 yanvar, 1978-ci il. Bakı.*

**Sevgilim kimi**

Bir qeyri can bilmirəm, vəfada, sevgilim kimi,
Odur ki, əzizlərəm dəhanımda dilim kimi.
*
Eşqimin dəyişməyən ünvanıdır yarın könlü,
And olsun, tərk etmərəm axirət mənzilim kimi.
*
Candan artıq bildiyim övladımın anasıdır,
Bircə an onsuzluğum hicran deyil, ölüm kimi!
*
Ömrümü bəzəyibdir ülfətinin fırçasıyla,
Bir ömür varmı görən, günüm, ayım, ilim kimi?
*
Bir dəfə eşitmədim, dilindən bir giley çıxa,
Hər işdə gərəyimdir, minnətsiz sağ əlim kimi.
*
Haqq yoldan iraq düşsəm, uyub ucuz şan-şöhrətə,
Səhvimi nişan verər, inandığım təlim kimi!
*
İsa, yar fəziləti sığan deyil bir qəzələ,
Çünki, o, müqəddəsdir yurdum, dilim, elim kimi!

*27 yanvar, 1978-ci il. Bakı.*

## Nə ki, canın sağdı, döşə!

Belə fürsət düşməz ələ,
Nə bilirsən, vaxtdı, döşə!
Qorxma, yalan yarğan deyil,
Dildə sümük yoxdu, döşə!
Nə ki, canın sağdı, döşə!
*
Nə tez çıxdı de, buynuzun,
"a dilbilməz, fağır quzu?"
Saxlamağa yoxdu lüzum,
Kinin-kifin dağdı, döşə!
Nə ki, canın sağdı, döşə!
*
Fikir vermə ağa-boza,
Üyüt, salma dil boğaza!
Mən tək adam tanımaza,
hər nə desən, haqdı, döşə!
Nə ki, canın sağdı, döşə!
*
Haqqı-sayı unutmusan!
Bu, nə yoldu de, tutmusan?
Namus yeyib, ar udmusan,
Daha zaval yoxdu, döşə!
Nə ki, canın sağdı, döşə!
*
İsa haqdı, coşma əbəs,
Yel palıda kar eləməz!
Yox, demirəm səsini kəs,
Şərə üzün ağdı, döşə!
Nə ki, canın sağdı, döşə!

*6 fevral, 1978-ci il. Bakı.*

## Bilməmişəm

Vəslimə müştaq imiş ol işvəkar, bilməmişəm!
Yolumu gözləməkdən olmuş bezar, bilməmişəm!
*
İllərlə həsrətinin oduna büryan olduğum,
Bu giryan ürəyimdə tutmuş qərar, bilməmişəm!

*

Özgə vaxt arif olub, mətləb qannam işarədən,
Eşqini elan etmiş nazəndə yar, bilməmişəm.

*

Min dəfə and içmişəm, fəda qılam həyatımı,
Deyirlər, can gəzirmiş çeşmi-xumar, bilməmişəm!

*

Yar özü gizli deyib istəyini qulağıma,
Görünür, sevincimdən olmuşam kar, bilməmişəm!

*

Hazıram, qoyam nişan sinəmi şeşpər kipriyə,
Qıymayıb, pünhan atıb, ötüb kənar, bilməmişəm!

*

Zənnimcə, bağışlayar səhvimi sevgilim, İsa,
Çünki, saf etirafı özümə ar bilməmişəm.

*1 mart, 1978-ci il. Bakı.*

**Lələ**

Mən özüm görməmişəm,
Sən görən Penzanı, Lələ!
Onu şerə çəkməyə
o qüdrətim hanı, Lələ!
Nabələd yolçu kimi
tutmuşam gümanı, Lələ!
Sözümdə qələt olsa,
bağışla nöqsanı, Lələ!

*

Deyirlər, şaxtalıdı
payızı, qışı Penzanın;
Min illik yuxudadı
qayası, daşı Penzanın;
Şimala bağlanıbdı
əzəldən başı, Penzanın;
Odur ki, əskik olmur
çiskini, dumanı, Lələ!

*

Baharı çox gözəldi,
Yurdumun baharı kimi!
Qüzeydə qar bəsləyər,
Şah Dağının qarı kimi.

Eli zəhmət sevəndi,
İş üstündə arı kimi;
Qəribə mehribandı,
Çox sevir mehmanı, Lələ!
*
Eşitdim, Pənah yeznə
sizə briqadir gedibdi;
Knyazlar qoşalaşıb,
Fərman, Mahal bir gedibdi;
Əlləzi uşaq görüb,
Alyar bir təhər gedibdi;
Gözləsin Səhnə xanım
ustanız Hasanı, Lələ!
*
Xoş gündə yaradıbdı
təbiət, Hasan əmimi;
Özünə tay tutubdu
səxavət, Hasan əmimi;
Hər yerdə görübdülər
dosta mərd, Hasan əmimi;
Uduzmaz yeznə Pənah
uca tutsa onu, Lələ!
*
Yazırsan: Knyaz olub
halal-hazır daş ustası;
Hasandı dəstənizin
iş biləni, baş ustası;
Sən də ki, tədbir tökən,
ağsaqqal - yoldaş ustası;
Cızından çıxan olsa,
göstər yol-ərkanı, Lələ!
*
Mənbilən Səhnə xanım
çox gözəl aşbaz olası;
İşini görən zaman
heç nədə çaşmaz olası;
Payından küsənlərin
payı azdan-az olası;
Gözləsə, səhv eləməz
belə bir qaydanı, Lələ!
*

Kəmərin altı gərək
möhkəm ola, iş də gedə;
Erkəyin qabırğası
kabab olub şişdə gedə;
Aşbazın qızıl vaxtı
daima biş-düşdə gedə;
Sıxsulu bozartmadan
kəm qoyma Fərmanı, Lələ!

*

Deyirəm: inciməsin,
Knyaz da Mahal kimidi;
Fərman igid olsa da,
bir azca kahal kimidi;
Alyara yoxdu sözüm,
göz dəyməsin, kal kimidi;
Əlləzdi dəstənizin
subayı-sultanı, Lələ!

*

Olmayıb yoldaşlığım,
deyirlər ki, dincdi, Pənah;
Üzünü görməyəsən,
elə ki, çox içdi, Pənah;
Erməni yığnağında
bərkə-boşa düşdü, Pənah;
Deyirlər, çox gözləyir
orda adı-sanı, Lələ!

*

Alyarın kobudluğu
cümlə-cahana bəllidi;
Tamahda yoxdu işi,
yoldaşlıqda düz əllidi;
Yediyi halal olsun,
çox içdiyi yüzəllidi;
Sən allah, əsirgəmə
ona nasılkanı, Lələ!

*

Xalam oğlu dil ustası,
adaşı da ondan betər;
Bığaltı hey üyüdər,
insan olan haldan gedər;
Yorulmaq bilən deyil,

söyləməsən: bəsdi, yetər!
İş vaxtı aman vermə
uydura yalanı, Lələ!
*
Çox da bel bağlamayın
siz Pənahın Volqasına;
Çox güman bənzəri var
tərpənişdə yolbasana;
Ara-bir əl gəzdir ki,
qorxum odur, yolda sına;
Özün ki, çox görübsən
o cür qaltavanı, Lələ!
*
Hamınız şofersiniz,
vay o Volqanın halına;
İllah da ki, Alyar sürə,
sən baxasan əhvalına!
Xalam oğlu şijilləmə
qoşasıdı bil, dalına;
Gözlə ki, tək almasın
kələkbaz meydanı, Lələ!
*
İsayam, sözüm sizə
kabab üçün duz kimidi.
Bir qədər gop olsa da,
Bir qədər də düz kimidi.
Qəlbimdən qəlbinizə
nur saçan ulduz kimidi!
İzin ver, tamamlayım
bu kiçik dastanı, Lələ!

*8 may, 1978-ci il. Bakı.*

**Palıd**

Bir zirvə, bir yamac, bir dərə, bir qaş,
bir də yalqız qalan vüqarlı palıd...
Ürəyim göynədi, görməyəydim kaş,
Düzü, görməmişdim qübarlı palıd.
*

Odur, xısın-xısın üyünür torpaq,
Köklər asım-asım, ağ qotaz kimi.
Palıd ayaqüstə löngər vurur, bax,
Tarazlıq axtaran kəndirbaz kimi.
*
Elə qamarlayıb, elə tutub ki,
Torpaq caynağından qopası deyil.
Yamacın yalına elə yatıb ki,
Nə çovğun, nə boran tutası deyil.
*
Elə dərd də budur, yoxsa nə var ki,
Palıd palıd kimi yıxılsa, nə qəm?
Başında bir şimşək çaxsa, nə var ki,
Palıdı ildırım vurdu - deyərəm.
*
Ətrafa baxıram, ətraf sükutda,
Soyuqluq, dönüklük üzülməyən dərd.
Susur yal-yamac da, susur palıd da,
Dönüklük içində yaşamaq dəhşət.
*
Dərəyə baxıram, dərə nə dərə!
Günahsız bir meşə qəbristanlığı.
Fıstıqlar, vələslər sərilib yerə,
Söyüdlər pərişan, iydələr dalğın...
*
Zirvəyə baxıram, zirvə haçadı,
Hiylə diş qıcayıb, sal qaya düşüb.
Yamac yarıq-yarıq, parça-parçadı,
Meşə didik-didik - qəzaya düşüb.
*
Yamaca baxıram, neyləsin yamac?
Bir qaya meşəni güdaza verib.
Palıda baxıram, binəva ağac
Yarğanla, uçqunla qovğaya girib.
*
Uçquna baxıram, bu nə mənzərə?
Uçqun dağ qaşında qılınc yerimi?
Bələdçi olubsa kefli sellərə,
Qaya dağ başının qaxınc yerimi?...
*

Bir dərə, bir yamac, bir günahlı dağ,
Bir də sıldırımda tənha bir palıd.
Yarğan qılığına üyünür torpaq,
Xəyanət qəsdində tənhadır Palıd.

*28 iyun, 1978-ci il, Bakı.*

## Qurban olum

Gəl incimə, ömrüm-günüm,
xilqətinə qurban olum!
Elə baxma, şəhla gözün
şəfqətinə qurban olum!

*

Gözü qəmlə sürmələmə,
odu oda düymələmə!
Mürvət elə, zülm eləmə,
mürvətinə qurban olum!

*

Baxanmı var and-amana?
Qovruluram yana-yana!
Diqqət elə cızdaq cana,
diqqətinə qurban olum!

*

Hər töhməti uda-uda,
gülünc oldum bu dünyada.
Əsirgəmə, varınsa da,
töhmətinə qurban olum!

*

İçmə, hicran kasasıyam!
Dəymə, töhmət qisasıyam!
Dağlasan da susasıyam,
hiddətinə qurban olum!

*

Təki qoru adı-sanı,
ilk Vüsalı, son Vəfanı.
Buyurduğun hər cəfanın
şiddətinə qurban olum!

*

Görüş qaldı son bahara,
vallah, yoxdu özgə çara.

Günahkaram, çəkdir dara,
zillətinə qurban olum.
*26 oktyabr, 1978-ci il. Bakı.*

## İllər

Bir ahım od aldı bir şux baxışdan,
Qolunu boynuma doladı illər.
Vurğun heyrətimin dili tutuldu,
Qımışıb başını buladı illər.
*
Aldı qanadına od-ilham kimi,
Basdı sinəsinə öz anam kimi.
Əriyə-əriyə yanan şam kimi,
Ömrünü ömrümə caladı illər.
*
Gördüm nəşəni də, gördüm dəmi də,
Tamarzı-tamarzı yedim qəmi də.
Mən özüm cəhənnəm, sevdiyimi də
Məni yaxan oda qaladı illər.
*23 dekabr, 1978-ci il, Bakı.*

## Əyləmişəm

Təpədən-dırnağa düyünəm, dağam,
Ömrümü həm qovub, həm əyləmişəm.
Nə vüsalım bəlli, nə də hicranım,
Özümü bir eşqə yem əyləmişəm.
*
Varlığımda bahar, görkəmimdə qış,
Fikirdən buludam, həsrətdən yağış.
Nəğməmin sədası dilə çatmamış
zili sərib-səpib, bəm əyləmişəm.
*
Ağıl üyüşməmiş, saçda qara yox,
Saqqala dən düşüb, gözdə qora yox.
Hələ ki, dözürəm, özgə çara yox,
Hayıf ki, dözümü kəm əyləmişəm.
*

Qovuşa-qovuşa xeyirə, şərə,
ürək yedəklənir göz görə-görə.
Sinəmdə sarala qalan güllərə
gözümün ucunda nəm əyləmişəm.
*
İnsanam, hər günü alqışlasam da,
Könlümü ümidlə naxışlasam da,
Ömrü yelə-quza bağışlasam da,
ağlımı başımda cəm əyləmişəm.
*20 yanvar, 1979-cu il, Bakı.*

**Ağlama, oğlum!**

Yuxunda nə gördün belə,
gül bənizin döndü külə?
Gözümdən od silə-silə
səadətə səs vermişəm;
Ağlama, oğlum, ağlama!
Qurbanın olum, ağlama!
*
İnamına bel bağlayan,
Öz haqqını soraqlayan,
Alovları torpaqlayan
hər millətə səs vermişəm;
Ağlama, oğlum, ağlama!
Qurbanın olum, ağlama!
*
Harda fəryad, orda varam,
Harda zülmət, orda nuram;
Darda-gendə möhkəm duran
dəyanətə səs vermişəm;
Ağlama, oğlum, ağlama!
Qurbanın olum, ağlama!
*
Anam torpaq, atamsa nur,
Yurd-yuvamız nur yurdudur!
Sülh istəyim bir ordudur,
Ədalətə səs vermişəm!
Ağlama, oğlum, ağlama!
Qurbanın olum, ağlama!
*21 yanvar, 1979-cu il. Bakı.*

## Qalanını deyəmmərəm

Mənə qalsa, oddu canım,
Qalanını deyəmmərəm.
Bir məhəbbət daddı canım,
Qalanını deyəmmərəm.
*
Vuruldunsa, haqqa güvən,
Ayrıldınsa, baxta küsən.
Yoruldunsa, vaxta söykən,
Qalanını deyəmmərəm.
*
Naxışdısa, ustadı var,
Baxışdısa - muradı var.
Alışdısa, fəryadı var,
Qalanını deyəmmərəm.
*
Yanaqdasa, aldı yəqin,
Buxaqdasa, xaldı yəqin,
Dodaqdasa, baldı yəqin,
Qalanını deyəmmərəm.
*
Can oduna can dayanar,
Can dediyin candı, ya nar?
Can odusa, canda yanar,
Qalanını deyəmmərəm.
*
İsadısa - dəryada dürr,
Qısadısa həyatı - nur.
Susadısa, bayatı ver,
Qalanını deyəmmərəm.
*21 yanvar, 1979-cu il, Bakı.*

## Diş ağrısı

Sapasağ bir dişim göynər qalıbdı,
Dərdi xısın-xısın dağlayır məni.
Nə çarə tapıram, yetəm dadına,
nə də o kiriyib, saxlayır məni.
*

Dil dəridən çıxır ovundurmağa,
Tüyünür, təntiyir dəyir damağa.
Qımışır, söykənib dodaq dodağa,
Bu da bir tərəfdən oxlayır məni.
*
Binəva qulağım kardı elə bil,
Boynumun damarı quruyub mil-mil.
Başımın bir yanı mənimki deyil,
Gözüm diri-diri ağlayır məni.
*
Zalımın yolunda yansa da canım,
fərqinə varmayır yaxşı-yamanın.
Neyləyim, əlindən bu Zırramanın
hayana qaçıram, haqlayır məni.
*
Dözürəm, getmirəm həkimsə baxa,
İnadım dərd olub arvad-uşağa.
Dost dostu çətində salar sınağa,
Deyirəm bəlkə də yoxlayır məni.
*4 aprel, 1979-cu il, Bakı.*

**Axır ki!**

Ağzın ağı dadsın, ağrıyan dişim!
Ağrını ağzıma təpdin, axır ki!
Çoxdandı qəsdimə durmaqdı peşən,
olan dincliyimi qapdın, axır ki!
*
Pisniyyət-pisniyyət göynədin hər gün,
Od saldın canıma. Buydu öldüyün?!
Aman qulac-qulac, ah düyün-düyün -
səsinə səs verən tapdın, axır ki!
*
Başa düş! Dərdimi anladı həkim!
Günah özündədir, nə danış, nə din!
İynə keyikdirdi, çəkdi kəlbətin,
Anqıra-anqıra qopdun, axır ki!
*25 may, 1979-cu il, Bakı.*

## Bir dəli şeytan deyir

Harayım köz üstədi,
Eşidən: -"can-can!"- deyir.
Ümidim düyün-düyün,
Görən: -"döz, dayan"-deyir.
Ya verə, ya apara!
Bir dəli şeytan deyir,
dur, qadasın al bunun!
*
Mürvətsizin qəsdi nə?
Durub belə qəsdimə!
Qırğı kimi üstümə
şığıyıb, qan-qan deyir.
Mən hara, qan-qan hara?...
Bir dəli şeytan deyir,
dur, qadasın al bunun!
*
Cana şərik canımdan!?
Həzz alır fəğanımdan.
Gündə yüz yol yanımdan
ötüb, "alış-yan!"-deyir.
Neyləyim mən biçarə?...
Bir dəli şeytan deyir,
dur, qadasın al bunun!
*
Dili baldı, nabatdı,
Boy-buxunu babatdı!
Həm nazlı, həm inaddı,
Gah "gəl", gah "dayan" deyir.
Qalmışam lap avara!...
Bir dəli şeytan deyir,
dur, qadasın al bunun!
*
Çeşməyəm, yol üstəyəm,
Təşnəyə bol istəyəm.
Dil açır lal istəyim,
"Dilinə qurban!"-deyir.
Cürətin üzü qara!...
Bir dəli şeytan deyir,
dur, qadasın al bunun!

Bir dəli şeytan deyir: -
Dur! Xatası var bunun!
*21 iyun, 1979-cu il, Bakı.*

## Düyündən-düyünə

Gərilidi qırılınca,
nədir axı itiyi, nə?
Açılırıq, düyülürük
bu düyündən o düyünə.
*
Arzu dadlı, mənzil uzaq,
Min diləyə təşnə dodaq...
Ümid axır, ümid, ancaq
bu düyündən o düyünə.
*
Hər düyünü ötdükcə biz,
boşa çıxır bir əlimiz;
adiləşir əməlimiz
bu düyündən o düyünə.
*
Qoşa simdi haqqla nahaq,
bunu tərpət, dön ona bax.
Yarımçıqlar qalaq-qalaq
bu düyündən o düyünə.
*
Gözümüzdə qarışar şər,
Dilimizdə giley bişər,
Ala-bula xallar düşər
bu düyündən o düyünə.
Vay o günə, vay o günə!
*1 iyul, 1979-cu il, Bakı.*

## Bədbin və nikbin

- Bu nə düyün, nə bənddi?
Düyün düyünə bənddi.
Arzu dadlı, ömür kəm,
göz gördüyünə bənddi.
Tutma yaza tən məni,

doğmaz təzədən məni,
gəl qınama sən məni,
vallah, fırıqdı dünya,
ipiqırıqdı dünya.
*
- Elə demə, ay qəmim!
Arzum, ruzum, həmdəmim...
Nur istəkli səyyaham,
zülmət yarır yelkənim.
Eşqə rüsxət alınca,
vəslə çatdım kamımca.
Düşmüşəm ad dalınca,
varaq-varaqdı dünya,
sirdi-soraqdı dünya.
*
- Yarat gedənə kimi,
ömür bitənə kimi.
Üyüdür hər yetəni
ovxarlı çənə kimi.
Bir yandan da qan-qada,
fitnə-fəsad, şər-xata
baş qaldırır dünyada.
Qarnıyırtıqdı dünya!
Şərə ortaqdı dünya!
*
- Ağlamışıq gələndə,
gərək gülək öləndə.
Şaqrasın qəh-qəhimiz
üstünə əcəlin də!
Nə şər-xata, nə dava?
Nədir bu qəmli hava?
Vallah, qalsa insafa
şərdən iraqdı dünya,
çıraq-çıraqdı dünya.
*
- Uyma felə, bal dilə,
tut haqqı, çat mənzilə.
Ərzi qana sürüyən
qansızı qana bələ!
Düzül beş barmaq təki,
düyül bir yumruq təki!

Yoxsa, şər əlindəki
betər yaraqdı, Dünya!
Sayıq dur, vaxtdı, Dünya!
*
- Andımız ana südü,
bir də ata öyüdü.
Biz nurdan yoğrulmuşuq,
zülmət nurun nəyidi?
Şərə çəpər çəkərik,
qəlblərə nur əkərik,
dayanar Dur Dağı tək
sinəsi dağlı dünya,
bağçalı, bağlı dünya.
*4 sentyabr, 1979-cu il, Bakı.*

## Tapmaca

Ekranda film gedir -
qandı, qadadı...
Xülasə, davadı.
Kişilər tamaşa edir -
ikisi oğul,
ikisi ata,
biri babadı,
biri də nəvə.
Kişilər yığılıblar evə!
Bir ata hönkürür,
o biri dinmir.
Oğulun biri gülür,
biri sevinmir.
Baba gözünü sıxır,
nəvə isə uğunur.
Bir ata-oğul
isə tərəddüdə qul.
Qəribədir!
Biri ağlayır,
biri susur,
biri gülür.
Biri görüb,
biri bilir.

Bəs o biri?
Kim bilir?!...
*20 noyabr, 1979-cu il, Bakı.*

## Növbə

\- Axırıncı kimdi?
Bir kişi dindi: -
Axırıncı mənəm,
mənəm, oğul, mən.
\- Əmi, Siz kimdən?...
\- Axırıncı kişidən...
Düzüldülər,
çoxaldılar
axırıncılar.
Sonra isə
bir-bir keçib,
birinci oldular
axırıncılar.
*20 noyabr, 1979-cu il, Bakı.*

## Qayıt gəl

Ay məndən xəbərsiz inciyib gedən,
Nə deyim bu məchul gedişə axı?
Haqqı ortaya qoy, bu mən, o da sən,
Biz ki, bir can idik həmişə axı!
*
Yaxşı, bəs dünyaya bildirməyin nə?
Aləmi üstümə güldürməyin nə?
Məni dirigözlü öldürməyin nə?
Mürvətsiz, söylə nə demişəm axı?!
*
Hər ötən anımız bir dünya sevinc,
Arzu köhlənimiz durardımı dinc?
İndi sən mötəbər, mən isə gülünc -
Tənələr, töhmətlər yemişəm axı!
*
Udub düşüncəmi dibsiz bir sükut,
Azmışam gümanda, gəl, əlimdən tut.

Yanlış qərarını səbrimdə qurut -
Gözümün yaşıyla yumuşam axı!
*
İsayam, olanım quru adımdı,
Könlüm də, evim də atım-atımdı.
Qayıt gəl, sanma ki, zarafatımdı,
Həsrətdən saqqalı gümüşəm axı!
*24 noyabr, 1979-cu il, Bakı.*

**Amandı, təzə il!**

Ay əhdimin qönçə vaxtı gələn il,
gəlişinə qurban!- deyim, deməyim?
Ömür şirin, dolanmaq da bəd deyil,
Heç bilmirəm niyə dindi gileyim?
*
Düzü, səni qısqanıram dünyaya,
Qorxuram ki, aldanasan felə sən.
Uşaq kimi şirnikəsən qovğaya,
Axı, pis üz görməmisən hələ sən!
*
Qorxuram ki, bər-bəzəkli hay-küyün
ilğımında qızınasan, qızasan.
Bu şad gündə qəlbimdəki, gördüyün
təlaşımı başqa yerə yozasan.
*
Mən neyləyim, yaşın bu məqamında
aldanmaq da, inanmaq da çətindi.
Qınayımmı səni öz məramında,
yerli-yersiz qınanmaq da çətindi.
*
Qüdrətinə, sərvətinə baxma gəl,
əyni-başı sırıq-sırıqdı Yerin.
Harınlaşan, azğınlaşan, kür, dəcəl
övladından qəlbi qırıqdı Yerin.
*
Bir əlində qızıl bayraq tutsa da,
bir əlində yarası var dünyanın.
Bir gözündə muradına çatsa da,
bir gözündə qorası var dünyanın.
*

Vaxt olub ki, nahaq haqqı boğubdu,
Göz yumubdu səndən əzəl gələnlər.
Ürəklərə qızmar yağış yağıbdı,
Lal olubdu səndən əzəl gələnlər.

*

Düşünmə ki: adətidir İnsanın,
gileylidi zamandan nə zamandı!
Bu dolaşıq işlərini dünyanın,
gəl, bir təhər sahmana sal, amandı!

*18 dekabr, 1979-cu il. Bakı.*

**Bu da bunun burası**

Könül sevər, göz tutar,
Ağıl qovar, göz tutar.
Göz tutdusa, döz, qurtar,
Bir dözümdü çarası.
Bu da bunun burası!

*

Həsrət gözə qəm calar,
həm çiləyər, həm calar.
Yeddi rəngli damcılar
yeddi fəryad qorası.
Bu da bunun burası!

*

Bir İsa, bir el-oba,
Bir od-ocaq, bir yuva.
Bir Vüsaldı, bir Vəfa,
bir də canın yarısı.
Bu da bunun burası.
Bəs axırı? Sonrası?...

*19 dekabr, 1979-cu il, Bakı.*

**Məkan-zaman içində**

Badi-badi kiriftar,
hamam hamam içində.
Dərə xəlvət, tülkü bəy!

Xəlbir saman içində.
İnam, ümid, həqiqət
Şübhə, güman içində -
quldurlar cövlan edir
hələ ümman içində.
*
Ordan bir tazı çıxdı
başında xaltası yox.
Şər düşmədi dilindən,
işinin xatası çox.
Pol-Pot qəssaba döndü,
əlində baltası, bax! -
zavallı Kampuçiya
üzdü al qan içində.
*
Kapital iş buyurdu,
Sədat azdı, qudurdu;
Kemp-Devid tinində,
günü itin günündə...
İsrail şıllaq atdı,
ərəbin yurdu batdı -
Fələstin qaçqınları
öldü Livan içində.
*
Şah bazara çıxartdı
məmləkətin qanını.
Öz adına yazdırdı
xalqın şərəf-şanını.
Ölümdən qaçaq düşdü,
qorudu öz canını -
dolandı ölkələri
zireh-zindan içində.
*
Əldən çıxdı müftə yem,
Kapital ac qurd kimi!
Minbir oyundan çıxdı
İmperiyanın hakimi.
Cahat da bir tərəfdən,
zillət birmi, ikimi? -
Fəlakət tüğyan etdi
dərdli İran içində.

*

Nahaq haqqa şər atdı,
Ağ yalan ərşə çatdı.
Taxtabiti silahlar
balaladı biqərar -
ağcaqanad raketlər,
orta mənzilli bitlər,
"Emikslər" törədi
Karter, Reyqan içində.

*

Kosmosa əl atdılar,
Gör nələr yaratdılar -
Çoxbaşlı əjdahalar,
min fəsadlı kahalar,
radiasiyalı naxışlar,
bakteriyalı yağışlar...
Avropa uysa felə
Dünya duman içində.

*

Göydən üç alma düşdü,
düşən kimi büzüşdü.
Saç-saqqalı gümüşəm,
belə şey görməmişəm -
çiçək itdi, gül itdi,
"Təmiz Neytron" bitdi -
vara dəymədi, canı
aldı bir an içində.

*

Bu sonuncu yuxuydu,
əslindəsə yoxuydu.
Gözəl günlər variydi,
toy-düyünlər variydi,
məzə-maraqlı dünya,
sirli-soraqlı dünya
gedirdi aram-aram
məkan-zaman içində.

*20 dekabr, 1979-cu il, Bakı.*

## Düşərsən

Ay məni tay əldə tutmaq istəyən,
Çox da havalanma, dara düşərsən!
Bir dəvə yüküdü, hər filin gönü,
Fikrinə kişə de, zora düşərsən!
*
Könlü tox, gözü tox azad bir quşam,
Özgə qismətinə dadanmamışam.
Dostuma baharam, düşmənə qışam,
Borana düşərsən, qara düşərsən!
*
Bu ellər bilir ki, dəyanətim var,
Əhdimə, sözümə sədaqətim var.
Al şəfəq misallı saf niyyətim var,
Dağa-daşa düşmə, tara düşərsən!
*
Haqqa qənim durma, bir gün haqlayar,
Bağrıyın başını çarpaz dağlayar.
Əlini-qolunu elə bağlayar,
Gözün görə-görə gora düşərsən!
*
Xiffət qurd yuvası qurub canında,
Odur ki, quduzluq artır qanında.
Hərlənmə özgənin asimanında,
Qanadın qırılar, yerə düşərsən!
*
Unutma, yad qapı döyməmişəm mən!
Qəddimi heç kəsə əyməmişəm mən.
Elə gəliş gəlləm...Əl dəyməmişkən,
Özün də bilməzsən hara düşərsən!
*
Mən sözü boş yerə deyən deyiləm,
İtirmə özünü, kişiliyi kəm!
Dibsiz iştahına çoxdan bələdəm,
Ağlını cəm elə, tora düşərsən!

*14 yanvar, 1980-ci il. Bakı.*

## Yeddi bilmə yeddiləri

Yeddi bilmə yeddiləri,
Yeddi - Gözəl, yeddi - Pəri.
Çənlibelin igidləri,
Yeddi yeddi yeddi yeddi.

*

Adsız gəldi, addı getdi,
Ovxarlandı, oddu getdi.
Hər bütövdə yeddi getdi,
Yeddi getdi yeddi-yeddi.

*

Yeddi ulduz, yeddi Həcər,
Yeddi çalar, yeddi təhər;
Yeddi səslə dedik nələr...
Yeddi yetdi, yetdi yeddi.

*

Yeddi muğam havacatı,
Yerin-göyün yeddi qatı;
Yeddi heca - şux bayatı,
Yetdi, getdi yeddi-yeddi.

*

Yeddi bilmə yeddiləri,
Yeddi bürcün yeddi sirri;
Yeddi - ömrün gədikləri,
Əydi qəddi yeddi yeddi.

*18 iyun, 1980-ci il, Bakı.*

## Koroğlunun bizə səfəri

Uca-uca dağ başında
yenə Cəngi havası var!
Meydan açıb Cünun Dədəm,
Üç telli saz sədası var!

*

Mizrab telə, tel pərdəyə
bir mətləbi öyə-öyə
haray salıb yerə-göyə -
Qovğası var, qadası var!

*

Bir cüt bulud - qoç döyüşü!
Dağa-daşa səda düşüb.
İki igid dost görüşür -
Şeşpərinin haçası var!
*
Ara-sıra şimşək səsi -
Qırın, Dürün kişnərtisi!
Hər gurultu - qoç nərəsi!
Gör neçə əks-sədası var!
*
Nə müddətdi, bir yaxşı bax!
Davadadı haqqla nahaq.
Hiylə-hoqqa çataq-çataq,
Düyünü var, qotazı var!
*
Yalan izlər həqiqəti,
Niqab gizlər bəd sifəti.
Mehtər Murtuz xəyanəti,
Keçəl Həmzə xatası var!
*
Pusqular var dolaylarda,
Namərd qalıb orda-burda.
Göz dikənə ana yurda,
Koroğludan çatası var!
*
İsasıyam Qor oğlunun,
Ziyasıyam Nur oğlunun!
Bulasıyam, Koroğlunun
qəbri yoxdu, Qalası var!
Mən getsəm də qalası var!
*7 iyul, 1980-ci il, Bakı.*

## Yarızarafat

Əyriqara qonaq getdim,
Öpdü, qucdu dağlar məni.
Bir zamanlar atam kimi,
atdı-tutdu yollar məni.
*

Hoya yetdim düz Çataqda,
Əldən tutdum bəd ayaqda.
Gün darıxıb yaxhayaxda
qarşıladı ellər məni.
*
Əlxan yeznə, Rza, Sarı
düzüb qoşdu bu ilqarı.
Kefim hər kefdən yuxarı,
Qucaqladı qollar məni.
*
Qoyun kəsdi Baş bacanaq,
Gülxanıma halaldı dağ.
Bu hörməti necə danaq?
İnsaf, mürvət neylər məni?
*
Bu yerlərin tığdı qarı,
Diş göynədir bulaqları.
Suya qoydum araqları,
Alqışladı dillər məni.
*
Qələmzər şer istədi,
"Bu yerə bir tərif"-dedi.
O gəlinin bu niyyəti
söz dalınca teylər məni.
*
Çobanlar enib gəldilər,
Yeyib-içib düzəldilər.
Qız-gəlinlər gözəldilər,
Bu məhəbbət toylar məni.
*
Emindən aldım sorağı,
Görüşdük lap axşam çağı.
Yola qıymadı qonağı,
Bu mərifət boylar məni.
*
Dar kabinka, dəmir kuza,
Beş-on toğlu qoydu Rza.
Balon göndərdilər qaza,
Uğurladı əllər məni.
*

Vilayətin boz şalvarı,
Nurəddinin üst paltarı,
mizə batdı, yaşıl-sarı...
Bu hal haldan eylər məni.
*
Yarıcanam, kefli idim,
Məclis üstə şer dedim.
Yaddaşda elə bərkidim,
Silə bilməz illər məni.
*16 iyul, 1980-ci il. Dağ-Arıxlı.*

**Qurdalama!**

Doğru dolan, dərdin alım!
Fitnə-feli qurdalama!
Nə sonsuzu, nə dilsizi,
nə qozbeli qurdalama!
*
Yaxşılıq ək, yaxşılıq biç!
Haqq yolunda canından keç.
Od-alovdan çəkinmə heç,
Ancaq külü qurdalama!
*
Hər yetəni sanma kişi,
Yoldaş tutma çoxbilmişi.
Gözü göyü, seyrək dişi,
bir də çili qurdalama!
*
Qurd nədi ki, nə imdadı!
Bir gör nədi əsli-zatı!
Şirin görüb zarafatı,
haçadili qurdalama!
*
Əlindədi ad da, san da,
İsa kimi nur ol canda!
İşdi, təzə yol açsan da,
köhnə yolu qurdalama!
*2 avqust, 1980-ci il. İridaş.*

## Bir də mən

Bir eşq üçün göz açmışıq dünyaya,
bir buz bulaq, bir göy çəmən, bir də mən.
Bir vüsalın təşnəsiyik nə vaxtdı,
bir şehli dağ, bir dərdimən, bir də mən.

*

Bir tərəfdə yastı təpə, göy meşə,
bir tərəfdə sal qayalar döş-döşə.
Göz-gözəyik, yerimiz dilbər guşə,
bir xoş sazaq, bir çəngə çən, bir də mən.

*

İsa, demə, yerin-göyün bəsiyik,
bu dünyanın min xallı nəğməsiyik.
Bir həsrətin dağ-dağ olan səsiyik
bir tək otaq, bir gülbədən, bir də mən.

*10 avqust, 1980-ci il, Bakı.*

## Ay bacanaq

İridaşda, bulaq üstə
məclis quraq, ay bacanaq.
Nə müddətdi görüşmürük,
gəl, oturaq, ay bacanaq.

*

İsti çörək, sulu kabab,
soğan, salat, duz, narşərab...
Bacarırsan, araq da tap,
az-az vuraq, ay bacanaq.

*

Şişi bir-bir götür ələ,
quyruqdan bir şişlik elə.
Beş-on kartof basdır külə,
gözdən iraq, ay bacanaq.

*

Badə vuraq, söz eşidək,
Ata-baba peşkəşi tək.
İgid oğlu, ər kişi tək,
mətləb soraq, ay bacanaq.

*

Hər yetənə yetməz İsa,
Fitnə-felə getməz İsa.
Vaxtın beli qırıldısa,
Tərpən, duraq, ay bacanaq.

*14 avqust, 1980-ci il. İridaş.*

**Uzaqda qaldı**

Bir narahat qayıqdım,
Dənizdən çaya çıxdım;
Zirvədən geri baxdım -
Ümman uzaqda qaldı.

*

Yol yola ilmə saldı,
Zirvə xəyala daldı.
Buludun gözü doldu,
Leysan uzaqda qaldı.

*

Çən çöksüdü yollara,
Günlər gördüm, ağ-qara.
Haray! - dedim dağlara,
duman uzaqda qalda.

*

Dağa ildırım düşdü,
bir tərəfim üyüşdü...
Qəfil qada süyüşdü,
Tufan uzaqda qaldı.

*

Ömrüm boyu öydüyüm,
Önündə baş əydiyim,
Öpüb, qucub, sevdiyim
liman uzaqda qaldı;
Yaman uzaqda qaldı.

*27 avqust, 1980-ci il, Bakı.*

**Nə yaxşı qayıtdın**

Nə yaxşı qayıtdın, ay ömrüm-günüm!
Yoxsa rahatlığım perikəcəkdi!

Yapışıb yaxamdan dəli intizar,
Kim bilir, hayana sürüyəcəkdi?
*
Nigaran-nigaran baxıb yollara,
Gözüm çəkəcəkdi yolları dara.
Nə yaxşı qayıtdın, yoxsa zil qara,
Fikirlər üstümə yeriyəcəkdi.
*
Nə yaxşı qayıtdın, yaz yağışı tək,
Gəlişin könlümü bəzədi rəng-rəng.
Əgər qayıtmasan, bu çılğın ürək,
Sənsiz yetim-yetim kiriyəcəkdi.
*
Güman azacaqdı şübhə çənində,
Tənha qalacaqdım dərdin önündə.
Nə yaxşı qayıtdın bu dar günümdə,
Gəlməsən, gözdə nur əriyəcəkdi;
Nə yaxşı qayıtdın, nə yaxşı, əhdim!?
*7 sentyabr, 1980-ci il, Bakı.*

**Nizami**

Kəpəz silkələndi -
zirvə bölündü.
Uçqun dağ başında bir gözəl doğdu.
Gəncə silkələndi -
Göy yerə endi,
zəlzələ zülmətdə bir məşəl doğdu.
*
Məşəl Günəş oldu fövqündə Yerin,
Zülmətin üstünə nur ələdi o.
Xeyirin gözünü çıxaran Şərin,
İşıqla, özünü kor elədi o.
*
Çoban hüzuruna gətirdi Şahı,
Quş dili öyrətdi çox nadanlara.
Hikmətdən dərs dedi şerin allahı,
Başıboş, gözüac, ağzıqanlara.
*

Apağı apardı əcəlin əli,
Məcnunun qəmində xəyalı azdı.
O, mələk misallı "Yeddi Gözəl"i,
Yeddi rəngli oddan yoğurdu, yazdı.
*
Nüşabə yaratdı İskəndər üçün,
Zəriflik sərtliyi pul-pul elədi.
Bir Fitnə böyütdü Bəhram-Gur üçün,
Zirəklik heyrəti bir qul elədi.
*
Şirin Xosrov üçün şirindən-şirin,
Hökmdar kiridi eşqin önündə.
Şirin Fərhad üçün canı hünərin,
Bisütun əridi eşqin önündə.
*
Əmək adamını, ulu varlığı,
Çəkdi açıqlığa pərdə dalından.
Zəhmətə bağladı bəxtiyarlığı,
Kərpic kəsə-kəsə ucaldı İnsan.
*
Çox sirli sualın düz cavabını,
Nizami çoxundan çox əzəl dedi.
Ömrün həm kefini, həm əzabını
Öz rəvan diliylə çox gözəl dedi.
*
Yaşadı, yaratdı qəm dada-dada,
Gecəni gündüzə qatdı Nizami.
Özü uydurduğu azad dünyada
Əbədi şöhrətə çatdı Nizami.

*20 sentyabr, 1980-ci il, Bakı.*

## Qurban olum sənə, Vətən!

Kim nə deyir-desin, nə qəm,
Ruhum sənsən, Ana Vətən!
Bir an səndən ayrı düşsəm,
Ömürüm çatar sona, Vətən;
Qurban olum sənə, Vətən!
*

Həm anamın anasısan,
həm sonamın anasısan,
həm balamın anasısan,
Deyim dönə-dönə, Vətən:
Qurban olum sənə, Vətən!
*
Ağlın ulu, eşqin ulu,
Səndən keçir haqqın yolu.
Gözün, könlün sevgi dolu,
Məhəbbətə binə Vətən,
Qurban olum sənə, Vətən!
*
Yağı yortdu düzlərində,
Qan üyüşdü gözlərində
Tab qalmadı dizlərində,
Uf-demədin yenə, Vətən;
Qurban olum sənə, Vətən!
*
Səhran qızıl, çölün qızıl,
Çayın qızıl, gölün qızıl,
Qəlbin qızıl, dilin qızıl,
Par-par yanır sinən, Vətən;
Qurban olum sənə, Vətən!
*
Bayrağın al, səfərin al,
Kəndlərin al, şəhərin al,
Axşamın al, səhərin al,
Çatmısan ağ günə, Vətən;
Qurban olum sənə, Vətən!
Qurban olum sənə, Vətən!

*30 sentyabr, 1980-ci il. Bakı.*

## Vətən eşqi

Bir sevgi var ürəyimdə, Vətən üçün bəsləmişəm.
Neçə-neçə saf duyğumu bu eşq üçün səsləmişəm.
*
Gədik-gədik, yamac-yamac, kaha-kaha aramışam,
Bu sevgini varlığıma meşə-meşə sırımışam.
*

Cığır-cığır kirkidləyib, zirvə-zirvə düyləmişəm,
Qaya-qaya qulaqlayıb, dərə-dərə teyləmişəm.
*
Qaynar-qaynar bulaqlarda qaynaq tutub, dağ olub o,
Qoşalaşan ürəklərdə məndən əzəl doğulub o.
*
Vətən eşqi - bu ülvi hiss can odumdu, qanadımdı,
Qətrə-qətrə yaratdığım həyatımdı, muradımdı.
*
Bu sevgimi çox görməsin ömür mənə, ürək mənə,
Dinlə məni elim-günüm, bircə sənsən gərək mənə.
*
Dinlə məni, ümidlərim qönçə-qönçə üzülməsin,
Dinlə məni, bu eşqimə ilmə düşüb süzülməsin!
*24 oktyabr, 1980-ci il. Bakı.*

**Salam, ay təzə il!**

Salam, ay təzə il, xoş gördük səni!
İllərə nə gözəl il calanıbdı!
Ülvi bir niyyətlə doğan hər səhər
sanki arzumuzdan mayalanıbdı.
*
Göllər naxışlanır...Sazağa bax bir,
zövq ilə hər yana min naxış çəkir -
ağbirçək Təbiət gəlin gətirir -
meşələr, çəmənlər xınalanıbdı.
*
Bulud kövrəlibdi, birçəyində qar...
Torpağın alnında ağarır yollar,
Yamacın canında üşütmələr var -
zirvələr bəmbəyaz cunalanıbdı.
*
Obalar bəxtəvər, ellər bəxtəvər -
Hayana baxırsan, gül tək, təmiz-tər.
Ağappaq bələklər - məsum körpələr -
bildirki gəlinlər analanıbdı.
*
Gəl-gəl, xoş gəlirsən Azərbaycana!
Toy-toya qarışıb, nişan-nişana!

Oğul istəyir ki, dözə, dayana -
Vətən başdan-başa sonalanıbdı.
*12 dekabr, 1980-ci il, Bakı.*

## Mən mənəmsə...

Sel qayadan atıldısa - Şəlalədi!
Şəlalə tək ələyənəm hisslərimi.
Gül həyadan tutuldusa - tər Lalədi!
Təmizliyə bələyənəm hisslərimi.
*
Gah coşanam, gah da bir az səngiyənəm,
Nahaq görsəm təntiyənəm, təngiyənəm.
Ləngidimsə, ülvilikdə ləngiyənəm -
Əsir-yesir eləyənəm hisslərimi.
*
Haqq sözümü kal dəmərəm, üz turşuda,
Neçə-neçə görəcəyim var qarşıda.
Ömür adlı bu qovğada, bu vuruşda
teyim-teyim teyləyənəm hisslərimi.
*
Rəğbətimi paylayanam bütöv-bütöv,
Nifrətimi boylayanam bütöv-bütöv,
Hiddətimi düyləyənəm bütöv-bütöv,
Mən mənəmsə, bölməyənəm hisslərimi.
*26 dekabr, 1980-ci il, Bakı.*

## Sizsiniz

Nağıllı-nəğməli bahar ömrümün
al-əlvan çiçəyi-gülü sizsiniz.
İllərin qoynunda çağlar ömrümün
ləngəri, ləpəsi, seli sizsiniz.
*
Əzəli eşqimin nübarı, dadı,
Fikrimin, hissimin, arzumun odu,
Əhdimin, andımın ən təmiz adı,
Ruhumun ən titrək teli sizsiniz.
*
İşığa qərq olan əməlim, işim,
Dünyada ən uca bir yüksəlişim,

Əşrəfim, mirvarim, ləlim, daş-qaşım...
Ləlsiz evimin ləli sizsiniz.

*

Aydan arı olun, sulardan duru,
Ləkədən qoruyun adı, qüruru!
Əlaman, əlaman, gözümün nuru!
İsanın ağzında dili sizsiniz!

*24 avqust, 1981-ci il. Bakı.*

## Oldu

Ürəyimə bir od düşdü,
Heç bilmədim nədən oldu.
Sol döşümə köz yapışdı,
Sol kürəyim zədən oldu.

*

Düz yoldaca təpələndim,
Yıxılmamış qəlpələndim.
Min ürəyə səpələndim,
Buna qibtə edən oldu.

*

Yığıldı eşidən-bilən,
Ümid gətirdi hər gələn.
Dörd yanımda deyib-gülən,
Başım üstə bitən oldu.

*

Uzanmışdım ağ otaqda,
Ağ gün doğdu qara baxta.
Son ümidim yaxhayaxda
Zöhrə hoya yetən oldu.

*

Tanrı sizi darda bulsun!
Ürəyiniz nurla dolsun!
Qada-bala uzaq olsun,
Getdi, dərd o gedən oldu;
İlim-ilim itən oldu.

*10 sentyabr, 1981-ci il. Bakı.*

## İndi

İynədən, dərmandan zəhləm gedərdi,
Gözümün düşməni həb atan idi.
Neynim, zəlil qalsın, görüm, bu dərdi!
Gərək iynələnəm, həb atam indi.
*
Yandım bir sevdanın közünə, yandım!
Astarına yandım, üzünə yandım,
Baxmadım ağına-bozuna, yandım...
Gərək az çalışam, çox yatam indi!
*
Saldım ürəyimi dağa-daşa mən,
Saldım, yerli-yersiz bərkə-boşa mən.
Teylədim ömrümü yazdan qışa mən,
Bircə sağ can üçün səyyadam indi.
*
Üç ayaq pillədə töyşümək varmış!
Səfil bir sazaqda üşümək varmış!
Dünyada səssizcə yaşamaq varmış -
danışıb-gülməzəm, rahatam indi.
*
Soyumu el bilir, od oğluyam mən!
Namərdə əl açmaq gəlməz əlimdən.
Bir gözümdə işıq, bir gözümdə çən...
Nə deyim, elə bil, babatam indi.

*4 oktyabr, 1981-ci il, Bakı.*

## Səbuhi

Bir dünyalıq işıqdı
bu Səbuhi, Səbuhi!
Min rəngli, min işıqlı
ləçək şehi - Səbuhi!
*
Yanağı - qar dənəsi,
Dodağı - nar dənəsi.
Buxağı tər, çənəsi -
nur qədəhi - Səbuhi!
*

Məhəbbətin siftəsi,
sədaqətin müjdəsi!
Təbiətin töhfəsi -
səhər mehi - Səbuhi!
*
Hər istəkdə odmu var?
Hər diləkdə dadmı var?
Bir nisgilə od vurar
hər qəh-qəhi, Səbuhi!
*
Sözə möhtac İsası,
Baldı, sözün qısası!
Bir gül üzlü - butası -
bir toy bəyi - Səbuhi!
*29 dekabr, 1981-ci il, Bakı.*

## Çörək

Çörək - ulumuzun ruzusu, ruhu,
Basılmaz andımız, ilqarımızdı.
Çörək, ana südü, hava, bir də su,
İşıqlı dünyada ilk varımızdı.
*
Çörək - nəğməmizin əzəli, ilki,
Çörək - qüvvətimiz, qüdrətimizdi!
Çörək adicə bir nemət deyil ki!
Çörək - namusumuz, qeyrətimizdi!
*
Çörəyə tapınıb babalar darda,
Qılınc kəsməyəni, çörək kəsibdi!
Min illik etibar yaşayır, harda
Babalar bir tikə çörək kəsibdi!
*
Çörək - üz ağlığı, baş ucalığı,
Çörək kişiliyin meyarı kimi!
Çörək - qədirsizə - qarın toxluğu,
Namərdə, nankora əl kiri kimi.
*
Ayağa duranda çörək tapdayıb,
çörəyi dizinin üstə olanlar.

Çörəyə qıymayıb, gözünə qıyıb,
çörəyi gözünün üstə qoyanlar.
*
Çörəyin qədrini ucuz tutanlar
həsrət qalasıdı çörək üzünə.
Çörəyə cürbəcür haram qatanlar
gərək yer tapmasın Yerdə özünə!
*
Çörək - ana südü, körpə gülüşü,
Çörək balaların boy artımıdı!
Çörək - hər millətin müqəddəs işi,
Çörək hər bir xalqın say artımıdı.
*4 aprel, 1982-ci il, Bakı.*

## Daşlar deyirlər ki

Daşı daş bilmişəm yaranışımdan,
Daşa daş demişəm, yanılmışam mən.
Sən demə, dünyada hətta daşın da,
Qəribə dünya var daş yaddaşında.
*
Daş var, hənirində ürək qızınır,
Daş var ki, görəndə ümidin sınır.
Min illik haqq yola döşənən daş var,
Daşların döşündə daşınan daş var.
*
Daş var, ocaq daşı, zənci misallı,
Daş var, bulaq daşı, saçlı-saqqallı.
Daş var, başdaşıdı, qəbir başında,
Daş var, qaş daşıdı, üzük qaşında.
*
Ucadan alçağa ötüşən - daşlar...
Bir selin felində didişən - daşlar...
Zirvədə dayanan möhtəşəm - daşlar...
Dərə vüsalına yetişən - daşlar...
*
Daşlar qəribədi, daşlar sirlidi,
Daş var, qərib düşüb, daş var, yerlidi.
Canda od gəzdirən çaxmaq daşı var,
Odda can saxlayan kərpic, kaşı var.

*

Daşı daş üstünə qoysan - qaladı,
Daşı daş üstündə qoymasan nədi?
Daş daşa söykənsə körpü yaranar,
Daş daşdan ayrılsa dağ parçalanar.

*

Daş var, öz yükünü çəkmək istəmir,
Daş var, lay divarın yükünü çəkir.
Daşın daş dilində danışmağı var,
Daşın yanmağı var, alışmağı var.

*

Daş var ki, dindirsən dərdi var kimi,
Hıçqırar, hönkürər kaman, tar kimi.
Daş var, daş doğulub, daş qalasıdı,
Üzü boz, canı buz - daş balasıdı.

*

Daşlar qəribədi, daş daş ha deyil,
İnsandı, daşlaşıb, daşlar elə bil.
Hərə xislətini bir daşa verib,
Hərə qismətini bir daşa verib...

*

Daşı daş bilmişəm yaranışımdan,
Daşa daş demişəm, yanılmışam mən.
Sən demə, dünyada hər bir daşın da,
Qəribə dünya var daş yaddaşında.

*

Daşlar elə-belə daş deyillər ki!
Vətəndaş, arxadaş, sirdaşdı, daşlar.
Daşlar insanlara hey deyirlər ki,
Bütün yer üzündə qardaşdı, daşlar.

*

Daşlar deyirlər ki, anamız Yerin
səbri gen olsa da, bağrı daş deyil.
Biz bunu vaxtında düşünməmişik,
odur ki, beləcə daşa dönmüşük.

*

Daşlar deyirlər ki, meşəli, dağlı,
çəmənli, çiçəkli, çaylı, bulaqlı,
dörd mavi hovuzlu, altı otaqlı
bu Mavi Gözəlin qədrini bilin!

*

Daşlar deyirlər ki, dumanlı, çənli,
küləkli, tufanlı, günəşli, günlü,
al-əlvan bayraqlı, ağ göyərçinli
dünyəvi Gözəlin qədrini bilin!
*
Daşlar deyirlər ki, bu həqiqəti,
daşlar kəşf eləyib, anlayıb qəti.
Daşlar daş olmağın sirini bilib,
Daşlar daş olmağın xeyrini bilib.
*
Qardaşlar didişdi - daşa döndülər,
Yoldaşlar didişdi - daşa döndülər,
Sirdaşlar didişdi - daşa döndülər,
Daşlar bu hikməti yaxşı bilirlər.
*
İndi növbə bizim, söz bizimkidi,
Daşlaşaq, yoxsa yox, nə deyirsiniz?
Düşünün, İnsanlar, söz sizinkidi,
Yaşayaq, yoxsa yox, nə deyirsiniz?
*9 aprel, 1982-ci il, Bakı.*

**Ata, kövrəlmə, kövrəlmə!**

Vüqarına qurban, Ata,
Ata, kövrəlmə, kövrəlmə!
Yaşın nə tez düşdü yada,
Ata, kövrəlmə, kövrəlmə!
*
Fikrimizin qanadı sən,
Qəlbimizin muradı sən,
Sözümüzün qüdrətisən,
Ata, kövrəlmə, kövrəlmə!
*
Boya-başa yetən kimi,
Oğlun əsgər gedən kimi,
Özün əsgər getmədinmi,
Ata, kövrəlmə, kövrəlmə!
*
Möhkəm dayan, büdrəmə sən,
Sarsılmarıq büdrəməsən.

Anam titrər, titrəmə sən,
Ata, kövrəlmə, kövrəlmə!
*
Sən kövrəlsən dözəmmərəm,
Dərdi candan üzəmmərəm,
Yazammaram, düzəmmərəm,
Ata, kövrəlmə, kövrəlmə!
*
Mən İsayam, ilk beşiyin,
Könlüm-gözüm ev-eşiyin.
Ər igiddi son beşiyin,
Ata, kövrəlmə, kövrəlmə!
Ata, kövrəlmə, kövrəlmə!
*4 iyun, 1982-ci il. Bakı.*

**Daha sənə inanmaram**

Get-get, könlümün əzabı,
Gedişinə heç yanmaram.
And-amana bürünmə, get,
daha sənə inanmaram!
*
Sən var ikən qəm nə gərək?
Yoxluğunla şan-şan ürək.
Dərdimdən ölsən də gerçək,
daha sənə inanmaram!
*
İstəyirdim, yar olasan,
Ömrüm boyu var olasan.
İnnən belə Pir olasan,
daha sənə inanmaram!
*
Dincəl daha, bunnan belə,
Əriyərəm gilə-gilə.
Ömrümü versəm də yelə,
Daha sənə inanmaram!
*25 iyun, 1982-ci il, Bakı.*

### Vətənə qayıt!

Bacadan baxdım: cüt alagöz,
biri kəhər, biri boz,
mindim bozun boynuna,
girdim Beyrut qoynuna,
Beyrut qoynu dərbədər,
içində meymun oynar,
meymunların əlləri,
yandırıbdı evləri,
evlər duman içində,
duman Livan içində,
Livan yaslı, yaralı,
yara - qanlı, qaralı,
qara - Fələstin dağı,
dağ-dağ edib torpağı,
torpaq yağı əlində,
yağı əli belində,
beldə qatar, qumbara,
od hara, meymun hara?
Meymunluğun şiddəti,
biçir, tökür milləti.
Millətə bax, millətə!
Dözür necə zillətə:
körpə, qoca, qız, qadın
süngüsündə cəlladın.
Cəllad - ərəb qəssabı!
Qırğının yox hesabı,
Fələstinli, Livanlı,
döşü güllə nişanlı!
Nişan da var, nişan da,
Nişan verdi Livan da,
nişan verdi harına -
qurdun havadarına!
Nə deyək bu qeyrətə?
Qeyrət yükmüş millətə?
Bir millət, neçə ölkə,
ölkə ölkəyə kölgə,
kölgə dilsiz, kölgə xal,
kölgə sanki bir xəyal,
xəyal ələ əl atmaz,

tək əl haraya çatmaz.
Bir xalqın ah-amanı
titrədəndə dünyanı,
əldə silah tutanı
böldülər ölkə-ölkə,
xalqı silahsız görüb,
yağı qayıda bəlkə.
Məntiqə bax, məntiqə!
Əntiqədi, əntiqə!
Yersiz gəldi, yerli, qaç!
Qaçmağa qalmış əlac.
Verdin boz qılıncını,
barı qoru boş qını,
tulla, tapda qalxanı,
cəllada tapşır canı.
Axtarma canda təpər,
canı ayaq altda sər,
ayaq altı rahatdı,
rahatlığı babatdı,
babatdısa dinmə, döz,
bir gün gələr cüt alagöz,
biri kəhər, biri boz,
minib bozun boynuna,
ağ geyərsən əyninə,
düşərsən diyar-diyar,
əlində ixtiyar var!
Anan, bacın, arvadın,
namusun, arın, adın
vətəndə, yad əlində,
vətənsə qan gölündə.
Dəhşətə bax, dəhşətə!
Nə deyək bu qeyrətə?
Qeyrət - qanad uçmağa!
Haqq qapısını açmağa!
Haqq qapısı vətəndə,
sənsə vətəndən gendə.
Çıx!-deməklə barıdan,
donuz çıxmaz darıdan.
Qayıt, vətənə qayıt,
düşmən didənə qayıt!

Qayıt, sən sənə qayıt,
Qayıt, Vətənə qayıt!
*9 oktyabr, 1982-ci il, Bakı.*

## Çənlibel nəğməsi

Ürəyimdə bir nəğmə var, ay ellər!
O nəğmənin zili zildən zildi, zil!
Qorxuram ki, xata çıxa dilimdən,
Dilə nə var, dil ətdəndi, dildi, dil!
*
Murad üstə bəstələnib hər xalı,
Hər ahəngi Misri, Cəngi misalı!
Bəmi, zili Arazla Kür vüsalı,
Nəqəratı yerdi, yurddu, eldi, el!
*
Mayasına dəli nərə hopandı,
Koroğlunun dodağından qopandı!
Qırın, Dürün dırnağından öpəndi,
Nəğmə deyil, o, kükrəyən seldi, sel!
*
Oxu könül! Nəğmən dəli, sən dəli!
Alış dəli, parla dəli, yan dəli!
Azər - ülvi, bay - nurani, can - dəli,
Yurdum, yuvam Çənlibeldi, Çənlibel!
*23 oktyabr, 1982-ci il, Bakı.*

## Ah, necə kef çəkməli günlər idi!

Ah, necə kef çəkməli günlər idi!
Heyif, o günlər necə tez əridi.
*
Vaxt var idi, itərdim aylar ilə,
Özgə yerdə bitərdim aylar ilə;
Muradıma yetərdim aylar ilə,
Ah, necə kef çəkməli günlər idi!
Heyif, o günlər necə tez əridi.
*

Bilməz idim iş nədi, irad nədi,
İşə gəlib-getməyə düz vaxt nədi.
Canıma od düşübdü bir həftədi...
Ah, necə kef çəkməli günlər idi!
Heyif, o günlər necə tez əridi.

*

Yolda tutub yoxlamaq nə iş imiş,
Kinolarda haqlamaq nə iş imiş,
Avtobusu saxlamaq nə iş imiş.
Ah, necə kef çəkməli günlər idi!
Heyif, o günlər necə tez əridi.

*

Deyirlər ki, bu hələ harasıdı,
Olacağın bu, hələ yarısıdı.
Yarı oddu bu, hələ yarı sudu.
Ah, necə kef çəkməli günlər idi!
Heyif, o günlər necə tez əridi.

*

El malını güdən nə çoxdur, balam!
Heç kəsə ümid yeri yoxdur, balam.
Bülleten də açmayır, doxtur, balam?!
Ah, necə kef çəkməli günlər idi!
Heyif, o günlər necə tez əridi.

*22 yanvar, 1983-cü il. Bakı.*

## Qardaş

Aldım məktubunu, alışdı sinəm,
Hər nəğmən bir qəmli dastandı, Qardaş!
De niyə sözlərin sızlayır belə?
Hər şerin kövrək bir kamandı, Qardaş!

*

Hər misran düzülü durna qatarı,
Uçur birnəfəsə vətənə sarı.
Həsrət çənə tutub uzun yolları,
Hayana baxırsan dumandı, Qardaş!

*

Ürəyin bir qərib quşcuğaz kimi,
Titrəyir, çırpınır, ötür saz kimi.
Məhəbbət, ayrılıq, cüt qotaz kimi,
Dilindən asılıb haçandı, Qardaş?!

*

Dağlara qar düşdü, gölə çən endi,
Sazaq birdən düşdü, qəflətən endi.
Təsəlli gətirir hər gələn indi,
Kim nə deyir-desin, yalandı, Qardaş.

*

İsayam, atam sağ, qardaşlarım sağ,
Nəğməmi oxuyur hər dil, hər dodaq.
Dəlikdaş, Göy qaya, bir də Quybulaq,
Arxanca yollara boylandı, Qardaş.

*23 yanvar, 1983-cü il. Bakı.*

**Eşqim**

Bir şöləsən ürəyimdə səyriyən,
Dayan eşqim, hələ sənlə işim var!
Gəlişinlə bahar gəldi, yay oldu,
Gedişinlə payızım var, qışım var.

*

İşığına yığışanım yığışıb,
Hər zərrənə min bir duyğum sığışıb.
Bir nəfəsə aşdım neçə yoxuşu,
Hələ neçə zirvəm var, yoxuşum var!

*

Ömrüm iki - haçalanır yollarım,
Bir vüsala uzanıbdı qollarım.
Saç-saqqalı urvalayıb illərim,
İki ildi bir qərinə yaşım var.

*

Yaş ötdükcə sozalırsan elə bil,
İş artdıqca azalırsan elə bil.
Daş altından süzülürsən elə bil,
Heç demirsən, sızıldayan dişim var.

*7 mart, 1983-cü il. Bakı.*

**Yaz gəlir!**

Salam, Ana torpaq, gözlərin aydın!
Dur bəzən! Gör necə gözəl Yaz gəlir!
Sürmələn, vəsmələn, xınalan, görüm!
Görənlər desinlər: Sərvinaz gəlir!

*

Yaşıla bürünsün gen sinən - Güney!
Oynasın, tərləsin gərdənin - Qüzey!
Gəlin gəldiyin gün geydiyini gey!
Dildə nəğmə gəlir, əldə saz gəlir!

*

Ətir vur birçəyə, həlqələ, dursun!
Salsın ürəyimə vəlvələ, dursun!
Azca aç yaxanı, qoy belə dursun!
Sinəmə bir qatar yenə söz gəlir!

*

Aya bax, güzgülən! Günə bax, daran!
Geyinsin-kecinsin həm dağ, həm aran!
Bahar həsrətiylə boynunu buran
Bənövşəyə de ki, bir az döz, gəlir!

*

Arazı Kürə qat, bir hörük elə!
Xəzərdən üzük ver nazlı Göygölə!
Noğul, nabat payla ağıza, dilə!
Tərpən, bayram gəlir! Dur, Novruz gəlir!

*10 mart, 1983-cü il, Bakı.*

## Mənim küçələrim

Dünya küçə-küçə olana kimi,
Yanıb da, sönüb də, maviləşib də.
Dünya küçə-küçə dolana kimi,
Əsib də, coşub da, ülviləşib də.

*

Küçələr doğulub: tozlu, bürkülü,
uzunlu, gödəkli, əyri-üyrülü.
Küçələr doğulub, min təmtəraqlı,
Küçələr doğulub, sinəsi dağlı...

*

Mənim küçələrim tüstüsüz, hissiz,
haysız, gurultusuz, dümağ, tər-təmiz!
Mənim küçələrim parlaq, işıqlı,
geniş, xiyabanlı, düz, yaraşıqlı!

*

Zümrüd meşələrə çıxırlar onlar,
Dilbər guşələrə çıxırlar onlar.

Mənim küçələrim qarasız, göysüz,
Mənim küçələrim yadsız, ögeysiz.
*
Mənim küçələrim - şerlərimdi,
heyrətim, həsrətim, sehrlərimdi.
Gəlin də, keçin də küçələrimdən,
Onları sizinçün yaratmışam mən.
*4 may, 1983-cü il, Bakı.*

**Elə-belə**

Könlüm gülür - bəxtiyaram!
Belə ömrə, bəxtə varam!
Yaş üstünə yaş qoyuram,
adlayıram, bilə-bilə,
ildən ilə, elə-belə!
*
Zaman yuyur izlərimi,
nurdan salır gözlərimi.
Gəncliyimin dizlərini
qatlayıram gələ-gələ,
ildən-ilə, elə-belə!
*
Əldən verib dünənimi,
xərcləyirəm bu günümü.
Hisslərimin sönənini
odlayıram ümid ilə,
ildən-ilə, elə-belə!
*
Əslim, köküm - od qovuran!
Alovumla od qovuram.
Bir vulkanam, söz sovuran,
məhəbbətlə, yurda, elə,
ildən-ilə, elə-belə!
*
Yarı canım - MİSKƏROĞLU,
Yarı canım - əhdin qulu!
Gözüm, könlüm sevgi dolu -
nur yayıram eşqim ilə
hər könülə, elə-belə!
*5 may, 1983-cü il, Bakı.*

## Necədir sənin üçün?

Yaylaq ola, çən ola,
Şəhərdən gələn ola.
Təkər keçəl, yol palçıq,
Şofer deyingən ola;
Necədir sənin üçün?
*
Yol ola, çözək ola,
Düşəsən özgə yola.
Əyin yuxa, baş açıq,
Xırdaca çisək ola;
Necədir sənin üçün?
*
Çən ola, çisək ola,
Töyşüyən ürək ola.
Yıxılasan qəflətən,
Daş ola, kürək ola;
Necədir sənin üçün?
*
Ağrı ola, can ola,
Buz kimi yorğan ola.
Əsim-əsim əsəsən,
Çadır da daman ola;
Necədir sənin üçün?
*
Döşək ola, nəm ola,
Canda taqət kəm ola.
Xalan Xanım yetişə,
Araq da məlhəm ola;
Necədir sənin üçün?
*
İstər bir ay çən ola,
Yol-iz sürüşkən ola.
İsayam, necə olsa,
Bir yer ki, Vətən ola,
Xoşdu, xoş mənim üçün.

*8 avqust, 1983-cü il. İridaş.*

## Yaxşı dünya yaxşıdı

Yaxşı olan, yaxşıların qeydinə
yaxşı qalsan, yaxşı dünya yaxşıdı!
Yaxşılığın yaşıl vaxtı qədrini
yaxşı bilsən, yaxşı dünya yaxşıdı!

*

Yaxşı işi yaxşı sapa düz, yeri!
Yaxşılığı yamanlıqdan süz, yeri!
Yaxşı yaşla yaxşı dolan gözləri
yaxşı silsən, yaxşı dünya yaxşıdı!

*

Yaxşı necə çox olsa da, azdı, az!
Yaxşılıqda yaxşıya yoxdu əvəz!
Yaxşılıqdan heç kimə ziyan olmaz,
Yaxşı olsan, yaxşı dünya yaxşıdı!

*

Yaxşı günün ömrü uzun, dadı bal!
Yaxşı ömrün ili, ayı, günü al!
Yaxşılıqla yamanlıqdan qisas al!
Yaxşı alsan, yaxşı dünya yaxşıdı!

*

Yaxşı-yaxşı yaxşılaşıb, yaxşı ol!
Yaxşı yolda yaxşı dilər: yaxşı yol!
Yaxşı gəldin, yaxşı dolan, yaxşı qal!
Yaxşı qalsan, yaxşı dünya yaxşıdı!

*10 avqust, 1983-cü il, Bakı.*

## Necəsən?

Mən gələndən üzün gülmür, nədəndi?
Dərdin alım, ana yaylaq, necəsən?
Təşnə könlüm səni deyib, gəlibdi,
A nəğməli Sona bulaq, necəsən?

*

Kosalarda dayanmadım, qalmadım,
Başkeçidə bir gün qonaq olmadım,
Qəmərlini, Çopralları adladım,
Şor-şor bulaq, Çınqıl Çataq, necəsən?

*

Zirvələrin buludları ləmhələm,
Şamdüyənin varlığını sarıb qəm.
Şindi yenə nədən küsüb bilmirəm,
A təmkinli Yemlikli Dağ, necəsən?
*
Novçalıya işim düşüb, gəlmişəm,
İridaşı ana qoynu bilmişəm.
Sinəsinə duman çökən, çən düşən
Səhənguçan, silkin baxaq, necəsən?
*
Allah bilir, könlüm nələr daşıdı!
Həsrətim var, Vüsalımın yaşıdı.
Qoca Sarxan, bir az əvvəl qış idi,
indi necə, saqqalı ağ, necəsən?
*11 avqust, 1983-cü il, İridaş.*

**Çox şükür!**

Sarf dərədən bir meh əsdi,
Açıldı Şindi, çox şükür!
Duman çəkdi karvanını,
Sarxan göründü, çox şükür!
*
Çiskinin qurudu gözü,
ağlamaqdan bezdi özü.
Başım üstə göyün üzü
güzgüyə döndü, çox şükür!
*
Günortadan gün dönəndə
bulud gəldi kündə-kündə.
Leysan var idi yükündə,
Arana endi, çox şükür!
*
Bəxtəvərəm, doğma elim
dörd yanımda ılıq, həlim!
Həsrət itdi ilim-ilim,
Qəlbim silindi, çox şükür!
*11 avqust, 1983-cü il, İridaş.*

## Bağışla, ləngidim

A Yastıqar, gələmmədim, bağışla,
vaxt olmadı, İridaşda ləngidim.
Əyriqar da həsrətimdən əridi,
Novçalıda, bəri başda ləngidim.
*
Sarf dərənin nisgili var, dərdi var,
Nə müddətdi haray çəkib hey ağlar.
Sapa dönüb mənsiz qalan Nəzikqar...
Söksökülü məxmər döşdə ləngidim.
*
Məni görüb, Səhənguçanın qarı
yaxa cırdı, atıb həyanı, arı.
Yar yanımda - ömür yarı, gün yarı...
Qana düşdüm, gözdə-qaşda ləngidim.
*
Gələsiydim, Sona bulaq qoymadı,
həsrətliydi, vüsalımdan doymadı.
Sarı Çeil ürəyimə qıymadı,
Ürkək baxdı, o baxışda ləngidim.
*
Yarıcanam, vəfalıyam əhdimə,
Gəl incimə, namərd demə, qəm yemə!
Bu dünyada borclu qalıb kim-kimə?
Günahımdan keç, bağışla, ləngidim.

*12 avqust, 1983-cü il, İridaş.*

## Soruş

Bu dağların sevgisini, mehrini
zirvədəki ala buluddan soruş.
Ana yurdun qayğısını, qəhrini
xalı sərmiş çiçəkdən, otdan soruş!
*
Mən nə bilim bu torpağın yaşı nə?
Yazı bəlli, yayı bəlli, qışı nə?
Dağ çəkibdi çarpaz çəhlim döşünə,
Dağ dərdini dərdi boyatdan soruş!
*

Hər daşının min çopuru, qırışı...
Daş torpağa, torpaq daşa qarışıb...
Saç bir yana, qaşına da dən düşüb,
Qaş dənini yaşdan, həyatdan soruş!
*
Sellər-sular yaman yerdə haqlayıb,
Sıldırımın qaya dişi laxlayıb.
Nə sirri var, öz qoynunda saxlayıb,
Bu sirri sən dodağı çatdan soruş!
*
Yarıcanam, nə yaşım var, nə deyəm?
Od oğluyam, sevincim bol, qəmim kəm!
Qorxuram ki, dillə deyə bilməyəm,
Yurd eşqini candakı oddan soruş!
*13 avqust, 1983-cü il, İridaş.*

**Salamat qal**

Salamat qal, ana yaylaq, qəm yemə,
gələn il yaz çıxar-çıxmaz burdayam!
Lilpara de, buz bulağa göz olsun,
yay qəlbimi yaxar-yaxmaz burdayam!
*
İşim-gücüm tökülübdü, qalıbdı.
Vaxt yetişib, aran fikrə dalıbdı.
Könlüm sənə elə müştaq olub ki,
sellər-sular axar-axmaz burdayam!
*
İldırımlar zirvələri döyməsin!
Qılınc yellər yamaclara dəyməsin!
Əyriqarı darıxmağa qoyma sən,
çən gözünü sıxar-sıxmaz burdayam!
*
Dümağ qardan yorğan sal çəmənlərə,
Qar altında təntiməsin Sarf dərə!
Bal arısı çiçəklərə, güllərə
nişan üzük taxar-taxmaz burdayam!
*
Yarıcanam, can ayrılır, ürək yox!
Bu sevgidən ürəyim ac, gözüm tox!

Papağını hərləyincə, yola çıx,
gün Şindidən baxar-baxmaz burdayam!
*16 avqust, 1983-cü il, İridaş.*

## Bulaq

Veribdi könlünü ülvi bir eşqə,
əzəldən yol üstə çağlayan bulaq.
Ləyaqət nəğməsi oxuyur müdam
insana, özünü dağlayan bulaq.
*
Möhnəti bilinmir, dərdi bilinmir,
Əli ətəyində, baş alıb gedir -
Məcnun xisləti var - mehri sirdi, sirr -
min gözlə dərdini ağlayan bulaq.
*
Əl üzməz ümiddən, dəyanəti var,
Dərdinin gözünə məhəbbət qatar.
Oxuya-oxuya ümmana çatar,
Vətənlə əhd-ilqar bağlayan bulaq.
*26 sentyabr, 1983-cü il, Bakı.*

## Qayıt geri

Gəlişindən xoş olsam da,
hər arzuna qoşulsam da,
şadlığımdan quş olsam da,
gəl incimə, qayıt geri!
Gedişinlə qəm qatsan da
sevincimə, qayıt geri!
*
Qayıt geri! Barı sənsiz
qalmasınlar mənsizlərim!
Qayıt geri! Sənsiz neylər
mənsiz qalan əzizlərim?
*
Qayıt geri!
Buraların havası buz,
şaxtası var, qurddan quduz!

Kimə yaxın durursansa
ağız burur, üz çevirir.
Kimə yön çevirirsənsə
qaçır tezcə evə girir.
*
Qınama sən səndən
qorxub qaçanları,
Neyləsinlər, diyar
şaxta-buz diyarı!
Sazaq kəsir,
dil-diş əsir,
nə hövsələ zarafata!?
Qayıt geri!
Çox şitlənmə,
çox dirənmə,
xata çıxar əldən, xata!
Qayıt geri!
*
Qayıt geri!
Oyat, oynat göy dənizi!
Qoy solmasın
körpələrin gül bənizi!
Qayıt, sınsın qızmarımız!
Təntiməsin qızlarımız,
qayıt geri!
*
Qayıt geri! Qurban olum,
şıltaq külək, qayıt geri!
Qayıt geri! Odlar Yurdu
qovrulmasın qovurğa tək,
qayıt geri!

*25 oktyabr, 1983-cü il, Bakı.*

**Dünyamızı qoruyağın!**

İnsan olan bənd kimidi
çay üstündə-
nəyi varsa, öz çiynində,
öz köksündə.
Bənd olan var şan-şöhrətə,

bənd olan var var-dövlətə.
Məhəbbətə,
ülviyyətə bənd olan var,
bəd niyyətə,
küdurətə bənd olan var.
Bənd olan var səadətə,
Bənd olan var rəzalətə.
Ədalətə,
həqiqətə bənd olan var,
xəyanətə,
pis adətə bənd olan var.

*

Kimi dövlət yığan olur,
paylamaqla yox arası.
Kimi var dağıdan olur,
saxlamaqla yox arası.
Dama-dama göl yaranır,
dəniz olur, ümman olur.
Ümman dövlət sahibinin
son taleyi yaman olur.

*

Bir vaxt gəlir
ümman yarır bənd-bərəni,
çəkib sökür, qamarlayır yan-yörəni:
oğul-uşaq, var-yox gedir sel ağzında,
hər didiyi piltə-piltə,
uçur, uçur yel ağzında.

*

Öz varını bölən bəndin
çiçək açır yan-yörəsi.
Beləsinin ömrü boyu
çiçəklikdə nəfəs alır
oğlu, qızı, törəməsi.

*

Biz - dünyanın Sümurğ quşu!
Səadətə bənd olmuşuq
bu dünyada.
Dünya bizdən alır işıq,
buna görə bizə bənddi
bu dünya da.

*

Yer üzündə biz olmasaq
odda yaxar şər Dünyanı.
Biz olmasaq basıb yıxar,
suda boğar şər Dünyanı.
Ona görə şər-şəpətin
cilovunu yığaq gərək.
Çox azmasın,
qudurmasın
ağzıgöyçək quduz qurd tək!
Düzülək də barmaq təki,
bəndə dönək şər yolunda!
Düyülək də yumruq təki,
düyünlənək hulqumunda!
Haydı, durun!
təbil vurun,
yola çıxın, axın-axın,
Yurdumuzu, yuvamızı,
Dünyamızı qoruyağın.

*15 noyabr, 1983-cü il, Bakı.*

**Şer yazmaq istəyirəm**

Ürəyim bir dolanda,
Bir də ki, boşalanda
Şer yazmaq istəyirəm.
*
Şer yazmaq istəyirəm
Bir möhkəm sevinəndə,
bir də dərdin önündə.
*
Bir ümid can verəndə,
bir də can cücərəndə
Şer yazmaq istəyirəm.
*
Şer yazmaq istəyirəm
Bir nahaq doğulanda,
bir də haqq boğulanda.
*
Bir dərddən qaçanda,
bir bilmirəm haçansa
Şer yazmaq istəyirəm.

*

Şer yazmaq istəyirəm
Qəzəbli olanda da,
xəyala dalanda da.

*

Həm əsəblərim gərgin,
həm də fikrim didərgin...
Aha, deyəsən gəlib!
Şer yazmaq istəyirəm.

*17 yanvar, 1984-cü il, Bakı.*

**Mənə demə, mən bilirəm**

İlk sevginin nədir dadı,
Mənə demə, mən bilirəm.
Həsrət nədi, vüsal nədi,
Mənə demə, mən bilirəm.

*

Sinənə yaz əzabını,
Çözlə qəlbin qəm sapını.
Gözün gözləmək tabını,
Mənə demə, mən bilirəm.

*

Gözünə çən endiyini,
Saçına dən endiyini,
Günün ilə döndüyünü,
Mənə demə, mən bilirəm.

*

Mənəm ömrü yelə verən,
Sevgi əkib, nisgil dərən.
Ay bu dərdi təzə görən,
Mənə demə, mən bilirəm!

*

Çalmalanıb batma yasa,
çəkəcəyin dərd budusa!
İsaya de, hər nədisə,
Mənə demə, mən bilirəm!

*5 fevral, 1984-cü il, Bakı.*

## Niyə inciyirsən?

Niyə inciyirsən, incik gəzirsən,
Axı neyləmişəm, de, nə, ay ürək?
Hər nə eləmisən, sən eləmisən,
Günahkar mənəmmi yenə, ay ürək?
*
Odlara yaxdığın bəs deyil canı,
Başıma dar etdin bu gen dünyanı.
Söylə rəhmin hanı, insafın hanı,
Nə qan uddurursan mənə, ay ürək?
*
Sürüdün beledən-beləyə məni,
Saldın min qıfıllı tələyə məni;
Eşqin caynağında, fələyə məni
qaldırdın, nə deyim sənə, ay ürək?
*
Gah borana saldın, gah qara saldın,
Yolumu tilsimli dağlara saldın.
Yar deyib, sinəmə yüz yara saldın,
Neyləsin yaralı sinə, ay ürək?
*
Neyləyim, neyləsən dözəsiyəm mən,
Ölüncə arxanca gəzəsiyəm mən;
Demə ki, yorulub, bezəsiyəm mən,
Qurbanam bu qara günə, ay ürək!

*7 fevral, 1984-cü il. Bakı.*

## Qınama!

Sızlama, ay ürək, göynəmə belə!
Hələ şimşək olub çaxasıyam mən!
Hər nə demişəmsə, sısqa demişəm,
Hələ gürşad olub yağasıyam mən!
*
Hələ bu dünyaya səfərim durur,
hələ gizlədiyim hünərim durur,
hələ gözəl-göyçək günlərim durur,
hələ könüllərə axasıyam mən!
*

Zər qanad istərəm, uçam göylərə,
əlçatmaz, ünyetməz ənginliklərə!
Alnı min düyünlü anamız Yerə
Ulduz dünyasından baxasıyam mən!
*
Yolda qalmışlarım yolumu gözlər,
Dildə qalmışlarım dilimi gözlər,
Əldən qalmışlarım əlimi gözlər,
Əlimi başıma yığasıyam mən!
*
İsayam, eşqimdən alışıb dilim,
Yanıram, görünmür alovum, külüm.
Səni də üzmüşəm, qınama, neylim?
Bir dağın od düşən yaxasıyam mən!
*9 fevral, 1984-cü il, Bakı.*

## Gözlə gözü

Gözün gözə közü düşər,
Közdən gözlə gözəl gözü!
Gözə gözün gözü düşər,
Gözlə gözdən gözəl gözü!
*
Gözəlliyin gözdü acı,
Göz qəminin göz əlacı.
Göz qönçədi, gözəl açır,
Gözlə, gözlə, Gözəl, gözü!
*
Göz-göz olan köz-köz olar,
Göz qırpınca yüz köz olar.
Gözləməkdən göz boz olar,
Gözlə Gözəl, gözəl gözü!
*
Göz nur almaz öz zoruna,
Göz od verər göz nuruna.
Göz qovrular göz qoruna,
Gözlə, gözlə, gözlə gözü!
*
Gözünə göz olub gözüm,
Gözəlliklə dolub gözüm;

Gözlərində qalıb gözüm,
Gözlə Gözəl, gözlə gözü!
Gözlə, canım, gözlə, gözüm!
*15 aprel, 1984-cü il, Bakı.*

**Bilən varsa, desin, kimik?**

Üz-üzə bir cüt güzgü tək
əks edirik özümüzdə.
Düzülmüşük bir düzgü tək,
Zər zəncirdi sözümüz də.
*
Gözlərimiz dil əvəzi,
hər cilvəsi söz dilimi.
Arzu üzüb yerdən bizi,
Səyrişirik ulduz kimi.
*
Bir qanadla uçan quşuq,
Bir yol üstə mənzilimiz.
Bir eşq ilə alışmışıq,
Öz yağında yananıq biz.
*
Qəlbimizin vurğusu bir,
Bir kök üstə qoşa simik.
Biri mənəm, o biri sirr,
Bilən varsa, desin, kimik?
*18 aprel, 1984-cü il, Bakı.*

**Xəcalət**

Xata çıxdı bir gözəlin dilindən,
İncik baxdım, baxışımdan anladı.
Xəcalətdən köz-köz oldu yanağı,
Üz-gözünü tər basdı, qəm haqladı;
Dinəmmədim, bu qəm məni dağladı.
*
Ala gözlər doldu, yaş giləlndi,
Çöhrəsinə çiskin çökdü, çən endi.

Mərmər sinə qalxıb endi, silkindi,
Çalxalandı, hönkür-hönkür ağladı,
Dinəmmədim, bu qəm məni dağladı.
*
Dodaqları titrədi ləçək təki,
Üz çevirdi, küləkdən çiçək təki.
Üzr istədi böyükdən kiçik təki,
Qıfılladı ağzı-dili, bağladı,
Dinəmmədim, bu qəm məni dağladı.
*
Çinar boylu, büllur bədən, gül üzlü,
Aşkar yandı, dağ-dağ oldum mən gizli.
Bu dünyanı dağlı, düzlü, dənizli,
Göz yaşıyla cilovladı, saxladı;
Dinəmmədim, bu qəm məni dağladı.
*
MİSKƏROĞLU, aləm bilir kiməm mən,
Ömrüm boyu çiy söz çıxmaz dilimdən.
Xəcalətli yapışıb da əlimdən,
Dönə-dönə gözlərimi yoxladı,
Dillənmədim, güldüm, gördü, toxdadı;
Toxdadı da sevincimiz çağladı.
*21 aprel, 1984-cü il, Bakı.*

**Azərin əziz xatirəsinə**

Hara tələsirdin, de, hara belə?
Şirindən acıya gedən yoldu bu!
Həsrət içimizdə göyərdi gömgöy -
Arxanca uzanan neçə əldi bu!
*
Bir yanında yazdı, bir yanında qış,
Gah alqış bələdi, gah bizi qarğış.
Adi yağış deyil gələn bu yağış,
gözümüzdən axan qanlı seldi bu!
*
Başım qarışıqdı, fikrim dolaşıq,
Neçə diləyim var, dərdə bulaşıq.
Bu necə zülmətdi? Bu necə işıq?
Afat yelidi bu? Qara yeldi bu?

*

İstəyim dünyaya sığan deyildi,
Nə oxdu, könlümün gözünü dəldi?
De, nə tez yoruldun, nə tez əyildin?
Nə gethagetdi bu?  Gəlhagəldi bu?

*

Sənli də, sənsiz də Dünya - Dur dağı!
Qəlbimiz dərd əmir, dünyadan ağır!
Bu yerin, bu göyün bu gözəl çağı
necə ölümdü bu?  Nə əcəldi bu?
Axı niyə belə vaxtsız gəldi bu?

*29 may, 1984-cü il, Bakı.*

## Gələrgetməz

Neçə-neçə duyğumu sütül-sütül biçdirib,
Üzü heç ağ olmasın üzü ağ edən tükün!
Gələrgetməz əlini yaxama ilişdirib,
Xatirə toranında xəyalım sökün-sökün...
Üzü heç ağ olmasın üzü ağ edən tükün!

*

Vaxt olub ki, minmişəm hirsimin cin atına,
Çapmışam ehtirasın yetmiş yeddi qatına;
Neçə körpə ümidi salıb ayaq altına
çığnamışam, əzmişəm... günahım düyün-düyün...
Üzü heç ağ olmasın üzü ağ edən tükün!

*

Zamandan qopardığım vur-tut bir qərinədi,
onun da tən yarısı zamanın xeyrinədi.
Əlimdən üzülənlər ürəyimi göynədir,
Çırpınıram içində hörümçək hördüyünün;
Üzü heç ağ olmasın üzü ağ edən tükün!

*

Neçə gözəl yan ötdü gözlərim görə-görə,
"Olmaz"ların dişiylə çeynəndim neçə kərə!
Yoxuşum bircə qarış, enişim milyon çərək,
düşdükcə hey düşürəm, sonu yox düşdüyümün;
Üzü heç ağ olmasın üzü ağ edən tükün!

*

Cilovsuz iştahımı dişimə sıxa-sıxa,
Utancaq hisslərimi üzümə yığa-yığa,

Ürəyimdən keçəni dilimdə boğa-boğa
bir qənirsiz gözəlin gözündən düşdüm bu gün;
Üzü heç ağ olmasın üzü ağ edən tükün!
*4 sentyabr, 1984-cü il, Bakı.*

## Bəsimdi

Hər gəlişim ağırlıqdı bəlkə də,
Yox, neynirəm, bircə xoş üz bəsimdi!
Ora-bura tüyünməyin, canımçün
düz deyirəm, bircə xoş üz bəsimdi.
*
Nə bal-yağda, nə qaymaqda gözüm var,
Nə budaqda, nə də tağda gözüm var,
Nə otaqda, nə torpaqda gözüm var,
istəmirəm, bircə xoş üz bəsimdi!
*
Nə başımdan aşan deyil dövlətim,
nə ac qalıb, əl açandı külfətim.
Möhtacıyam bir bal dadan ülfətin,
Çox demirəm, bircə xoş üz bəsimdi!
*
Nə müddətdi aralanıb çıxmışam,
Dovşan sığmaz bir yuvaya sığmışam.
O günə ki, mən dözmüşəm, dağmışam!
Ta neynirəm, bircə xoş üz bəsimdi!
*
Varım yoxdu, bir cüt gözəl balam var!
Karım yoxdu, bollu sağ ol, salam var!
Zorum yoxdu, varlığımda talan var!
Didilirəm, bircə xoş üz bəsimdi!
*22 sentyabr, 1984-cü il, Bakı.*

## Gedərdim

Nə müddətin həsrəti var sinəmdə,
Məndən olsa, lap bu gecə gedərdim.
Yapışardım istəyimin əlindən,
uşaq kimi qaça-qaça gedərdim.

*

Oğurlanıb işin-gücün gözündən,
qurtarardım bu səs-küyün üzündən.
O yolların döngəsindən, düzündən
tərəddüdsüz keçə-keçə gedərdim.

*

Birçəyinə xəzəl adlı dən düşən
Borçalıda mənsizləşib göy meşə.
Quybulağa, Göyqayaya, Ağdöşə
dilimdə söz seçə-seçə gedərdim.

*

Cürətlənib, ağ maşını, o gün mən,
istəyərdim lap Lələmin özündən.
Dayı deyən balaların gözündən
sevinc nuru içə-içə gedərdim.

*

Gəzdirməyə, meşəsində Dardaşın,
oğul-uşaq aparardım bir maşın.
Yol uzunu Vaqif kimi qardaşın
Turalını quca-quca gedərdim.

*

Qönçə qaldı bir diləyim ötən yay,
Bəsləmişdim ürəyimdə doqquz ay.
Gözəl Bakı qınamasın məni qoy!
Kosalara uça-uça gedərdim!

*27 sentyabr, 1984-cü il, Bakı.*

## Çalkeçir

Mənim ev-eşiyim, varım, dövlətim
sənin dövlətindi, sənin evindi.
Sənin nəyin varsa, mənim dövlətim,
sənin yurdun, yuvan, mənim evimdi.

*

Səninçün gül-çiçək üzən əl mənim,
mənim üst-başımda sənin gözündü.
Mənim otağımda gəzən əl sənin,
sənin dilindəki mənim sözümdü.

*

Mənim oğlum, qızım sənin balandı,
sənin balaların gözümün nuru.

Gör ömrüm ömrünə necə calandı,
cansız müqəvvayam sənsiz, qupquru.
*
Qardaşım qaynındı, bacım baldızın,
mənə doğma olan sənə yad deyil.
Qardaşın qaynımdı, bacın baldızım,
sənin doğmaların mənə yad deyil.
*
Atam qaynatandı, atan qaynatam,
sən mənə əzizsən, mən sənə əziz.
Anam qaynanandı, anan qaynanam,
Üz-üzə dayanan güzgülərik biz.
*
Mənə düşən ləkə səndə görünər,
sən xiffət eləsən toz basar məni.
Ömür yollarında sınarsam əgər,
mənim sınıqlığım sındırar səni.
*
Mən buza dönərsəm, qar yağar sənə,
dönər qış gününə ömür-günümüz.
Bürünər üzümüz dumana, çənə,
görüşməz gözümüz dursaq üzbəüz.
*
Mənim işığımda parlayanım Sən!
Sənin işığında qızınan mənəm.
Anla mətləbimi dediklərimdən!
Çətin ki, yolumdan mən geri dönəm.
*
İnan, sənsiz ömrüm yoxdu, yalandı,
adi müqəvvayam, cansız, qupquru.
Mənim oğlum, qızım sənin balandı,
Sənin balaların - gözümün nuru.

*1 oktyabr, 1984-cü il, Bakı.*

## Özünə fikir ver

Qədirsiz, qiymətsiz üzmə ömrünü,
axı nə canın var, gözümün nuru?
Tapacaq yerini hər cür kəm-kəsir,
Özünə fikir ver, canını qoru!

*

Nə dərdin, nə qəmin bu gen dünyada?
Əl çirki deyilmi, var da, dövlət də?
Yetginlik yaşına dolan dünyada
başa bir bəladı şan da, şöhrət də.

*

Çalışma tərs-avand bu qədər, yetər!
İşıqlı dünyaya qoy baxsın gözün!
Günəşin istisi olmasa əgər
Yer onun başına dönməz bircə gün!

*

Soyuyan ulduzlar, sönən ulduzlar
ulu kainatda yer tapa bilmir.
Üzüyün qiyməti qaşında olar,
Özünü unutma, cana fikir ver!

*1 oktyabr, 1984-cü il, Bakı.*

## Nə vecinə!

Yetiyə yetişib əlin nə vaxtdı,
Sür öz dövranını, sür, nə vecinə!
Nə elə yaxın dur, nə də millətə,
Nəfsin qulluğunda dur, nə vecinə!

*

Pulun var, dilin var, qüvvə də səndə!
Kişilikdən dəm vur, sən hər dinəndə.
Neçə günahsızı salıb kəməndə,
Qolunu, qıçını qır, nə vecinə!

*

Vəzifə altında yəhərli bir at,
Gündə bir iş yarat, bir hoqqa çıxart!
Görkəmin çəlləkdi, süysünün qat-qat,
Yağlı bığlarını bur, nə vecinə!

*

Qanun keşikçisi şırvanır sənə,
yallanır qapında o, sinə-sinə.
Necə müntəzirdi gör, dediyinə,
Pələng nə vecinə, şir nə vecinə!

*

Bazar özüyünkü, nırx özüyünkü!
Necə istəyirsən qırx, özüyünkü!
Nə çəkin, nə də ki, qorx, özüyünkü
dayanıb arxanda, vur, nə vecinə!

*

Kim sənə neyləsə, özünə eylər,
Pulu işə salsan, Arazı əylər.
Yalandı yanında ağalar, bəylər,
hər yanda bir saray qur, nə vecinə!

*

Girib qılığına neçə maymağın,
düşübsən içinə yağın, qaymağın.
Şəxsi yar-yarağın, şəxsi oylağın!
Ceyranın bağrını yar, nə vecinə!

*

Adi bir şer ilə neyləsin İsa?
Əmrində maymaqlar ordusu varsa!
Yüz mənim kimisi qəsdinə dursa,
Zərin zər, zorun zor, zor nə vecinə!

*2 oktyabr, 1984-cü il, Bakı.*

## Sən mənə baxma

Yaşa öz ömrünü, bildiyin kimi,
Sən mənə oxşama, sən mənə baxma!
Ağlın əlindən tut, sevdiyin kimi.
Arzuna sədd çəkmə. Sən mənə baxma!

*

Sənin yolun ayrı, niyyətin başqa,
Məni yaxan oda canını yaxma!
Yaşarıq dünyada biz ayrı başla,
ayrı da ürəklə. Sən mənə baxma!

*

Məni yaradan gün uzaqdı səndən,
Bəxtinə gün düşüb, əldən buraxma!
Çox şeyə iştahsız baxanam gendən,
İştahın çəkirsə, sən mənə baxma!

*

Salanam könlümü oda, közə mən,
Çıxdığım bu yola aldanıb çıxma!

Görsən ki, od yağır bəbəklərimdən,
Elə olasıdı, sən mənə baxma!
*
Məni şair doğdu anam dünyaya,
Şair olmadınsa, könlünü sıxma!
Gərək mən günəş tək yanam dünyaya,
Özünə zor vermə, sən mənə baxma!
*
Yaşa sən ömrünü necə bilirsən,
Yaşa, hər axana qoşulub axma!
Mən keçəmməyəni keçə bilərsən
bəlkə də, risk elə, sən mənə baxma!
*
İndi dünya özgə, yaşayış özgə,
Sənə dözülməzdi, mən dözən daxma.
Boylan öz dünyana sən açıq gözlə,
Məndə nə var axı? Sən mənə baxma!
*2 oktyabr, 1984-cü il, Bakı.*

**Bağışla, tanımadım**

Sifətin tanışdı, ancaq, doğrusu,
yada salammıram səni, bağışla.
Neynim, qazancımın biri də budur,
bağışla sən allah, məni bağışla.
*
Düzdü, aramızda salam-kəlam var,
incimə, bilmirəm nəçisən, kimsən.
Durmuşam önündə dinməz, günahkar,
Bağışla sən allah...Yoxsa həkimsən?
*
Bəlkə bir qatarda biz yol getmişik?...
Bilmirəm, hər nədi sən özün başla.
Bəlkə bir məclisdə yeyib-içmişik?...
Bağışla sən allah, məni bağışla.
*
Bəlkə dərs demişəm sənə bir zaman?
Bəlkə Moskvada, qarda, yağışda?...
Bəlkə inciyirsən davranışımdan?...
Bağışla sən allah, məni bağışla.

*

Mənə dərs deyənlər unudulmayıb,
Mənə dost deyənlər dostumdu yenə.
Vallah, vicdan haqqı, huşum qalmayıb...
bağışla sən allah, bağışla məni.

*

Uzaq qohumsanmı? Eloğlusanmı?
Nişan ver, hər kimsən, bir din, danış da!
Bıy! Ayə, mənə bax! Yoxsa Osanmı?
Bağışla sən allah, məni bağışla.

*

Döydü gözlərini burda tanışım,
Dindi xəcalətlə, dindi təlaşla: -
Bağışla, eloğlu, deyən çaşmışam,
bağışla sən allah, məni bağışla.

*6 oktyabr, 1984-cü il, Bakı.*

## Eşqim

Xiffət diş qıcayıb qəsdimə durdu,
Böhtan çirkabına bulandı eşqim.
Xəyanət könlümə min yara vurdu,
Didik-didik oldu, talandı eşqim.

*

Yaxına üz tutdum, ümidim sındı,
Alışdım, oduma dərdim qızındı.
Şübhə qızmarında ilğıma döndü,
Elə bil, yox idi, yalandı, eşqim.

*

Doğmalar yad oldu, yağıya döndü,
Yediyim, içdiyim ağıya döndü.
Erkən yetim qalan çağaya döndü,
Minnət bələyinə bələndi eşqim.

*

Dərdə buladılar diləklərimi,
İnlədi qəlbimin nəğməli simi.
Səfil-səfil əsən küləklər kimi,
Dolaşıq yollarda dolandı eşqim.

*

Deyirəm, dağam ki, bu dağa dözdüm.
Doğrusu, özümü belə bilməzdim.

Eşqimi zamanın gözündən süzdüm,
Bir eşqə əbədi calandı eşqim.
*25 oktyabr, 1984-cü il, Bakı.*

### Borçalıya apar məni

İmkan elə, apar məni bir kərə,
Borçalıya, murazım var, ay oğul!
Ömür sürüb, il caladım illərə,
Çoxum gedib, bir azım var, ay oğul!
*
Ana yurdun torpağına, daşına
ürəyimdə deyiləsi sözüm var.
Apar məni, dolanaram başına,
apar məni, nə qədər ki, gözüm var.
*
Apar məni Xram coşan yerlərə,
qoy görüşüm, halallaşım bir də mən.
Bir də baxım Ağbulağa, Ləlvərə,
Kosalara - dədə-baba yurda mən.
*
Bilirəm ki, işin çoxdu, vaxtın az,
Böyüyə de, qurban olum, izin al!
Üç günlüyə vallah dünya dağılmaz,
Tək üççə gün mənə görə işdən qal!
*
Nə müddətdi şəhərdəyəm, budur, mən,
Darıxmışam dağlar üçün, ay oğul!
Giley deyil, adın haqqı, bilirsən,
kövrəlmişəm, özün düşün, ay oğul!
*
Apar məni, qurban ollam boyuna,
Qutu evdə qəfəsdəki quşam mən!
Burax məni təbiətin qoynuna,
Elə say ki, yuvama uçmuşam mən.
*
İmkan elə, apar məni bir kərə,
Borçalıya, murazım var, ay oğul!
Ağbulağa, Başkeçidə, Ləlvərə
deyiləsi sirr sözüm var, ay oğul!
*13 fevral, 1985-ci il, Bakı.*

## Dur duruca

Alış işıq saçmaq üçün,
Yaxmaq üçün yaxa cırma.
Məst ol bir cüt başmaq üçün,
Məst olub da baş aparma.
*
Üzük qəlbi yamayan ol,
Üzülənə can qıyan ol.
Dərd üzəni qınayan ol,
Dərdüzməzə qarşı durma.
*
Can deyənə diqqət elə,
Candeməzə hörmət elə.
Can verənə şəfqət elə,
Canverməzə ağız burma.
*
Yar ol, yara, yarayan ol,
Yar dəryanı, yara yan al.
Yarı, yardan yarıyan ol,
Yarımaza yara vurma.
*
Doğru duran durdu uca,
Durduğunu qurdu uca.
Durul, durul, dur duruca,
Durulmasan daha durma!
*6 aprel, 1985-ci il, Bakı.*

## Tülkü-tülkü tünbəki

Tülkü-tülkü tünbəki,
quyruq üstə dümbəgi,
oda düşdü, yanmadı,
suda da islanmadı,
töhmət aldı, irişdi,
dedi:-bu da bir işdi;
saldılar çək-çevirə,
yağlı iş verə-verə;
rüşvət verib o andır,
rüşvət aldı, dolandı.

*

Ayı - axmaq, bəllidi,
Donuz - toxmaq, bəllidi,
Qan!-dedilər, qanmadı,
Dön!-dedilər, dönmədi;
Bal tutdu barmağıyla,
Qoz qırdı dırnağıyla;
Nə bir ədəb anladı,
nə özünü danladı,
ağac gördü, dırmandı,
palçıq gördü, çırmandı.

*

Çaqqal - cırtdan, neyləsin?
Qurd - qəhrəman - ver, yesin.
Biri gizli talayır,
biri dodaq yalayır.
Meymun çılpaq qalıbdı,
Timsahı dərd alıbdı.
Qoyun lal gəldi-getdi,
Nər boynu əyri bitdi.
Eşşək yüklü, hıqqandı,
hıqqandıqca budandı.

*

İlan qamçı olandan,
Xoruz bançı olandan,
gözə yuxu gəlmədi,
ürək dinclik bilmədi;
Qaz vurub qazan asan,
iş üstə rüşvət pusan,
içib küçədə yatan,
küçədə şərəf satan...
Dərd üstə dərd qalandı,
Dünya alışdı, yandı.

*

Sözün qursağı dardı,
bu nağıl da qurtardı!
Dərdim, üç alma idi,
haqdan güc almaq idi;
harayladım, yoruldum,
harayımdan kar oldum,
səsə səs verən qəhət!

Bu da bir ayrı cür dərd!
Günəş kimi tək yandım,
yandıqca da qınandım.
*2 avqust, 1985-ci il, Bakı.*

## Gecdi

Get, daha neyləsən gecdi, qurtardıq!
Keçdi son ümid də, soğuldu, keçdi.
Keçdi sən gördüyün o günlər artıq,
Ötürmə köksünü, ötürmə, gecdi!
*
Gecdi ah-ufun da, yalvarışın da,
Bayağı görünür davranışın da!
Dayanıb yolumun hər qarışında,
Bezdirmə, bezdirmə, bezdirmə, gecdi!
*
Hardaydın eşqinlə dağ-dağ olanda?
Hardaydın ürəyim cızdaq olanda?
Hardaydın can sənə dustaq olanda?...
İtirmə vaxtını, itirmə, gecdi!
*
Daha neyləyirəm, nə mənası var?
Başım dumanlıdı, saç-saqqalım qar.
Adım dodağında qabar bağlayar,
Gətirmə dilinə, gətirmə, gecdi!
*
Elə fərz eləyək, bağışladım mən,
Könül ki, dönəsi deyil sözündən.
Tökmə günahını, tökmə gözündən,
Gecdi, gecdi daha, hönkürmə, gecdi.
*20 sentyabr, 1985-ci il, Bakı.*

## Kim yatıbdı, kim oyaq?

Könlümə işıq düşüb,
Kim yatıbdı, kim oyaq?
Hay verin, ümidlərim!
Kim yatıbdı, kim oyaq?
*

Dərd varmış haça dilli,
Sirr varmış içi bəlli.
Nur varmış bəd əməlli,
Kim yatıbdı, kim oyaq?
*
Bu yurdun daşı yandı,
Bağrının başı yandı,
Gözdə göz yaşı yandı,
Kim yatıbdı, kim oyaq?
*
Hanı dəyirman daşı?
Boylanır Divin başı.
Oyat Cırtdan qardaşı,
Kim yatıbdı, kim oyaq?
*
Cavab ver, Ulu Dünya,
Səbri dopdolu Dünya;
Düymənin qulu Dünya,
Kim yatıbdı, kim oyaq?
*17 iyul, 1986-cı il, Bakı.*

**Soyuqluq**

Gəldim, gəlişimdən heç isinmədin,
Getsəm üşüdərmi gedişim səni?
Mənmi soyumuşam, sənmi, bilmirəm,
Öpsəm isidərmi öpüşüm səni?
*
Ötənlər sənə də, mənə də birdi,
Nə soyuq əldi bu, araya girdi?
Bu necə sehirdi? Bu necə sirdi?
Kim yoldan elədi, söylə, kim səni?
*
Olan can odumuz elə buydumu?
Bir şimşək ömrüdü, bircə qıydı bu!
Necə sevgidi bu, necə paydı bu?
A nur yağışında, görüm, çim, səni!
*
Budur, bu işim də belə, yarımçıq,
Gəl indi, kişisən, ömrü başa çıx!

Ağlım dumanlıdı, ürəyim açıq -
Hürküdüb qaçırtdı hansı cin, səni?
*
İnanma, bu dərdə dözənəmmi mən?
Didərgin düşmüşəm dərdin əlindən!
Daha kömək yoxdu yoxsul dilimdən,
Nə ola, qaytara bu him-cim səni!
*3 avqust, 1986-cı il, Kosalar.*

## Yanan da mən, yaman da mən

Bir sevdaya qul olmuşam,
Yanan da mən, yaman da mən.
Yanıb-yanıb kül olmuşam,
Yanan da mən, yaman da mən.
*
Ürəyimin halına bax,
Muradımın kalına bax.
Saqqalımın çalına bax,
Yanan da mən, yaman da mən.
*
Qədirsizdi yazıq canım,
Kəsərsizdi and-amanım.
Nə deyirsiz, a dörd yanım,
Yanan da mən, yaman da mən?
*
Bu dünyaya vurulan - mən,
Bulanan - mən, durulan - mən!
İçin-için qırılan - mən,
Yanan da mən, yaman da mən?
*
Geyinibdi tər libası,
Cızdaq olubdur İsası.
Kimdən alır, gör, qisası,
Yanan da mən, yaman da mən!
*3 avqust, 1986-cı il, Taxtabulaq.*

## Qarmon

Girdi qılığından ustad əlləri,
Əsnədi, gərnəşdi, yığışdı qarmon.
Oxşadı barmaqlar sədəf dilləri,
Bir eşqin oduna alışdı qarmon.
*
Səsi sapa düzdü, muncuq elədi,
Ürəyin üstünə işıq ələdi.
Nəğməni ruhuma elə çilədi,
Dedim: sısqa səpən yağışdı, qarmon.
*
Axdı səs selində xəyalım, axdı,
Dərdimin başında ildırım çaxdı.
Qopardı, uçurdu, apardı, yıxdı,
Sel idi, ümmana qovuşdu, qarmon.
*
Bu səsdə bəm də var, zil də, haray da,
Maraldı, mələdi sanki o tayda.
Dərdi nəfəsini...Bu dünya boyda
eşqiylə qucağa sığışdı, qarmon.
*
Dilqəmin dərdini toxudu çin-çin,
Düzdü ifçin-ifçin, oxudu çin-çin.
Elə bil bir şirin yuxudu, çin, çin!
Naxışlar içində naxışdı, qarmon.
*
Füzuli ahıdı alışan - dedi,
Neçə nakam üçün yandı, can - dedi,
Qəmi qəmli dedi, pərişan dedi,
Sevincin əlindən nur içdi, qarmon.
*
Bir BUDAQLI RÖVŞƏN min budaq atdı,
Eşqin qanadında kamına çatdı.
Dörd barmaq altında nələr yaratdı!...
Dərələr adladı, dağ aşdı, qarmon.
*
Yandı yanıq Kərəm, yandı xan Kərəm,
Tutuşdu oduna neçə bəxti kəm.
Haldan-hala düşdü əldə dəmbədəm,
Elə bil körpəcə bir quşdu, qarmon.

*

İsa, nə sirdi bu, üşəndi dağlar!
Səsin ayağına döşəndi dağlar.
Əks-səda ilə qurşandı dağlar,
Durdu, əlbəyaxa savaşdı, qarmon.

*6 avqust, 1986-cı il. Taxtabulaq.*

### Mənim həqiqətim

***Muğannaya***

Mən varlıq ortağı - MƏN GÜN ƏŞİyəm,
Mənim həqiqətim ODdu - ƏRəm MƏN.
Mən də Yer üzünün ÖZ Günəşiyəm,
ODumdan dünyaya NUR çilərəm MƏN.

*

Yeddi qat Yerim var, yeddi qat Göyüm,
Yeddi Qüzeyim var, yeddi Güneyim.
Nələr yaratmışam... Hansını deyim?...
ƏSKİFƏR babamdan sor, nə FƏRəm MƏN.

*

Adını ulduza yazan ƏR - MƏNəm,
Ulu, müdrik - MƏNəm, təzə-tər - MƏNəm.
AĞÜZəm, ÜZAĞam - SAF BƏŞƏR - MƏNəm,
Qəlbi NUR, dili NUR - NURSEVƏRəm MƏN.

*

SUƏRəm, ŞUMƏRəm, FƏRODam, ƏRəm,
Haqq yolda CAN versəm, uf da demərəm.
Dil-dil doğranaram, mil-mil bitərəm,
Mən ODƏR oğluyam - NƏSODƏRəm MƏN.

*

SARODDAŞ imzalı BAĞISTANım var,
Dünyanı mat qoyan MİN NİŞANım var.
Nə qədər canımda hələ CANım var,
ARANı TORANa dəyişmərəm MƏN.

*13 dekabr, 1986-cı il, Bakı.*

### Arzun nədir dünyada?

Deyirsən ki, arzun nədir dünyada?
- Dan mehində üşüyəydim bir də kaş!

Bal sağaydım bizim Ballı Qayadan,
Kollu döşdə töyşüyəydim bir də kaş!
*
Yaşamışam bu vaxtacan bir təhər,
Bir təhəri yaşayaydım bir də kaş!
Düyünləyib dərd-sərimi hər səhər,
Gün uzunu daşıyaydım bir də kaş!
*
Yad sevincdən doğma dərdim gözəldi,
Qaysağını qaşıyaydım bir də kaş!
Bir gözümlə hər nə gördüm, gözəldi,
Göz qıyaydım, qaş qıyaydım bir də kaş!
*
Neyləyirəm tək baharlı bir ömrü?
Çallayaydım, qışlayaydım bir də kaş!
Yaşayaydım bu cür barlı bir ömrü,
Gecə-gündüz işləyəydim bir də kaş!
*
Dəm də gördüm, qəm də gördüm həyatda,
O dəm-qəmi döşləyəydim bir də kaş!
Həm qazandım, həm itirdim həyatda,
O həyatı başlayaydım bir də kaş!
*
Nə dahiyəm, nə də elə mağmınam,
Bu uğurda baş qoyaydım bir də kaş!
Bir fağırca anam üçün oğulam,
Hənirini kaş duyaydım bir də, kaş!
*17 dekabr, 1986-cı il, Bakı.*

## Yaxşı-pis

İkiyə bölünüb binadan Dünya,
Xeyir bir tərəfdə, şər bir tərəfdə.
Yüz qoçun başını qaynadan Dünya,
Bir hoqqa çıxarır hər bir tərəfdə.
*
Nura üz çevirən zülmətə düşmən,
Zülmətə üz tutan işığa yağı.
Yaxşılıq gözləmə xisləti pisdən,
Pis elə əzəldən yaxşıya yağı.

*

Yaxşının yaxşıya minnəti yoxdur,
Yaxşı yaxşıya da, pisə də yaxşı.
Pisin pis adında pisliyi çoxdu,
Yaxşıdı, pis dostu pisə də, yaxşı.

*

Yaxşılıq əlindən gəlməz heç pisin,
Pisliyin atası, anasıdı pis.
Çalış, quyusunu dolan keç pisin,
İçində ovulub sınasıdı pis...

*

Beləcə bölünüb bu boyda Dünya,
Bir üzü yaxşıdı, bir üzü pisdi.
Başını sallayıb dolanır...Guya
bu cür vurhavurdan o, xəbərsizdi.

*18 dekabr, 1986-cı il, Bakı.*

**Çağla, Tütəyim!**

Sinəmdəki təlatümsən,
Çağla, tütəyim, çağla!
Üz, üzülməz həsrətimi,
Dağla, tütəyim, dağla!

*

Bu nə oddu Şikəstədə?
Dağmı daddı Şikəstə də?
Buda məni şikəstədə,
Şaxla, tütəyim, şaxla!

*

Qopdu dağların boranı,
Tufan düzlədi Aranı,
"Apardı sellər Saranı",
Ağla, tütəyim, ağla!

*

Gözü yolda Təbrizimin,
Dərdi dağdı dərdsizimin.
Qayadan da bərk üzümü
Danla, tütəyim, danla!

*

Harayla tək Kəkliyimi,
Cızdağ elə təkliyimi!

Göynərimi Loğman kimi
bağla, tütəyim, bağla!
*
Dayanmışam yurd başında,
Qoz sındırır dərd başımda.
Nəyim varsa, yaddaşında
saxla, tütəyim, saxla!
Çağla, tütəyim, çağla!
*21 dekabr, 1986-cı il, Bakı.*

**Dünya, bəxtəvər başına!**

Biri vardı, biri yoxdu,
Dünya vardı, dərdi çoxdu.
Üz tutaraq öz dərdinə
Dünya bir gün dedi: - Sənə
nə borcum var, a Dərd qağa?
Dərd söylədi: - şora, yağa
qiymət birdi bazarında.
Azarı var azarın da!
*
Dünya üz tutdu qiymətə: -
Niyə birsən ota, ətə?
Qiymət dedi: - Bunu, Dədə,
əti ata, otu itə
necə gəldi satana de,
Haqqa nahaq qatana de.
*
Dünya üz tutdu satana,
vicdan atıb var tutana: -
Bu nə alver, nə bazardı?
Satan Dünyaya bozardı: -
Mənə nə var, alana de,
başına kül olana de.
*
Dünya üz tutdu alana,
aldığına mat qalana: -
Nədir, Kişi, aldığın nə?
De, nə dərd üz verib sənə?
Alan güc verib səsinə

Eh - söylədi - nə vecinə,
bir əlindi, bir də başın,
altında da kosmik maşın,
hazır gəlir yer-yemişin,
bazarlarla yoxdu işin;
Alma düşsə göydən əgər,
ətəyinə gəlib düşər.
Dolanırsan var başına,
Günəş səpir zər başına,
Dönür ulduzlar başına,
Dünya, bəxtəvər başına!
*30 yanvar, 1987-ci il, Bakı.*

## Bircə

Həyat yollarında çaş da, büdrə də,
minnət bələyinə bələnmə bircə!
Ac ol, yalavac ol, inamsız olma,
haqqını, əl açıb, dilənmə bircə!
*
Əyilmə tamaha, tamah əysə, sın!
Dünyada ləyaqət oduna qızın!
Yaşa da, yarat da, fəqət qansızın
nəzir-niyazına dolanma bircə!
*
Hər kim olursan-ol, özün ol təki!
Bəşəri nur olsun ürəyindəki!
Şərdən aralı dur, böhtandan çəkin!
Xəyanət əlində talanma bircə!
*21 aprel, 1987-ci il, Bakı.*

## Qalan kimə qalır-qalsın

Mən götürdüm öz yükümü,
Qalan kimə qalır-qalsın.
Dəm də gördüm, qəm də, bəsdi,
Qalan kimə qalır-qalsın.
*
Dağdağanam - dağ-dağam mən,
Boşla, daha dağ yağam mən.

Dağ dağına ortağam mən,
Qalan kimə qalır-qalsın.
*
Qırım getdi, Dürüm belə,
Birim elə, birim belə.
Dərdləşirəm Kürüm ilə,
Qalan kimə qalır-qalsın.
*
Arazımın arı azdı,
Aramızda ara cızdı.
Yarı yalçın, yarı bozdu,
Qalan kimə qalır-qalsın.
*
Dönə-dönə dad başına,
Yad daş atdı yaddaşına.
Başlı qalsa od başına
Qalan kimə qalır-qalsın.
*
Odam, nurum oda düşdü,
Dadım boy-boy yada düşdü.
Xoşam ki, Qor Quda düşdü
Qalan kimə qalır-qalsın.
*6 iyun, 1987-ci il, Bakı.*

**Nəyinə yaraşır söz SÖZün?**

GÜN bizim, AY bizim, desəm, İL bizim,
Nəyinə yaraşır İlbiz İLBİZin?
MƏN mənim MƏNimdi, çünki BİZ bizik,
Nəyinə yaraşır, iynə biz BİZin?
*
GÜLLÜK - gül tutarı, BAR elə VARdı,
QARIN öz DAŞına yetik TUTARdı.
Büsbütün heyrətin adı BAHARdı,
Nəyinə yaraşır söylə, söz SÖZün?
*
BƏBƏ tutarının adı BƏLƏKdi,
QUŞları tutarın adı KƏLƏKdi,
Görəni BƏBƏKsə, GÖZ elə BƏKdi,
Nəyinə yaraşır görən göz GÖZün?

*

BAKı - Şirvanımın Xəzərə GÖZü,
Əzəli adını qoruyub özü.
QORUQdur ki, "yoxdur YAZIya POZU",
Nəyinə yaraşır basqı - "yaz!" YAZın?

*

ÇO - kişi, ÇOCUQ da - kişi kiçiyi,
İynənin burnuyla ARA, SEÇ İYi.
Yeddi səs, yeddi rəng, yeddi İÇ İYİ,
Nəyinə yaraşır  süfrə-miz MİZin?

*

Təbiət - təbii, haqdan toxunma,
O, elə kitabdı asan oxunmaz.
ALMA - AL YANAQ QIZ, alma, toxunma!
Nəyinə yaraşır ərlik qız QIZın?

*

HEYVAya heyva yox, HEYİF A de ki,
Qurd onu içindən vədəsiz yedi.
Babam üzüyünə: AYIR, ÜZ - dedi,
Nəyinə yaraşır girdə üz ÜZün?

*

Yurdum quculmaz ki, QARA BAĞ olub,
GƏZ dağ-dağ olub ki, dönüb DAĞ olub.
DUZun, lap əzəldən, adı AĞ olub,
Nəyinə yaraşır, ağsa, duz DUZun?

*

Xəzərim - GƏZ ƏRim - DAĞa ÇATANım,
GÖYGÖLüm, BAYKALım - GÖYdə YATANım.
TƏBRİZim - TƏB RİZim - SU QALAm, şanım,
Nəyinə yaraşır Tərbiz TƏBRİZin?

*

YANĞIya CIZ - deyib, əl çəkmədikmi?
İŞIĞa CIZ - deyib, yol çəkmədikmi?
QARAya CIZ - deyib, qol çəkmədikmi?
Nəyinə yaraşır cızıq-cız CIZın?

*

Nədən SƏS demişik adına KÜYün?
Niyə EV olubdu, öyməli ÖYüm?
Bəlkə yanılıram, neynək, Siz deyin,
Nəyinə yaraşır YER yerimәzin?

*17 iyul, 1987-ci il, Bakı.*

## Mənimki deyil

El elə bilir ki, dünya mənimdi,
Heç öz ürəyim də mənimki deyil.
Olanım-qalanım satlıq-satındı,
Duzum, çörəyim də mənimki deyil.
*
Ömrüm ömürlərə calanıb gedir,
Olanım sökülüb, talanıb gedir.
Bitməzim üst-üstə qalanıb gedir,
Taxçam, tərəyim də mənimki deyil.
*
Yaxına baxıram, uzağım itir,
Uzağa baxıram, gözdağım bitir.
Çalxadığım gedir, süzdüyüm gedir,
Qabda xörəyim də mənimki deyil.
*
İtənim doğmadı, yad doğub itir,
Dost-doğma budaqda yad zoğu bitir,
İçimdən göyərib yad-yağı bitir,
Qeyrət dirəyim də mənimki deyil.
*
Canıma daraşan zəli qan sorur,
Yaxşıya-yamana baxmadan sorur.
Arxa söykədiyim arxadan vurur,
Belim, kürəyim də mənimki deyil.
*
Bircə ulularım ün yetənimdi,
Özgə nəyim varsa, mənə qənimdi.
El elə bilir ki, dünya mənimdi,
Bircə çərəyi də mənimki deyil.

*18 iyul, 1987-ci il, Bakı.*

## Kəpənək

Kəpənək - çiçək böcək,
Kəpənək - böcək çiçək!
Kəpənək - güllü qanad,
Kəpənək - xallı ləçək!
*

Kəpənək - yol ayrıcı!
Yaranışın ortaq ucu!
Kəpənək - bu dünyanın
Möcüzə yaratmaq gücü!
*
Kəpənək - zərifliyin möhkəmliyi!
Kəpənək - möhkəmliyin kövrəkliyi!
*
Kəpənək kimidi elə dünyanın özü də,
səkə-səkə səksəkəli ömür sürər
xəfif-xəfif titrəşən
ulduzluğun üzündə.
*
Dəymə, dünyamıza!
Dəymə, zəri tökülər!
Dəymə, kəpənəksiz qalan
ulduzlar ölər,
Dəymə!!!
*20 iyul, 1987-ci il, Bakı.*

**Oktyabr**

Oktyabr - qar fəslinin al gecəsi,
Qış yurdunun yuxusuna haram qatan.
Oktyabr - günbatana pəncərədən
süzülərək ərzə çatan
işıq seli, nur dilimi.
Oktyabr - ölümsüzün haqq ölümü.
Oktyabr - min düyünlü bənd-bərənin dağılması.
Oktyabr - qart dünyanın təməlindən yıxılması.
Oktyabr - yerin bəyaz sinəsinə
qızıl-qızıl güllər əkən.
Oktyabr - əlçatmazın xirtdəyinə
qurğuşun əridib tökən.
Oktyabr qanadında ulduzlara uçuş varmış.
Oktyabr - payız ayı?
Yox! Qızılı bir qatarmış.
*21 oktyabr, 1987-ci il, Bakı.*

**Zəncirləmə**

Mən mənə mən dedim, xətrinə dəydi!
Mən mənə nə deyim, xətrin xoş olsun?
Əridə bilmədin, bu, nə tikəydi?
De, nə çeynəyim ki, sənə nuş olsun?
*
De, nə çeynəyim ki, sənə nuş olsun?
Axı nə deyirsən, neyləyək indi?
Neylədiksə, dedik sənə xoş olsun,
Gəlin bildik səni, gəldin, sevindik.
*
Gəlin bildik səni, gəldin, sevindik,
Gəlsən, könlümüzə gün doğar - dedik.
Gəldin, evimizdə qonağa döndük,
gözümüz üstündə yerin var - dedik.
*
Gözümüz üstündə yerin var - dedik,
daha demədik ki, dur, dala bizi!
Götür, ürəyinə nə yatır - dedik,
daha demədik ki, çap, tala bizi!
*
Daha demədik ki, çap, tala bizi,
canda canımıza daraşan yağı!
Daha demədik ki, noxtala bizi,
özün ola-ola özgə ulağı!
*
Özün ola-ola özgə ulağı,
niyə dəyməlidi şıllağın bizə?
(Demə, qabaqdaymış günümün ağı...
yazığı da gəlmir allahın bizə).
*
Yazığı da gəlmir allahın bizə,
sümüyün-sümüyə calanan gündən.
Yağı kəsilmişik öz-özümüzə,
bu yük çiynimizə qalanan gündən!
*
Bu yük çiynimizə qalanan gündən,
Anam perik düşüb, atam qayğılı.
Evimiz əlinlə talanan gündən,
qapımız şadlığın üzünə bağlı.

*

Qapımız şadlığın üzünə bağlı...
Gərək dinməyəydim, gərək dözəydim!
Bu nəydi, uçdumu başımdan ağlım?
Mən mənə mən dedim, xətrinə dəydim!

*24 noyabr, 1987-ci il, Bakı.*

## Var-yox

Yuxu da, yuxa da yoxa yaxındı,
Yoxun yoxsulluğu varlıdan varlı.
Var gözə soxulan, başa çıxandı,
Yox məsum, bakirə, arlı, abırlı.

*

Varı harda desən haqlamaq olur,
Yoxun arxasınca çap ki, çapasan.
Varı hara desən bağlamaq olur,
Yoxu bağlayanı çətin tapasan.

*

Var yoxun yoxuna dikib gözünü,
Yox varın varına məhəl də qoymur.
Var yoxa, yox vara tutub üzünü,
Yox vardan iyrənib, var yoxdan doymur.

*

Var vara söykənir yoxun xofundan,
Yoxun milyon vardan qorxusu yoxdu.
Varın var içində elə bağrı qan,
Yoxun yox içində ağrısı yoxdu.

*

Var gələr, var yaşar, var ölər, gedər,
Yox gələr, yox yaşar, yox ölməz, itməz.
Var vara daraşar, var varı didər,
Yox yoxa dolaşmaz, yox yoxu didməz.

*

Var vardan doğulub, yox yoxdan olub,
Var yoxa bağlanıb, yox vara bağlı.
Var vara dolduqca, yox yoxa dolub,
Varın var ağlı var, yoxun yox ağlı.

*

Varın tamahından yox duyuq kimi,
Yoxun gözlərində yox yuxu guya.

Oturub üstündə qırt toyuq kimi,
Nə vaxtdı çalxayır var yoxu Dünya.
*17 dekabr, 1987-ci il, Bakı.*

## Yenidən qurur

Əriyir qüzeydə qar -
Bahar yenidən qurur!
Dərələrdə şivən var -
Dağlar yenidən qurur!
*
Palıd qucur palıdı -
Baltanın vay halıdı!
Belə də olmalıdı -
Mişar yenidən qurur!
*
Arıya mahalmı var?
Duruya zavalmı var?
Oğruya halalmı var?
Nə var, yenidən qurur?
*
Hinə müdir olmağa
çalışır tülkü qağa.
Çəkilib bir qırağa,
Şahmar yenidən qurur!
*
Qurd gizlədir dişini,
dəyişir vərdişini!?
Başa düşür, işini
şikar yenidən qurur!
*
Tamahın qılığına
uyan, çəkilmir qına.
Çəkib yağlı bığına
tumar, yenidən qurur!
*
Çatıb çəmbər qaşını,
sahmanlayır çaşını,
Dünyaya baxışını
xumar, yenidən qurur!

*

Hər yaşın bir başı var,
hər başın bir huşu var,
hərənin bir işi var,
Bekar yenidən qurur!

*

Dərd də budur: vurhavur,
boş-boşuna gurhagur!
Hamı yenidən qurur,
Yenilikdən dəm vurur.

*10 fevral, 1988-ci il, Bakı.*

## Ay Lələ

Niyə belə müəmmalı baxırsan?
Ömrüm-günüm sənə qurban, ay Lələ!
El sevgisi, yurd eşqidi, bilirsən,
Damarımda axan bu qan, ay Lələ.

*

Mən də vurğun, sən də vurğun bu yurda,
İxtiyarsan, nə istəsən buyur da!
Ürəyimi dinlə bircə hoyur da,
İldırımdı canda çaxan, ay Lələ!

*

Nəyim varsa, qulluğunda hazırdı,
Alışıram, hazır dayan, hazır dur.
Lal çəkici kar zindana ağır vur,
Kal durmasın puçur çağan, ay Lələ!

*

Borçu oğlu salxım sıxdı, bor oldu,
Borçalıda toy-düyünlər quruldu.
Dədə Ləlvər Yağlıcaya vuruldu,
"Al, get" - dedi, evlər yıxan, ay Lələ!

*

Durna qalxdı Pərvanadan, düzüldü,
Ağbavada sıra sındı, üzüldü...
Gümrü yurda həsrət axdı, süzüldü...
Kiprik çaldı qoca Sarxan, ay Lələ!

*

Qaraçöpdə Qara Çonun binəsi,
Körüklənir Qaracanın sinəsi.

Qarayazı dindirilsə, dinəsi...
Yurda sığmır qəlbə sığan, ay Lələ!
*
Başkeçidin donqarı var Şindidən,
Qaşlarına çal düşübdü indidən.
Duman-sisim Dumanisə döndüsə,
Necə aşım bala dağdan, ay Lələ?
*
Nələr ötüb Quyubulağın başından?
Yastananın çalın-çarpaz döşündən?
Dəlik Daşın, Göy Qayanın qaşından
mamır deyil, dərddi baxan, ay Lələ!
*
Oğuz oğlu ox doldurdu sadağa,
Ox atmadı yağı yatan yatağa.
Hun ər kimi çatdı hündür çatağa,
Beyrəkləri başa yığan, ay Lələ!
*
Mənsurlarım soğan kimi soyuldu,
Al Dədəmin bir cüt gözü oyuldu.
Nə başlara, nə canlara qıyıldı!...
Dağdağanam, lal dağdağan, ay Lələ!
*
Ər bildiyim, dillənəndə "hay" dedi,
Ha bəslədim, ha səslədim, vay dedi.
Gələn gündən yer istədi, pay-dedi,
Gözümüzdən işıq sağan, ay Lələ!
*
"Qonağıma ləziz aşım var"-dedin,
"Tər yatağım, naz balışım var"-dedin.
"Mehri ılıq davranışım var"-dedin,
Nə istəyir qıllı dığa, ay Lələ?
*
"Yersiz gəldi, yerli, yer tap özünə,
Çəkilməsən iy salaram gözünə!"
Arsız-arsız diş ağardır üzünə,
Kürəyinə bıçaq çaxan, ay Lələ!
*
Zirəklərim qoç oğullar bitirsin!
Zəriflərim boya-başa yetirsin!

Dərdi candan ilim-ilim itirsin
Atam əkən, anam doğan, ay Lələ!!!
*20 fevral, 1988-ci il. Bakı.*

## Nə qədər teylənim mən?

Nurun çiliklənibdi,
İtiyinə yanan mən.
Gəldin al günəş kimi,
A başına dönüm mən.
*
Rastına çıxsın ağ gün,
Ağca bir gəlinə dön.
İnnən belə sürdüyün
səfaya köklənim mən.
*
At oda məni, axtar...
Dillərə düşməyim var.
A canımın eyni yar,
Nə qədər teylənim mən?
*5 iyun, 1988-ci il, Bakı.*

## Ala-bula boz keçi

Ala-bula boz keçi!
Ay qoşa buynuz keçi!
Dağdan, daşdan enmisən,
Gör bir nəyə dönmüsən;
Ağlını yelə verən,
Saqqalı ələ verən,
Hanı qoşa buynuzun?
Hanı dırnağın, dizin?
*
Bir ovuc yemə görə,
Sürünü sürə-sürə
qırğına apardın,
qırdırardın, qırardın.
Teli sığallı keçi,
Hallı-əhvallı keçi,

Hanı sığalın indi?
Necədir halın indi?
*
Apardığın son qoyun,
açdı başına oyun -
ət az oldu, yetmədi,
ehtiyacı örtmədi.
Qəssab qağan piy gəzir,
Ürəyin tir-tir əsir...
Hanı ötkəm günlərin?
Qayğısı kəm günlərin?
*
Sənə, getmə-deyəndə,
belə etmə-deyəndə,
saya salmadın sözü,
bəyənmədin yol-izi,
dağa-daşa dırmandın.
Axırda nə qazandın?
Qazancın qənimindi -
yeyilir ətin indi!
*18 oktyabr, 1988-ci il, Bakı.*

## Tikənə sökən deməzdi

SUAL
Ulu-ulu Qorqudların Qorqud oğlu, Qor oğlu,
Gəlinə ayıran demədi o Dədə Qorqud, nədən?
Hər nə sezdi, doğru sezdi, doğru yozdu, söylə bəs,
Ayrana doyuran demədi o Dədə Qorqud, nədən?
CAVAB
SAĞ - demişdi - QOR oğluna, Dədəm Qorqud, əzəldən,
Sağ olmasa, CAN - deməzdi o Dədə Qorqud Dədəm.
GƏZ - demişdi - GƏZ, dağıma, Gəlinə - GƏL, qovuşaq,
Gəlinə ayıran deməzdi o Dədə Qorqud Dədəm.
*
Hər mətləbin öz adını uğurladı, düz dedi,
SÜD üzündən YAĞ çalxadın, ayranını süz, dedi.
Pendir yedi, qaymaq yedi, körəməz, qımız yedi,
Ayrana doyuran deməzdi o Dədə Qorqud Dədəm.

SUAL

Yaxşı, Ozan köynəyini, iynə aldı, tikməyə,
İynəyə tikən demədi o Dədə Qorqud, nədən?
Əl-ətəyi, təşnə olan, müştaq olan, sökməyə,
Tikana, sökən demədi o Dədə Qorqud, nədən?

CAVAB

DİL - diləkdi,
PUÇUR - körpə,
BAĞ - vətəndi,
GÜL - AÇdır,
YAZ - QORUdur,
YAY - SƏR, AÇdır,
PAYIZ - PAY ÜZ,
QIŞ - KIŞdır.
İynə iyləyib, tikənə, iz aradı, yol açdı,
İynəyə tikən deməzdi o Dədə Qorqud Dədəm.

*

Tikana - sökən deyibdi, Tikənə deyərdimi?
Tikənə söykən - deyibdi, Tikana deyərdimi?
Can odunu candan odu çəkənə deyərdimi?...
Tikənə sökən deməzdi o Dədə Qorqud Dədəm.

*9 noyabr, 1988-ci il, Bakı.*

## Asta yeri

Asta yeri, kəmər düşər belindən!
Ölərəm, a ceyran bala, ceyran bala!
Ayaq saxla, duruşuna can qurban
elərəm, a ceyran bala, ceyran bala!
Ölərəm, a ceyran bala, ceyran bala!

*

Asta yeri, canı candan alan yar!
İnsaf elə, cana salma talan yar!
Həsrətindən canı oda salan var!
Ol aram, a ceyran bala, ceyran bala!
Yanıram, a ceyran bala, ceyran bala!

*

Asta yeri, Ay dolanır batmağa!
Ayaq saxla, Nənən gedir yatmağa!
Razı olsan dilindən bal dadmağa

gələrəm, a ceyran bala, ceyran bala!
Qalaram, a ceyran bala, ceyran bala!
*
Asta yeri, sudan gələn Sürməli!
Ayaq saxla, ay yaxası düyməli!
Qoşa xalın bir-birindən öyməli...
Ölərəm, a ceyran bala, ceyran bala!
Qalaram, a ceyran bala, ceyran bala!
*
Asta yeri, pəncərədən baxan var!
Ayaq saxla, ürəyimi yaxan yar!
Həsəd çəkir bizə baxan cavanlar,
bilirəm, a ceyran bala, ceyran bala!
Qanıram, a ceyran bala, ceyran bala!
*
Asta yeri, ayaq saxla, dön bala!
Bu sevdadı, yaşa baxmır, qan, bala!
Al canımı, peşkəşindi can, bala!
Ölürəm, a ceyran bala, ceyran bala!
Yanıram, a ceyran bala, ceyran bala!
*31 dekabr, 1988-ci il, Bakı.*

**Təkərləmə**

Ağırlığım, a bəylər,
uğurluğum, a bəylər,
alov dilli odlara,
tonqala yad yadlara,
süysünü qat-qatlara,
deyingən arvadlara,
dabanları çatlara,
evləri bərbadlara,
səmənisiz yurdlara,
hoya yetməyən vara,
haqqa kar qulaqlara,
yalan uyduranlara,
ləkəli vicdanlara,
əslini dananlara,
haqqı gec qananlara,
cəsəd kimi canlara,

canda soyuq qanlara,
qonşuya paxıllara,
qeyrətsiz oğullara
ağırlığım, a bəylər!
Uğurluğum, a bəylər!
*
Ağırlığım, xanımlar,
uğurluğum, xanımlar,
tonqal üstü qızmara,
çayda çimən qızlara,
saçları pırpızlara,
bəd nəzərli gözlərə,
qan qoxuyan sözlərə,
üzlər görmüş üzlərə,
yola çıxmaz izlərə,
ərdən utanmazlara,
şərdən usanmazlara,
dölü düzolmazlara,
yolu yozulmazlara,
üzlü abırsızlara,
dilbir ağılsızlara
ağırlığım, xanımlar!
Uğurluğum, xanımlar!
*
Ağırlığım, qız bala,
uğurluğum, qız bala,
bu müqəddəs tonqala,
isti nəfəs tonqala.
Hoppanıram: hop, belə!
dərdlərim odda qala!
Dədəm Qorqud saz çala,
ruhumuz pərvaz ola,
işimiz taraz ola,
qayğı azdan-az ola,
çiçək aça, yaz gələ,
avaz gələ, söz gələ,
bal bələnə, bal, dilə,
açar düşə lal dilə!
Küsdürən küsəngilə,
küsən küsdürəngilə,
qonaq ola, hal bilə,

xına yaxa əl ələ,
xonça gələ, dad gələ,
sonsuza övlad gələ,
dayaq ola el elə,
halay çəkə əl-ələ,
göygöz gözü bərələ,
gönü günə sərilə!
Yallı gedə qol-qola,
oğul bala, qız bala.

*

Ağır elim, oğul hey!
Vuran əlim, oğul hey!
Diqqət elə, fəhm elə,
Qorqud Dədəm boy boylar,
qopuz tutar, söy söylər,
söhbəti karvan əylər;
Dağ arxalı say bəylər,
bir-birindən yey bəylər
kür bədöylər yedəklər,
yüyən çeynər bədöylər;
Şümşad boylu igidlər
kəhərləri yəhərlər,
düz meydana çəkərlər,
sağa-sola səkərlər,
meydana turp əkərlər.
Bamsı Beyrək tək ərlər
alar qoçu, tək hərlər.
Güclünü gücü boylar,
gücsüzün içi oyular;
Suçlunu suçu qovlar,
nizənin ucu qovlar;
Qəssab tiyə bülöylər,
qəmi ülgücə teylər,
kədəri puça teylər,
Qodunu qoçu eylər,
Kosanı keçi eylər;
Piyçiyə keçi neylər?...
Ağır elim, oğul hey!
yağır belim, oğul hey!
İçim, çölüm, oğul hey!
dilim-dilim, oğul hey!

Vuran əlim, oğul hey!
sınır belim, oğul hey!
qurban olum, oğul hey!
dərdin alım, oğul hey!
yağı zalım, oğul hey!
yoxdu halım, oğul hey!
Bəy Vüsalım, oğul hey!
Xan Turalım, oğul hey!
Kür Xəyalım, oğul hey!
Dəlim-dolum, oğul hey!
sağım-solum, oğul hey!
yad-yağıdı, çat dada,
süpürülsün qan-qada!

*12 mart, 1989-cu il, Bakı.*

**Köçhaköç**

İnsan oğlu gəldi, gedər, bəhsəbəhs,
Var olana bir adətdi köçhaköç.
Yoxdan vara, vardan yoxa basabas,
Gəlhagəldi, gethagetdi, köçhaköç.

*

Vurhavura, qırhaqıra üyündük,
Gurhagura, xırhaxıra üyündük.
Göz açandan səpələndik, tüyündük,
Elə bildik siyasətdi köçhaköç.

*

Qovhaqovun tozanağı buluddu,
Çaphaçapda yolları toza tutdu.
Tağımızı, bağımızı qurutdu,
Başdan-başa səfalətdi köçhaköç.

*

Zəlzələdən, vəlvələdən qaçhaqaç,
Ölüm yüklü bir şələdən qaçhaqaç.
Min düyünlü bir tələdən qaçhaqaç,
Bəlkə elə səadətdi köçhaköç?

*

Sürhasürün, yeri-yüyürün yolu dar,
Xışdı xılın qabağınca can apar.
Gerçək imiş: "arxalı it qurd basar",
Müsibətdi, qiyamətdi köçhaköç.

*

Sathasatda qeyrət getdi müftəcə,
Min günahsız qurban getdi bir gicə.
Qart xoruza dimdik çaldı kür beçə,
Ləyaqətə xəyanətdi köçhaköç.

*

Gendən baxdıq, tamahlandıq, uduzduq,
Ön kasadlıq, arxa qurdluq, quduzluq.
Axır qırar bizi aclıq, susuzluq,
Belə getsə, ağ afatdı köçhaköç.

*

Qınımızda qoşabuynuz ilbizik,
Qından çıxdıq: karıq, koruq, dilsizik.
Sürünürük qırıq-qırıq, bel üzük...
Elə sanma zarafatdı köçhaköç.

*

Sən tərpənmə, o dinməsin bu gündə,
Bugün mənəm, sabah da sən bu gündə.
Ötən gündən küt gedəndi bu kündə,
Hayıf ki, çox gec anlatdı köçhaköç.

*

Yetim qalıb ulu qəbri, yurd, ocaq,
Göynər, sızlar içimizdə hər bucaq.
Əl ver, Qardaş, ata yurda yol açaq,
Anamızı, qan, ağlatdı köçhaköç.

*

Susma belə, ya hə, ya yox de, qurtar,
Niyə belə qıc olubdu bu damar?
Əl ver, Qardaş, əl ver, aman uman var,
Əl ver, əl ver, qırıb çatdı köçhaköç!

*mart, 1989-cu il, Bakı.*

**Belə-belə işlər...**

"Əlbir olub bir ayı bir şir ilə,
Ovladılar dovşanı tədbir ilə."
Razılaşıb Gülüstana gəldilər,
qəniməti ordaca tez böldülər.
Üç baladan bir-bir alıb hərəsi,
tülküyə də pay verdilər birisin.

Qalan xəzi üç ölçüb bir biçdilər,
sonra durub peymana and içdilər: -
Bir halda ki, bu işdə yoldaş olduq,
innən belə doğmaca qardaş olduq.
Sizə lazım olsam əgər, mən varam,
siz mənə lazım olsanız, haylaram.
Çünki belə işdə ayı, şir gərək,
bir də qoca tülkü bəy əlbir gərək!
Bir-birinə dərin təzim etdilər,
xoşca-xoşca ayrılıb da getdilər...

*

Üç balanın hərəsi bir ad aldı,
hər birisi bir yada övlad oldu.
Çalışdılar, alışdılar yadlara,
yaşadılar, gün gördülər ağ-qara.
Orda-burda görüşdülər yad kimi,
baxışdılar bir-birinə mat kimi: -
Bu nə sirdi, hər üçümüz birik, bir!
O, ayıdı, bu, tülküdü, mənsə şir?...

*

Kövrəldilər, ayrıldılar suallı...
Nə deyəydim mən onlara bu hallı?
Sən dünyada gəzişə-gərdişə bax,
Ayı, tülkü, şir qardaşdı, işə bax!

*11 oktyabr, 1989-cu il, Bakı.*

**Salam, Ana Sözü!**

Salam, Ana Sözü, xoş gördük səni!
Gəl, basım bağrıma, mehribanımsan!
Ağzımın ləzzəti, gözümün nuru,
Ruhumun qanadı, canda canımsan!

*

O şirin ləhcəli dilinə qurban,
Ulusuna qurban, elinə qurban.
Ucu bizə çatan yoluna qurban,
Gəl, keç ürəyimə süzül, qanımsan!

*

Danış Qaqouzum, din, haq oğuzum,
Bir soya, bir kökə ortaq oğuzum!

Hun Ərim, Qıpçağım, qıvraq oğuzum,
Koroğlum, Babəkim, Səttarxanımsan!
*
Dədəmiz Qorquddur, anamız - Vətən,
Sən Oğuz, mən Oğuz - bir dil, bir bədən.
Ulu yurdumuzun döşündə bitən,
Şöhrət nişanımsan, şan nişanımsan!
*
Yaşa, Ana Sözü, ana laylası!
Yaşa, varlığımın cövhər-mayası!
Yaşa, Atam arı, Anam həyası!
Yaşa, namusumsan, adım-sanımsan!
*21 mart, 1990-cı il, Bakı.*

## Dönəlgəsi dönənə bax

İrəvanda Xan qalmadı,
Dünənə bax, dünənə bax, dünənə.
Daha məndə can qalmadı,
Sinəmdəki sönənə bax, sönənə.
*
Xəncər varmı gümüşləyəm?
Zəncir qoymur əl işləyə.
Gözdağımdı gözişləyən,
Yenilməzi yenənə bax, yenənə.
*
Boza çalır qara giləm,
Yarı torpaq, yarı küləm.
Bıçaq altda Qaragüləm,
Can dadından mənə nə, bax, mənə nə?
*
Həştərxandan gələn gəmi,
Qəndsiz gəldi... yar sinəmi...
Qəfil vurdu, vuran məni,
Haça dilli sinənə bax, sinənə.
*
Yetir yara, yarıcanam,
Sil gözünü, yarsız anam.
Şükür olsun Yaradana,
Dönəlgəsi dönənə bax, dönənə.
*20 avqust, 1990-cı il, Bakı.*

### Xoruz

Ay pipiyi qan Xoruz!
Gözləri mərcan Xoruz!
Xoruzlanma çox da sən,
Xəbərdaram işindən.
*
Çil toyuğun hinində
pıçhapıçın bəllidi.
Toyuq-cücə önündə
minbir suçun bəllidi.
*
Tülkünün qılığıyla
həccə gedirsən hələ.
hər nə edirsən, hələ,
əcəb edirsən, elə!
*
Bir gün gələr, gözə çən
çökdürər tülkü qağan.
Yumurtası tərs gələn
toyuq tutar yaxandan.
*
Hə, bax onda baxarıq
vay-deyilən halına.
Onda tula bağlarıq,
qurumsaq, saqqalına!
*4 sentyabr, 1990-cı il, Bakı.*

### Düşmən mənə neyləyəcək?

Düşmən mənə neyləyəcək?
Öldürəcək uzaq başı.
Tikə-tikə doğratdırıb,
böldürəcək uzaq başı;
Hər hissəmi bir kisəyə
dolduracaq uzaq başı;
Sonra  kisəni çiyninə
qaldıracaq uzaq başı -
Düşmən mənə neyləyəcək?!
*

Düşmən mənə neyləyəcək?
Kor qoyacaq uzaq başı;
Al, biri Qır, o biri də
Dür-deyəcək uzaq başı;
Dərimə saman təpəcək,
lap soyacaq uzaq başı;
O dəridən boş başına
fəs qoyacaq uzaq başı -
Düşmən mənə neyləyəcək?!

*

Düşmən mənə neyləyəcək?
Susduracaq uzaq başı.
Qılınc çalan qollarımı
kəsdirəcək uzaq başı;
Bir başım var, bədənimdən
üzdürəcək uzaq başı;
Al qanımı badəsinə
süzdürəcək uzaq başı -
Düşmən mənə neyləyəcək?!

*

Düşmən mənə neyləyəcək?
Özünə düşmən olacaq.
Çünki mən-mən deyə-deyə
dönüb özü mən olacaq;
Mən deyəni yeyə-yeyə
özünü yeyən olacaq;
Yenə də mən mən olacam,
axır mən deyən olacaq!
Düşmən mənə neyləyəcək!?

*10 yanvar, 1991-ci il. Bakı.*

## Adamın gülməyi gəlir

Belə baxırsan dünyaya,
adamın gülməyi gəlir.
Dəliyə dərs deyir dəli,
ağıla gəlməyi gəlir.

*

Elələri çıxır taxta
mat qalırsan. Bax bu vaxtda

dəymiş quruyur budaqda,
kalın tökülməyi gəlir.
*
Nahaq haqqı həb tək udur,
əltutmağı əl unudur.
Başın əsməcəsi tutur,
belin bükülməyi gəlir.
*
Dərə-təpə xışdı xılın
kürsək yeridir, yığılıb.
Altda qalıb dünya, qılın,
boğulub ölməyi gəlir.
*
Qan yaxalı Gəmi - Xata
yırğalanır bata-bata...
Qurcalanır haramzada,
deyən, əkilməyi gəlir!?
*11 Yanvar, 1991-ci il. Bakı.*

## ŞƏHİD

Su atdım, yara dəydi!
Allah sən saxla, sən saxla!
Əlim divara dəydi,
Allah sən saxla, sən saxla!
Dilim-ağzım qurusun...
Allah sən saxla, sən saxla!
Nə dedim, yara dəydi...
Allah sən saxla, sən saxla...
*
Evləri köndələn yar!
Güllələr haqladı məni;
Bizə gül göndərən yar,
Güllələr dağladı məni;
Gülün yarpıza dönsün,
Yolumdan saxladı məni;
Məndən üz döndərən yar,
Torpaq qucaqladı məni.
*

Can verib, şəhid olan
Ay Sona bülbüllərim, oy!...
Üz cırıb, birçək yolan
Ay saçı sünbüllərim, oy!...
Od görüb, yetim qalan
Körpəcə qəndillərim, oy!...
Əl dərib, yerdə solan
Dərdli qərənfillərim, oy!...

*

Biz ölmədik, ŞƏHİD olduq,
Ağlama Vətən, ağlama!
Sənin idik, sənlə qaldıq,
Ağlama Vətən, ağlama!
Ənəlhəqqin övladıyıq,
Ağlama Vətən, ağlama!
Haqq aradıq, haqqı bulduq,
Ağlama Vətən, ağlama!
Qurbanınam mən, ağlama!
Səbrinə söykən, ağlama!
Sevinər düşmən, ağlama!
Ağlama, Vətən, ağlama!

*19-20 yanvar, 1991-ci il. Bakı.*

## Yurd həsrəti

Üzgün çöhrə, çözək birçək,
Dağ-dağ sinə - viran yurdum!
Didərginəm, necə qaldım
yaman günə, Turan yurdum!

*

Hər quşa da öz yuvası!
Vətəndi dövlətin xası!
Geyərəmmi toy libası
səndə yenə görən, yurdum?

*

Qərənfiləm şəhid yara,
Dil-dodağım para-para.
Düşmən bağrı yara-yara
dönəm sənə, Piran yurdum!

*21 may, 1994-cü il. Bakı.*

## İnsan olmusan

AĞ SAĞılıb - CAN olmusan!
AL TÜRdə RÖVŞƏN olmusan!
QARAda ÇİN-ÇİN olunca,
Ağban evdə XAN olmusan!
*
Ovxarlayıb QOL UCUnu,
Zülmətdən al NUR ÖCünü.
İÇin İÇinin İÇinin
İÇinə Sarban olmusan!
*
YOX idin, VAR oldun necə!
DOQdan SƏKə, SƏKdən ÜÇə!
DÜPdən YARUQ saça-saça
Yaradan, quran olmusan!
*
DÖRD, BEŞ, ALTI, YEDDİ səndə,
SƏKKİZ, DOQQUZ sənə bəndə.
İYİRMİ DÖRDə yetəndə
Dağılıb viran olmusan.
*
MİSKƏROĞLU YARICANdı,
Yaranışdan yarıyandı.
Könlün ki, HAQdan NURlandı,
Elə say, İNSAN olmusan.
*24 iyun, 1994-cü il, Bakı.*

## Şüşəbəndin dastanı

Məndən olsa, qoşulmazdım,
Söz məni yoldan elədi.
Damarımda kükrədi qan,
Canımda dövran elədi;
Mindirdilər cin atına,
Acığım tüğyan elədi;
Şer istədi, mən də yazdım,
Dinlədi, əhsən!-elədi.

*

Həbəş tipli sonbeşikdi,
Dinəndə:-mən mənəm!-deyir.
Yalan-palan üyüdür hey,
sonra da "vay çənəm" deyir.
"Vurğunumdu nə müddətdi
bir xarici Sənəm" - deyir.
Eşidincə Qəməndiri
yaxşıca divan elədi.

*

Əsgər getdi tay-tuşları,
Könüllü yazıldı o da.
Kağız yazdı Almaniyadan,
"Qaynaqçıyam mən orduda".
Pulsuz gəldi, gördüyünü
şirin dilə tuta-tuta.
Ata-ana həsrətini
bu gəliş talan elədi.

*

Gəldi, yaxşı toy elədik,
Qohum-qardaş var olsun hey!
Dillənənlər dilədi ki,
"Yarəb, uğurlar olsun hey!"
Dedim ki, bir "Ruhani" çal,
Zurnaçını kar olsun hey!
Dəfçi, qardaş, dəfimizi
verdi də qan-qan elədi.

*

Bir də gördüm yığışdılar,
gəlib, Daşkəndə getdilər.
Bir fasığın qulluğunda
neçəsi cüt-cüt bitdilər!
Çalışdılar, yaratdılar,
yarımadan tərk etdilər.
Yalançı satdı yalanı,
çoxunu alan elədi.

*

Vaqif gəldi, arxasınca
Tahir özünü yetirdi.
Düzüb-qoşdu, bir də gördüm,
Dərnəgüldə işə girdi.

Əzik, büzük maşınları
döydü, tikdi, aldı, verdi...
Yoldaş tutdu, dost qazandı,
Tezliklə ad-san elədi.
*
Günəşlidə ev almışam,
Qabağından yol adlayır.
Qapı-pəncərə bərbaddı,
arasından əl adlayır.
Eyvanlara qar yığılır,
otaqlara sel adlayır -
dedim, qadasın aldığım
kərtib də nişan elədi.
*
Qoy var olsun, Hasan əmim!
Gəldi, evi gördü, getdi.
Bir cüt qapı, taxça, tərək,
bir şüşəbənd qurdu, getdi.
Ürəyinin istisini
səxavətlə verdi, getdi.
Kasıblığın ciyərini
müftəcə şan-şan elədi.
*
Yağışlı bir qış günüydü,
Dəmir gətirib, gəldilər.
Qoy sağ olsun oğulları!
Doğradılar, gödəltdilər.
Uzun-hoqqar uqolniklər
yıxıldılar, dikəldilər...
Qəfəs qurub da eyvanda
fasilə elan elədi.
*
Uzun sürdü bu fasilə,
Qış üzüldü, bahar gəldi.
Həftə düzüldü dalbadal,
neçə-neçə bazar gəldi.
Dedim:-gətir, qurtar bunu.
Səhər getdi, nahar gəldi,
Axırda söz bu oldu ki,
Filankəs filan elədi.
*

Qardaş, axı, müəllimən,
xərcim, dedim, yarımqatdı!
Yox! Şairsən!
Bunun haqqı Müxəmməsdi!
Onu çatdır!...
Qurban olum, qoca ilham!
Dar günümdə dada çatdı,
Şüşəbəndin xatirinə
bir yeni dastan elədi.

*

Səhər tezdən qaçdım işə,
Kompüterdə yığdım onu;
Sığalladım, şümalladım,
cilaladım, sıxdım onu;
Printerdə çap elədim -
iynələrdən sağdım onu
Aldı, baxdı, dillənmədi,
fikrini pünhan elədi.

*

Bir sarı qutu düşürdü,
sanbalı zindan kimidi.
Hörükləri olmayanda
zərli çamadan kimidi.
Toka taxdı, inildədi,
xəstəhal insan kimidi.
Boz urvalı məftilləri
odla yapışqan elədi.

*

Getdi, gəldi, gələn kimi
müxəmməsə kökləndi saz.
Saz da nə saz!
Qapqara, daz,
uzun-diraz,
durna boğaz,
topuqdan saz,
başdan taraz,
lovğa, lobbaz,
daqqa, qurnaz...
Hər sözə bir səs uydurdu,
Damlanı ümman elədi.

*

Miskəroğlu Yarıcandı,
Baxdı, bəxtiyar yeridi.
Şüşəbəndə toy elədi,
nə ki, bilən var, yeridi.
Bağır basdı, "bəli!"-dedi,
Sanki Kamandar yeridi,
Söylədiyim bu dastanı
məclisə bəyan elədi.

*20-25 iyul, 1994-cü il. Bakı.*

## Xudu sənət məktəbində

Naxış gördüm, naxış! Naxış -
başdan-başa naxış-naxış!
Gözüm, könlüm naxış-naxış!
İçim, çölüm naxış-naxış!
Duruş - naxış, baxış - naxış,
Naxışlandım naxış-naxış!
Alqış, Sənət! Alqış, Naxış!
Qol-qıç - naxış! Göz-qaş - naxış!

*

Hara baxdım, naxış-naxış!
Rəngdən-rəngə çıxış - naxış!
Doğuş - naxış, yaxış - naxış!
Yaxış - naxış, axış - naxış!
Bir udumluq sevda - naxış!
Bir sevdalıq baxış - naxış!
Alqış, Sənət! Alqış, Naxış!
Soldış naxış! Sağdış naxış!

*

Nəyə baxdım, naxış-naxış!
Bulud - naxış, yağış - naxış!
Bir şimşəklik çaxış - naxış!
İçi odsuz yaxış - naxış!
Ümid - naxış, inam - naxış!
İnam dolu yanlış - naxış!
Alqış, Sənət! Alqış, Naxış!
Bahar-Payız, Yay-Qış - naxış!

*

Kimə baxdım, naxış-naxış!
Tale - naxış, Naxış - naxış!
Bir nəfəslik eniş - naxış!
Bir ömürlük yoxuş - naxış!
Sükut - naxış, haray - naxış!
Gözəlliyə çağrış - naxış!
Alqış, Sənət! Alqış, Naxış!
Göy Quş - naxış, Ağ Quş - naxış!
*
Naxış gördüm, naxış! Naxış
öz içindən naxış-naxış!
Kainata çıxış - naxış!
İç-içəlik, sıxış - naxış!
Nöqtə - naxış, kürə - naxış!
Bir nöqtəyə sığış - naxış!
Alqış, Sənət! Alqış, Naxış!
Qandaş Naxış, Qardaş Naxış!
*
Naxışlandı naxış-naxış
naxış Dünyam. Alqış, Naxış!
Aydan arı sağış - naxış!
Sudan duru axış - naxış!
İşıq - naxış, kölgə - naxış!
Ağappağa yığış - naxış!
Alqış, Sənət! Alqış, Naxış!
Yurddaş Naxış, çağdaş Naxış!
*30 iyul, 1994-cü il. Bakı.*

## İşıqdı

Yox-yoxa vurulub - hasil olan - MƏN!
Qaynağım alovdu, selim işıqdı.
Üç, altı, doqquzam, üzüm ulduza,
İki, on iki-on iki, qolum işıqdı.
*
Bir Ünə bağlıyam yaranışımdan,
Fələklər doğulub davranışımdan.
Zülmətin bağrından yaranmışam mən,
İçim qaranlıqdı, çölüm işıqdı.
*

Vaxtı yəhərləyib çıxmışam yola,
Hayana getmişəm: var-yox qol-qola.
Gah sağa çapmışam, gah da ki, sola,
Görmüşəm: sağım od, solum işıqdı.
*
İzim dupduruca, önüm çən kimi,
Dolmuşam, sünbülə dolan dən kimi!
Uçuram sabaha, ağ yelkən kimi,
Yaddaşım yanğıdı, dilim işıqdı!
*2 sentyabr, 1994-cü il. Bakı.*

## Demə, demə!

*"Azadlıq uğrunda mübariz"*
*fəxri adına layiq görülmüş,*
*sevimli tələbəm Cavid Səhrab*
*oğluna ithaf edirəm.*

İçin içdən işıqlıdı!
Buna xəyal demə, demə!
Hər könül bir kainatdı,
Sözünü kal demə, demə!
*
Od ələndi, od, başına,
Talan düşdü yaddaşına.
Quzğun kimi, dad başına
gələnə, gəl!- demə, demə!
*
Qurban verib can sağını,
Aldın günlərin ağını!
Şəhidliyin sorağını
gəl, məndən al demə, demə!
*
Tanrı dədən dada yetsin!
Dərdin ilim-ilim itsin!
Ağrın gedirsə, qoy getsin,
Gedənə, qal!-demə, demə!
*
Şər yüküdü, şər, gözdəki!
Qor dağıdı, qor, közdəki!

Diqqət elə, hər üzdəki
qaraya xal demə, demə!
*
Qardaş- deyib, öyüb, öyüb,
Yağı tiyə bülöyləyib.
Hər sarıya zərdi deyib,
Hər bala bal demə, demə!
*
Nur bəxş elə şər pusana,
qan üyüdüb, zər qusana.
Söz önündə hər susana
tələsib lal demə, demə!
*
Aldanıb şirin dilə sən,
Keçmə namərd körpüsündən!
Sonu yarğana dirənən
bir yola yol demə, demə!
*
Gün idim, Gündoğan oldum -
Yaxadan can sağan oldum.
Fikrindən Yarıcan oldum,
Muğayat ol!-demə, demə!
*18 sentyabr, 1994-cü il, Bakı.*

## Bağışla

Təşnəm olan, canım qurban gözünə,
Qulluğunda üzüm qara, bağışla.
Əlim çatmır, ünüm yetmir, gözüm nəm,
Üzükdü can, qıtdı para, bağışla.
*
Öncə özüm olasıydım, olası,
Adam ola gərək, adam balası!
Üzüm ayaq altı, atam balası,
Hör divara, yoxdu çara, bağışla.
*
Cadar-cadar quraqsayıb həsrətim,
Heç nə üstə bir bu qədər əsmədim.
Nadan oldum, qısır ümid bəslədim,
Suçlarımı düz qatara, bağışla.

*

Duyğularım damla-damla süzüldü,
Düyməlinib düzüm-düzüm düzüldü.
Gördüm, əlim hər tərəfdən üzüldü,
Söz yolladım, söz, mağara, bağışla.

*

Miskəroğlu, yarıcanam, budala,
Gələmmədim içim içdən od ala.
Mübarəkdi, oğul bala, qız bala!
Yarəb, özün yarı yara bağışla!

*20 noyabr, 1994-cü il. Bakı.*

## Telman kimi

Girdin bir meydana, çətindən-çətin,
Çırmayıb qolunu, pəhləvan kimi.
Çatdın zirvəsinə şanın-şöhrətin,
Döyüşdün uğrunda qəhrəman kimi.

*

Yuxusuz gecələr, narahat günlər...
Ömrün çalxalanan bir ümman kimi.
Yazdığın əsərlər, gördüyün işlər
Sayrışır, ulduzlar sayrışan kimi.

*

Bu gün ad günündü, mübarək, qardaş!
Yaraşır ömrünə bu gün şan kimi!
Gün o gün olsun ki, Vətənimiz kaş
Ucalsın sən özün ucalan kimi.

*

Yaşa da, yarat da, uğurlar sənə!
Ucal, uca dayan, Oğuz xan kimi!
Hayana üz tutsan, uğurlar yenə
Bəzəsin ömrünü bir insan kimi.

*

Altımış qış gördün, altımış bahar,
Arzun çiçək açdı kəhkəşan kimi!
Altımış nədir ki! Bir qərinə var,
Yüzü haqlamağa bir Telman kimi!

*4 iyun, 1995-ci il, Bakı.*

## Müəllimin Vicdan ola!

Sürəsən ömür atını,
Odlu ürək, sağ can ola!
Tanrı verə qismətini,
Göz dolusu ad-san ola!
*
Elm oduna yana-yana,
Çəkiləsən imtahana.
Solunda Qorxmaz dayana,
Sağında Bədirxan ola!
*
İsa, canda can bulasan,
Ömrün boyu dərs alasan.
Qos-qoca şagird olasan,
Müəllimin Vicdan ola!
*4 iyun, 1995-ci il, Bakı.*

## Mətləb MİSİR

Mətləb MİSİR, canım qurban
Səni verən Günə, Qardaş!
Ümid verən çoxdu gendə,
Dar ayaqda yenə qardaş!...
*
Nəğmə qoşur yaz selləri,
Qoşul selə, boğ qəhəri.
Yeri, dərdin üstə yeri,
Çığna dönə-dönə, Qardaş!
*
"Ürəyin arzu yoludu",
hər yol bir yolun qoludu.
Dünyamız yolla doludu,
Yoxuş düşüb sənə, Qardaş.
*
"Dünya yuvan, ürəyin şam",
Nə möhtəşəm bu ehtişam!
Çağla, çalış, alış müdam,
Qoyma eşqin sönə, Qardaş!
*

Biz ikiyik, dünya birdi,
İki də sirr, bir də sirdi.
Səni mənə Tanrı verdi,
Hazır ol düyünə, Qardaş!
*22 fevral, 1996-cı il. Bakı.*

**Rəhmanın toyu**

Bu gün Rəhmanın toyudu!
Yığılsın ellər, oynasın!
Bu boz ayın boz günündə
açılsın güllər, oynasın!
Yallı getsin bacıları,
Göyərçin əllər oynasın.
Çağlasın sevda suları,
Sevən könüllər oynasın.
*
Xəbər verin hər tərəfə,
İxtiyar, cavan yerisin.
Borçalıya səda düşsün,
Büsbütün Sarvan yerisin.
Qəh-qəhəli, bər-bəzəkli
Gəlinli karvan yerisin.
Bəy atası qurban kəssin,
Dualı dillər oynasın.
*
Meydan açın, yer eləyin,
Geniş bir mağar qurulsun.
Baş tərəfdə, düz ortada
divara xalça vurulsun.
Qədəhləri sazlasınlar,
Hal-əhvallar qoy durulsun.
Sazandalar səs eləsin,
Mizrablar, tellər oynasın.
*
Musaların şad günüdü,
Qalxsın, Musalar yerisin!
Musaların ətrafında
cəmi Kosalar yerisin.
Yığılsın eşidən, bilən,
harda simsar var, yerisin.

Dillərdə alqış sədası,
Əllərdə nəmər oynasın.
*
Çalğıçılarla yanaşı
bax, tamadası əyləşib.
Baş tərəfdə bəylə gəlin,
cüt el balası əyləşib -
Oğlanların qeyrətlisi,
Qızların xası əyləşib.
Şabaş səpin başlarına,
Bir cüt bəxtəvər oynasın.
*
Tanrıdan dilək diləyək,
Gözdolusu kam alsınlar.
Cüt oturub, qoşa durub,
Səadətdən cam alsınlar.
İsa müxəmməs oxusun,
Söz başına cəm olsunlar.
Gözlərində şadlıq nuru,
Xanımlar, bəylər oynasın.

*25 fevral, 1996-cı il. Bakı.*

**Şükür!**

Şükür dərgahına Ulu Tanrının!
Deyirdim payızam, yazıymışam ki!
İçimə boylandım, içim dupduru,
Xalisin-xalisi, xasıymışam ki!
*
Varlığım sünbülə dolan dəniymiş,
Yaddaşım al-əlvan bir çəməniymiş;
Könlüm çiçəkləyən yasəməniymiş,
Təpədən-dırnağa nazıymışam ki!
*
Arzum çeşid-çeşid, puçur-puçurmuş,
Eşqimin iç-içə mayası nurmuş.
Ruhum ülviliyə uçur, uçurmuş,
Silsilə köklənən sazıymışam ki!
*
Özümün özümdən xəbərim yoxmuş,
Dadından doyulmaz rastıma çıxmış.

Baxtımın üzü ağ, alnı açıqmış,
Xoş gündə yazılan yazıymışam ki!
*
Şükür dərgahına, Ulu Yaradan!
Yoxdur umacağım qismət sarıdan.
Bir yarıbədənəm, bir də yarıcan,
Buyamsa, Vəhdətin özüymüşəm ki!
*24 sentyabr, 1996-cı il. Bakı.*

## Hərbə-zorba

Düz daşını, sahmana sal, cütlə zəri, at, görüm!
Dü-yek ilə şeşxanada qaçaq haqlayan mənəm!
Şeş-beşə bax, qırğı kimi çaldı, aldı, apardı,
Şeş-yek atıb, bənd-bərəni tutub, bağlayan mənəm!
*
Dörd-cahara bel bağlama, gecikibdi dörd-cahar!
Se-yek atıb bağlamışam, düzmüşəm qatar-qatar.
Zərim zərdi, zorum zordu, gəlhagəlim carhacar,
Dörd daşını yekxanada sıxıb saxlayan mənəm!
*
Şeş-qoşalar heyif oldu, dübarəyə dik gözü!
Söymə zəri, verməyəndə, hər şeyi görür özü.
Pənci-senin, cahar-dünün dönübdü dönük üzü,
Asta-asta, usta-usta çıxıb çağlayan mənəm.
*
Həp-yekinə quzu kəsim, marsa qalırsan, deyən!
Bu gedişlə tas gedəcək, çox qaralırsan, deyən!
Sən idinmi ötən dəfə zər verəndə can!-deyən -
Üç açığı bircə zərə döyüb-tığlayan mənəm?
*
Mən İsayam, ustasıyam zərin-zorun, ay Lələ!
Dünən gedən tas qayıtdı, dur məni təbrik elə!
Hünərin var, bir tas apar, canıma sal vəlvələ,
Sonra da de: təpərini çəkib yoxlayan mənəm!
*30 dekabr, 1996-cı il. Bakı.*

## Bax

Ay Ana, bir bu Kişinin marsa qalan halına bax!
Küsüb zəri, yaxşı vermir, sən bir qalmağalına bax!
Şeş atıb qaçmaq istəyir, hələ bir əməlinə bax!
Qoşalayıb dörd-dörd çıxan oğluyun cəlalına bax!
Ay Ana, bir bu Kişinin marsa qalan halına bax!
*
Hər bir tasa, söz veribdi, bir möşöy alma verəcək!
İşdi, alması olmasa, bir qazan dolma verəcək!
Dolması da düzəlməsə, yerinə halva verəcək!
Damağımda qaldı dadı, halvasının balına bax!
Ay Ana, bir bu Kişinin marsa qalan halına bax!
*
Bu, özü yaxşı bilir döymədəki qüdrətimi,
Cumanam ov üstünə qızıl qanad qırğı kimi.
Rastıma çıxanları döyənəm şıdırğı kimi,
Elə bil, dolu döyübdü, dəymişinə, kalına bax!
Ay Ana, bir bu Kişinin marsa qalan halına bax!
*
Bircə qırıq fürsət tapa, ağa-boza baxmaz özü,
Vurduğunu qımcırlayar, yerə-göyə sığmaz özü.
Bir qoturca vuruq nədi, dünya qopa, qıymaz özü,
İndi məndən yol istəyir, fikrinə, xəyalına bax!
Ay Ana, bir bu Kişinin marsa qalan halına bax!
*
Zindan kimi stollardı, qoşa pərçimlənə gərək!
Çərçivənin yanlarının çüyləri gümlənə gərək!
Daşı, zəri torbadadı, büzməsi düylənə gərək!
Mən belə şey görməmişəm, nərd olanın halına bax!
Ay Ana, bir bu Kişinin kefinə-əhvalına bax!

*8 yanvar 1997-ci il. Bakı.*

## Qınqılı

Dərdin alım, unutdunmu
Lalanı, göy köynək oğlan?
Ağzıgöyçək nə qandırdı,
havalı göy köynək oğlan?

*

Sən gedəndən günüm qara,
Gözüm dikilib yollara.
Dil-dodağım para-para,
Nalalı, göy köynək oğlan!

*

Müxənnətlər yurdu satdı,
Gedən getdi, itdi, batdı.
Yağı yaxdı, qırıb çatdı,
Mahalı, göy köynək oğlan.

*

Dopdoluyam bulud kimi,
Kimə söyləyim dərdimi?
Göynər qalıb könlüm simi,
Yaralı göy köynək oğlan!

*16 fevral, 1997-ci il, Bakı.*

**Vüsalə**

Çal-çağırdı, çal-oyna!
Qumru dilli Vüsalə!
Çək çəməni dövrənə
allı-güllü, Vüsalə!

*

Fındıq burun, inci diş,
Gülüşü sanki kişmiş.
Qulağı şək, gözü bic,
İpək telli Vüsalə.

*

Baldan şirin dili var,
Ağ bantı - kəkili var.
Qəzetdə şəkili var!
Adı bəlli Vüsalə!

*4 mart, 1997-ci il, Bakı.*

**Ramal**

Günəşlinin çentrində,
həm də ən hündür yerində,

Qaz peçinin hənirində
yeri var xaşal oğlanın!
*
Dişlərinin cərgəsi var,
Gözlərinin mürgüsü var,
Saçlarının kirpisi var,
Bizim bu Ramal oğlanın.
*
Nə usanır, nə də bezir,
Şillə-təpiyə müntəzir.
Bir qolu sarıqlı gəzir,
qardaşı Xəyal, oğlanın.
*
İki məktəbin bəyidi,
Evin orta dirəyidi.
Bismillahı bəzəyidi,
Dil-dodağı bal oğlanın.
*
Talantını görüb, öydüm.
Hələ körpə fidan, şöydü.
Kaş ki, toyunu görəydim,
Bu bacanaq, kal oğlanın!
*9 mart, 1997-ci il, Bakı.*

## Azərbaycan

"El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!"
*
Arzum da sən, eşqim də sən,
Nə ki, sağam qəlbimdəsən.
Şəhid ollam can istəsən,
Ömrüm-günüm sənə qurban,
Azərbaycan, Azərbaycan!
*
Çağla, səsin-ünün gəlsin!
Gözəl-göyçək günün gəlsin!

Ağ atlı Rövşənin gəlsin,
Xıl sürüksün bu torpaqdan,
Azərbaycan, Azərbaycan!
*
Düzülək də barmaq təki,
Düyülək də yumruq təki,
Şığıyaq da bir ox təki,
Qurtulaq da qan-qadadan,
Azərbaycan, Azərbaycan!
*
Hələ qisas alasısan,
Nifrətinlə dolasısan,
Qələbələr çalasısan,
Qüvvət dilə Tanrımızdan,
Azərbaycan, Azərbaycan!
*2 noyabr, 1979—*
*25 may 1997-ci il, Bakı.*

**Nəzifə xanım**

Dünyaya göz açdığı gün
ilk bahardı, Nəzifə xanım.
Ad günü mübarək olsun!
Yubilyardı, Nəzifə xanım!
*
Ləhcə şirin, vurğu nabat,
Boy-buxunu bəstə, babat.
İş üstündə kəskin, inad,
tələbkardı, Nəzifə xanım.
*
İnancımız, qibləmizdi,
Həm müqəddəs, həm əzizdi.
Büllur kimi tər-təmizdi,
Dağda qardı, Nəzifə xanım.
*
Arzu-dilək buketi tək,
bir-birindən gözəl-göyçək
nəvələri çiçək-çiçək -
Çəmənzardı, Nəzifə xanım!

*

İşinin kamil ustadı,
Fədakardı əsil adı.
Cilovsuzu cilovladı,
Sehrkardı, Nəzifə xanım!

*

İlıq, ülvi bir duyğudu,
Aydı, Gündü, Hava, Sudu.
Həbibinin məhbubudu,
Vəfadardı, Nəzifə xanım!

*

Ana-bacı - Vəzifəsi!
Ruha məlhəm həzin səsi.
Ömrümüzün Nəzifəsi!
Bəxtiyardı, Nəzifə xanım!
Şux Nigardı, Nəzifə xanım!

*28 mart,1997-ci il. Bakı.*

**Çox su aparacaq bu xəmir hələ!**

Bu nədi ki, çıxası can öndədi!
Çox su aparacaq bu xəmir hələ!
Nə qədər ki, qarın başdan öndədi,
Çox su aparacaq bu xəmir hələ!

*

Nə qədər ki, lağlanan var pulsuza,
Nə qədər ki, hürüyən var ulduza,
Nə qədər ki, göz dikən var baldıza,
Çox su aparacaq bu xəmir hələ!

*

Bu nədi ki, hələ nələr olacaq!
Küçələrdə şərəf satanlara bax!
Çörək pulu dilənirsə ac uşaq,
Çox su aparacaq bu xəmir hələ!

*

Nə qədər ki, vara sinov gedən var,
Nə qədər ki, doyub-dolmaz gödən var,
Nə qədər ki, oynaq arvad güdən var,
Çox su aparacaq bu xəmir hələ!

*

Nə qədər ki, qaytansız var astarı,
Mələk kimi göstərən var yassarı,
Çirkablara bələyən var xasları,
Çox su aparacaq bu xəmir hələ!
*
Ziyalının gözü əllərdədisə,
Həyalının gözü yollardadısa,
Boyalının gözü dollardadısa,
Çox su aparacaq bu xəmir hələ!
*
Bu nədi ki, görəcəklər var hələ,
Alacaqlar, verəcəklər var hələ.
Kəfənlənib girəcəklər var hələ,
Çox su aparacaq bu xəmir hələ!
*
Nə qədər ki, haqqı nahaq yozan var,
Arvadını qumarda uduzan var.
Nə qədər ki, oğraşlığa dözən var,
Çox su aparacaq bu xəmir hələ!
*
Sabunlanıb hazır duran durduqca,
Tor toxuyan, tələ quran durduqca,
Dar ayaqda astar verən durduqca,
Çox su aparacaq bu xəmir hələ!
*
Ortaq ləçək, ortaq yataq var isə,
Ata karsız, oğul-uşaq xar isə,
Göz olan kor, qulaq olan kar isə,
Çox su aparacaq bu xəmir hələ!
*
Yağıya döndükcə qardaşa-qardaş,
Qapazaltı olur fikirləşən baş.
Allah betərindən saxlasın...Yavaş!
Çox su aparacaq bu xəmir hələ!

*2 iyul, 1997-ci il. Bakı.*

## Allah qüvvət versin

Alın əlinizə qılınc, ox, nizə,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.

Allah qüvvət versin hər ikinizə,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Sahmanlayıb dörə çək bağrıdaşı,
Topla ətrafına əclaf, oğraşı.
İyidin qovğada gərəkdi başı,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Ayrılın, birləşin, öpüşün, küsün,
Sırının canına sizdən gücsüzün.
Çəkin ordunuzu səfbəsəf düzün,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Yolda tərk edilən at təsi kimi,
Turşumuş Arzuman küftəsi kimi,
Allahın yaramaz bəndəsi kimi,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Allah qüvvət versin qollarınıza,
Tanrı nur çiləsin yollarınıza,
Dolayıb saçını əllərinizə,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Başına gələnlər hələ azdı, az!
Bunu öz başına buraxmaq olmaz!
Endir təpəsinə yağlı bir qapaz,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Adamın üstündə allah var axı!
Deyirlər, yaxşıya-yamana baxır.
Arzusunu çığna, ümidini qır,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Kişilik də gərək mizanlı ola,
Sanbal uyğun gələ gərək sanbala.
Tala varlığını, did, dağıt, tala,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Dərdimə-sərimə baxın bir mənim,
Ümidim, pənahım canıma qənim.

Daha nədən qorxum, gedib, gedənim!
Sən bir tərəfdən vur, o, bir tərəfdən.
*
Məqam pusa-pusa, vaxt pusa-pusa,
Gözləmə əcəli, canın sağdısa!
Durub Dur dağı tək, dayanıb İsa,
Sən bir tərəfdən vur, o, bir tərəfdən.

*4 iyul, 1997-ci il Bakı.*

**Nə qədər dözüm?**

Deyirsən, darıxma, düzələr, keçər.
Nə qədər dözüm mən, nə qədər axı?
Adam günahlardan nə qədər keçər?
Nə qədər dözüm mən, nə qədər axı?
*
Otuz iki ildi bu dərdin yaşı,
Didik-didik olub bağrımın başı.
Sayıb, yaraşdırmır qardaş qardaşı,
Nə qədər dözüm mən, nə qədər axı?
*
Bu qədər həqarət, bu qədər təhqir,
İşıqlı dünyada görünməyibdir!
Gəl indi körpüdən koru sən keçir!
Nə qədər dözüm mən, nə qədər axı?
*
Əlim uzanırsa, əlimi kəsir,
Dinmək istəyirəm, dilimi kəsir,
Dirçəlib, dururam, yolumu kəsir,
Nə qədər dözüm mən, nə qədər axı?
*
Hələ var, üzünə ağ olan olam,
Böyükdü, kiçiyəm, çörəyə qulam.
Hələ var, qanmayam, key-kahal olam,
Nə qədər dözüm mən, nə qədər axı?
*
Adam da bu qədər qəddar olarmı?
İnsanla bu cürə rəftar olarmı?
Deyirsən, döz. Dözüm, bir xeyri varmı?
Nə qədər dözüm mən, nə qədər axı?

*

Qınama, bəlalar çəkən başım var,
Özümə münasib ağlım-huşum var.
Kiçiyi olsam da, əlli yaşım var,
Nə qədər dözüm mən, nə qədər axı?
*5 iyul, 1997-ci il. Bakı.*

## Allah bilən yaxşıdı

İçimdən axan işıq çəkir məni dalınca,
Qurban olum allaha, allah bilən yaxşıdı.
Üzü qibləyə sarı çapan gördüm qılınca,
Qurban olum allaha, allah bilən yaxşıdı.
*
Can üzmüşəm yolunda neçə qədirbilməzin,
Dərdini ovutmuşam bir an deyib-gülməzin.
Neçə dikbaş gəzənlər sürünür dizin-dizin,
Qurban olum allaha, allah bilən yaxşıdı.
*
Kimsənin bostanına daş atmadım bir kərə,
Di gəl, zərbələr yedim amma çox nahaq yerə.
Mənə kəmənd atanın boynu keçdi kəndirə,
Qurban olum allaha, allah bilən yaxşıdı.
*
Mən kiməm, nəçiyəm ki, öyünəm, döşə döyəm,
Buyruğuna, işinə irad tutam, söz deyəm.
O, sahilsiz, o, bitməz, mənsə zərrə, qətrəyəm,
Qurban olum allaha, allah bilən yaxşıdı.
*
Zəifə zülm edənin cavabı qat-qat olub,
Cah-cəlalı pozulub, ocağı bərbad olub.
Nahaq qan yerdə qalmaz, bu hikmət isbat olub,
Qurban olum allaha, allah bilən yaxşıdı.
*
Yarıcanam, yarıcan qiyamətə qalmaz ha!
Allaha ismarladım, necə çətin olsa da.
Haqlı təmənnamızı alsa da, almasa da,
Qurban olum allaha, allah bilən yaxşıdı.
*30 avqust, 1997-ci il. Bakı.*

## Aldatma özünü

Aldatma özünü, aldatma qəti!
Üzülüb ərənlik, ər dulu kimi.
Nə gəzir o zərif, o məftun, o mərd,
Quruyub, qupquru, quş zılı kimi.
*
Kişi nişanımı sanırsan bığı?
Bığ indi çoxunda qılan qıl tığı.
Qılıq dad qılığı, tamah qılığı,
Daraşıb, sırınıb, it xılı kimi.
*
İlanı yuvadan çıxarır dili,
Dodağı gözlərə üfürür külü.
Öpüb, oxşadığın incə qız teli
cələyə çevrilir, at qılı kimi.
*
İtirib vicdanı, atıb mürvəti,
İnsanlıq nişanı qalmayıb qəti.
Fərqinə varmadan alır rüşvəti,
Ana haqqı kimi, süd pulu kimi.
*
Çirkaba şütüyür tale qatarı,
Ölüb kişiliyin qeyrət damarı.
Gör necə uçqunur dollara sarı,
Barmağa şırvanan bambılı kimi.
*
Aldatma özünü, aldatma qəti!
Bir yolluq başa düş bu həqiqəti.
Kişi, ləyaqəti, arvad - isməti
Gəzdirir "Xaçonun xançalı" kimi.
*
Budur ha! Dayandıq yarıcan təki.
Şübhəli sonluqdan bağrı qan təki.
Gedirik turşumuş ağ ayran təki,
Halbuki gəlmişdik yaz balı kimi.

*13 sentyabr, 1997-ci il, Bakı.*

## Çal, oyna!

Mehriban ol, mehriban! Çal, oyna!
Həm ixtiyar, həm cavan, çal, oyna!
Biri uzaq Borçalı, çal, oyna!
Biri Lerik-Lənkəran, çal, oyna!
Çal-çağırdı, çal-çağır, çal, oyna!
Göydən ulduzlar baxır, çal, oyna!

*

Samavarı silən var! Çal, oyna!
Sir sözünü bilən var! Çal, oyna!
Xoş gəlib, səfa gəlib, çal, oyna!
Uzaq yoldan gələn var, çal, oyna!
Çal-çağırdı, çal-çağır, çal, oyna!
Meydana simsar çağır, çal, oyna!

*

Nəğmə oxu dal-dala, çal, oyna!
Cərgələnib qol-qola, çal, oyna!
Bu toy-düyün sənindi, çal, oyna!
Oğul bala, qız bala, çal, oyna!
Çal-çağırdı, çal-çağır, çal, oyna!
Çöhrələrdən nur yağır, çal, oyna!

*

Sudan gəlib Sürməli! Çal, oyna!
Yaxası zər düyməli, çal, oyna!
Cüt ulduzdu bəy-gəlin, çal, oyna!
Bir-birindən öyməli, çal, oyna!
Çal-çağırdı, çal-çağır, çal, oyna!
Çal, oyna! Allah baxır, çal, oyna!

*15 sentyabr, 1997-ci il. Bakı.*

## Aralı dur

Məndən sənə öyüd, Oğul!
Sarsaq işdən aralı dur.
Mən aldandım, sən ayıq ol,
Kökübicdən aralı dur.

*

Qoru evi bədəsildən,
başı dildən, gözü küldən.

Gözügöydən, üzüçildən,
Seyrəkdişdən aralı dur.
*
Bel bağlama hər düyünə,
Vaxt itirmə kor düyünə.
Hər nədisə, itdi, yenə,
Alabaşdan aralı dur.
*
Bir orda-burda yallanan,
Bir öncə boynu çallanan,
Bir də sonradan pullanan
Bağrıdaşdan aralı dur.
*
Bir allaha tut üzünü,
Namərddən gözlə özünü.
Açar yada sir-sözünü,
Ağzıboşdan aralı dur.
*
Yarıcanam, yalan-gerçək,
Ömür sürdüm uzun-gödək.
Anladığım budur: Fələk
qarğamışdan aralı dur.
*23 sentyabr, 1997-ci il. Bakı.*

**Allaha qurban olum**

Budur, bu da toy günü! Gəlib çatdı axır ki!
Bu günü bizə verən allaha qurban olum!
Cəmi eşidənlərin toya qarışsın başı,
Könülləri dindirən allaha qurban olum!
*
Ellərimiz var olsun, düzülüb Qafqaz kimi,
Gözəllər bəzənibdi, rayihəli yaz kimi.
Məclis sözə müntəzir, köklənibdi saz kimi,
Dilimizə dad verən allaha qurban olum!
*
Ağsaqqala, aqilə baş endirir göydən ay,
Ağbirçəyə, ipəyə nur əndərir göydən ay.
Ulduzlara muştuluq aparır bu toydan ay,
Yeri Göyə sevdirən allaha qurban olum!

*

Qardaşların xasını təməldən bizə verib,
Dostların əlasını əzəldən bizə verib.
Sevgimizin nazını gözəlkən bizə verib,
Qəlbləri sevindirən allaha qurban olum!

*

Yetişdik səadətə, bəxtə doğan dan kimi,
Qismətdən yarımışıq haqdan yarıyan kimi.
Sağ əlim başınıza! Ucalın İnsan kimi!
Sizi mənə yetirən allaha qurban olum!

*14 oktyabr, 1997-ci il. Bakı.*

## Əlli yaş

Ötdü bahar. Zirvədə qar. Səfər var.
Əlli tərpən, əlli davran, əlli, yaş!
Aldanma ki, can suludu, təpər var,
Saç-saqqalda, gözdə-qaşda bəlli yaş,
Əlli tərpən, əlli davran, əlli, yaş!

*

İnnən belə astagəllik əl verməz,
Əlli tərpən, əlli davran, əlli, yaş!
Bu oyunda bil, müdam əl gətirməz,
Vaxt var ikən, çıx aradan, başabaş,
Əlli tərpən, əlli davran, əlli, yaş!

*

Sahmana sal, əldən qalan, qalmasın,
Əlli tərpən, əlli davran, əlli, yaş!
Diqqət elə, qalan talan olmasın:
vurğun ürək, toxtaq bədən, nurlu baş.
Əlli tərpən, əlli davran, əlli, yaş!

*

Yaxşı-pisi ələ, keçir ələkdən,
Əlli tərpən, əlli davran, əlli, yaş!
Aralı dur kələkbazdan, kələkdən,
Pusqudadı qurddu, paxıl, bic, oğraş.
Əlli tərpən, əlli davran, əlli, yaş!

*

MİSKƏROĞLU, ömür ötdü yarıdan,
Əlli tərpən, əlli davran, əlli, yaş!
Hay-hayınmı, vay-vayınmı Yarıcan?

Sümәkdi saç, titrәkdi baş, çaldı qaş,
Əlli tәrpәn, әlli davran, әlli, yaş!
*31 oktyabr, 1997-ci il. Bakı.*

**Vüsala**

Gözümün işığı,
Ömrümün yaraşığı,
Canımın cövhәri,
Ürәyimin tәpәri,
Noğul
oğul,
Bal
Vüsal!
Sәnә hәyatda—
Allahın altda
Çağlar mәhәbbәt,
Parlaq sәadәt
Arzulayıram!
*4 dekabr, 1997-ci il. Bakı.*

**Gәldi!!!**

Mәlahәt mülkünün Sultanı gәldi!
Əhdi-peymanımın әlvanı gәldi!
Hәsrәtli könlümüz quraqsamışdı,
Ərsәmiş möhnәtin son anı gәldi!
*
Mübarәk elәdi dünyanı, gәldi!
Mehrabın min rәngli rövşәni gәldi!
Əritdi hicranın buz dağlarını,
Dәrdli könüllәrin Loğmanı gәldi!
*
Murada yetmәyin zamanı gәldi!
Ulu bir uğurun sarbanı gәldi!
Sәslәdi mürgülü duyğularımı,
Arzumun Ağ atlı oğlanı gәldi!
*10-17 avqust, 1998-ci il. Bakı.*

## Vəfaya

Vəfam mənim vəfalıdı,
Gerçək mələk misalıdı.
Yetmiş altının altısı
maydakı beçə balıdı.
*
Vəfam mənim vəfalıdı,
Cəlalı nur cəlalıdı—
Ziyalıdı, şəfalıdı,
Qan çəkəndə İsalıdı,
Süd çəkəndə Şuşalıdı.
*6 may, 1998-ci il. Bakı.*

## Şüşanəyə

Şəhlam-Şüşanəm mənim,
Təkcəm-yeganəm mənim!
Yüz il ömür sürməyə
Sənsən bəhanəm mənim.
Çağla bahar seli tək,
Əlli yaşın mübarək!
*1 iyun, 1998-ci il. Bakı.*

## Ənvərə

Ənvər, əlli yaşın mübarək, Qardaş!
Yox-yox! Əlli nədi? Əlli yaş nədi?
Deyəsən yenə də çaşmışam, yavaş!
Əgər yaş əllisə, bu göz-qaş nədi?
*
Nə əlli? Biz elə həmən lüt bəyik!
Hələ yumurtadan çıxmayıb cücə!
Aldanma, hələ də Dərnəgüldəyik,
Hələ də oxuyur Qədir hər gecə.
*
Hələ tüstülənir yanan yorğanın,
Hələ komendatın xofu canında!

Yeri, bir çay dəmlə, Ənvər, sən canın,
Novruzun oğurluq qəfədanında.
*
Götür aparatı, şəklini çək bir,
Odur, kirpilənib Sofiyev, yatır.
Yeri, get rektorun qəbuluna gir,
De ki, "vicdan haqqı, Meskom şər atır".
*
Nə əlli, a qardaş? Novruza baxsan,
Laxlamış yumurta qovzayır hələ.
Odur, çaqqıltıya eyvana çıxan
Qonşu qız tüpürüb, qarğıyır hələ.
*
Kərəm, həmən Kərəm, Avtandil, həmən,
Həmən uşaqlardı, yığışıb, budur!
Nə əlli yaş, qağa? Yəni deyirsən,
Otuz ildi, Fağır elə zər tutur?
*
Bu var ki, qardaşıq, qudalaşmışıq,
Gülər Arzumuzla qoşa yaşarıq.
Bir gün aldanmışıq, atalaşmışıq,
Bir gün aldanarıq, babalaşarıq.
*21 iyun, 1998-ci il. Bakı.*

## Baldı bu, bal, ayə!

Can desəm, canımdı,
Çağlayan qanımdı.
Körpə fidanımdı,
Gəldi, Vüsal, ayə!
Baldı bu, bal, ayə!
*
Gündü, Gündoğandı,
Xandı, Oğuzxandı!
Bəxtimə çıxandı,
Xaldı bu, xal, ayə!
Baldı bu, bal, ayə!
*
İsa, bu, nə candı?
Busa, bu, dovşandı.

Posudu, posandı,
Ləldi bu, ləl, ayə!
Baldı bu, bal, ayə!
*29 oktyabr, 1998-ci il, Bakı.*

**Verdilər-götürdülər**

Gəlin gətirdim, dünyanı mənə verdilər.
Qız köçürdüm, dünyanı çiynimdən götürdülər.
*29 oktyabr, 1998-ci il, Bakı.*

**Fırıq Dünya!**

Get-get, gördüm gördüyümü,
Vara boyunduruq Dünya!
Elə yekəliyin varmış,
Zora boynu buruq Dünya!
*
Həm xışsanmış, həm də qayış,
Batmış başın quşqundaymış.
Ağzın umur ucundaymış,
Sümsük Dünya, sırtıq Dünya!
*
Üzdə üzdən gedənsənmiş,
Altda içə yetənsənmiş.
Özün boyda gödənsənmiş,
Üyüt, qarnı yırtıq Dünya!
*
İşini gör bala-bala,
Səngiyəni yellə, qala.
Öykələ, çevir, çalxala,
Mırıq ağzı cırıq Dünya!
*
Miskəroğlu, yarı canam,
Çəkib vaxta doğub anam.
Bir də çətin ki, aldanam,
Get! Get, ipi qırıq Dünya!
Gidi Dünya! Fırıq Dünya!
*31 iyul, 1999-cu il. Bakı.*

## Kamoşa

Çox da sözə qoymayın,
Bizim bu qız nazlıdı.
Qulaqları sırğalı,
Yaxası qotazlıdı.
*
Paltarı çinniklidi,
Dingəsi günnüklüdü,
Bəzəkli önnüklüdü,
Yerə düşmür, tozludu.
*
Şirin-şəkər dillidi,
Qırxıq tel, kəkillidi,
Kiprikləri millidi,
Borjom içmir, qazlıdı.
*
Qaşları qara, gözəl,
Çatma, aypara, gözəl!
Oxşayıb hara, Gözəl?
Pendir yemir, duzludu.
*
Rüstəmin tək bacısı,
Qıvrım birçək bacısı,
Yalan-gerçək, bacısı
Yaman nazlı-qozludu.

*1 avqust, 2000-ci il, Dağ-Arıxlı.*

## Yeznə, postal amanatı!

Qondaranı çaş salmısan,
Yeznə, postal amanatı!
Ayaqyalın bonqalmışam,
Yeznə, postal amanatı!
*
Gedənlər boyda toyladı,
Qalanlar üysük boydadı.
Sizlərdə bu nə qaydadı
Yeznə, postal amanatı!
*

Zapas təkər yaddan çıxıb,
Tuşonkalar daddan çıxıb.
Postal təzə oddan çıxıb
Yeznə, postal amanatı!
*
Müştərilər mal gözləyir,
Araq-çaxır al, gözləyir.
Həsrət közüm yol gözləyir
Yeznə, postal amanatı!
*
Həmən göndü, həmən dəri,
Həmən qapının kandarı.
Təntidibsən Qəməndiri
Yeznə, postal amanatı!
*
Mərc olub, mərcə girmişəm,
Borc alıb borca girmişəm.
Beş şirvan xərcə girmişəm
Yeznə, postal amanatı!
*
Deyərsən ”nə qayımdı bu,
Nə bacanaq-qayındı bu?”
Şalvar satan ayımdı bu!
Yeznə, postal amanatı!
Üzmə, postal amanatdı!
*2 avqust, 2000-ci il, Dağ-Arıxlı.*

**Yaramaz**

Daranıb dəmbəri, kefi kök gəzir,
Astarı çərməkli, gəlhagəldədi.
Yalın hüzurunda durub müntəzir,
Qulağı səsdədi, gözü əldədi.
*
Quyruğu qapıdan sürüşüb çıxıb,
Özünü parağa bacanaq bilir.
Xılda püxtələşib, xub bişib çıxıb,
Dambat davranışı qanacaq bilir.
*
Tükü də tərpənməz, dünya dağılsa,
Burnu əngilində, mürgüləməkdə.

Özünə güzəran qurub mağılca,
Gözü gördüyünü kərkiləməklə.

*

Sevinci də saxta, qəmi də saxta,
Hər an bir qılığa girə biləndi.
Çənəsi biləkdə, gözü yalaxda,
Hərdən için-için hürə biləndi.

*

Xeyrini, şərini yaxşı bilir o,
Xeyrini şərinə verəsi deyil.
Başının yerini yaxşı bilir o,
Bilir ki, hər kola girəsi deyil.

*

Bir gecəyarısı günaha batdı -
Qəfil bəd xəbərə oyandı key-key.
Gərnəşdi, əsnədi, ağnadı, yatdı,
Elə bil, olmayıb heç elə bir şey.

*

Yaramazdan olub bu yaramaz da,
Yara var, yar-desən, yarmaz, yaramaz.
Yaranıb göy göyün tək aramızda,
Öldür, xeyrə-şərə varmaz, Yaramaz.

*3 noyabr, 2000-ci il. Bakı.*

## Öyüd

Əl açan qocaya əl tut—
Qarşıda qocalığın var!
Əl açan uşağa üz turşut—
Qarşıda qocalığı var!

*15 fevral, 2001-ci il. Bakı.*

## Yalannan-Gerçəkdən

Yalannan çiçəyi çıtdayan Gözəl!
Necəsən, yalannan ölüm səninçün.
Yoluna dikilsin gözüm yalannan,
Yalannan xəyala dalım səninçün.

*

Yalannan qovrulum, yalannan yanım,
Yalannan cızdağa dönsün olanım.
Yalannan bitməzə, durum, yollanım,
Yalannan yollarda qalım səninçün.
*
Yalannan inləsin könül tarım da,
Yalana bürünsün etibarım da;
Yalannan kar olsun qulaqlarım da,
Yalannan lal olsun dilim səninçün.
*
Yalannan sinəmə sıxım başını,
Yalannan oxşayım çatma qaşını;
Yalannan öpüm o həcər daşını,
Yalannan imana gəlim səninçün.
*
Yalvarım-yaxarım kor aşıq kimi,
Düyülüm yaxana kür uşaq kimi;
Sarılım boynuna sarmaşıq kimi,
Yalannan divanə olum səninçün.
*24 iyun, 2001-ci il. Bakı.*

**Mən ləpə həsrətindəyəm**

Faraş şıldırlanan Gözəl,
Mən ləpə həsrətindəyəm.
Püstə, Badam, Noğul, Nabat,
Ləbləbi həsrətindəyəm;
Mən, ləpə həsrətindəyəm!
*
Göz şaxıyır çinar boya,
Gəzir manşır qoya-qoya.
Meylim yoxdu dalğın suya,
Şən ləpə həsrətindəyəm;
Mən, ləpə həsrətindəyəm!
*
Gözəl gəldin, gözəl dur da!
Cənnət olan budur, burda!
Dur ki, ölüm bu uğurda -
Dəbdəbə həsrətindəyəm;
Mən, ləpə həsrətindəyəm!

*

Bir dərdimdi, bir də mənəm,
Mən Qəribəm, dərd - Şahsənəm.
Güvəyə qurban gedənəm,
Kəhrəba həsrətindəyəm;
Mən, ləpə həsrətindəyəm!

*

Baltanı daşa vurmuşam,
Qurduğumu uçurmuşam.
Üzü qibləyə durmuşam,
Sərdabə həsrətindəyəm;
Mən, ləpə həsrətindəyəm!

*3 iyul, 2001-ci il. Bakı.*

## Qara naxış

Qara çağda ağ don geyən,
Qarabağda Ağdammısan?
Qara vaxta ağ dan deyən,
Qara baxta ağ şammısan?

*

Qar ələndi, tara döndü,
Çara yendi, yara döndü.
Hara gündü, ora döndün,
Qara donda ağ canmısan?

*

Qara üzüm dan əppəyi,
Hara yozum yan ötməyi?
Qara gözlüm, sal örpəyi,
Qara gözlü axşammısan?

*

Qara baxdım, qarıfsadım,
Qora sıxdım, quraxsadım.
Hara çıxdım, darıxsadım,
Yara yaxan ahdanmısan?

*

Qara qaşlı Qaraquşdun,
Hara başdı, ora uçdun!
Yarı yaşda tora düşdün,
Vara-hala, aldanmısan?

*

Qarabağım – qara bağrım,
Para bağrım, yara bağrım.
Qarabağlım, alım ağrın,
Yaraqlan da, nə donmusan!
Yaraqlan ha! Bir yanmısan!...
*8 noyabr, 2001-ci il. Bakı.*

**Daha**

Çörəyi daşdan çıxanım,
Daşın da qəhətdi daha.
Payın palçığa dönübdü,
Aşın da boyatdı daha.
*
Oğul dönük, qız əkilib,
Sinənə dağlar çəkilib.
Göz soğulub, bel bükülüb,
İçin də çat-çatdı daha.
*
İrdələnib seyrələnim,
Qurcalanıb kövrələnim,
Ümid vermir pöhrələrin,
Huşun da bərbaddı daha.
*
Ata yurdum, havadarım,
Ana yurdum, könül varım,
Ömrüm-günüm, vəfadarım,
Köçün amanatdı daha.
*
Sozalanımsan günbəgün,
Yandırıb-yaxır sönməyin.
Bir də özünə dönməyin
Acı zarafatdı daha.
*
Ölüm ucuz, qalım baha,
Çölün qaya, için kaha.
Köçün qaramatadısa,
Qarşın qiyamatdı daha.
Başın bathabatdı daha.
*2 iyun, 2002-ci il. Kosalar.*

## Ucalır

Gözün aydın, ana Vətən,
Başın üstə Dan ucalır!
Zirvələrə çatıb səsin,
Gör, haralardan ucalır!
*
Odlu ürək, meydan sinə,
Səs verən haqqın səsinə,
Səxavətin zirvəsinə
Qıy vurub uçan ucalır.
*
Şan-şöhrəti sərhəd aşan,
Arzuları coşub-daşan,
İfçin-ifçin düzüb-qoşan,
Çin-çin ucalan ucalır.
*
Yarayanın, tək özünə,
Astarı nə, ya üzü nə?
Gün tək doğan Yer üzünə,
Şərdən öc alan ucalır.
*
Yarıcandı - Dünya malı
anlamaza beçə balı -
Aləmə Vaqif olalı,
Könlü çıraqban, ucalır.
Ucalır, İnsan, ucalır!
*16 fevral, 2003-cü il. Bakı.*

## Olmaz

Gözün aydın, gözüm nuru!
Bundan gözəl dövran olmaz!
Qismət nədi, olan odur,
Ona qarşı duran olmaz!
*
Hər şirin ki, şəkər deyil,
Hər acı da zəhər deyil.
Hər müdrik Peyğəmbər deyil,
Hər oxunan Quran olmaz.

*

Sinməyi var, hər ahın da,
Çimməyi var günahın da.
Di gəl, haqqın dərgahında
Hər qaragöz qurban olmaz.

*

Dünya gendi, dolar-dolmaz,
Dünya dardı, dar, qaçılmaz.
Bir çiçəklə yaz açılmaz,
Bir xəzəllə viran olmaz.

*

Nəm varsa, şam çöhrəsində,
Pərvanə var çevrəsində.
O nə dağdı, zirvəsində,
Çovğun olmaz, boran olmaz!?

*

Nə müddətdi, bir yaxşı bax,
Yaxşı-yaman qalaq-qalaq.
Hər oxuyan Molla Pənah,
Hər yazan Yarıcan olmaz!

*19 fevral, 2003-cü il. Bakı.*

## Nə gözəl!

Puçur-puçur sevdalanan könlümə,
Bahar gəlib, solmaz bahar, nə gözəl!
Heyran olub Xarı bülbül gülümə,
Ləçəyindən şəbnəm damar, nə gözəl!
Nə gözəldi sevgilim yar, nə gözəl!

*

Yer qəribə, göy qəribə, qəribə
gələndimi saza, sözə, tərifə.
Sarmaşıbdı necə zirək zərifə,
Dildə oxay, gözdə xumar, nə gözəl!
Nə gözəldi sevgilim yar, nə gözəl!

*

Aləmə car şurum, nəvam, təranəm,
Hər gözəlin hərəsi bir dürdanəm.
Küskün könül könül deyil, viranə,
Hər arzuda məlahət var, nə gözəl!
Nə gözəldi sevgilim yar, nə gözəl!
*
Vəfalıyam, vüsallıyam, vüsallı.
Şümşad boylu, ləhcə nabatlı, ballı
yar sevmişəm huri-qılman misallı,
Bundan artıq cənnətmi var, nə gözəl!
Nə gözəldi sevgilim yar, nə gözəl!
*
Sevincimin qanadı zər, özü şux,
Səadətim bir dünyadı, gözüm tox.
Yarıcanam, sevilmişəm, bəri bax,
Rəna gülüm sığal umar, nə gözəl!
Nə gözəldi sevgilim yar, nə gözəl!
Bundan artıq cənnətmi var, nə gözəl!
*7 mart, 2003-cü il. Bakı.*

## Dönərəm

Bilsəm, mənsizliyin yandırar səni,
Ahını qovuran saca dönərəm.
Kəsərəm yolları, bəndi, bərəni,
Dada tamarzıya, aca dönərəm.
*
Bir ayrı düşənəm eşq umanımdan,
Bir bezar gəzənəm ah-amanımdan.
Bilsəm, təşnəm üçün çağlayanımsan,
Dodağına qonan maça dönərəm.
*
Hayannan yetirdi səni Allahım!
Qoy cızdağa dönsün bu gündən ahım!
Razıyam, vəslinə yetim, illahım,
Yeniyetmə gəlib, qoca dönərəm.
*

Bu eşqə verməyə qanım halaldı,
Sevgidən umduğum ağı da baldı!
Bilsəm, bir ilğımdı, bu, bir xəyaldı,
Bir anın içində heçə dönərəm.
*
Tanıyan bilir ki, bir yarıcanam,
Ağla pir olsam da, eşqə cavanam.
Bu yaşda könlümü bəzəyən Sonam,
Bəzə, qaşın üstə taca dönərəm!
*21 dekabr, 2003-cü il. Bakı*

## Gül üstə yeri!

Sənsiz bir addım da atmaram - deyən!
Sinəmə gül düzüm, gül üstə yeri!
Yeri, ürəyimin başı gərdəyə,
Gülgünüm, gül üzlüm, gül üstə yeri!
*
Könlüm gül açıbdı, könlüm çəməndi,
Diləyin çəməndən şəbnəm əməndi.
Köksüm başdan-başa tər yasəməndi,
Gül üz, gülsün üzün, gül üstə yeri!
*
Yeri, puçurlayan ümidlər açsın,
Yeri, peymanımız qaynasın, daşsın,
Yeri ki, sarmaşıq gülə qovuşsun,
Gün üzlüm, gündüzüm, gül üstə yeri!
*
Nazəndə sevgidən yarıyan canım,
Yarıcan qalıbdı, yarıcan, canım.
Vəslini aramsız arayan canım,
Güllükdə gül üzür, gül üstə yeri!
Gül üstə gül düz də, gül üstə yeri!
*22 dekabr, 2003-cü il. Bakı.*

## Mən nə deyim bu həyata!

Mən nə deyim bu həyata!
Bundan doyan olubdumu?

Buta verib, dada yetən,
Xızırdımı, Xalıqdımı?
*
İrdələnib olan-qalan,
Bürmələnib doğru-yalan;
Yaxşılığa borclu olan
Dəryadımı, balıqdımı?
*
Deməlilər deyilibdi,
Öyməlilər öyülübdü;
Sevməlilər sevilibdi,
Bizə bir şey qalıbdımı?
*
Viran qoyur düz-dünyanı,
Allahın hər gələn günü;
İsrafil sur tütəyini
çalasıydı, çalıbdımı?
*
Özü kimi, amanatam,
Nəyi var ki, duram, tutam?
Ürəyinə gəlsin qadam,
Dünya elə zalımdı ki!...
*8 mart, 2004-cü il, Bakı.*

## Şair olmaq istəyirəm

Uşaq olmaq istəmirəm,
Başımı nənəm aldada;
Cavan olmaq istəmirəm,
Başımı sənəm aldada;
Ahıl olmaq istəmirəm,
Başımı nəvəm aldada;
Şair olmaq istəyirəm,
Başıma dönən aldada;
Şair olmaq istəyirəm,
Başına dönəm, aldada.
*
Uşaq olmaq istəmirəm,
Gah ağlayam, gah da güləm;
Cavan olmaq istəmirəm,
Kiminsə dərdindən öləm;

Ahıl olmaq istəmirəm,
Dünyada hər şeyi biləm;
Şair olmaq istəyirəm,
Təklənib xəyala dalam;
Şair olmaq istəyirəm,
Dünyanın qadasın alam.
*
Uşaqlıqda – mərdanəlik!
Mərdanəlik - şair ömrü!
Cavanlıqda – pərvanəlik!
Pərvanəlik - şair ömrü!
Ahıllıqda – dürdanəlik!
Dürdanəlik – şair ömrü!
Hər bir yaşda – divanəlik!
Divanəlik – şair ömrü!
Şair olmaq istəyirəm,
Şair olmaq, dərdin alım!
Yadda qalmaq istəyirəm,
Yadda qalmaq, dərdin alım!...
*9 mart, 2004. Bakı.*

## Apar

Səndən bircə təmənnam var, a Dünya!
Ağla, huşa dolammasam, kal apar.
Həyat süddü, üyüşəcək, qaldısa,
Çalasımı çalammasam, çal, apar;
Ağla, huşa dolammasam, kal apar.
*
Ömür yoldu, sonu bəlli, qaçılmaz,
Siri düyün, düyünü kor, açılmaz.
Nəfs əfidi, zəhər dolu dişi saz!
Çarasını qılammasam, qıl, apar;
Ağla, huşa dolammasam, kal apar.
*
Olan-qalan: yarı bədən, yarı can,
Naxışındı, qismətindən yarısan.
Əlli yeddi borc almışam Tanrıdan,
Bir daha borc alammasam, gəl, apar;
Apar, ancaq, qəfil apar, lal apar.
*10 noyabr, 2004. Bakı.*

## Yaradıb

Nələr söyləyib neçəsi,
Hərə bir dastan yaradıb.
Bağbanı bağ yaradıbsa,
Bağı da bağban yaradıb.
*
Kürə içindədi kürə,
Kürələr də cürə-cürə.
Göyə ulduz səpib, Yerə
Kamallı İnsan yaradıb.
*
Arağa üzüm cecəsi,
Fərəyə xoruz beçəsi,
Sıldırıma dağ keçisi,
Düzə də Ceyran yaradıb.
*
Qulaqdan asıbdı sizi,
Gözə qul edibdi bizi.
Siri nədir, bilir özü,
Hər dərdə dərman yaradıb.
*
Hər zülümə dözə-dözə,
Minnətçidi tikə közə.
Sizi bizə, bizi sizə,
Yaradan qurban yaradıb.
*7 mart, 2005. Bakı.*

## Ağ maşın

Usta, gərək bu ağ maşın
Ceyran kimi bir şey olsun.
Nə üzünə söz deyilsin,
Nə dalınca giley olsun.
*
Yağ ummasın axşam-sabah,
Susamasın məndən qabaq.
Yerbəyerində, çağbaçağ,
Tərpənəndə zirək olsun.

*

Zığdamasın qış səhəri,
Ləhləməsin yay günləri,
Yumşaq fırlansın təkəri,
Tormoz yolu gödək olsun.

*

Asfalt yolda saz yerişli,
Nasaz yolda qaz yerişli,
Dolanbacda naz yerişli,
Gölməçədə ördək olsun.

*

Yarıcanam, möhtacıyam,
Onsuz gərək cana qıyam.
Mən ki, ona qulluqçuyam,
O da mənə kömək olsun.

*15 sentyabr, 2005. Bakı.*

**Dərdindən öldüklərim**

Ötdü bahar. Zirvədə qar. Budaqları əyir bar.
Dərdimdən ölməkdədilər dərdindən öldüklərim.
Zər qanadlı arzularım durnadı, qatar-qatar,
Dərdimdən ölməkdədilər dərdindən öldüklərim.

*

Oğrun-oğrun baxanların gözünə tuş gəlmişəm,
Gözündən od yağanların közünə tuş gəlmişəm,
Qismətimə çıxan yarın özünə tuş gəlmişəm,
Dərdimdən ölməkdədilər dərdindən öldüklərim.

*

Pardaqlanıb saçıldılar neçə ləbi qönçələr,
Çinarlanıb ucaldılar neçə beli incələr.
Könlüm, gözüm bu növraqdan nə doyar, nə dincələr,
Dərdimdən ölməkdədilər dərdindən öldüklərim.

*

Çəmənlənib yayılmışam yanaqların alına,
Ac arı tək bayılmışam dodaqların balına.
Soğan kimi soyulmuşam buxaqların xalına,
Dərdimdən ölməkdədilər dərdindən öldüklərim.

*

Yarıcanam, yarı canım bu sevdaya sadağa,
Sevda olan bu, konlümə əcəb xətti-qadağa!

Dağ-dağ olub, dağ olmuşam, dözə-dözə bu dağa,
Dərdimdən ölməkdədilər dərdindən öldüklərim.
*1 oktyabr, 2005. Bakı.*

## Ürəyim qəbristandı

Ürəyim qəbristandı,
Ölən arzular qəbristanı.
O həm də gülüstandı,
Gül əkmişəm ordakı qəbirlər sanı.
Ürəyimə yol axtaran
Nabələd İnsan!
Tamahını dişinə sıx,
Ayaq yalın, başı açıq
Ürəyimdəki baş xiyabana çıx.
Ürəyincə yer tapsan, otur,
Yoxdursa, dur,
Qurbana ehtiyac yoxdur.
*5 fevral, 2006. Bakı.*

## Qəzəl

Dərd əhlinin çəkdiyini dərdə düçar olan bilər,
Çünki qıfılın dilini ona açar olan bilər.
*
Nələr çəkdim bu dünyada, bir Allah, bir mən bilirəm,
Bir də bilsə, bilsə əgər, yalnız naçar olan bilər.
*
Ömür üzdüm qədirsizə, qısır ümidlər bəslədim,
İçım-çölüm cadar-cadar. Nədir? Cadar olan bilər.
*
Odam nurun cövhərində, mələklər yazıb yazımı,
Adəm oğlu onu bilməz, onu yazar olan bilər.
*
Gəldim gedəm, getsəm qalam, yoxdur daha mənlik bir iş,
Bu haləti bu çirkabdan gerçək bezar olan bilər.
*
Yarıcanam, yaribədən, Rind ilə Şeyda məndədir,
Rind ilə Şeyda həzzini hər an inkar olan bilər.
*2 mart, 2006. Bakı.*

**Daha nəyə umudlusan?**

Sinəsi dağlı zavallı,
Daha nəyə umudlusan!
Ömrü-günü qiylü-qallı,
Daha nəyə umudlusan?
*
Zülmətin bağrından doğan,
Möhtacı başına yığan,
Yatan kimi yaddan çıxan,
Daha nəyə umudlusan?
*
Özünü qayadan atan,
Hər məqamda dada çatan,
Sonda üfunətlə yatan,
Daha nəyə umudlusan?
*
Çirkini təmizə yozan,
Qədirsizə ömür üzən,
Dözülməz təhqirə dözən,
Daha nəyə umudlusan?
*
Ölməzliyə həb də bulsan,
Ömrü başa çıx, oğulsan!
Yarıcan, bir də doğulsan,
Daha nəyə umudlusan?
*15 mart, 2006. Bakı.*

**Oyna, babalı bəxtəvər!**

Ay havalı, gün havalı,
Oyna, babalı bəxtəvər!
Qaymağa qat beçə balı,
Doyma, babalı bəxtəvər;
Oyna, babalı bəxtəvər!
*
Məhəmmədim, Asimanım,
Əlimuradım, Məryəmcanım,

Var-dövlətim, xanimanım,
Doyma, babalı bəxtəvər;
Oyna, babalı bəxtəvər!

*

Barmağa yax qızıl xına,
Qalma yaşam qayğısına.
Oynamazı danla, qına,
Doyma, babalı bəxtəvər;
Oyna, babalı bəxtəvər!

*

Qoru bir günün ağını,
Bir də ömür çırağını.
Öləzitmə marağını,
Doyma, babalı bəxtəvər;
Oyna, babalı bəxtəvər!

*

Kimin İsa babası var,
Onun haqdan butası var!
Hər sözün bir əsası var!
Doyma, babalı bəxtəvər;
Oyna, babalı bəxtəvər!

*19 iyul, 2006. Quba, Nügədi.*

## Laqeydlik

Qoca armud koğuşunda bitən palıd pöhrəsi,
Qarğa tamahının qurbanı olan iki bədbəxt.
Başı gora titrəyən armudun solğun çöhrəsi...
Gözü meşəyə dikilən pöhrəni saran həsrət...

*

Dağın donqarına sırınmış meşə öz hayında,
Nə gedən, nə aparan meşənin vecinə deyil.
Zirvədən ta dənizə yollanan sısqa çayın da
Çatar-çatmazlıq nicgili daş yatağında çil-çil.

*

Hara baxırsan, haça dilli müdhiş bir laqeydlik,
Baş qarışıb, hərə öz qoturunu qaşımaqda!
Laqeyd dünyanın düz ortasındaca dayanıb dik,
Köklü kövrək ölməkdə, köksüz ürkək yaşamaqda.

*2 avqust, 2006. Quba, Nügədi.*

**Min yaşa**

Yol aç!
Göz aç!
Dil aç!
Ayaq aç!
Baş aç!
Ürək aç!
Qol aç!
*
Əl açma!
Ağız açma!
İş açma!
Sirr açma!
*
Yol bağlama!
Qol bağlama!
Dil bağlama!
*
Ümid bağla!
Vəfa bağla!
Bel bağla!
*
İnan, İnsan!
Qoşa yaşa!
Şən yaşa!
İfçin yaşa!
Min yaşa!
Coşa-coşa,
Daşa-daşa,
Qoşa-qoşa,
Yaşa! Yaşa! Yaşa! Yaşa!...
*15 dekabr, 2006. Bakı.*

**İlan imiş**

Lal ol daha ötən dilim,
Söylədiyin yalan imiş.

Öydüyün könül sərvəti,
Tarac imiş, talan imiş.
*
Sığal verib şirin dilə,
Ev yıxanmış gülə-gülə.
Can dediyin, belə-şelə,
Filan oğlu filan imiş.
*
Dayan, oduna yandığın,
Canbir deyib, inandığın,
Bəzəyinə aldandığın
Haça dilli ilan imiş!
*7 yanvar, 2007-ci il. Bakı.*

**Viran qalsın Xramı**

Su gəldi çin-çin oldu,
Qıjovda qırçın oldu.
Viran qalsın Xramı,
Qurbanı Elçin oldu.
*
Su coşdu, daşdan aşdı,
Sıçradı, başdan aşdı.
Viran qalsın Xramı,
Gözümüz qanlı-yaşlı...
*
Suda balıq yan gedir,
Su bulanıb, qan gedir.
Viran qalsın Xramı,
Dibiylə oğlan gedir.
*
Su gəldi, sellər aldı,
Aparıb gölə saldı.
Viran qalsın Xramı,
Bir cüt balası qaldı.
*
Su aldı, sel haqladı,
Sinələri dağladı.
Viran qalsın Xramı,
Dil dedi, el, ağladı.

*20 yanvar, 2007. Kosalar.*

## Məni bu qız öldürəcək

Nişan alıb ürəyimi,
Məni bu qız öldürəcək!
Qəsdə durub qırğı kimi,
Məni bu qız öldürəcək!
*
Gördüm, gözüm sırğalandı,
Canım candan aralandı;
Qız donunda can alandı!
Məni bu qız öldürəcək!
*
Uca dağlar lalasıdı,
Hələ dənə dolasıdı;
Bir insafsız balasıdı,
Məni bu qız öldürəcək!
*
İlıq bahar küləyidi,
Tər yasəmən çiçəyidi;
Telləri Çin ipəyidi,
Məni bu qız öldürəcək!
*
Ayla gəlib bu Cahana,
Müştaq olub Yarıcana.
Gedin deyin anasına,
Məni bu qız öldürəcək!
*28 fevral, 2007. Bakı.*

## Yalandımı?

Sinəmə dağ çəkən gözəl,
Al geydiyin yalandımı?
Həsrət qoyub vüsalına,
Öl! - dediyin yalandımı?
*
Bağrım başı bişə-bişə,
Gəlişini gözləmişəm.
Görüş verib, o görüşə,
Gəlmədiyin yalandımı?

*

Özgə vaxtı arif olan,
Mətləbi baxışdan alan.
Varlığıma düşdü talan,
Bilmədiyin yalandımı?

*

Oynadıb da göz-qaşını,
Qoydun belə duz daşını.
Öpüşünlə göz yaşımı
Silmədiyin yalandımı?

*

İnnən belə, Yarıcanam,
Nəyim qalıb, nəyə yanam.
Yüklənir ömür barxanam,
Söylədiyim yalandımı?

*2 mart, 2007. Bakı.*

**Toydu bu gün**

Çatdır elə bu dəvəti,
Toydu, toydu, toydu bu gün!
Ayı, günü, vaxtı qəti!
Toydu, toydu, toydu bu gün!

*

Qəlbə fərəh yaza-yaza,
Təpin dərdə, qəmə, yasa!
Qırmızı bağla doqqaza!
Toydu, toydu, toydu bu gün!

*

Oyna Ana! Oyna Bacı!
Oyna itsin ağrı-acı.
İlin, ayın, günün tacı
Toydu, toydu, toydu bu gün!

*

Qol qaldırıb süzə-süzə,
Nur paylayaq yola-izə.
Könül verək saza, sözə,
Toydu, toydu, toydu bu gün!

*

Bir nəfər tək bu gün burda,

Baş endirək ana yurda.
Dildə, canda və şüurda
Toydu, toydu, toydu bu gün!
*8 avqust, 2007. Nügədi*

## Meydana çıx

Ay utancaq, qaraqabaq, astagəl!
Meydana çıx, meydana çıx, meydana!
Allah verib, ömür gözəl, gün gözəl,
Deyib-gülmək qalacaqdır insana!
Meydana çıx, meydana çıx, meydana!

Çək başına sevinc adlı şərbəti,
At başından paxıllığı, xiffəti!
Yaxşılıqdır ömrün-günün zinəti,
Bir yaxşılıq qalacaqdır insana!
Meydana çıx, meydana çıx, meydana!

Gözəl günə sevinməyin vaxtıdır,
Gözəl-göyçək geyinməyin vaxtıdır.
Gözəl günlə öyünməyin vaxtıdır,
Gözəl arzu gur işıqdır insana!
Meydana çıx, meydana çıx, meydana!

"Elnən gələn toy – Bayramdı"-deyiblər,
Bayram özü ehtişamdı – deyiblər.
Yalqız olan heç olarmı bəxtəvər?
Cazibə də bir bəzəkdi insana,
Meydana çıx, meydana çıx, meydana!

Yazıq olsun ağa qara deyənə,
Nə insandı sevinməyən bu günə?!
Harda olsan yetiş toya-düyünə,
Yeyib-içmək bəhanədi, bəhanə
Deyib-gülmək qalacaqdır insana!
Meydana çıx, meydana çıx, meydana!
*9 avqust, 2007. Nügədi.*

### Buyursun

Şahə qalxır arzuların köhləni,
Coşub-daşan könül varsa, buyursun.
Söz bağında qumru kimi, qu kimi,
Şirin ötən bir dil varsa, buyursun!

Süfrə açıq, çeşid-çeşid yeməli,
Nəyə baxsan öyməlidi, öyməli.
Bu məclisin qulağına deməli,
Sinəsində söz qatarsa, buyursun!

Biz gəlmişik gözəl işlər görməyə,
Arzulardan əlvan çələng hörməyə.
Xeyir işə xeyir-dua verməyə,
Ağsaqqalsa, ixtiyarsa, buyursun!
*9 avqust, 2007. Nügədi.*

### Salam olsun

Bu məclisin sədasına
Səs verənə salam olsun.
Sözümüzə sökək olan
Söz hörənə salam olsun.

Göz üstədi qonaq-qara!
Yaxın-uzaq qohumlara,
Bizə simsar dosta-yara
Dönə-dönə salam olsun.

Salam olsun var bölənə,
Bir də ki, qədir bilənə.
Süfrə açan qız-gəlinə,
İş görənə, salam olsun.
*9 avqust, 2007. Nügədi.*

### On altıdı

Can deyib, can eşitdiyim,

Can sirdaşım on altıdı.
Gələn, gedən çox olubdu,
Baş yoldaşım on altıdı.

Al-əlvandı könül bağım,
Göz oxşayır solum, sağım.
Nəğmə deyir dil-dodağım,
Eşqə tuşum onaltıdı.

Beş düjündü başdan aşan,
İyirmi üç düzüb qoşan.
Ulduz kimi parıldaşan
Başqa dişim onaltıdı.

Sevgidə susuz kimiyəm,
Cadarlamış duz kimiyəm;
Qırxı çatmaz yüz kimiyəm,
Qışda yaşım on altıdı.

Miskəroğlu - Yarıcanam,
Yarla qoşa qarıyanam!
Şükür olsun Yaradana!
Başda huşum, onaltıdı.
*19 sentyabr, 2007-ci il. Bakı.*

## Altımış yaş

Altımış yaş –
Cavanlığın son gecəsi!
Ömrün otuz heç-heçəsi!

Altımış yaş –
Qocalığın səhər çağı!
Xəzəlləyən könül bağı!

Altımış yaş –
Ahıllığın günortası!
Vaxtın baxta sığortası.

Altımış yaş !
Varlığımla bağrıbadaş!

Ayağa qalx!
Dön geri bax!
O gur saçlı,
Otuz yaşlı
Cavanlıqla, dur, vidalaş!

Altımış yaş –
Yavaş-yavaş
Çallayan qaş...
Altımış yaş –
Ağaran baş...
Amma yavaş!
Qəm eləmə, yalandı yaş!

Üzü gülər, sözü şəkər,
Altımış il sevən dilbər,
Altımış il sevilən ər,
Bir örnəkdir bizə, yetər!

Yarıcanam, bir bu qədər,
Yaşamadım mən də hədər.
Böyük-kiçik varsa əgər,
Yaşamağa hələ dəyər!
*28 oktyabr, 2007-ci il. Bakı.*

## Çox yaşadı

Allahdan ömür dilədi,
O da verdi: get yaşa di!
Qohum-qardaş, arvad-uşaq
Ölüb getdi, o yaşadı.

Nəvəsi qılığ elədi,
Nəticəsi lağ elədi.
Kötükcəsi ağ elədi,
Ağzı dizdə su daşıdı.

Ömrü bitdi özbaşına,
Bələnmədi göz yaşına.

El qoyduğu başdaşına
Yazdılar ki, çox yaşadı.
*7 dekabr, 2008. Bakı.*

***
"Göyə daş atma, atam balası"[1],
Göyə daş atmaz adam balası!
*2 yanvar, 2009. Bakı.*

***
Arvad kişinin hasasıdı,
Qocaldıqca bərk tutasıdı.
*3 yanvar, 2009. Bakı.*

## Öz anamın xətrinə bu dünyaya gəlmişəm

Özünü aldatmasın, sevib bəyəndiklərim,
Səcdəsinə baş əyib, başına döndüklərim;
Zirvəsinə çatdığım, təkinə endiklərim!
Mənim bu Dünya ilə nə alverim, nə işim?!
Öz anamın xətrinə bu dünyaya gəlmişəm.

Borca düşən canam ki, göydən yerə enmişəm,
İstisinə isinib, təməlinə sinmişəm.
Arısında arınıb, durusunda çimmişəm,
Mənim bu Dünya ilə nə alverim, nə işim?!
Öz anamın xətrinə bu dünyaya gəlmişəm.

Dünyaya sığmayanı, bir qətrəyə yığsa da,
Nura müştaq olanı zülmətində boğsa da,
Doqquz ay doqquz günə boğa-boğa doğsa da,
Mənim bu Dünya ilə nə alverim, nə işim?!
Öz anamın xətrinə bu dünyaya gəlmişəm.

Bətnə düşən bəhərdim, puçurlayıb göyərdim,
Dərdimi göyə gərdim, göyərməsəm nə dərdim.
Tərsə düşsə ölərdim, tərsə düşsəm ölərdi,
Mənim bu Dünya ilə nə alverim, nə işim?!

---
[1] Ramiz Rövşən

Öz anamın xətrinə bu dünyaya gəlmişəm.

Yumrulandım nütfədən vaxta doğan dan kimi,
Yapıldım yarıbədən, bir də yarıcan kimi.
Gəlmişdim Adam kimi, gedirəm İnsan kimi,
Mənim bu Dünya ilə nə alverim, nə işim?
Öz anamın xətrinə bu dünyaya gəlmişəm.
*8 may,2009.Bakı.*

**Anam öləndən bəri**

Ata-ana çəpərmiş,
Ümid, inam çəpəri!
Deməzsənmi, həncəri?
Üzbəüz duranda mən,
İlləri yorub gələn
Atamın sol çiynindən
Qəbristanlıq görünür
Anam öləndən bəri.

Babamdı Əgül Rəhim,
Nənəmdi Qəşmər Pəri.
Əzizdir mənim üçün,
Əziz xatirələri...
Ata-ana itirən
Böyük oğul atamın
Dərdini anlamışam
Anam öləndən bəri.

Anam yetim qız imiş,
Atam yetim qız əri.
Bir yastıqda ağarıb,
Bir vaxt qara telləri...
Ata-ana itirib,
Yetimlik çəkməyiblər...
Atam yetim qalıbdı,
Anam öləndən bəri.

Dedi: yeddi balam var,
Getdi... Yeddi nalan var;
Yeddi rəngi solan var,

Yeddi gözü dolan var,
Yeddi qəlbi talan var,
Yeddi dilsiz-ağızsız,
Boynu bükük qalan var,
Anam öləndən bəri.

Getdimi? Yox! Dayandı,
Gözləyir nə zamandı.
Bunu istəməsə də,
Daim "durun!"-desə də,
İçimizdə hıçqırıq,
Dalbadal, qırıq-qırıq,
Ona yaxınlaşırıq
Anam öləndən bəri.
Sona yaxınlaşırıq
Anam öləndən bəri.

*21 oktyabr, 2009. Bakı.*

## Sağ əlim başına sonra gələnlərin

Babamın atasıydım ... Uşaqlığımda
Babama baxıb atama baba oldum.
Atamın babasıydım... Cavanlığımda
Atama baxıb oğluma ata oldum.
Oğlumun atasıydım... Ahıllığımda
Oğluma baxıb nəvəmə baba oldum.
Sağ əlim başına sonra gələnlərin...

Babam dost idi mənə... Uşaqlığımda
Babama baxıb atam mənə dost oldu.
Atam dost idi mənə...Cavanlığımda
Atama baxıb oğlum mənə dost oldu.
Oğlum dost idi mənə... Ahıllığımda
Oğluma baxıb nəvəm mənə dost oldu.
Sağ əlim başına qədir bilənlərin...

Babamın dostu idim... Uşaqlığımda
Babama baxıb atamın dostu oldum.
Atamın dostu idim... Cavanlığımda
Atama baxıb oğlumun dostu oldum.
Oğlumun dostu idim... Ahıllığımda

Oğluma baxıb nəvəmin dostu oldum.
Sağ əlim başına buna gülənlərin;
Sağ əlim başına qədir bilənlərin;
Sağ əlim başına sonra gələnlərin...
*4 noyabr, 2009-cu il. Bakı.*

## Yazıqlar olsun

Yapış bəd əməldən, əməlli yapış,
A söz gəzdirənim, ara vuranım.
Keçir caynağını, təməlli yapış,
A fitnə toxuyub, tələ quranım.

Yalan yarğan deyil, adlamaq baha,
Bu halda mən sənə nə deyim daha.
Get qır qeybətimi, get qır, allaha,
Hər yerdə, hər kəsə qeybət qıranım.

O allah bəndəsi səni doğanda,
Paxıl doğmadı ha. Nədi bu, canda?
Bu necə azardı sümükdə, qanda,
A doğma sümüyüm, a doğma qanım.

Yarıcan qalmışam kəramətindən,
Baş aça bilmədim bu adətindən.
Qaxac qurudursan, qaxac, ətimdən,
A sür-sümüyümə yiyə duranım.

Yapış bəd əməldən, əməlli yapış,
Keçir caynağını, təməlli yapış,
Xeyrini görərsən, on əlli yapış,
Təpədən-dırnağa şərə cumanım.

Bir gün bəyəndiyin puç olacaqdır,
Bir gün öyündüyün heç olacaqdır;
Bir gün tüyündüyün gec olacaqdır,
Xəcalət-şərvəndə boyun buranım.
*9 oktyabr, 2010. Bakı.*

## Daha yazmıram

Ürəyim üzülür şeir yazanda,
Yazdıran azıbdı, daha yazmıram.
Mənim yazdığımı kim oxuyacaq?
Oxucu kasıbdı, daha yazmıram.

Kimin nə dərdinə mənim ahımdan?
Kimin nə xəbəri var günahımdan?
İçimdə boğulan söz, allahımnan
aramı pozubdu, daha yazmıram.

Par-par yanan gülün ətri qalmayıb,
Bağrıqan bülbülün xətri qalmayıb;
Arının mığıca qədri qalmayıb,
Şanı toz basıbdı daha, yazmıram.

Gerçəyi, bürüyüb, yalan aparır,
Olanı-qalanı talan aparır;
Çapıb, çapdığını, çalan, aparır,
Çapılan susubdu daha, yazmıram.

Yarıcan canıma suç olan Dünya,
Əzəldən son ucu puç olan Dünya;
Nə ki, taleyimə, öc alan Dünya,
Qiyamət yazıbdı, daha yazmıram.

Mənim yazdığımı kim oxuyacaq?
Kim sığal çəkəcək, qiymət qoyacaq?
Sən bir yazılana, oxunana bax!
Oxuyan yazıqdı qağa, yazmıram.
Eşidən yazıqdı, daha yazmıram.

*15 mart, 2011. Bakı*

## İndi söylədiklərim söyləmədiklərimdi

Şübhə şərik qoşmasın bu gün dediklərimə,
İndi söylədiklərim söyləmədiklərimdi.
İftixarla baxıram dünyadakı yerimə,
İndi söylədiklərim söyləmədiklərimdi.

Yeddi rəngin vəhdəti ya ağdı, ya qaradı,
Yeddi səsin hikməti min-bir dərdə çaradı.
Yeddi-yeddi gələnlər yetmiş yeddi paradı,
İndi söylədiklərim söyləmədiklərimdi.

Sağdan baxdığım sola, soldan baxdım, sağ oldu,
Qəlbimdəki naxışlar sinəm üstə dağ oldu.
Zirvədəki dümağ qar yamacda bulaq oldu,
İndi söylədiklərim söyləmədiklərimdi.

Ömür verib vəd aldım, bu daşdı, bu tərəzi,
Bu dünyada heç nəyin qəti yoxmuş əvəzi.
Sevgi dedikləri bil, bir cazibə tələsi...
İndi söylədiklərim söyləmədiklərimdi.

Getdi canın yarısı, qalan yarı can oldu,
Kimi nigaran öldü, kimi yarıyan oldu.
Dilim dilim-dilimdi, sinəm də şan-şan oldu,
İndi söylədiklərim söyləmədiklərimdi.
Günahımı bağışlar... adil Allah kərimdi...

*12 may, 2011. Bakı*

## Üzüm, gözüm, özüm, sözüm

Üzümün üzünə dim-dik baxmasam
Üzüm, el yığıla, üzümə baxmaz.
Sözümün sözünə qəhmər çıxmasam
Sözüm, dünya qopa, sözümə baxmaz.

Üzüm gün üzüdü, üzüm gül üzü,
Üzümün astarı üzündən gözəl.
Dilim el dilidi, sözüm el sözü,
Gözəl görməmişəm, sözümdən gözəl.

Üzüm üzlər görüb, ağlı-qaralı,
Vaxt olub, üzümə ələk tutmuşam.
Gözüm izlər görüb, izlərdə qalıb,
Bir sısqa ümidə ətək tutmuşam.

Üzümün üzünə dim-dik baxmışam,
Üzüm düşmən üzü, üzüm dost üzü.
Söz üstə sözümlə cəngə çıxmışam,
Sözüm söz udmayıb, sözüm haqq sözü!

Gözüm tox, könlüm yox, ömür yaxhayax,
Gözüm özüm kimi yarıcan belə.
Dost-düşmən yanında müdam üzüm ağ,
Yoxdu özüm kimi yarıyan belə.

*20 iyul,2011.Nügədi*

**Nə məchul duyğudu bu sevgi belə?**

Səni sevdiyimi qana bilmirəm,
Sənsizliyə də dayana bilmirəm.
Nə məchul duyğudu bu sevgi belə?
Varlığın şəffafdı, yoxluğun çilə.

Nə ki, yanımdasan, qədirbilməzəm,
Yoxsansa, rahatlıq nədir, bilməzəm.
Nə məchul duyğudu bu sevgi belə?
Varlığın şəffafdı, yoxluğun çilə.

Səni həsrətimlə üzən də mənəm,
Hər cürə nazına dözən də mənəm.
Nə məchul duyğudu bu sevgi belə?
Varlığın şəffafdı, yoxluğun çilə.

Nə ki, yanımdasan, Dünya boydayam,
Yoxsansa, xəyalı qovhaqovdayam.
Nə məchul duyğudu bu sevgi belə?
Varlığın şəffafdı, yoxluğun çilə.

Nə ki, yanımdasan, bil, İnsanam mən,
Yoxsansa, üzülmüş yarıcanam mən.
Nə məchul duyğudu bu sevgi belə?
Varlığın şəffafdı, yoxluğun çilə.
Nə deyim, bu məchul həlli müşgülə?...

*22 yanvar, 2012. Bakı*

## Özü hara, üzü hara?

İyirmi iki iyun günü - özü yaya, üzü qışa,
İyirmi iki dekabrsa – üzü yaya, özü qışa.
*27 dekabr, 2012.Bakı*

## Biri belə, biri elə

Biri polad kimidi,
Oddan çıxıb, yaşayır.
Biri boyat kimidi,
Yaddan çıxıb, yaşayır.
*3 noyabr, 2013. Bakı*

## Onun dostu, onun düşməni

Onun dostu
namuslu, qeyrətli, mərd, abırlı deyil,
pul verəndir.
Onun düşməni
namussuz, qeyrətsiz, namərd, abırsız deyil,
pul verməyəndir.
*5 fevral, 2014. Bakı*

## Sən ol ki, mən də olum

Sən ətirli qızılgül ol,
Mən şeyda bülbülün olum.

Sən parla, dünyaya saçıl,
Dövrəndə pul-pulun olum.

Sən könlümün sultanı ol,
Qulluğunda qulun olum.
*5 mart, 2015. Bakı*

## Adam ol, ev yıxan olma

Sabaha bax, düz yol ara,
get, daim önə baxan ol!
Saçı sarı, üzü qara,
yaltaq Günəbaxan olma!

Bağça sal, güləbaxan ol,
yeldə külə baxan olma!
Lap adi malabaxan ol,
sakın, falabaxan olma!

Hal bilən ol, yan, yaxın ol,
bircə pulabaxan olma!
El bəyi, Eləbaxan ol,
Qəti ələbaxan olma!

Qaragünlüyə yaxın ol,
Ağa qara yaxan olma!
İnsan oğlu, ev quran ol,
Adam ol, ev yıxan olma!

*11 iyun, 2015. Bakı.*

## Günəbaxan

Günəbaxan günə baxdı,
Canı gün oduna yaxdı,
Ağdı, üzü qara çıxdı,
Günə baxma, günə baxma!

*11 iyun, 2015. Bakı.*

## Xoşbəxtlik

Diqqət elə səni doğan bu dünyaya,
Diqqət elə ulduzlara, Günə, Aya.

Çiçək böcəklə xoşbəxtdir.
Böcək cicəklə xoşbəxtdir.

Ləçək, onu alıb gedən dəli küləklə xoşbəxtdir.
Külək, alıb apardığı zərif ləçəklə xoşbəxtdir.

Xoşbəxtlik – kəsirsiz vaxtdır.
Xoşbəxtlik - qüsursuz baxtdır.

Xoşbəxtlik - dünyaya vaxtında gəlib, vaxtında getməkdir.
Xoşbəxtlik - sabah kimi doğulub, gündüz kimi bitməkdir.

Naz eləmək imkanı olan
naz eləyə bildiyi qədər xoşbəxtdir.
Naz çəkən isə çəkdiyi nazdan
həzz  aldığı qədər xoşbəxtdir.

Dünyasını dünyaya gətirdiyinin çiynində
dəyişən xoşbəxtdir.
Dünyadan ötürdüyünün arxasınca
cənnətə düşən xoşbəxtdir.

Xoşbəxtlik – hər ürəyin növbəti vurğusudur.
Xoşbəxtlik - xəyalın ılıq, sirli mürgüsüdür.
Xoşbəxtlik – hər səhər üzünə açılan dan yeridir.
Xoşbəxtlik - Allahın adına layiq şah əsəridir.

Xoşbəxtlik -  Tanrı məqamındakı bir ruhi rahatlıqdır.
Xoşbəxtlik - arzular dünyasında ləziz narahatlıqdır.
Xoşbəxtlik - doyumsuz yaşamaq dadıdır.
Xoşbəxtlik – kamranlığın ən üst qatıdır.

Xoşbəxtlik –tamahsızlıqdır.
Tamahsızlıq –günahsızlıqdır.
Günahsızlıq - məsumluqdur.
Məsumluq - ülvilikdir.
Ülvilik - xoşbəxtlikdir.

Xoşbəxtlik - şəffaflıqdır.
Şəffaflıq isə - saflıqdır.
Saflıq - tanrı dərgahına qovuşmaqdır.
Tanrı dərgahına qovuşmaq - ömrü aşmaqdır.
Ömrü aşmaq - xoşbəxtlikdir.

Xoşbəxtlik - cazibədarlıqdır.
Cazibədarlıq - əsrarəngizlikdir.
Əsrarəngizlik - heyrət məqamıdır.
Heyrət məqamı - xoşbəxtlikdir.

Xoşbəxtlik - dostluqdur.
Ən böyük dostluq - Allahla dostluqdur.
Allahla dostluq - onun yaratdıqları ilə,
yəni, həm də özünlə dostluqdur.
Özünlə dostluq - İnsanla dostluqdur.
Ən böyük insani dostluq - ər-arvad arasındakı dostluqdur.
Ömür-gün yoldaşı ilə böyük dost olmaq ən böyük xoşbəxtlikdir!

Xoşbəxtlik axtaran!
Bir anlıq dayan!
Özünə bax, içinə boylan!
Xoşbəxtlik sənin öz əlindədir, əlinə diqqət elə!
Xoşbəxtlik əməlindədir, əməlinə diqqət elə!

Allah rəhmət eləsin, Şair Moşu Göyəzənliyə!
Gözünü dünyaya yumdu "Xoşvaxtlıx!"- deyə-deyə.

*5 mart, 2016. Bakı.*

*Pritçalar*

## Bulud

Bir bulud doğuldu bir bahar çağı,
Ərköyün-ərköyün gəzdi göyləri.
Ağappaq əndamı, əli, ayağı
bir ləkə görmədi o gündən bəri.
*
Əsdi sərin-sərin səhərin mehi,
Dümağ çöhrəsini yaladı onun.
Güldü yaz günəşi, öpərək şehi,
şəfəqlə telini daradı onun.
*
Böyüdü, yetişdi kədərsiz, qəmsiz,
Zövq aldı qənirsiz gözəlliyindən.
Dolandı bəxtəvər, gözləri nəmsiz,
Bir əl tutmayıbdı hələ əlindən.
*
Yetginlik çağına qədəm qoydu o,
Titrədi könlündə sevdalı bir sim.
Bir vaxt varlığında boşluq duydu o,
Bir səs ürəyinə kəsildi hakim.
*
Baxdı səmalardan yerə vüqarla,
Bir eşqin ahıyla dinmək istədi.
Əyildi torpağa bir iftixarla,
Büllur şəlalədə çimmək istədi.
*
Bu fikir xam gəldi, nədənsə, ona,
Döndü maviliklər qoynuna yenə.
Ərköyün bir gözəl böyüdən ana
sığındı qəlbinin hənirtisinə.
*
Yığdı tellərini o, buxağından,
Tənha hörüyünü döşünə atdı.
O, bu məlahətlə, körpə çağından,
Gör, neçə ürəyi vurub qanatdı.
*
Kim ilqar istədi, möhnət verdi o,
Dolandı, könlünə yatan olmadı.

Vüsal istəyənə həsrət verdi o,
Heç kimə, heç nəyə mehir salmadı.

*

Gəzdi məğrur-məğrur, gəzdi o vaxtdan,
Qəlbi isinmədi yar nəfəsindən.
Bu dəmdə bir şimşək çaxdı uzaqdan,
Diksindi şimşəyin qəh-qəhəsindən.

*

Oynatdı qaşını, oynatdı şimşək,
Bığaltı qımışıb, buluda baxdı.
Onun bu baxışı, qaynar bulaq tək,
Süzüldü, buludun qəlbinə axdı.

*

Şimşəyin şöhrəti azdırdı onu,
Şirin xəyallarla boşaldı-doldu.
Çatdı tənhalığın, həsrətin sonu,
Şimşəyin sözünə o razı oldu.

*

Bulud şimşəyini itirdi birdən,
Kövrəldi, sinəsi, gözləri doldu.
Qaraldı, tutuldu o dümağ bədən,
Gül tək açan yanaq saralıb, soldu.

*

Şimşək qəh-qəh çəkib göründü bu an,
Titrədi buludun çarpan ürəyi.
İtdi varlığını didib, dağıdan
Hicranın qəm dolu acı küləyi.

*

Sarıldı buludun boynuna şimşək,
Bulud sinədolu bir oxqay! -dedi.
Sonra da sevincdən kövrələnlər tək
gözünün yaşını leysan elədi.

*

Oynadı, şaqradı...Çılğındı şimşək,
Əhdə xilaf çıxdı, tez səkdi, getdi.
Bir yeni eşq ilə qızındı şimşək,
Buluda çal-çarpaz dağ çəkdi, getdi.

*

Süründü dərədən dağ yamacına,
Süründü, bağrıqan, günahkar kimi.

Dağ sığal çəkəndə onun saçına,
Ağardı qorxudan dümağ qar kimi.

*

Susdu dağ fikirli, gözlərində qəm,
Dümağ duman aldı dağın başını.
Taparaq özünə dost, sirdaş, həmdəm,
Bulud da ümidlə çatdı qaşını.

*1 dekabr, 1967-ci il. Bakı.*

## Dəniz

Günəşə qurban olum, deyib-gülən, aşıb-daşan Dədəmdi. Buluda qurban olum, dolub-boşalan, kövrəlib-hönkürən Nənəmdi. Küləyə qurban olum, mürgülü çiçəklərin yuxusuna haram qatan, itmiş ümidləri tapıb qaytaran, gözəl, dəcəl Qızımdı. Bulağa qurban olum, yorulub-usanmaq bilməyən, varını əsirgəməyən Oğlumdu. Təbiətə qurban olum, kələkötür Millətimdi. Millətimə qurban olum, olub-qalan həqiqətimdi.

Sən dəniz idin. Ağ yallı dalğalı, çılğın dəniz. Üfüqlərin saf, suların şəffaf, kipriklər arasından süzülən göz yaşı kimi. Aramsız oynamaqdaydın bağrımın başı kimi. Çılğınlığın qədər cazibədar, duruluğun qədər məsum, məsumluğun qədər məlahətli idin, Dəniz!

Dəniz olmağa, dalğalanmağa haqqın var idi. Bu haqqı sənə Tanrı Dədən vermişdi, Dəniz!

Zaman-zaman sahillərə sirli bir nəğmə pıçıldar, aram-aram ləpələnərdin. Onda sən xəyali bir sahilin sorağındaydın, quzum mənim! Di gəl ki, yuxudaydı o zaman arzun sənin. Odur ki, gah kükrəyir, gah da səngiyirdin ki, sehrli sahili yuxudan oyada biləsən. Sənə elə gəlirdi ki, həmin sahil səni yuxusunda görür. Necə olur-olsun ona çatmağa, onu oyatmağa, özünü ona göstərməyə, sevdirməyə çalışırdın, Dəniz!

Sonra da dadlı xəyallara dalıb xumarlanırdın...

Bəli, sən bütün varlığınla, xislətinlə dəniz idin, çılğın, dalğalı dəniz. Yorulmaq bilməyən dalğaların döyə-döyə kiçik bir qayığın kəndirini kəsib ənginliklərə sürüməkdə, zavallını qəh-qəhlərə qərq edib atıb-tutmaqdaydı nə vaxtdı. O isə bu təlatümlər qoynunda aciz-aciz çırpınmaqda, xilas olmaq ümidini itirə-tapa dalğaların şıltaqlığına alışmaqda, zaman ötdükcə, xilas olmaqdan çox, dalğalarla oynamağa meyllənməkdə və dalğalarla oynamaq onun üçün vaz keçilməz bir əyləncəyə çevrilməkdəydi.

Lakin sən dəniz idin, çılğın, dalğalı dəniz. Sənin üçün zavallı qayıq heç nə idi, heç nə. Sən onu duymurdun, duya bilməzdin də. Çünki o, sənin

arzularından, xəyallarından çox-çox kiçik idi. Sən mətin qayalı bir sahil arzusuyla çırpınarkən, o, bir oyuncaq idi. Buna baxmayaraq hər səhər şəfəqlərdə səninlə birlikdə yuyunar, ləpələrlə sığallanar, mehlərlə daranar, yenə də itirə-tapa üzərdi...

***

İçimdə od qalamışam, a başına dönüm!

Ahımın cızdağıyam axı!

Mus-mus dediyimin Mustafası budur ki, ölürəm sənnən ötrü.

Ölürəm, vəssalam!

“Yox”-desən, uydurduğum sənli xəyal dünyam tar-mar olacaq.

“Hə” cavabına da gümanım gəlmir. Odur ki, qoy bu ziddiyyətli etirafım aramızda mələk yavrumuz olsun. O xəyali körpəmizin başına dolanmaq iztirabından alacağım həzz mənə bəsdir, Dəniz!

Zillənən görüb gözümü,
Danlama gəl, daş üzümü.
Çənəmə sıxıb dizimi,
Qına çəkilirəm, Dəniz!

*

İçim alov saça-saça,
Ürcah oldum sonu puça.
Səndən uçub, qaça-qaça
Sənə tökülürəm, Dəniz!

*

Həm afətim, həm də sonam,
Sənli-sənsiz bağrı qanam.
Yaxanda allanan danam,
Yenə sökülürəm, Dəniz!

*

Varım-yoxum pərən-pərən,
Divanəyəm, xəyal hörən.
Oğrunca gərdəyə girən
Çənəm, əkilirəm, Dəniz!

*

Bağrıbadaş könlüm sənə,
Düşübdü, bir gör, nə günə.
Dadar-doymaz qaldım yenə,
Yanıb-yaxılıram, Dəniz!

***

Zavallı qayıq dalğalarla oynaya-oynaya özü də hiss etmədən böyümüşdü. Axı o, özündən qat-qat güclü olan dalğalarla - sənin istəklərinlə, şıltaqlığınla oynayırdı, Dəniz!

***

Sən dəniz idin, çılğın dəniz. Çılğınlığını sevirdim. Səni çılğın edənə qurban olum, Dəniz! Tamaşana durmuşdu sıldırım qayalar. Sonsuzluğa dirənən sahillərin var idi. Belə olan surətdə necə sakit dura bilərdin axı? Sən kükrəməli idin, kükrəyirdin də! Kükrə, qadan alım, kükrə, Dəniz! Təlatümlərdə qərq olmaq keçir könlümdən!

***

Fırtınalar qoynunda bir gəmi üzürdü, ağır-ağır, təmkinlə. Ən coşqun dalğa belə, onu öz yolundan döndərə bilmir, nəhəng gövdəsinə dəyib pul-pul olurdu. Bu, həmin qayıq idi, bir zaman dalğaların atıb-tutduğu kiçik, zavallı qayıq. İndi o, öz eşqi üçün kifayət qədər böyümüş, öz əqidəsi, məsləki var idi. Dor ağacı əyilməyə, sükanı isə sarsılmağa, büdrəməyə qoymurdu onu. Öz sevgilisi qarşısında aciz deyildi daha. Əvvəllər eşqinə dar gələn varlığı indi həmin eşqi büsbütün udmuşdu.

O, böyüdükcə ağırlaşır, sənə ağırlıq edirdi, Dəniz! Onun təmkini ilə sənin şıltaqlığın qılıncla qalxan kimi üz-üzə durmuşdu. Sən son gününədək şux-şıltaq qalmaq istəyirdin. O isə, sənin bütün şıltaqlıqlarına mərdi-mərdana dözərək mətinləşmiş, böyümüş, bərkimiş, ağırlaşmışdı. Onu sən özün belə ağırlaşdırmışdın, Dəniz!

İndi sənin çılğın bir nərən onu qayalara çırpa bilsəydi daha o, bu fəlakətdən salamat çıxa bilməzdi. Çünki onun quş yüngüllüyü qalmamışdı daha. Lakin sən bunu etmədin. Niyə? Qorxdunmu? Gücünmü çatmadı? Yox! Sən indi həm əvvəlki dəniz idin, dəli, dalğalı dəniz, həm də xeyli dəyişmişdin, gözü-könlü dolu, müdrik, ulu dəniz. Daha əvvəlki şirin xəyalların sorağıyla çırpınmırdın, içindən gələn nəğmələri sinəndə gəzdirdiyin həmin nəhəng gəmi üçün oxumaqdaydın, Dəniz!

***

Zaman əli uzalı, başı alovlu, arxasına baxmadan uçmaqda. Uçduqca güclü bir axın aparmaqda. Bu axında burulğanlar, astanalar, mağaralar... Sən də bu axındasan, mən də, o da. Hamımız illər axınındayıq, Dəniz! Səni dövrələyən sahillər dəyişmiş, mətin qayalar uçub tökülmüş, uçan, dağılan sıldırımlar, yuyulub gedən, üyünüb ələnən sahillər ağnayıb üstünə gəlməkdə, səni dayazlaşdırmaqda. Öz əlin öz barmağını kəsir, Dəniz! Özün-özünə yağıya çevrilməkdəsən, Zavallı! Dayazlaşdıqca imkanların daralır, imkanların daraldıqca qəh-qəhələrin seyrəlir, gücün öləziyir, özün kiçilirsən. Özünlə birlikdə arzun da, əməlin də, əqidən də cılızlaşır. Sakın, Dəniz! Sənə kiçilmək yaramaz! Kiçikliyin ölümün deməkdir!

Bir bax! Daha o ağır, sanballı gəmini sinən üstündə saxlamağa, onu yaşatmağa gücün çatmır. Daha səni nə dadlı xəyallar, nə də böyük amallar yaşadır. Gəmiyə isə dərinlik, genişlik lazımdır. Səndən dərinlik istəyir gəmi, yoxundur. Gəmiyə təlatüm lazımdır, yoxundur. O, nə etməlidi? Yenidən kiçilməli, cılızlaşmalı, qayıqlaşmalı, yoxsa...

***

Çox da böyük və dərin olmayan, lakin qaynar bir dənizdə bir gəmi üzürdü. Bu, həmin gəmiydi. Di gəl ki, əvvəlkinə nisbətən xeyli kiçilmişdi. Gəmi həmin gəmi, Dəniz başqa dənizdi. Sənə Günü Dənizdi. Günü Dəniz dalğalanır, qaqqıldayır, kükrəyirdi. Sənə acıq vermək üçün gecəsi-gündüzü yox idi, Günü Dənizin. O, şaqqıldayıb kükrədikcə, Sən yorğun-arğın acı-acı gülümsəyirdin. O, sabahını qurmağa can atdıqca, sən ötən günlərini xatırlayır, köks ötürürdün.

Sevgilin Gəmi Günü Dənizdə tərəddüd içində ləngər vurur bax! Çünki o, Günü Dənizdə üzsə də, xəyalında sənin o vaxtkı ənginliyin yaşamaqdadı, Dəniz! Böyüklüyün əlindən çıxıb, ülviliyini itirmə! Onun xəyalındakını ülviliyinlə qoru, Dəniz!

Sinəsi dağlanan kövrək bir dağam,
Dərdinə-sərinə daim ortağam.
Bu dünya durduqca, nə qədər sağam,
Səni bəbəyim tək qoruyacağam!!!
Əlvida, xiffət!
Yaşa, Məhəbbət!
Çağla, arzum!
Canım-gözüm!
Bəri dur!
Əlini ver!
Əzizim!
Dənizim!

***

*Bakı*

# *Poemalar*

## *İlqar*

- Məhəbbətim!
Sənsən mənim ruhum, canım,
Kainatım, kəhkəşanım.
Sənsən nəğməm, səsim-ünüm,
Şirin-acı ömrüm-günüm.
Sənsiz nəyəm?
Bir qədəhəm,
boşaldılmış
və atılmış...
İndi neynim, ay etibar,
söylə, bir işıq ucu var?
- Gileylənmə etibara,
Hörmət hara, sevgi hara?
Hörmət üstə köklənən sim
çala bilməz odlu, şaqraq
nəğməsini məhəbbətin.
- Böyük sözü nə olsun bəs?
Ata haqqı, ana südü səncə əbəs?
- Tale necə?
De, günahsız
saf ürəkli, məsum bir qız
öz eşqini, həvəsini,
minbir xallı nəğməsini,
gecəsini, gündüzünü,
Ayı, Günü, Yer üzünü
sənə verib.
- Hə, nə olsun?
- Onun könül rübabını,
həsrətini, əzabını
sən köklədin, de kim çalsın?

*

Susur İlqar,
küsür xəyal,
Ürək dolu, dil isə lal.
Qəm dağlayır sinəsini,
boğur, batırır səsini...

*

Yay gecəsi, sərin gecə,
mürgü vurur səssiz küçə.
Lal sükutun qucağına,
ara-sıra həzin-həzin
süzülür bir mahnı səsi,
bir məhəbbət zümzüməsi...
Yatmayıbdı hələ İlqar,
görkəmində bir üzüntü,
canında bir yorğunluq var.
Son imtahan,
son həyəcan,
son titrəyiş önündədir.
Durur masa arxasından
pəncərəyə sarı gedir.
Dolur yenə
sinəsinə
saf bir eşqin səsi-küyü;
ehmallıca pəncərəyə
yanaşaraq ağ örtüyü
yana çəkir.
Dilarədir,
bir nəğmənin kəlmələri
səpələnib dodağına.
Gör bir nələr pıçıldayır
o, İlqarın qulağına:
"Sən dönsən də mən dönmərəm,
Günəş sönər, mən sönmərəm.
Əzabından deyinmərəm,
Var böylə nişanım mənim"...
Uçur nəğmə,
kəlmə-kəlmə
kipriyinə qonur onun.
Gözündəsə bir həsrətin
odu, közü yanır onun.
Qanad açır,
dağlar aşır
yenə xəyal.
Xoş təbəssüm nəqş eləyir
sifətinə şirin vüsal.
İlk məhəbbət, son ayrılıq

xəfif-xəfif, ılıq-ılıq
baxışında yırğalanır.
Etibarı,
əhd-ilqarı,
"Gözlə məni, Şəhla"-deyən
ümid dolu baxışları
işıq seli, nur qalağı.
Baxır,
həsrət dolu baxış
hər cilvəsi naxış-naxış
bir sevdadan
söhbət açan
bir cüt gözə dikilibdi.
Baxır,
şümşad bir qamətin,
büllur kimi heysiyyətin
varlığına ismət adlı
dümağ pərdə çəkilibdi.
Baxır, ancaq Dilarəyə
"Şəhla"-deyib, baxır İlqar.
Onun həsrət dumanında,
ümidində, gümanında
Şəhla adlı bir qız yaşar.
Dilarəylə Şəhla sanki
ekizdilər. Bir baxsan ki:
Şux baxışı,
gözü, qaşı
onunkudur.
Tərpənişi
addımbaşı
onunkudur.
Şümşad boyu,
tünd, buğdayı
tel onundur.
Bir az nazlı,
bir az duzlu
dil onundur -
Şəhlanındır.
Baxır, baxır, dönür İlqar,
Yanır İlqar, sönür İlqar...

***

- Salam, Dila!
Nə var belə,
birtəhərsən?
 - Salam, a, mən?
Birtəhərəm?
Necə yəni?
 - Get, güzgüyə bax, görərsən.
 - İlqar, yenə də sən məni?...
 - Yaxşı, yaxşı, küsmə gərək
bəzi-bəzi uşaqlar tək.
 - Həri,
kefin istəyəndə
necə gəldi de də sən də.
 - Mən günahkar...
 - Sənə nə var!...
 - Bir də küsdürmərəm daha,
and içirəm bir allaha,
razısanmı?
 - Yaxçı!
 - Aha! Bir de görüm imtahanın...
 - Kəsilmişəm,
bilmirsənmi nədir peşəm?
 - Yox, düzünü de sən canın!
 - Əla!
 - Təbrik! Əlaçısan?
Deyirəm də, ona görə dil açmısan!
Yaxçı, bunun şirinliyi,
özün demiş, "zadı", "şeyi"
haçan, harda dadılacaq?
 - Zadmı? Şeymi? Hə!...
Ona vaxt da, yer də tapılacaq,
təki qaçma!
 - Onda sən də uzaqlaşma!
Axşam bizə...
 - Nədir? Nə var?
 - Ad günümdür...
 - Sökülər de, bədbəxt İlqar!
 - Yox, heç bir şey lazım deyil.
 - Necə dedin? Sözünü bil!
Nolar, adam kasıb olar,
Olmaz, səndən lap borc alar,

buna necə baxırsan bəs?
 - Nə deyirəm...
 - Bax, belə ha!
Beləsini kim istəməz!
Pulum yoxdu, dilim ki, var!
Tələbəni dil yaşadar!
*
İlqar gülüb aralandı,
nə dedisə, qız utandı,
baxışları yerə qondu...
Ürək dindi, dil dinmədi,
təşnə dodaq tərpənmədi...
Sonra nəsə pıçıldadı,
heyif, eşidən olmadı.
Dilarəyə elə gəldi,
İlqar dönüb gedən yerdə
eşitdi o, dediyini.
"Bu nə işdi? Niyə dedim?
Ah, nə etdim?" - deyə-deyə
buruldu o, yaxın tini.
***
Miz üstü al-əlvan,
otaq çıraqban,
əyləşib gələnlər bir nəfər kimi.
Təbəssüm bir qucaq, sükut bir ümman,
süzülür baxışlar şəfəqlər kimi.
*
Məclis xəyaldadı, məclis intizar,
Bircə himə bənddi büllur qədəhlər.
Ötür saniyələr... Gecikir İlqar,
Boğur Dilarəni xəcalət, qəhər.
*
Durur o, yerindən eyvana çıxır,
qəlbin çırpıntısı cana köz olur.
Səs-səda seyrələn küçəyə baxır,
Fikri çözələnir, gözləri dolur:
*
" - Sən belə demədin, ay gedən oğlan!
Bir saatlıq vədən iləmi döndü?
Ürəyim od tutub, cızdaq oldu can,
Ümidim, inamım gözümdə söndü.

*

Etibar, düz ilqar, quru bir nəfəs?
Bircə düz söz üçün yaxa cırmışam.
Dönərmi sözündən kişi olan kəs?
Mən səni beləmi tanıtdırmışam?

*

Bəlkə pulsuz idin?
Niyə dinmədin?
Yoxsa utandınmı?... Nə deyim İlqar?
Bəlkə yersiz bildin, ya bəyənmədin...
Heç yerə sığmayır gileyim, İlqar..."

***

Zəng səsi!
Dilləndi o kəsik-kəsik.
Dilarə qapıya cumdu tələsik.
Açınca qapını intizar gözəl,
titrətdi könlünü sevinc əlbəəl,
gur nəfəs odunda əridi giley,
şux baxış önündə kiridi giley.
Həsrət külə döndü,
qaraldı, söndü...
Utancaq baxışlar torpağa endi,
sanki baxışını qurban dedi o,
gecikmiş gəlişə min can!- dedi o.
Salam verdi İlqar, aldı qonaqlar.
 - Məni bağışlayın, gecikdim bir az.
Kimsə: - Olan işdi, heç bir şey olmaz...
 - Yox, düzü hamıdan tez gələsiydim,
yolüstü dostumun yanına dəydim.
 - Ay səni xoş gördük, necəsən bala?
 - Sağ olun, yaxşıyam, ay Bikə xala.
 - Elə bir baş getdin, darıxdıq yaman,
vallah, Dilarə də, mən də nigaran...
 - Doğrusu... Nə deyim?... Oldu da işdi...
Tələbə haraya gecikməmişdir?
"Əcəb dili var ha!" - dedi kim isə...
Ötəri bir nəzər saldı məclisə.
Süzdü Dilarəni, gülümsündü o;
Görək öz-özünə nə düşündü o:
Elə ki, ayrıldı o, Dilarədən
bəzəndi gözündə hər gəlib-gedən.

Birinin donuna uçdu xəyalı,
tutdu baxışını birinin şalı,
birinin əlində incə zənbili,
birinin köynəyi əlvan, səpkili,
qəşəngdi birinin tor corabları,
başqa birisinin dikdabanları...
***
Gözlər alıcı quş, ürək biqərar,
küçəni-küçəyə calayır İlqar.
Ötən an başına qaynar su tökür,
ürəyin çiyninə xəcalət çökür.
Bir qapı önündə dayanır, naçar,
Deyəsən bu evdə ümid yeri var.
Barmağı düymədə...
Dayanıb durur,
qəlbi həyəcandan şiddətlə vurur.
Son ümid...
Evdəmi dostu İlqarın?
Alnını bəzəyir tər narın-narın.
- Oho! xoş gəlmisən...
ay səni İlqar...
əlaçı olanda, balam, nə olar?
Saqqalın salamı qalsın bir yana,
beləmi baş çəkər adam dostuna?
Bir az da geciksən, gəlirdim, vallah,
Axı yol üstəyəm, gedirəm sabah.
- Gedirsən? Yaxşı yol! Varmı biletin?
- Bu səhər almışam, ancaq çox çətin...
- Demək, Əjdahasan!
- Ə, keç içəri!
Başımı qatmısan bayaqdan bəri.
- Yox-yox, qayıdıram!
- Di yaxşı görək!
- Üz vurma, tezliklə qayıdım gərək.
Sabah görüşərik.
- Nə deyirdin bəs?
- Heç elə...
- Pulun var?
- Var, ancaq yetməz.
Dila ad gününə çağırıb məni.
- Səni?

Ad gününə?
 - Pah, necə yəni?
 - Adə, kefdəsən ki!
 - Əh, nə kefi var.
 - Lap əntiqə qızdır, mən ölüm, İlqar.
Heç əldən buraxma.
 - Yaxşı görək bir.
Gedirəm, varınsa bir az pul gətir.
 - 15 manatım var, al 10-u sənin.
 - Bəs özün? Axı sən...
 - Pul nəyinə gərək evə gedənin?
 - Onda tələsim mən, gecikdim, deyən.
 - İlqar, bəs Dilaya nədir hədiyyən?
 - Bir cüt qəşəng sırğa.
 - Sökülərsən ha!
 - Yox əşi, elə də deyildir baha.
Bir cür qaşları var, qəşəngdir ancaq,
İstəyirsən, gedək bir özün də bax.

***

İki dost gülüşüb düşdülər yola,
Yol üstə dostlara uğurlar ola.
Bir hava üstündə dindi ürəklər,
Bir ana pərdəyə qondu diləklər.
Sevincin, şadlığın zər şəfəqində,
Kor oldu gözləri xəcalətin də.

*

Can, ay tələbəlik, nə günlərin var!
Dadından doyulmaz düyünlərin var.
Zillət zülmətinə qul olmasan da,
Daim yoxsulluğun əli yaxanda.

*

Bir bahar günəşi üzə güləndə,
Əridim şam kimi, gözümdən mən də
varaqlar qoynuna nur səpə-səpə,
əlvida - söylədim orta məktəbə.

*

Uğurlu bir yolun, aydın məsləkin
içdim şərbətini, təşnəsi təki.
O qaynar ümmanın ləpəsi oldum,
Qırçın dalğaların təpəsi oldum.

Dindi nəğmələrim eşqin tarında,
Uçdum arzuların qanadlarında.
Bir dəftər, bir qələm səfər yoldaşım,
Şer oldu həmdəmim, könül sirdaşım.
Varımı, yoxumu aldı varaqlar,
Eşqimi dillərə saldı varaqlar.
Bir sevda odunda yananda ürək,
Bir naşı sözündən sınanda ürək,
İlham qılıncını başıma çaldı,
Ürəyim alışdı, dilim od aldı.
Hicran sellərini üşəndim, keçdim,
Vəfa ayağına döşəndim, keçdim.
Vüsalın simini zilə köklədim,
Eşqim bu məqamdan enməsin - dedim.
*
Can, ay tələbəlik, nə günlərin var!
Dadından doyulmaz düyünlərin var.
Gəncliyin alovu, közü sinəndə,
hissi, həyəcanı, sözü sinəndə.
İstəyin - Gələcək, ömrünsə - Bahar!
Sadəlik, ülvilik səndə carhacar!
*
Sadə yataqxana çıxarmı yaddan?
Mən orda doymadım bir ömür daddan!
Bir dəfə üzünü görmədiklərim,
Adicə bir salam vermədiklərim,
Orda ürək dostum, qardaşım olub,
həmdəmim, köməyim, sirdaşım olub.
*
Təqaüd çatmayıb, pulsuz qoyanda,
Ehtiyac cibimi qurulayanda,
bir tikə çörəyi yarı bölüblər,
bir nimçə xörəyi yarı bölüblər.
*
Qab-qaşıq ümumi, otaq ümumi,
Kimin nəyi varsa, çək ortalığa!
Birinin yanına qonaq gəldimi,
düşər otaq-otaq, qab yığa-yığa.
*
Vaxt olub, qalmışam otaqda, naçar -
Dostum köynəyimi geyinib toya.

Birinə pay gəlsə, nə hünəri var,
açа bağlamanı, qoyar ortaya.

*

Can, ay tələbəlik, nə günlərin var!
Dadından doyulmaz düyünlərin var.
Zillət zülmətinə qul olmasan da,
Daim yoxsulluğun əli yaxanda.

***

İzlədim İlqarı qarabaqara,
Girdim arxasınca çox dükanlara.
Hər nəyə baxdısa, o, bəyənmədi,
Zövqün zirvəsindən qəti enmədi.
Zərgər dükanına girdik bərabər,
hər yan nur saçırdı zərrin, sərasər.
Dediyim sırğalar gün kimi yandı,
İlqarın sifəti nura boyandı.

*

Əlini cibinə salanda İlqar,
Canım oda düşdü, boğdu tər məni.
Susaraq xəyala dalanda İlqar,
Çəkdi keçən günə fikirlər məni.

***

Çiskinli, yağışlı bir payız günü
bir körpə dünyaya açdı gözünü.
Ağladı ilk dəfə hamı tək o da,
yaxına, uzağa çatdı bu səda.
Ağladı, bir evə nur çilədi o,
Yatmış duyğuları silkələdi o.
Ad verdim, əyilib öpüb üzündən,
İlqar - çağırdılar onu o gündən.

***

Gün aya sığındı, aylar illərə,
Neçə don biçildi anamız Yerə!
İlqar "Ana"-dedi, "inqə" yerinə,
Min öpüş yapışdı sifətlərinə.
Oturdu, süründü, iməklədi o,
Hərdən anasını ətəklədi o.
Divardan yapışdı, dikəldi, durdu,
titrədi, büdrədi, çökdü, oturdu...

Yeridi, yüyürdü, yıxıldı, qalxdı,
Ağladı, kiridi... qəmdən uzaqdı...

***

Ata kəmhövsələ, ana xoşqılıq,
Əmilər, dayılar qüvvətli, cavan!
Nənələr, babalar qayğılı, ılıq,
Xalalar, mamalar gözəl, mehriban!

*

Hamı əmi, dayı, nənə və baba,
Hamı xala, mama, hamı xoş, pilə!
Dünya başdan-başa qohum-əqrəba,
Dünya başdan-başa doğmadı hələ!

*

Hələ bədnəzərin gözündən iraq,
Hələ bədsifətin üzündən iraq,
Xeyirsöyləməzin sözündən iraq,
Önünə haqsızlıq çıxmayıb hələ!

*

Hələ qoca dünya oyuncaq kimi,
Hələ arxasında ata dağ kimi!
Çağlayır dupduru bir bulaq kimi,
Bulanıq çaylara axmayıb hələ!

*

Hələ ulduzları sapa düzür o,
Ayın yalmanına yatıb süzür o!
Hələ nə usanır, nə də bezir o,
Körpə dünyasını yıxmayıb hələ!

*

Hələ dəcəldi o, odludu canı,
Hələ incitmədə ata-ananı.
Ağaca, qayaya, daşa dırmanır,
Bu odu canında boğmayıb hələ!

*

Hələ körpəliklə gənclik üz-üzə,
Hələ dəcəlliklə dinclik üz-üzə,
Hələ ki, bicliklə giclik üz-üzə,
Özünə kənardan baxmayıb hələ.

*

Hələ ki, döyülür, söyülür gündə,
Üzü dan əppəyi, su yox üzündə.

Qorxu yox, hürkü yox hələ gözündə,
Həyat məngənədə sıxmayıb hələ.
*
Beləcə dəcəl bir uşaqdı İlqar,
Qüssədən, kədərdən uzaqdı İlqar.
Gah döyür, gah da ki, döyülür gəlir,
Gah ağlayır gəlir, gah gülür gəlir.

***
- Maşın uşaq vurdu!
- Aman, ay aman!
- Kimin uşağıdı?
- Kimdi görəsən?
Kimsə pıçıldadı bu dəm astadan:
- İlqarı bir az var burda gördüm mən.
Töküldü camaat...haray, vay, şivən...
Kişinin qəzəbdən tükü qabardı.
Sürüb bu aralıq qaçmaq istəyən
sürücünün vurub başını yardı.
Arvadlar uşağı götürdülər tez,
gördülər yüngülcə yaralanıbdı -
başı yarılıbdı, qolu sınıbdı.
Maşınla həkimə yetirdilər tez.
***
Maşın vuran uşaq İlqar deyildi,
Yetim bir uşaqdı, Yusifdi adı.
Atası çox erkən, çox cavan öldü,
Ana ərə getdi, nənə saxladı.
*
Nənə ər itirmiş, oğul itirmiş,
Nənə bu dərd ilə ağlar bulaqdı.
Nənə sal qayada nəvə bitirmiş,
Ölüm alacaqdı, solduracaqdı.
*
Yaxşı ki, sürücü tez görə bilmiş,
Zavallı qəflətən yola çıxanda.
Yaxşı ki, maşını döndərə bilmiş,
saxlaya bilmişdir, qoçaq, son anda.
*
Yamanca qorxmuşdu İlqar bu işdən,
Gördü, necə vurdu Yusifi maşın.

Camaat hay salıb yığışmamışkən
gizləndi dalında iri bir daşın.
*
Ata toxunmadı bu dəfə ona,
Onsuz da uşağın bağrı yarılmış.
Bir az su içirtdi İlqara ana,
Bənizi kağız tək... necə saralmış...
*
Gözdən qoymaq olmaz daha İlqarı,
Maşın çox, arx yaxın, qaya sıldırım.
Vaxtikən köçəydi İlqargil barı,
Duyduqca, adamın bağrı yarılır...

***
Payız axşamıdı, ılıq bir axşam,
İlqarın tələbə əmisi gəlib.
Uşaq yerə-göyə sığmır bu axşam,
Qəlbinin doğması, əzizi gəlib.
*
Min oyundan çıxır, atılır-düşür,
Nə hədəyə baxır, nə də irada.
Dedikcə şitləşir... göylə əlləşir,
Gözünü ağardır ata arada.
*
Əmisi bilir ki, az qalıb daha,
Möhkəm döyüləcək bu axşam İlqar.
Bu ara göz vurub əmi uşağa
bayıra çağırır, guya sözü var.
*
Əmi neyləyirsə, dayanmır İlqar,
Gizlənpaç, aldı-qaç yaramır ona.
- Maşın alacağam.
İnanmır İlqar.
- Yay-ox düzəldimmi?
Şad olur buna.
*
Elşən:-Şükür!-deyib, yay-ox düzəldir,
İlqar sevincindən bilmir neyləsin.
Əmi çubuq əyib yay-ox düzəldir,
Baş qatmaq istəyir əmi, neyləsin?
*

- Hə, bu bəsdi daha,
Qalsın sabaha.
Sabah düzəldərik qalanını da.
- İndi istəyirəm, lap bu saat ha!
Düzəlt hamısını burda, yanımda!

*

Elşən gözəl-göyçək yay-ox düzəltdi,
Öyrətdi, bir neçə ox atdı İlqar.
Çəkib kəndirini bir az gödəltdi,
Aşağı-yuxarı çox atdı İlqar.

*

Sonra bezdi, dedi:-al, sən at indi!
Elşən:-yaxşı-deyib, göyə ox atdı.
Ox getdi, dalınca uşaq gəzindi,
Ox gəldi, uşağın gözünə batdı.

*

İlqar bircə dəfə "vay, gözüm!"-dedi,
Gözün qan qarışıq yaşı töküldü.
"Mən özüm elədim, mən özüm!" -dedi,
Başına dünyanın daşı töküldü...

*

Elşən xəcalətli, bilmir, neyləsin?
Anası saç yoldu,
Atası doldu...
Uşağı götürüb yola çıxdı... Gün
yaxar-yaxmaz idi... Vay, nə pis oldu...
Elşən kor-peşiman qayıtdı geri,
Şişdi ağlamaqdan ana gözləri...

*

Gözünü açanda zavallı uşaq
Gördü bir otaqdı, geniş, ağappaq.
Atası yanında qəmgin oturmuş,
Elə bil, palıddı, ildırım vurmuş.

*

İlqargil qayıtdı xəstəxanadan,
Həzin bir ah qopdu bu dəm anadan.
Titrəyə-titrəyə zavallı ana
yanaşdı bir gözdən şikəst oğluna.
Hıçqıra-hıçqıra bağrına basdı...
Yetim qalan qızdan bu nə qisasdı?
Fələyi qarğadı, ağladı ana,

Ərinin dərdini dağladı ana!
Ağladı, kiridi... Öləzidi dərd...
Sərt rəftar elədi tale, yaman sərt!
Qəlbinə qəm düşdü körpə İlqarın,
Gözünə çən düşdü erkən, İlqarın.
On yaşa çatmamış çalladı saçı,
Çeynədi dərdini, çeynədi - acı...
Gözünə ox dəydi, bəxtinə yumruq,
Küskünlük artdıqca, əridi şuxluq.
Qönçə açılmamış ləçək xal atdı,
Dəli bir könülün gəmisi batdı.
Əvvəlki İlqardan əsər qalmadı,
İlqar kiridikcə ana ağladı...
Şimşək tək uşağın hayı kəsildi,
Çiyni dərd altında batdı, əzildi.
Utandı hamıdan, utandı uşaq,
Dinməz oturmaqdan usandı uşaq.
Meylini sənətə-şerə saldı,
Vurğuna vuruldu, xəyala daldı...
Əzbərdən söylədi Ələsgəri o,
Təcnislə oxudu təcnisləri o.
Oxudu Kərəmin yanan baxtını,
Aşırdı baxtının dönən taxtını.
Yandı, yana-yana oxudu İlqar,
Dərdini mahnıyla toxudu İlqar.
O vaxtdan qəlbinə dəyən olmadı,
"Gözün üstə qaş var"-deyən olmadı.
Hamı tərifədi, hər yerdə onun
bilikli, ağıllı, düz olduğunu.
Tay-tuş hörmətini əziz saxladı,
Beləcə arzular dərdi dağladı.
Qovdu erkən gələn dərdi beləcə,
Çağırıb ağ yelə verdi beləcə.
Əlaçı oxudu, nümunə oldu,
Özü də bilmədi qəmi nə oldu.
Bir gəncə çevrildi, zarafat sevən,
ağıllı, kamallı, səmimi və şən.

***

- Kəndə aşıq gəldi, aşıq gəldi! Heyyy!...
Çayxana tıxandı, doldu müştəri -

Mehralı, cin Musa, boz Məmməd, Haley,
Təhməz, bığlı Abbas, dəmirçi Kərim...
*
İki aşıq idi, sinələrdə saz,
Biri toxtamışdı, o biri cavan.
Ruha dad verirdi hər söz, hər avaz,
Dövran açmışdılar, gözəl bir dövran.
*
Gözəl oxudular, gözəl çaldılar,
Hamının üzünə nur səpələndi.
Təşəkkür aldılar, nəmər aldılar,
Könüllər nəğməyə, sözə bələndi.
*
Cavan aşıq çölə izin istədi,
İlqargil dövrəyə aldılar onu.
"Gəlin, kəndinizə bir baxım"-dedi,
Düşdü Xram üstə aşığın yönü.
*
Getdilər, geriyə dönəndə aşıq,
Gördü su doldurur incə bir gözəl.
Bu dəm bir ah qopdu, alov qarışıq,
Gözündə qaraldı dünya əlbəəl.
*
Çökdü körpü üstə, aşıq, saralmış,
Su!-dedi, ciyərim alışdı-dedi.
Ay aman, nə yaman odlu olurmuş,
Aşığın qəfləti göz məhəbbəti!
*
Özüm görməsəydim bu vəziyyəti,
belə söyləməzdim, inanın, qəti.
Uydurma işlərlə aram yox mənim,
Buna yol verməyir ilhamım, şənim.
*
Aşıq Ədalətdi, o cavan aşıq,
Mehrabın qızıydı su dolduran da.
Aşıq Ədalətdi, o yanan aşıq,
Mehrabın qızıydı, odlandıran da.
*
Baxdı sehrlənmiş, baxdı həsrətlə,
o xumar gözlərə, qızıl tellərə.

İldırım sayağı bir məhəbbətlə
vuruldu o qıza o, birdən-birə.
*
Döndü çayxanaya, döndü, alışdı,
Sazdan nalə qopdu, simdən od axdı.
Sanki dəli oldu binəli-başlı,
Mizrab şimşək oldu, çanaxda çaxdı:
*
 - Haray, Ustad, yandı canım!
Bir çarə eylə, neyləyim?
Beynimə sıçrayır qanım,
Neştər vur, teylə, neyləyim?
*
Gözlərinin xumarı var,
Tellərinin şahmarı var;
Hər aşiqin bir yarı var...
Mən bu gileylə neyləyim?
*
Heç bu təhər yanmamışdım,
Yanğı nədi, qanmamışdım.
Dağ-dağ oldum, canda bişdim,
Bu dərdi, söylə, neyləyim?
*
Yerə baxıram, yer sərin,
Göyə baxıram, göy dərin;
Nə vecinə Göyün, Yerin!
Bu Yerlə, Göylə, neyləyim?
*
Canım çıxdı, gedəmmərəm,
İnnən belə mənəm Kərəm.
Gedirsən, get, əyləmirəm,
Sən tək Lələylə, neyləyim?

***

Simi zilə çəkdi, bir də köklədi,
Məclisdən dərdinə dərman istədi.
"Daha mən gedəsi olmadım"-dedi...
Ədalət eşqinə aman istədi.
*
Totu "oğul"-dedi, evə apardı,
Sevincdən İlqarın gözü yaşardı.

Günü Ədalətlə keçdi İlqarın,
Qəlbi nə nəğmələr içdi İlqarın!

***

Hərdən şənbə günü, bazar axşamı,
Dastan başlayardı Aşıq Ədalət.
Dastan axşamına gələrdi hamı,
İşıq paylayardı, işıq, Ədalət!

*

Dəmir çarıq geyib yola çıxardı,
Qara Vəzir ilə dərdli Alı xan.
Gözdən Pəri xanım qora sıxardı,
Bu dərdin oduna yanardı Çoban.

*

Mizrab yarasını didərdi simin,
Yeddi rəngli odla dağ-dağdı Kərəm!
Əsli caynağında Qara Keşişin...
Bu dərdə Ləleylə ortaqdı Kərəm.

*

Abbas Tufarqandan Təbrizə kimi,
Gülgəz deyə-deyə ağladı, getdi.
Bir eşqin oduyla mizrab da simi,
Təpədən-dırnağa dağladı, getdi.

*

Qəribin yolunda ana gözləri
ağladı, üzüldü, soğuldu getdi.
Qəndabın taqətdən düşdü dizləri,
Novruz dəryalarda boğuldu, getdi.

*

Nələr söyləmədi Ədalət, nələr!
Əmrahdan, Cahandan, Dilqəmdən dedi.
Eşqinin yolunda Ədalət qədər
tənələr, töhmətlər yeyən görmədim.

*

Unutdu dərdini balaca İlqar,
Fikri saza, sözə qoşuldu, getdi.
Qopdu adilikdən beləcə İlqar,
Xəyalın ardınca baş aldı, getdi...

*

Neçə Sənəm sevdi xəyalda İlqar,
Necə gözəlləşdi sinif qızları!

Gün oldu, beş-altı qız aldı İlqar...
Əridi birbəbir xəyal buzları.
*
Bayaq bəyəndiyi düşdü gözündən,
Özündən böyüyü bəyəndi gah da.
Bəzən xoflandı da özü-özündən,
Qəhqəhə çəkəndə qızlar bulaqda.
*
Ay ötdü, il ötdü, bir də gördü ki,
Qızlar bircə-bircə uçub da getdi.
Durnaya döndülər - iki vətənli,
Dünyaya döndülər - iki bədənli!
*
İlqar anladı ki, xəyalındakı,
uçub gedənlərin qanadındakı
bir ağ lələk kimi qopacaq bir gün,
gəlib əllərinə qonacaq bir gün.
İlqar həsrətiylə həmin o günün,
böyüdü, dəyişdi, tamam, büsbütün.

***
Ağlaya-ağlaya tələbə Elşən,
Geri, Texnikuma qayıtdı bir də.
Gözdən iraq gəzdi xəcalətindən,
Əldən xata çıxdı durduğu yerdə.
*
Bir təhər oxuyub qurtardı. Sonra
könüllü yazıldı "Xam torpaqlara".
Ancaq neylədisə, getdisə hara,
yadından çıxmadı o "bəxti qara".
*
Saçına dən düşdü, gözünə kölgə,
Sıxdı kədər onu, boğdu dərd onu:
"Neyləyim, özümü öldürüm bəlkə..."
Min yerə çəkirdi fikirlər onu.
*
Sonra əsgər getdi, üç il də keçdi,
Üç yaş da böyüdü İlqar bu ara.
Elşən kişiləşdi, dağ oldu, bişdi,
Öləzidi kədər, köhnəldi yara.
*

İlqar məktub yazdı öz əmisinə,
Dərsindən, "işindən, gücündən" dedi.
Neçə illər idi dolsa da sinə,
Dilinə bir giley gəlmədi qəti.
*
Bu dərd neçə qəlbi oda yaxsa da,
Nə böyük, nə kiçik qınadı onu.
Əlindən bir dəfə xata çıxsa da,
Ürəyi min dəfə qanadı onun.

***

- Getdi arvad aldı...
Gəlinə bax bir!
Qaynana iş görür, gəlinsə köpür!
- Eh, Mahı gəlindən havax yarıdı?
- Kişin bə nə deyir?
- Nə diyəsidi...
Onun işi-gücü bircə arıdı,
gəh yəəşik düzəlder, gəh şirə verer.
- Bə Elşan nə deyir, söygülü əri?!
- Naçaxdı, naçağa Elşan nə desin?
- Aaz, yanağından qan damer onun,
Harası naçaxdı? Nooluf ona?
- Siz allah, kiriyin, qıyvatı kəsin!
Canı od içində dağlaner onun.
Say kı köz yapışıf yanaqlarına...
Bir də ki, a xala, nooluf ona?
- Aaz, noolajax daa bundan artıq?
Tənbəldi, mızıdı, öy tikən döyül!
- Öy nəyinə gərək, öyü öy döyül?
- Bə Əjdər?
- Əjdəri oxudar o da!
- Özü nə oxudu, nə də oxuda!
- Özünə nooluf, aqranom du da!
- Aqranom!...Aqranom, aqranoma bax!
***
Gülsənəm çoxdandı yanıqlı idi,
Elşən Büllurəyə "yox"-demişdi,"yox!"
Gülsənəm qəlbində "görərik!"-dedi-
"Sən sən ol, mən də mən...
Südəmər uşaq!..."

*

Sultan xalasıydı, o da bir düşmən,
"Baharı almadı"-deyib, dururdu.
Fitnə-fel içində, zavallı Elşən,
Özünə xəyalən həyat qururdu.

*

Könlündə Gülbəyaz var idi onun,
Bir cüt ulduz kimi sayrışırdılar.
Dedi-qodusuyla söz oynadanın
bir cüt sevən qəlbi ağlar qoydular.

*

Hərləndi-fırlandı Gülyazı aldı,
Gülyaz Gülbəyaza çəkirdi bir az.
Aldı, qismətindən narazı qaldı -
Beş il xəstə yatdı zavallı Gülyaz.

*

Sağaldı, bir qızı oldu, nəhayət,
Gülyaz da, Elşən də bir boy atdılar.
Sanki çiçək açdı solan məhəbbət,
Əhdin zirvəsinə birgə çatdılar.

*

Ümidi qırıldı pis niyyətlərin,
Gülsənəm bir fitnə toru toxudu.
Gözü işıldadı qurd kimi, şərin,
Evin hər bucağı fitnə qoxudu.

*

- Mən arvad olmuşam, o isə kişi,
Mən belə deyirəm, o isə elə!
Yeriyə bilmərəm mən o yerişi...
(Danışır, gözünü o, silə-silə.)

*

"Boşa getsin!"-dedi, kim dilləndisə,
Hərə bir söz dedi, bir nöqsan tapdı.
İlqar boğulacaq sanki, indicə,
Qəhər xirtdəyində gör neçə qatdı!

*

- Dayanın!
Titrədi səsi İlqarın:
- Axı neyləyirsiz, düşünün bir az!
Deyin, nə günahı bu yazıqların?
(Körpə qucağında, ağlayır Gülyaz.)

- Dinən boşa - deyir - Niyə? Nə üçün?
Neyləyib bu gəlin? Nədir günahı?
Beş ildi bu evə gəlin köçdüyü,
Beş il! Unutmayın bu haqqı-sayı!
O biri gəlinlər yeddi ay durur,
Qaynata, qaynana xoş üzə həsrət!
Min yalan danışır, min söz uydurur
Fitnə-fel, paxıllıq, xiffət, xəyanət...
- De, boşanırsanmı? Yox-dedi gəlin.
- Bəs sən boşayırsan? Yox-dedi Elşən.
- Fitnəyə uymusuz, fitnəyə, bilin!
Qorunun ifritə əməllərindən!
*
On dörd yaşlı İlqar dedi sözünü,
Baba da, nənə də, ata-ana da,
əmi də, mama da döydü gözünü;
Elşən də, Gülyaz da mat qaldı buna.
*
İlqarın birinci üsyanıydı bu,
həm də ki, birinci qələbəsiydi.
İlqarın özü yox, vicdanıydı bu,
Haqqın, ədalətin təntənəsiydi.
*
Gülsənəm qıvrıldı içində səssiz,
Hiylə boşa çıxdı, fitnə tutmadı.
"Yaxşı, it küçüyü, səni tüstüsüz
yandırmaq borc olsun"- dedi, adladı.
*
Baba fikrə getdi, nənə dinmədi,
Ata ürəyində "afərin!"-dedi.
Anası qolundan tutub apardı:
- Anan qurban olsun, yaxşı qurtardın
Gülyazı qansızın fitnə-felindən.
- Bu adi bir işdi. Neyləmişəm mən?
Kimin nə günahı varsa, bilmirəm,
ancaq o körpənin günahı yoxdu!
Ana səvisinin[2] gözlərində qəm
yurd salsa, səadət qapıdan çıxdı!
- Kiri! dinmə daha, qurbanın olum!
Sənin sözlərindən qorxuram, oğlum!

[2] səvi - körpə

Sən hələ uşaqsan, nə görmüsən sən?
Hələ çox kiçiksən dediklərindən!

***

İsti yay günüdü, göylər tər-təmiz,
Yağır Borçalıya istilik, işıq.
Kosalar - boz ada, tarlalar - dəniz,
İş-güc xalqı udub, külfət qarışıq.

*

Hərə "norma”sının başında kiçik
bəyaz yelkən açıb - alaçıq qurub.
Kətmənin ağzında yer didik-didik,
Kimi iş üstündə, kimi oturub.

*

Böyükdən-kiçiyə hamı tarlada,
Əlləşir-vuruşur "qurtaraq"-deyə.
Mal-qara dözməz bu alova, oda,
Qurtaraq işi tez, köçək dəyəyə.

*

İridaş - yaylağı bizim bu elin,
indi gül-çiçəyə batıb-barınıb.
Qəmərli, Şahmarlı, Armudlu - gölün
dörd yanı şəbnəmlə çimib, daranıb.

*

Novçalı - buz kimi, hünərin var, iç!
Komdaşın səfası heç ələ düşməz!
Çırman, dağ çayını elə, belə keç!
Sarxanın döşünü qarış-qarış gəz!

*

Boylan axşamüstü arana sarı,
Yollar çataq-çataq - düzdə çay kimi!
Maşınlar yumaqlar çözək yolları,
Arançı sovqatı - əziz pay kimi!

*

Gözəl xatirələr qoynunda İlqar
dincini alırdı dirsəklənərək.
Birdən haray düşdü, durdu arvadlar,
yüyürüb getdilər, getdilər yel tək.

*

Yüyürdü İlqar da yığnağa sarı,
Çatanda, arvadlar hönkürürdülər.
İlan vurdu-dedi - Şəhlanı...

Sarı!
Bərk bağla, canına yayılır zəhər!
*
Tez bıçaq çıxartdı zirək əlləri,
yardı diş yerini, ovdu qatıqla.
Yolçu "xoda saldı" tez "təktəkəri",
Uçdu Ağbulağa tərkində Şəhla.
*
Göynədi ürəyi kövrək İlqarın,
Gecə də, gündüz də düşündü qızı.
Şad xəbər gətirdi qızı Alyarın: -
Yardılar, yaxşıdı... İstədi Nazı.
*
Unuda bilmədi Şəhlanı İlqar,
Qana da bilmədi, bu nə iş idi.
Sanki təzə görür dünyanı, İlqar,
Dünya başdan-başa keşməkeş idi.
*
İlk dəfə Şəhlanı görəndə İlqar,
Şəhlanın beş yaşı ancaq olardı.
Şəhla nə deməkdi? Soranda İlqar,
Anası qımışıb xəyala daldı.
*
İlqar anlamadı o vaxt sirini
Ana marağının. Nə yaşı vardı!
Nə üçün çəkirdi indi fikrini
o, "xalxın qızı"nın?
Birdən qızardı...
***
Bir həftədən sonra köçdülər dağa,
Alaçıq qurdular, dəyə tikdilər.
Yüz yerdən iz düşdü yenə bulağa,
Aran yanğısını suya tökdülər.
*
Qızlar - çələng kimi, bulaq başında,
Oğlanlar düzlərdə güləş tutdular.
İlqar Sarf dərənin çatma qaşında
dayanıb fikirli, intizarı var.
*
"Şəhla nə təər oldu? Havax çıxajaq?"
"O cür həkim onu dağa qoyarmı?"

"Sən bir yazıq qızın qismətinə bax..."
"İlanı tapmadıq...tez sağalarmı?"
*
"Nejə titrəyirdi bədəni onun,
Ləләm ayağına neştər vuranda".
"Rəngi qapqaraydı tökülən qanın,
O, ölə bilərdi tez bir zamanda".
*
"Yaxşı ki, yardılar, qatıq tapıldı",
"Yaxşı ki, Yolçunun təktəkəri var!"
"Yaxşı ki, Qıdası tarlada oldu,
yoxsa nə olardı?"...Düşünür İlqar.
*
Sonra düşündü ki, "işdi, o gəlsə,
bir dəstə gül dərif verərəm ona.
Əyər utanmasa, o, gülü alsa,
bir-neçə xoş söz də deyərəm ona".
*
"Yox, görən nə diyər, gül versəm ona!
Camahat üstümə gülməzmi mənim?"
"Mən nejə gül verem xalxın qızına?"
"Yox-yox. Lap indidən əser bədənim".
*
Qayıtdı. Yol boyu fikirlər onu
gah arana çəkdi, gah dağa çəkdi.
Dəmirçi Kərimin böyük oğlunu
bu iş də bir yeni sınağa çəkdi.

***
Şəhla dağa gəldi. Toxdadı İlqar,
çiynindən elə bil dağ götürüldü.
Rahat nəfəs aldı azad, bəxtiyar,
Qəlbinə nur düşdü, üz-gözü güldü.
*
Şirin xəyallara baş vurdu İlqar,
min dastan uydurdu, sevgi dastanı.
Bəzən də kədərli oturdu İlqar,
Qəhər sazağında üşüdü canı.
*
"Burda nə var axı, məncə, sadəcə,
ilan vurdu deyə yazığım gəldi".

"Bəs onda nə üçün onu hər gecə
yuxuda görürəm?...Yuxu...Gözəldi!..."
*
"Yox! Nə danışıram, bu ola bilməz!
Mən belə, o isə dünya gözəli".
"Dərdindən ölsəm də o mənə gəlməz,
Fikrinə kişə!-de, kişə!-de, bəli!"
*
"Bir də ki, nə babam, nə də ki, atam
bu işə qol qoymaz, dünya dağılsa".
"Düzü, lap əzəldən bu işə matam,
nə olar, görəsən, onu mən alsam?"
*
"Gör nə danışıram, axmağam, axmaq!
Kimə nə dəxli var mənim eşqimin?"
"Boş sözdü...bitməz iş...eşq...sözə bax.
"Hə"-sini diləyir, görün, kim kimin?"
*
"Ac toyuq yuxuda darı görər... Bəs
birdən həqiqətən eşq olsa, necə?"
"Sus! Sus! Ümidini birdəfəlik kəs!
Hələ sən cücəsən, cücəsən, cücə!"
*
"Ondörd yaş, məhəbbət, oxumaq... tutmaz!"
Tərəddüd içində büdrəyir İlqar.
"Bunu qəti açıb-ağartmaq olmaz,
mənim yolum yoxuş... Oxumağım var..."
***

Yeddinci sinifi bitirib İlqar,
Qonşu kəndə, orta məktəbə getdi.
Yad yer, yataqxana, başqa uşaqlar...
Ana qayğısını faraş tərk etdi.
*
Otaq  süpürməyi, paltar yumağı,
biş-düşü, ütünü öyrəndi İlqar.
Nələrlə üzləşdi "ana uşağı"!
Yataqxananın da öz aləmi var.
*
Çox keçmədi, İlqar dillərə düşdü,
məktəbin "ən parlaq ulduzu" kimi.

İstedad zəhmətdə dağ oldu, bişdi.
Ürəyi, xisləti gül üzü kimi.
*
Bütün müəllimlər ağızdolusu
söhbət açardılar ondan hər zaman.
"Nadir yaddaşı var, istedaddı o!"
"Yaxşı alim olar, mənbilən, ondan".
*
"Şirin oxumağı, gözəl səsi var,
hayıf ki, bir gözü şikəstdi onun".
"Deyəsən, bir az da şairdi İlqar,
Sənətə sönməzdi həvəsi onun".
*
"O uşaq sirr dolu, sehr doludu,
qoruya xiffətdən, yiyəsi ola!"
"Atası nəçidi? Kimin oğludu?"
"Can qurban edərəm elə oğula!"

***
İlqar bitirirdi bu il məktəbi,
Əsas namizəddi qızıl medala.
Cəlal dilxor idi, Murtuz əsəbi: -
"Gəlmə medal ala, bizimki qala?"
*
Məhəmməd Cəlalın oğluydu, Həmid
Murtuzun qardaşı...Əlaçıydılar.
Əzbərçi bilikdi biliyi, bəsit...
Sualdan çəkinir, gen qaçırdılar.
*
Cəlal fizikadan deyirdi, Murtuz
dil-ədəbiyyatdan - səkkizə qədər.
Cəlal öz fənnini bilirdi, Murtuz...
Diplom verilmişdi Murtuza hədər.
*
Cəlal adlı-sanlı, dilli-dilavər,
Murtuz - altdan kəsən, xəbis, irişən.
Məhəmməd qız kimi, göyçək, şən, gülər,
Həmid - Murtuz kimi, asta, girişən...
*
İlqar fizikanı pis bilsin deyə,
Cəlal "b" sinfindən imtina etdi.

İlqarın həvəsi mühəndisliyə
Cəlalın əhdinin gözünü diddi.
*
Cəlalın özündən beş aldı İlqar,
Cəlal Cəlal oldu, dörd yazammadı!
O gündən bir boy da ucaldı İlqar,
Rayonda çəkildi İlqarın adı.

***

Baxıb yazısına riyaziyyatdan,
bir əmsal artırıb pozdular yenə.
Cəlalın fəndiylə yazının altdan
qəsdən "saxta" bir beş yazdılar ona.
*
"Üç yüz manat olsa, düzələr medal".
İlqarın başına od yağdı sanki: -
Mənə gərək deyil elə bir medal,
qoy alsın şərəfsiz, yaltaq, yalançı!"
*
Gedib atasına çatdı bu səda,
- Oğul, bu nə sözdü, bu necə işdi?
- Heç! Haqqı rüşvətlə verirlər, ata,
inan ki, yaşamaq gözümdən düşdü".
*
Bu iş dilə düşdü, kəndə yayıldı,
Biri belə dedi, o biri elə.
"İşə bax, medalı gör kimlər aldı,
İlqarın dırnağı olmazlar, belə".
*
"Əşi, güvənsəydi İlqar özünə,
imtahan verərdi, gedib təzədən".
"Sən öl, barmağımı salıb gözünə
oyardım, verməzdim medalı əldən".
*
"Bura heç, a bala, Bakıdı əsas,
orda göstərəcək bilik özünü.
Keçsə, elə bil ki, alıbdı qisas,
elə, sən demişkən, oyub gözünü".
*
"Mən ona yanmıram. O, bilə-bilə
niyə öz haqqını tələb etmədi?"

"Düşmək istəmədi ağıza-dilə,
bir də... direktoru "basıb" getmədi."

***

İstidi, təntiyir torpaq gün altda,
Kosalar dəmyədə təşnədi, təşnə!
Bir sısqa bulaq var qayanın altda,
Ümid bir onadı, o da ki, heç nə!

*

Analar, bacılar gecəyarıdan
bulağa yollanır. Bu, adi qayda!
Yaman korluq çəkir kənd su sarıdan,
Yazırlar, gedirlər ancaq...nə fayda!

*

Elşən partkomdu, vicdanı təmiz,
Eldən əsirgəmir bacarığını.
Yersizə yer alır, ev tikirlər tez,
Yandırır hərə öz nur çırağını.

*

Xoşuna gəlməyir Burjaurinin -
Raykom katibinin, kommunist Elşən.
Dişi dodağını didir "kişinin",
Elşən kəndi üçün iş gördüyündən.

*

Ona lazım deyil belə işçilər,
Kəs, gətir, tala, ver - budur onunku!
Beləsi gəlməyib indiyə qədər
bizim bu tərəfə - ağadı, sanki.

*

Çağırdı İmranı yanına bir gün,
Gizli bir söz dedi, bir iş tapşırdı.
Yaxın qohumuydu İmran Elşənin,
Həm dayı, həm də ki, əmi düşürdü.

***

Buna baxmayaraq İmran "hə"-dedi,
Azğın yırtıcının mənfur fikrinə.
Elşənin dalınca gəzdi, izlədi,
Gah mərdi-mərdana, gah sinə-sinə.

*

Çox çalışdı, ancaq bir şey çıxmadı,
Elşən öz işində büllur kimiydi.

Gülsənəm İmrana "darıxma"-dedi,
"O, mənim əlimdə mum kimi şeydi".
***

Gülsənəm Elşənə söz açdı sudan:
"Ay oğul, bir çarə, qırıldıq axı!"
Bilirdi çətindi bu iş doğrudan,
Boş işdi katibə ağız açmağı.
*
"Kəndin qocaları yığışıb getsə,
Mərkəzdən bir çarə tapılar məncə.
Birinci katibdən təvəqqe etsə,
zənnimcə, tezliklə su gələr kəndə".
*
Bir ərizə yazdı xalqın adından,
Kəndin qocaları xahişə getdi.
Əlbəəl çatdırdı Katibə İmran
Partkomun işini... Su işi bitdi...
*
Katib zəng elədi "öz adamına",
Qocalar qayıtdı yağlı vəd ilə.
Xəyanət yetişdi iyrənc kamına,
Su qabları doldu yenə dərd ilə.
***
İyulun ilkidir, isti meh əsir,
Təntiyən özünü Xrama verir.
Pasport almaq üçün İlqar tələsir,
Rəissə ləngidir, vermək istəmir.
*
Hayana çəkirsə, əl çəkmir İlqar,
Yalvarır-yaxarır, alır axır ki!
Burda hər müdirin "öz qanunu" var,
Xeyri yox, o qədər çığır-bağır ki!
*
Bir günlük iş üçün həftə bəs olmur,
Gah belə teyləyir, gah elə səni.
Yazır, yazdığı da çox vaxt düz olmur,
Salırlar heç nədən cəncələ səni.
*
Başıboş başdadı, qanan ayaqda,
Ətin qiymətini at verir burda!

İş qandı-qanmadı, gürcü qabaqda,
Katibin meyarı gör nədir burda!
*
Katib azğınlaşıb, talayır xalqı,
Gözdən pərdə asır yuxarılarda.
Keçini yığdırıb plana saldı,
Guya xəstəlik var xırda davarda.
*
Dəyər-dəymәzinə çəkdi apardı,
Xalqın ayağına balta çaldı o.
Bu kəndlə xüsusi hesabı vardı,
Keçini yığdırıb qisas aldı o.
*
Odur ki, nə qədər vəzifəli var,
Bu kəndə olmazın zülm eləyirdi.
Bu "işin canını" bilirdi İlqar,
Dildə yalvarırdı, içdə söyürdü...

***
Bakıda yaşayan cavan bir alim,
Öz doğma kəndinə gəlibdir bu gün.
Gəlib arvadı da, mehriban, həlim,
Axışır qohumlar görüşmək üçün.
*
İlqarın anası asta, utancaq,
yanaşır gəlinə, "xoş gəldin"-deyir.
... - A Gəlin, bağışla məni sən allah,
AZİ nə məktəbdi, anlat məni bir.
*
 - Nə? AZİ?...Mühəndis...Neft institutu...
Neynirsən AZİ-ni? - soruşur gəlin.
 - AZİ-ni istəyir-deyir - bizim bu.
İlqarı göstərir. Görüşür gəlin.
*
 - Deyirəm doxtur ol, biliyin ki, var,
İstəmir, yaradan qorxuram-deyir.
 - Hansı ixtisası seçmisən İlqar?
 - Telemexanika... - səsi titrəyir.
 - Çətin institutdur AZİ, çox çətin,
Məsləhət görmürəm oranı sənə.
Təzə şöbəsi var Universitetin,

Kibernetikadır gərək ki, hə, hə!
 - Nə? Kibernetika? "Ağıllı maşın"?
 - Həri! Eşitmisən? Maraqlıdır çox,
yaxçı biliyin var, gözəl yaddaşın,
hər halda pis olmaz...öz kefinə bax!
*
"Polkovnik gəlmişdi orta məktəbə,
Qəribə şeylərdən danışdı... O da
Kibernetikanı, bir neçə dəfə
möcüzə, müəmma elm adlandırdı".
*
 - Yox-yox, nöyüt yox, qurbanın olum!
Qoymaram nöyütə bulaşa əlin.
Ya sud ol, ya doxtur, yaxşımı, oğlum?
Haranı deyirdi bizim o gəlin?
*
İlqar gülümsündü, öpdü üzündən
Anası zənd ilə oğluna baxdı.
Tərəddüd oxudu onun gözündən,
üşəndi...həsrətlə köksünə sıxdı.
*.
Yaman qaralıbdı kişi, nədənsə: -
Kəsilsən, özümü öldürəsiyəm.
Kişi tək gedəsən, gərək gedəndə,
qorxursan, getmə heç!
Nəm-nüm bilmirəm!
***
İlqar anladı ki, xətrinə dəyib,
hansı bir sözüsə "ağzıgöyçəyin".
Ancaq demədi ki, "belə yaramaz,
bu cür "olum-ölüm" şərt qoymaq olmaz.
Ora elə yerdi, nə desən olar,
Qəbul imtahanı dəryadı, qaynar...
Azca büdrədinsə, yıxılasısan,
Sənə dörd imtahan gəlməsin asan."
Demədi, bildi ki, faydası yoxdur,
Bircə, "qorxma!"-dedi-həmişə şax dur!
Nə ki, nəfəsim var, çalışacağam,
Gərək büdrəməyim, nə qədər sağam.
***

Getdilər, ürəkdə min-min arzular,
Nələr görəcəkdi ilk dəfə onlar!
Qatar qəribədi, vaqon qəribə,
Hayana baxırsan, hər yan qəribə!
Dümağ qar kimidi şoran düzənlər,
torpaq cadar-cadar, təşnədi, inlər.
Dəvə beli kimi donqar təpələr,
Göl üstə nazlanır səfil ləpələr...
Dağ var, daş qalağı, dağ var, qum dağı,
Vadi var, qupquru, səhra sayağı.
Yastı, qır damların rəngi boz, qara,
Tüstü, his çöysümüş daş divarlara.
Düşdülər. Bu AZİ! Bu "Təzə bazar".
Bazarın yanında otaq tutdular.

***

İlqardı, Ənvərdi, bir də Nəriman,
Hər üçü "işini" bir yerə verdi.
Durub gedirdilər ala-torandan
"Zabitlər bağı"na, səssiz yer idi.

*

Gündüz oxudular, gecə gəzdilər
Bulvarda - füsunkar sahil bağında.
Hər cür çətinliyə durub, dözdülər,
köhnə bir mülk evin dar otağında.

*

Nəhayət, yetişdi imtahan günü,
Getdilər səksəkə, təlaş içində.
Coğrafiya fənni, Yerin üstünü,
həm də ki, altını əzbər de indi!

*

Keçdi bir-neçəsi, kəsildi, çıxdı,
Bəzisi yalandan dörd-beş aldı da!
İlqar bilet çəkdi, Ənvərə baxdı,
"bir yağlı beşim var"-deyib, güldü də!

*

İki nəfər idi, qıvraq, gülərüz,
Biri boy-buxunlu, biri çəlimsiz.
İlqarı göstərib himləşdilər...Tez
soruşdular: - İlqar Muradov sizsiz?!

*

Bəli!-dedi İlqar.
 - Hansı rayondansan?
 - Borçalıdanam.
 - Sən də oralısan? - Ənvərə döndü.
 - Ənvər kəkələdi - Bəli ordanam -
Ənvərin gözündə şübhə göründü.

*

Xəritə önünə yönəldi İlqar,
Gördü yox, çətindi, batacaq burda.
Heç nə seçmir gözüm - söylədi İlqar -
mümkünsə, qoy keçim, danışım orda.

***

Tutuldu müəllim, qalxdı gicgahı,
Çəkdi gah dərəyə, gah dağa onu.
İlqar danışdıqca, "fənnin allahı"
çəkdi neçə yerdən çarmıxa onu.

*

Əsdi dodaqları..."Necə kəsim mən
bu yazıq uşağı?...Böhtan...iftira..."
Əsəbi hərləndi...Qalxıb yerindən
suallar yağdırdı yenə İlqara.

*

"Əladı cavabı, fəqət onu mən
necə olur-olsun kəsməliyəm...Yox!
Kim nə deyir-desin, kəsə bilmərəm,
Əlaya layiqdi, əlaya, uşaq..."

*

Düşündü, daşındı...kafi yazdı o,
Aldığı qiymətə mat qaldı İlqar.
Döndü o birinə: - soruşun-dedi.
 - Yaxşı, Moskvada neçə zavod var?
 - Nə zavod? Bu nədir? Bu da sualdı?
 - Bəs necə?...Bəsdir üç...İlqar sustaldı...
Kövrəldi: - İnsafsız, yiyəm yox deyə...
Beş olmaz, dörd yazın, daha üç niyə?
Çıxdı, dilxor çıxdı ilk imtahandan,
Ancaq sevinirdi həm də bir yandan.
Üç də bir qiymətdi, axı, hər halda,
Üç də qələbədi bu qiylü-qalda.
Üçü də üç aldı, çox sevindilər,
Oynaşa-oynaşa evə döndülər.

***

İkinci imtahan - riyaziyyatdan
yazılı...Tələsik durub getdilər.
- İmtahan vərəqi çıxıbdı yaddan -
İlqarın başına fırlandı şəhər.

*

- Tez otur taksiyə get, tap, gətir, gəl,
qapının ağzında gözləyirik biz.
İlqar bir taksiyə çatıb əlbəəl
Mərkəzi bazara sür-dedi - tez, tez!

*

Getdi, qayıdınca gecikdi bir az,
- Onbeş dəqiqədi başlanıb yazı.
- Eybi yox, keçərik, heç bir şey olmaz.
Qapanıb gövdəylə otağın ağzı.

*

- Salam, gecikmişik deyəsən...
- Bəli!
- Buraxın da, nolar, xahiş edirik...
- Olmaz! İxtiyarım yoxdu, çəkilin!
- İmtahan vərəqi qalmışdı...
- Yeri!
- Nə asan misallar düşüb, ona bax,
mən onu şifahi həll eləyərəm.
- Sakit ol, danışma orda, ay uşaq!
- Buraxın da, nolar!
- Edə bilmərəm!

*

Yalvarıb-yaxarıb keçdilər, axır,
yazdılar, pozdular, həll elədilər.
Çıxdılar. Tufandı, göydən toz yağır,
Boğanaq içində təntiyir şəhər.

*

Bir təhər avtobus duracağına
yetişib, mindilər, evə gəldilər.
Sabah axşam üstü gedib yaxına
baxdılar, gördülər, yaxşıdı işlər.

*

Dördü də dörd aldı bu imtahandan,
Dördü "yumaq" üçün qarpız aldılar.

Yaman sevinirdi yetim Nəriman,
Zarafat ha deyil, yeddi balı var!
*
İlqar fikirliydi: "Niyə görəsən,
mənə dörd yazıblar, beş əvəzinə?
Bütün misalları düz yazmışam mən,
Nə əmma qoydular, görəsən yenə?"
*
Düşündü...Bir yana çıxmadı fikir,
Üz tutdu ümidin gur işığına.
Yedilər, içdilər, sonra da bir-bir
geyinib, getdilər sahil bağına.

***
Üzbəüz otaqda bir ailə var: -
Ər-arvad, dörd uşaq, dördü də oğlan.
Arvad satıcıdı, ər avaragor,
tüfeyli, möhtəkir, meymun oynadan.
*
Bazar həndəvəri iş yeri onun,
Gələnə, gedənə yanaşar asta.
Mal-mətah özgənin, müştəri onun,
Tərifləyər usta, danışar usta.
*
Bir qəpik önündə əyilib yerə
qaldırıb gözünə sürtüb öpər o.
Bir uşaq yıxılsa göz görə-görə,
keçər saymazyana, baxar, ötər o.
*
Yanağa baxırsan, alışıb yanır,
Peysəri, buxağı kündə-kündədi.
Üzündən-gözündən tülkülük damır,
Varlığı büsbütün piy içindədi.
*
Otağa baxırsan, top da dağıtmaz:
Büllur çeşid-çeşid, qab çeşid-çeşid.
Madonna servizlər, güldan, qədəh, vaz...
Bəyən, çeşid-çeşid, al, çeşid-çeşid.
*
Sol əldə bir qadın, bir ər, bir uşaq,
Bilinmir nə işə qulluq edirlər.

Günəş işığına həsrətdi otaq,
Hər üçü bir itə qulluq edirlər.
*
İt-pişik saxla da, sev də, oxşa da,
Kim sənə dedi ki, qəbahətdi bu!
Ancaq it qoynunda, balan bucaqda -
İnsanlıq adına xəyanətdi bu!
*
Qonşuna baxmısan, küyə düşmüsən,
İtin it yeri var, pişiyin pişik.
Uşaq üşüsə də, it üşüməsin,
İt təntiyə bilər, bürküdü eşik!
*
Hər axşam hamamla, ətirlə, yatsın,
Uşağın çimməsə dünya dağılmaz!
Ərin ac qayıtsın, yorğun qayıtsın,
Nə olar, gözləsə dünya dağılmaz.
*
Heyrət əldən qoymur bir an İlqarı,
"Bu nə həyat tərzi, bu nə davranış?
Niyə tükədən yox müftəxorları?
Gör xalqın canına necə daraşmış?"

***

Yenə riyaziyyat, ancaq bu dəfə
şifahi imtahan, çətindən-çətin.
Beş-altı metrlik qara bir lövhə
dörd yerə bölünüb - bağda lək təki.
*
Hər "lək"in başında bir uşaq adı,
Cücərir - ağarır ləklər birbəbir.
Nəriman lövhədə, solda, başdadı,
İlqargil gözləyir, dizləri əsir...
*
Yazır sualları binəva yetim,
Gətirib-gətirib sonda səhv edir.
- Viyet teoremi...yada sal dedim -
Gödəkboy müəllim deyib də gedir.
*
Nəriman düşünür, bir şey alınmır,
Gödəkboy təzə bir misal yazdırır.

Başlayır inamla, yazır...amma...gör,
gətirib axırda yenə azdırır.
*
Uzunboy: - iki yaz! Gödək: - yox-deyir,
Nəriman od ilə su arasında.
Qırxbeş dəqiqədir yazıq əlləşir,
Üzü yara tökür, yara, bir anda.
*
Qəribə mənzərə...Bu necə işdi?
Gödəkboy müəllim heyrət içində.
Göz qabağındaca sifəti şişdi,
dodağı partladı hərarətindən.
*
Neçəsi imtahan verdi, qurtardı,
Nəriman hələ də od içindədi.
İlqar da, Ənvər də artıq burdadı,
İlqar "sonu" yazdı, bax, köçür - dedi.
*
Yazdılar, danışıb izah etdilər,
Əlavə suallar...Cavab verdilər.
Bu zaman potaboy, keçəl bir nəfər
daxil oldu, durub yer göstərdilər.
*
Keçib Nərimanın yanında durdu:
- Necə cavab verir-dedi-bu uşaq?
- Pis.
Kişi bir neçə sual da verdi:
- Bir üç yazın, getsin!
(Qismət budur, bax!)
*
İlqara yanaşdı: - Bu necə? Bilir?
- Dörd də yazmaq olar, beş də...
- Yox Əşi!?
Bir-iki çox sadə suallar verib,
bir üç də buna yaz - dedi daz kişi.
*
Təəccüb içində duruxdu İlqar,
Kövrəldi: - üç niyə? Nəyi bilmədim?
Büsbütün keyləşdi, karıxdı İlqar,
"Bəs indi mən kimə şikayət edim?
Bu ki, lap ağ oldu...İnsaf, mürvət yox...

On bal çətin keçər müsabiqədən".
Təzəcə çıxmışdı, Ənvər ağappaq
çıxdı dalısınca: - "...iki aldım mən..."
*
Mat qaldı bu işə, mat qaldı İlqar,
"Niyə axı bizə zülm eləyirlər?"
Doluxsunmuş: - Vallah, burda bir iş var,
yoxsa, nə qərəzi?... Ağladı Ənvər.
*
Sürünə-sürünə evə gəldilər,
gördülər, Nəriman yaman haldadı.
Elə say üçü də iki aldılar,
Qəbul olunmağa ümid qalmadı.
*
Ənvər kor-peşiman qayıtdı kəndə,
İlqar dilxor idi, Nəriman küsgün.
İlqar bazar altda yolu keçəndə
Nəbi müəllimə rast gəldi bu gün.
***

- Oğul, necə gedir imtahanların?
- Üçünü vermişəm, biri qalıbdı.
- Halal olsun sənə! (Öpdü İlqarı) -
qızıl medallılar iki alıbdı.
Bəs son imtahanın?...
- Ədəbiyyatdı.
- Keçmisən, buna heç şübhən olmasın!
Tələsmə, fikirləş, yaz ehtiyatlı,
beşə layiq olsun, elə yaz, yazın.
*
Ah, gözəl insanlar, gözəl insanlar!
Nə yaxşı varsınız siz bu dünyada!
Yoxsa, bu şaquli əfi ilanlar,
gündə neçəsini verərlər bada.
*
Adicə bir sözdən ümid alışdı,
Təzədən doğuldu İlqar elə bil.
Bayaq ürəyində borandı, qışdı,
Qəlbinə nur yaydı bahar elə bil.
***

İstidi, od tutub alışır dünya,
Avqust qum üstündə qora bişirir.
Asfalt təkər altda lehmədi guya,
İndi gəl, üstü qır, dar otağa gir!
*
Nəriman İlqara söylədi ki, gəl,
gedək çimərliyə çimək, sərniyək.
 - Nə bilək hardadı?
 - Əşi bir təhər
taparıq sən qorxma.
Durub getdilər.
***

- Bəh-bəh! Nə aləmdi buralar ayə!
 - Sən öl, lap həqiqi quş bazarıdı!
 - Vay dədə! Bu xalqda qalmayıb həya!
 - Pah! Evin yıxılsın, bura haradı?
*
O gün nələr gördü, İlqargil, nələr:
Qırmızı arvadlar, qara kişilər.
Çıl-çılpaq uzanıb gün altda qızlar.
"Burda qız olanın nə ölümü var?
Görmüşük, oğlanlar çimər sularda.
Vay səni...din-məzhəb qarışıb burda.
Başına qaldırıb kişi arvadı,
Vay dədə! Gör, suya necə tulladı!
Camış tək şellənir arvadlar suda,
Kişilər oynayır futbol quruda".
Köhnə bir qayıq var, üzüstə, qumda.
Paltar kündə-kündə dörd bir yanında.
"hərənin əynində bir "üçküncü" var,
Bəs biz nə eləyək?" - düşünür İlqar.
 - Ə, soyun bəri gəl! Rəhmətlik oğlu!
Kim səni tanıyır? Odur, o bığlı,
ona nə deyirlər? Gəl görüm bəri!
 - Ə, ətin tökülsün, qışqırma, kiri!
Gəl, bir az o yana keçək, tək çimək,
burda qız-gəlin var...biabırçı tək...
*
Keçdilər ən ucqar, hicra bir yerə,
Girdilər dənizə və... Birdən-birə

Nəriman qışqırıb ufuldadı bərk: -
Papağın boş qalsın, nəydi, bıçaq tək
kəsdi ayağımı...qana bax, vay-vay...
 - Qorxma, bu dəqiqə...salma hay-haray!
*
İlqar köynəyindən cırıb yandırdı,
qaranı yaranın ağzına basdı.
 - Keçinin qoturu...
 - həmin andırdı...
 - Bizim kimisinə ə, bu da azdı.
*
Axsaya-axsaya tutub qol-qola,
deyinə-deyinə düşdülər yola.
Qayıdıb gəldilər duz, qır içində.
Yağışa həsrətlər yağmur içində.
Sonra da bu günkü günə güldülər,
heç bir şey olmayıb elə bildilər.
Bu ona sataşdı, o isə buna,
Bu gün nələr dedi kənd uşağına!
Bütün anlayışlar sökülür bir-bir.
Düz nədi, səhv nədi, baş aça bilmir.
İlqar elə bilir, nə ki, çimən var,
hamısı həyasız, arsız adamlar...
"Ata lüt, ana lüt, oğul-uşaq lüt...
Kənddə daşa basıb edərlər şil-küt!
Nə böyük, nə kiçik... hamı utanmaz,
Abır yox, ədəb yox, çimir ata-qız"
*
İlqar şübhələnir sonra özündən:-
"Onda belə çıxır mənim sözümdən
camaat dəlidi, bir mən ağıllı,
yox! Burda nəsə var! Hər kəm ağıllı
özünü hamıdan ağıllı sayar.
Dinmə, sus! Eşidən səni qınayar!"

***

"Abşeron", "Hacı Qara", "Ölülər", bir də
"Sərbəst mövzu" idi bir variantda.
"Kim hansını yazır-yazsın" - dedilər,
Dörd mövzu düşmüşdü hər variantda.
*

İlqarla Nəriman "Hacı Qara"nı
yazmağı münasib saydılar. Çünki
əzbər bilirdilər İlqargil onu.
Ümid az olana yer yoxdu indi.
*
Yazdılar, yoxlayıb təhvil verdilər.
Çıxdılar, sevincək evə gəldilər.
Sonra da hamama gedib girdilər,
yuyunub geydilər, gül tək təmiz-tər.
*
Kinoya baxdılar gedib "Şəfəq"də,
Qayıdıb gəldilər, keçib yatdılar.
Dünyanın ən xoşbəxt adamları tək
əhdin zirvəsinə gəlib çatdılar.
***
Qəbul siyahısı... Lotereya tək
hərə öz adını axtarır burda.
İlqar "Muradov"u görüb sevincək
qışqıra-qışqıra hoppandı: - Ur-ra!!!
*
İlqar öz adını bir də oxudu,
Qəhər boğazını boğurdu onun.
Nəriman hönkürdü: - Mənimki yoxdu...
Göz yaşı leysan tək yağırdı onun.
*
İlqar siyahıya yanaşdı bir də: -
Papağın boş qalsın, ə, bə bu nədi?
Nəriman qurudu durduğu yerdə,
Seçə bilməmişdi sonuncu adı.
*
Calal müəllimi gördülər yolda,
Qəbul kağızını göstərdi İlqar.
Qəribə bir görkəm sezdi Calalda,
Gizli xəcalətdən iz gördü İlqar.
*
- Afərin! Halaldı ananın südü!
Bizim Məhəmmədlə, oğul, Həmidi
Xramda axıdım, Kürdə axtarım.
Nə zülümlər çəkdim burda ay yarım!
Axırı nə oldu? Həmid kəsildi,
Məhəmməd axşama...Canım üzüldü...

*

İlqar təbrik etdi müəllimini,
Təşəkkür bildirdi dərs deyənlərə.
Şagirdin saçına çəkib əlini,
Müəllim razılıq etdi son kərə.

***

İlqar atasına teleqram vurdu,
Əlbəəl qayıdıb yır-yığış etdi.
Bu ara sevincək yerindən durdu,
Nəriman biletin ardınca getdi.

*

Yata bilmədilər bütün gecəni,
Yolboyu danışıb-gülürdü onlar.
Bu bir ay yarımda olub-keçəni
söyləyə-söyləyə gedirdi onlar.

*

Getdilər, Nəvtulluq qaldı arxada,
Sən demə, burda da düşmək olarmış.
Keçdi Baş vağzala yarım saata,
Ordan Borçalıya xeyli yol varmış!

***

Salamməlöykü!
- Əleykəssalam!
-Bakı tərəfdənmi bu gəlişiniz?
- Bakıdan gəlerik, indi tüşmüşük.
- Telqram vurufdu bizim uşax da, bilmerəm nə işdi?
- Hə, görüşmüşük.
- Bakıya çağırer... niyə bu vaxtda?
- Hə, ... Konkursa tüşdü...
Yamanca pərt oldu Kərim, dinmədi.
Gözlədi bir az da. Bir taksi gəldi,
Nəbi müəllimin gözləri güldü: -
Kərim, gözün aydın, qəbul olundu!
- Bə Calal dedi ki,...
- Yox-yox, yalandı!
Özüm öz gözümlə görmüşəm onu,
Öpüb bağrıma da basdım oğlunu!
- Bıy oğlun sağ olsun, bə niyə məni
Bakıya çağırer qırışmal, görən?
- Bu nədi? Teleqram? “Priyezjay”? Yəni...
Yox-yox, ola bilməz. Bir az toxta sən!

Tərəddüd min yana çəkdi kişini,
Nəbi müəllim də pərt oldu deyən.
Çəkib bir qırağa köhnə maşını
gözlədi...
İlqargil düşdü taksidən.
Çatıb görüşdülər, dinməz-söyləməz
keçib oturdular köhnə maşına.
- A bala, işiniz nə cür oldu bəs?
- Yaxşıdı! (Göz vurdu o, yoldaşına).
- Hancarı oldu ku, keçə bilmədin?
- Bu nə sözdü? Bunu sana kim dedi?
- Calal müəllimi gördüm bayaq da!
Dedi, keçməyibsən...
- Maşını saxla!
- Al, oxu!
- Nədir bu?
- Qəbul kağızı!
- Bə teleqram nədi?
- "Gələrəm"-dedim,
söyündürmək üçün belə elədim!
Alıb teleqramı oxudu İlqar,
özünə töhmətlər toxudu İlqar.
*
“Priyezjayu” dönüb “Priezjay” olub,
Nə mətləb görün bir nəyə tay olub!
"GƏLİRƏM!" - Bu sevinc daş dələsiydi.
"GƏL!" - olub atanın könlünə dəydi.
*
Qaytarmaq istədi maşını kişi,
"Calalı biabır eləyim gərək".
- Yox-yox, lazım deyil, olmasın işin!
Bilirdi getsələr nələr edəcək.
*
Getdilər. Şad xəbər qaranquş kimi!
Eşidib sevinən tökülüb gəlmiş.
Gülsənəm qıvrılır vurulmuş kimi.
Çətin qələbələr necə gözəlmiş!
***

İlqargil qəbula gedəndən qabaq
hazırlıq görmüşdü Gülsənəm qarı.

Ədalətə deyib: "Necə olsa bax,
kəsdirmək lazımdır hökmən İlqarı!"
*
Bir məktub vermişdi o vaxt Ənvərə,
"Bunu Elyuraya çatdır"-demişdi.
Məktubda: "Kəsdirin, qaytarın geri!...
Necə olur-olsun, batır!- demişdi..."
*
Ədalət kəsilib gedib, keçən il,
Bu il də keçməsə əsgər gedirdi.
"İlqargil keçsələr öldüm elə bil..."
Xiffət Gülsənəmi yeyir, didirdi.
***

Ənvər Gülsənəmin "amanatını"
Gətirib ünvana yetirdi bu gün.
- Çox sağ ol, əmoğlu!
Açıb qatını,
oxudu kağızı səssiz, büsbütün.
*
Sonra da işlədib şirin dilini,
öyrəndi Ənvərdən nə lazımdısa.
Yüz ölçdü, bir biçdi fitnə-felini,
gözləri parladı, necə oldusa.
*
Qərara aldı ki, Elyura xanım,
"Gərək Əmircanı qatam bu işə,
qovrula-qovrula qoy çıxsın canı.
Baş tutsa, çətin ki, qəbula düşə".
*
Əmircan Vasifin köhnə düşməni,
Vasif Elyuranın şöhrəti-şanı.
İblis bir gülləylə alıb nişana
İlqarı, Ənvəri və Əmircanı.
*
Durub plan cızdı bəd niyyətinə,
Çəkdi Ədaləti evin küncünə: -
"Dediyim kimicə götür, yaz-dedi,
heç biri bu feldən qurtarmaz"-dedi.
*

Ədalət ustadı qara yaxmaqda,
Xalq düşməni etdi o, Əmircanı.
Yazdı "Əmircanın bəd əməlləri,
İlqara, Ənvərə köməyi haqda".
*
Əmircan müəllim şübhə hədəfi,
İki cavan oğlan nəzarət altda.
Ənvər kəsilibdi.
Ədalət qəvi!
Xiffət kama çatıb Allahın altda!
***
Gülyaz dünyamıza üç qız gətirdi,
Baba şad olmadı, nənə gülmədi.
Gülsənəm Tellinin qəlbinə girdi,
onun niyyətini Telli bilmədi.
*
Bu kökün oğlundan qızı çox idi,
odur ki, qız oldu, şad olmurdular.
Səkkiz qızı vardı, oğlu yox idi,
"Anası ölmüşün", dağlanırdılar.
*
Üçü də bu yandan, yenə oğul yox,
Gülyaz xəcalətli, Elşən fikirli.
Gülsənəm bu işə sevinirdi çox,
hökmən baş tutacaq fitnə, bilirdi.
*
"Elşənin oğlu yox, Gülyaz yarımcan,
məqamdı, ayıram gərək onları!" -
Astaca Tellinin boş damarından
tutub, sığalladı Gülsənəm qarı.
*
Bəd niyyət baş tutdu, elə o payız
Elşəni ayırıb atdılar çölə.
Elşən, xəstə Gülyaz, üç də körpə qız,
evi yox, qazanc az... Min lənət felə!
*
Qaldılar hələlik ata evində,
Ənvər əsgər gedib, təkdi qocalar.
Elşən ev düzəltdi, köçdü, sevindi: -
"Qalanı cəhənnəm, öz evim ki, var!"
*

Ev nə ev, dörd divar, alayarımçıq,
bir təhər başını gizlədə bilib!
Nəm divar buz kimi, döşəmə palçıq,
Tavan əvəzinə çadır çəkilib.
*
Elşən iş aradı, babat maaşlı,
haraya getdisə, iş tapılmadı.
Üzüldü ümidi binəli-başlı,
Bir yerdən bir işıq ucu olmadı.
*
Nəhayət, naəlac qalıb da yazda,
Rusetə, fəhləlik etməyə getdi.
İmran partkomdu...
Gələn payızda
"bu işi qanunla dürüst həll etdi".
*
Getdi qəbuluna Burjaurinin,
"Üç aydı üzvlük haqqı verməmiş..."
Beşini qondardı üstə birinin.
Durdu kreslodan Katib, kükrəmiş: -
"Demək, Partiyanı, məni saymadı!
Yaxşı da, qoy olsun, gələr, baxarıq!"
İmran dediyindən hələ doymadı: -
"Onu da o yazıb, məlumdur artıq".
"Keçi söhbətini" deyirdi İmran,
Guya məktub yazıb Elşən yuxarı.
Min cildə, min dona girirdi İmran,
Ölçürdü, biçirdi bütün yolları.
İmran partbiletə möhür vurmadı.
Gülyaz xəbər verdi Elşənə bunu.
Məktub çatan kimi, Elşən durmadı,
Bilirdi İmranın kim olduğunu.
Gəldi.
"Gecdi"-dedi, "Qorxuram"-dedi,
"Mənlik bir iş yoxdu, Katiblə danış".
Bu sözdən söz aldı, içini bildi,
Əsəbi-əsəbi:" - Kaftar, qartımış!
bu işin ijməsi sənədəndir yenə!
Tüpürüm olmayan kişiliyinə!
Yaxşı bilirsən ki, çarəm yox mənim.
Elə sən imişsən əsil düşmənim!

İş Katibə qalsa, düzələn deyil,
Onunla söhbətim düz gələn deyil!
Qışda, partbüroda aldı payını -
Ayrıseçkiliyin haqqı-sayını!"
*
Getdi.
Partbileti verdi, qayıtdı.
Qayıtdı...
Şər yenə murada çatdı.
Vicdanı, amalı təhqir olundu,
Günahsız, nahaqdan tora salındı.
Bu cür təmizlədi partiyanı o,
Tamahkar, şovinist, vicdan oğrusu!
*
Eybi yox!-söylədi Elşən Katibə -
Sənin də boynunu salar haqq ipə!
Onda bilərsən ki, qudurmaq nədir,
Xalqa bu cürə qan uddurmaq nədir!
- Çıx! Rədd ol! - Kükrədi Katib Elşənə -
Yeri! Diri-diri od vurram sənə!
Çıxdı kor-peşiman, suyu süzülmüş,
oturdu dəhlizdə fikrə getdi o.
Əyləşdi yerində Katib üzülmüş...
Elşənin qüruru yumşaltdı onu.
*
Bir neçə il keçdi bunun üstündən,
Dağlardan düzlərə təzə yel əsdi.
Getdi Burjauri, gözlərində çən,
Tutduğu əməllər əhdini kəsdi.
*
Tutuldu rüşvətxor, tamahkar kimi,
Nə qədər var-dövlət sahibiymiş o!?
Tutuldu ən böyük günahkar kimi,
Partbilet gəzdirən vicdan oğrusu!
***

"Tale verə: - yol üstündə
sərin, çağlar bulaq olam!
Ya, qəlb olam, nur qaynağı,
ya nəğməli dodaq olam!
*

Simurğ kimi, yer üzündə
gərək olam çətin gündə!
Ümidsizin ürəyində
şölələnən çıraq olam!
*
Qurban olam vəfasına,
gözlərinin şəfasına;
cəfakeşin cəfasına
ömrüm boyu ortaq olam!
*
Nahaqları pərən-pərən
salıb da haqqı güldürəm!
Dərdə-qəmə sinə gərən
dümağ saçlı bir dağ olam!
*
İlqar Murad, yarı canam,
Bu eşqimlə daim yanam!
Qaş oynada nazlı sonam
Qəmzəsində cızdaq olam!"
*
Durdu, yazdığını oxudu təkrar,
Dağ olmayanları sildi, dəyişdi.
Bir az yüngülləşdi, azad, bəxtiyar,
Yeni bir arzunun izinə düşdü.

***
Elşənin toyudu - dedilər - sabah!
Yağış ara vermir, yol dizə çıxır.
- Nə gözəl günlərdi! Sən bir işə bax,
yağışda-yağmurda neyləsin fağır!?
*
- Qazanın dibini qazıyanda bəs,
bilmirdimi toyda qar yağa bilər!
- Qardan qorxan qışda durub toy etməz,
ürəyi istəyən qarda da gələr..
*
Xəbər göndərdilər qohuma-dosta,
Şadlığa səslədi dəvətnamələr.
Uşaqlar yel kimi, qocalar asta,
hələ toy gəlməmiş toya gəldilər.
*

Dəlibaş Məhəmməd zurnaçı gəldi,
Dəli Əkbər idi dəf vuranı da.
Qoca Cəfər kişi züy tutan idi,
Gözləri şişmişdi, zaydı canı da...

***

Şəhla sonbeşikdi, ərköyün, şıltaq,
İlıq bir qayğıyla bələmişdilər!
Bir od parçasıydı bu şıltaq uşaq,
Elə bil, civəydi, calamışdılar!

*

Gözünü açandan atası qoca,
Anası ağbirçək, ixtiyar idi.
Qardaşı oğluyla yaşıddı, ancaq
dinəndə o buna "mama" deyirdi.

*

Şəhla bələkdəkən xala, mamaydı,
Dönüb nənə oldu nişanlanmamış.
Şəhla xalaların ən məsumuydu,
Şəhla tək dünyada mama olmamış!

*

Zirvədə qar kimi, bəyazdan-bəyaz,
Sanki bir ağappaq lalədi, Şəhla!
Dünya bir çəməndi, şehdə yuyunmuş,
Ağ ləçək üstündə jalədi, Şəhla!

*

Bir mələk misallı,
dodağı xallı,
Bir ötkəm kamallı,
ləhcəsi ballı,
Bir tərlan xəyallı,
teli sığallı,
Can alan gözləri şəhladı, Şəhla!

*

Bir eşqin oduyla yanan, alışan,
Xiffətin bağrını dəlib, sayrışan,
Günəşli, ulduzlu, aylı kəhkəşan,
Kainatdı, Şəhla! Dünyadı, Şəhla!

***

Yenə dönüb ellər doğma ocağa,
Yaylağı borana, çənə qoyubdu.
Torpağın döşündən dad sağa-sağa,
Payız əllərinə xına qoyubdu!
*
Bağlardan bar yığan - heyva, nar yığan,
Yun yuyan, ip yuyan, arğac boyayan,
Toy tutan, qız verən, elçi yollayan!...
Bu ellər dincliyi qına qoyubdu!
*
Ləlvərə qar düşüb, Xram üşüyür,
Yamacın döşündə sazaq töyşüyür.
Tarlalar uzanıb, rahat göyşəyir...
Bulaqlar yığnağı yana qoyubdu.
*
Əzilir, büzülür...Nazlanır Alget,
Yağlıca mürgülü, baxışları küt...
Yollar əriş-arğac, dırnaqlar kirkid,
Qışlaq dırnaq altda sinə qoyubdu.
*
Zavod, damağında qəlyan, dəmlənir,
hovxurur əlinə, qırov nəmlənir...
Günə bax, pərğu tək göydə yellənir,
Gör payız Günü nə günə qoyubdu!
*
Gözlər yollardadı, ürək dərd içir,
Borçalı yaddaşdan zaman tək keçir.
Gedənlər gedibdi, qalanlar köçür,
Gedənlər bu yurdu kimə qoyubdu?…

*Bakı*

*Mənsurə*

Axşamdır... Gözünü yumubdu göylər,
Ay fürsət tapıbdı, yarılüt gəzir.
Nimdaş bir çadıra dönübdü göylər,
Seyrək damcı düşür, sərin meh əsir.

*

İçində təlatüm, gözlərində qəm,
Qılınc kimi qında dayanıb Bəhram.
Qəbahət etmərəm əgər söyləsəm,
Tale ayrıcında dayanıb Bəhram.

*

Bir fikir od alır ürkək baxışdan,
Qatı zülmətləri yararaq keçir.
Bir fikir nəm çəkir kövrək baxışdan,
Nalənin nəbzini tutaraq keçir.

*

Bir fikir söyləyir: - hanı məktubun?
Kimə yazılmışdı, de, kimə verdin?
Nədən ürəyini istintaq üçün
Sənə əsir düşən hakimə verdin?

*

Bir fikir yel olur, əhdini kəsir,
Bir fikir od olur, yandırır, yaxır.
Bir fikir qayadır, yolunu kəsir,
Bir fikir yarğandı, önünə çıxır.

*

İztirab içində çırpınır Bəhram,
Büdrəyib, yıxılıb... Qalxmaq istəyir.
Tərs kimi dolaşıq düşən, bu axşam,
Fikir kələfindən çıxmaq istəyir.

***

Bakı... Yay günəşi yenə od tökür,
Gilavar neyləsin bu oda, allah!
Elə bil, istidən göy yerə çökür,
Cəhənnəmdi, yoxsa, haradı, allah?

*

Dağlı məhəlləsi, kiçik bir otaq,
Bürküdən boğulur, təngiyir nəfəs.

Oturub üz-üzə qardaşıyla, bax,
Zeynəb söhbət edir, o susa bilməz.
*
Fikrət şaddı bugün, sevinir yaman,
Bacısı gəlibdi, necə gülməsin.
Danışır mehriban, susur mehriban,
Kaş bu ılıq ülfət heç əskilməsin.
*
Söhbət çözələnir, açılır mətləb,
Fikir ciddiləşir, üz ciddiləşir.
"Zəif qız uşağı və ali məktəb",
Fikrətin içində söz ikiləşir...
*
"Yolçu yolda gərək", gedəsiyəm mən,
Deyir son sözünü o, gülə-gülə:
- Uşaq səninkidir, özün bilərsən,
Necə bacarırsan elə də elə.
***

Bürküdən əsər yox, ulduzludur göy,
Siqaret sümürür eyvanda Fikrət.
Şəhər yuxudadır, içində giley,
Fikirlə əlləşir bu anda Fikrət.
*
Kimə ağız açım? Neyləyim Allah?
Riyakar önündə alçalımmı mən?
Durub təmizlikdən dəm vursa sabah,
Rüşvət ovçusuna əl çalımmı mən?
*
Bunamı saxladım kəskin sözümü?
Vicdan nə deyər bəs bu cinayətə?
Gör nə günə qoydum özüm-özümü,
Adım hədəf olar daha töhmətə.
*
O, ata əvəzim, ana əvəzim,
Bu gün üstümə bir işə gəlibdir.
Mənim ondan başqa varmı bir kəsim?
Gəl indi körpüdən koru sən keçir.
*
Ayrıldı xəyaldan, əsnədi Fikrət,
Canında üzüntü duydu da getdi.

Soyumuş yatağa yönəldi... fəqət,
Fikirdə can yaxdı, ürək əritdi.
***

Bakı, yay səhəri, narahat küçə,
Binanın önündə izdihama bax!
Cavan bir ağacın yanında təkcə
dayanıb Mənsurə fikrə dalaraq.
*
“Nə qədər adam var, aman, ay aman!
“İynə atsan yerə düşməz” budur ha!
Haraya yerləşər bu qədər insan,
Nə olub görəsən bu camaata?
*
Elə bir budurmu Bakıda məktəb?
Niyə başqasını bəyənmir bu xalq?
Bu belə yaxşısa, görən nə əcəb
Ruset dağılmışa getdi o axmaq!
*
Hələ başqaları dursun bir yana,
Bizim ixtisasda nələr var, nələr!
Niyə deyən yoxdu bu musurmana
Get, səni gözləyir gül fakültələr.
*
Demək asan şeydi, elə biri mən!
Özümmü seçmişəm riyaziyyatı?
Zəndi-zəhləm gedir riyaziyyatdan,
Sevdiyim dərs varsa, ədəbiyyatdı...”
*
- Diqqət! Guruldayır radio bu an.
Qızarır həyadan dümağ çöhrəsi.
Tonqala çevrilir sanki, imtahan,
Qarsıyır uşağı odlu nəfəsi.
*
Tərpənir həvəssiz, gedir irəli,
İçində at çapır qorxu, həyəcan.
Qapıya yanaşır... Titrəyir əli...
Açır ağuşunu ilkin imtahan.
***

Günəş qürub üstə... Saralır göylər,
Günün xəzan vaxtı yetişib, nədir?
Burnunun üstündə puçurlanıb tər,
Mənsurə tələsik haraya gedir?
*
O, gedir... son dalan... dönür... dayanır...
Gəzir çöhrəsində axşamın yeli.
Gülöyşə narı tək yanağı yanır,
Dağılır üzünə xurmayı teli.
*
Döyür qapısını dayısının o,
Çəkir arxasınca mehriban bir səs:
 - Mənsurə, sənsənmi? Gəl, qızım tez ol!
Söylə, necə keçdi? Gəldimi o “şəxs”?
*
Mənsurə bir anlıq durur vüqarla,
“Qiymət” vərəqini göstərir səssiz.
“Yaxşı” aldım-deyir o, iftixarla,
Gözündən oxunur hörməti, şəksiz.
*
 - Qızım, danış görüm, nə təhər oldu?
Çətinə çəkdimi müəllim səni?
Sualların necə? Razımı qaldı?
 - Nə deyim... doğrusu, sıxmadı məni.
*
Biletim çətindi, suallar qəliz,
Gümanım gəlmədi heç birisinə.
Danışa bilmədim... duydu bunu, tez
baxdı vərəqimin o, nömrəsinə.
*
Sonra “gözlə”-deyib, hara getdisə,
Gəlib “yaxşı” yazdı. Utandım yaman...
Heç yaxşı olmadı... Vallah, hər nəsə...
Gərək getməyəydim... Getdim nahaqdan.
***

Külək coşub yenə, dəniz çağlayır,
Yayın son ayında tufana bir bax!
Dəniz nərə çəkir, dəniz gurlayır,
Üzü boz-bulanlıq ümmana bir bax!
*

Cilovsuz atını külək çaparaq,
Hayqırır, kişnəyir, cilov çeynəyir.
Pəncərə şüşəsi titrəyir zağ-zağ,
Böyük bir salonda imtahan gedir.
*
Oturub Mənsurə dinməz-söyləməz,
Nigaran gözləri "tanış" axtarır.
Di gəl, görünməyir axtarılan kəs,
Uğursuz fikirlər bağrını yarır.
*
"Hanı enlikürək, o çalsaç kişi?
Niyə yetişməyir imdadıma bəs?
Gör nə yaman yerdə dolaşdı işim...
Burda mənə heç kim kömək eləməz.
*
...Bu oğlan nə yaman yazır? Görəsən,
bir şey də qanırmı yazdığı kimi?
Qansa-qanmasa da o yazır... Bəs mən?
Toplaya bilmirəm mənsə fikrimi.
*
Nə gözəl adı var onun: "Qaraxal",
Özü də "kəllə"di yaman, deyəsən.
Qaşları qapqara, gözləri qumral,
Belə bir boy-buxun görməmişəm mən."
*
Qaraxal işləyir...Arada bir də,
Yanında əyləşən qıza göz qoyur.
Oturub yanaşı, qoşa, bir yerdə,
Biri: "kömək"-deyir, biri: "yaz"-deyir.
*
İmtahan qurtarır... Lap daralır vaxt,
Qaraxal həll edir, gülür Mənsurə.
Yazı sona yetir... Hər ikisi şad...
Sevinc yaşlarını silir Mənsurə.
*
Üzüağ çıxdılar bu imtahandan,
Ayrılmaq istədi bu dəm Qaraxal.
- Bağışla, xanım qız...
- A? Ayrılırsan?
- Bəli, tələsirəm mən, salamat qal.
*

Titrədi son sözü... Ötkəm bir baxış,
Qəlbində ən incə simə toxundu.
Alqış sevdalanan ürəyə, alqış!
Sehrli baxışlar nə tez oxundu!
***

Fikrət təkdir evdə, qəlbi təlaşlı,
gəzinir... Gözləyir o, Mənsurəni.
“İndi qayıdacaq gözləri yaşlı,
Qiymət alacaqmı o, bu gün yəni?
*
Gör nə yerdə qaldı bu yazıq uşaq,
Üç imtahan verdi, üçü də çətin.
Sən bir zavallının taleyinə bax...
Son anda heç oldu dünya zəhmətim.
*
Yazılı imtahan, özü də necə
qorxulu bir fənndən—riyaziyyatdan.
Dərdini çəkmişəm onun, bu gecə,
Tapşıra bilmədim, susdum nahaqdan.
*
Özü söhbət saldı, mən dillənməmiş,
“Bacın uşağının necədir işi?”
“Çox sağ ol, yaxşıdır. Üçünü vermiş -
deyib susdum, daha neyləsin kişi?”
*
Bir də ki, adamın üzü tutmayır,
İlk imtahanı da ona demişdim.
Bəlkə də “o sözlə” məni sınayır,
Kim edər adama bu hörməti kim?
*
Qıza da dedim ki, get, tapşırmışam,
Enlikürək, çalsaç, nə bilim nələr...
Sanki təbrik üçün yolda durmuşam,
Vaxtına az qalıb, indicə gələr.
*
Bəs necə deyəydim, başqa sözmü var?
Yoxsa gedərdimi o, imtahana?
İnsan ac yaşayar, yalavac durar,
İnamsız yaşamaz, dözməz bir ana.
*

Onu yola saldım, inandı mənə,
Çətin bir sınağa inamla getdi.
Baxdı gözlərimə o, dönə-dönə,
Qəlbində bir məğrur ilhamla getdi.”

*

Fikrət təkdir evdə, qəlbi təlaşlı
gəzinir... Gözləyir o, Mənsurəni.
Çəkir xəyal onu, binəli-başlı,
Qərq olur ümmanda fikir yelkəni.

***

Saatlar can aldı hər keçən andan,
Həftə ilgəklədi, ay düyün vurdu.
Torpaq azad oldu dümağ yorğandan,
Gah göylər tutuldu, gah bulandı su.

*

Mənsurə yer aldı yataqxanada.
Tələbə dünyası, yeni bir aləm!
Səadət boylanmış artıq ona da,
Sozalır gönlündə köhnə kədər, qəm.

*

Qəbul imtahanı çıxdı fikirdən,
Daddı gənc ömrünün beçə balından.
Dərsdə çətinliklə üzləşdi hərdən,
Fikrətlə Qaraxal tutdu qolundan.

*

Yanaşı oturdu Qaraxalla o,
Qoşa səyridilər cüt ulduz kimi.
Vurdu sarı simə, bu münvalla o,
Çaldı Qaraxalın çağlar qəlbini.

*

Dərsə bir gəldilər, bir də çıxdılar,
Qız anlamadı ki, bu hiss nə hissdi.
Birgə çağladılar, birgə axdılar,
Biri yelkən oldu, o biri əsdi.

*

Hərdən ayrıldılar bircə günlüyə,
Qaraxal bir dünya ehtiyac duydu.
“Bu qız harda qaldı, görəsən?”-deyə,
Həsrət onu o gün küçədə qoydu.

*

Vaxt oldu, yol üstə gözlədi onu,
Həsrət selə döndü, aldı, apardı.
Hərdən gizli-gizli izlədi onu,
Xəyalın bal dadan gölünə vardı.
*
Gündüz bu atəşin oduna yandı,
Axşam könül verdi "dil bilən" tara.
Gah tərif eşitdi, gah da qınandı,
Sevda dəryasını o yara-yara.
*
Dartıldı yay kimi Qaraxal bir gün,
Qəlbini açmağa gücü çatmadı:
- Mənsurə... Nə deyim... Bilirsən özün...
Daraldı nəfəsi... Dili tutmadı.
*
Dinmədi Mənsurə, ayrıldı titrək,
Köhnə yarasının qaysağı qopdu.
Mənsurə yaralı, Qaraxal kövrək...
Körpə məhəbbətin yarpağı qopdu.
*
Çəkdi xəyalını nəmli bir soraq,
Dondu xatirələr buzunda canı.
Açıldı önündə varaqlanaraq,
Nakam məhəbbətin qəmli dastanı.
***

Qaraxal otaqda dayanıb dinməz,
Manşır pəncərəyə dikilib gözü.
Qızdırır canını odlu bir nəfəs,
İçində qoğuyur eşqinin közü.
*
Fikir karvanlaşıb ötür başından,
Dünənki söhbəti yada salır o.
Dərsdə eşitdi ki, bir yoldaşından,
Bir Mənsurə imiş sinifdə, bir o.
*
Açılıb söz-söhbət o yan-bu yandan,
"Nişanlıyam"-deyib Mənsurə ona.
Qaraxal barədə söz alıb ondan,
Gəlib xəbər verib onu dostuna.
*

Dostu danışdıqca susur Qaraxal,
Xəyalına gəlir könül açdığı.
O sərt qış axşamı, o şirin vüsal,
Bir də Mənsurənin küsüb qaçdığı.
*
Mənsurə ayrılıb o vaxtdan bəri,
Qaraxal utanır danışdırmağa.
Gələndə sancılır ona gözləri,
Gedəndə yol verir qəm yığa-yığa.
*
O gündən bir dəfə gülməyib üzü,
Sanki bircə sözə bağlıymış hər şey.
Yandırsa bir qəlbi nalənin közü,
Dodaq tərpənməmiş közərər giley.
*
O işdən il ötüb, aylar dolanıb,
Ürək oda yanıb, baxışlarsa lal.
Bir qəlbin çiyninə həsrət qalanıb,
Mehriban bir baxış, uzaq bir xəyal.
*
Çəkib ağrısını ağır möhnətin,
Bu zillətə dözən nə bəxtiyardı!
Canında odu var saf məhəbbətin,
Gözündə qəm yükü damar-damardı.
*
Pəncərə önündə durub o, dinməz,
Manşır bir eyvana dikilib gözü.
Oynadır qəlbini dünəndən bir səs,
Xeyli dəyişibdi görkəmi, üzü.
*
Süzür o, həsrətlə qarşı eyvanı,
Kiçik bir kölgə də qaçmır gözündən.
"O, evdə deyilmi? Yoxdursa hanı?
Yox! İndicə gəldi, gördüm axı mən!"
*
Açılır qapısı otağın bu an,
Boylanır Mənsurə küçəyə sarı.
Ayrılır odlu bir ah, dodağından,
Dindirir astadan Qaraxal tarı.
*

Mənsurə seyr edir gözucu onu,
Çəkilir yavaşca otağa yenə.
Tar susur... Muğamın çatmamış sonu,
Peşman olur tarı dindirdiyinə.
***

Xoş bahar gecəsi, səma tər-təmiz,
Çəkilib səs-səmir, yatıbdı şəhər.
Hərdən uğuldayır, mürgülü dəniz,
Sahili yalayır şıltaq ləpələr.
*
Yararaq gecənin lal sükutunu,
Tar səsi yüksəlir yataqxanadan.
Dağılır xəyalın şümşad sütunu,
Götürür yükünü möhnəti dadan.
*
Mizrab qılınclayır, dinir sarı sim,
Yenə ağlar qalıb "Yetim segahı".
Mürgülü gecəyə kəsilib hakim,
Bu kimdi, de, nədən od alıb ahı?
*
Kövrək hisslərini kökləyib tara,
Hicran buzlarını əridir sal-sal.
Həsrət ümmanında buz qıra-qıra,
Tufanlara qarşı üzür Qaraxal.
*
Manşır pəncərədə kölgə görünür,
Boylanıb bayıra, çəkir pərdəni.
Kölgə pəncərədə heykələ dönür,
Əli çənəsində, səsə söykənir.
*
Əyilib ehmalca Rəna yataqdan
səsləyir sevimli rəfiqəsini.
"Yaxın gəl, Mənsurə, odur bayaqdan,
Oyatmaq istəyir Qaraxal səni".
*
Mənsurə yuxulu: - Rəna bu nədir?
Gecənin bu vaxtı oyaqsan hələ?
Bir də bu sözlərin mənası nədir?
- Mənası? - Yanaşır o, gülə-gülə.
*

- Mənası aydındı o qəmli səsin,
Onda yetim qalan bir eşq inləyir.
Yaxşı, bəs o fağır indi neyləsin?
İnsafsız, vicdanın buna nə deyir?
*
Gör, nə zamandır ki, fağır Qaraxal,
Vüsal həsrətiylə çırpınır müdam.
Nədir içindəki düyünlü əhval?
Sənin rəftarına doğrusu, matam.
*
- Yox-yox! Elə deyil, Rəna, əzizim,
Onu duyuram mən... Fəqət neyləyim,
Oxum daşa dəyib... Qorxubdu gözüm...
Bəhram da beləcə... Eh, necə deyim?
*
Köksünü ötürdü... Sonra astadan,
Öz nakam eşqindən söz açdı ona.
Sapa düzüldükcə o qəmli dastan,
Duydu varlığında gizilti Rəna.
***

Dolandı həftələr, dolandı aylar,
Yenə də duruldu, bulandı çaylar;
Tumurcuq can  verdi yaşıl yarpağa,
Çəmən bəzək vurdu ana torpağa;
Çiçəyin ətriylə yer nəfəs aldı,
Məst olub ətirdən xəyala daldı;
Qarışqa yükünü çəkdi yuvaya,
Tapdığı nemətə can qoya-qoya;
Əlvan köynəyini geyindi bağlar,
Çağladı yenə də büllur bulaqlar;
Çırpındı arzular, güldü arzular,
Günəşə boylandı körpə duyğular;
Gözəllik donunu geyindi bahar,
Utandı hüsnündən dağ başında qar.
Bəyaz gərdənini gün döyə-döyə,
Çəkildi sazaqlı, yelli qüzeyə.
Çırpındı arzular, güldü arzular,
Həyata boylandı körpə duyğular;
Əkinçi dən saldı qara torpağa,
Maldar köçüb getdi güllü yaylağa;

Fəhlənin gözündə artdı sevinci,
Alnını bəzədi tər inci-inci;
Tələbə imtahan verdi, qurtardı,
Alim də düşüncə gölünə vardı.
***

Çökür yer üzünə payız axşamı,
Aydınlıq süd kimi, bədirlənib ay.
Ətrafda sazaq var, çəkilib hamı,
Açılıb göylərin qapısı tay-tay.
*
Budur Yataqxana—Gənclik yuvası.
Musiqi çalan kim, dərs oxuyan kim.
Muğama qarışıb zəncinin cazı,
Sirli aləmi var burdakı səsin.
*
Qayıdır şəhərdən oğlanlar, qızlar,
Gəlib ayrılırlar, işarə, him-cim.
Qızlar arasında Mənsurə də var,
Onu "öz yerinə" ötürür Rasim.
*
Qaraxal eyvanda söykənib tara,
Gördü Mənsurəni Rasimlə birgə.
Çəkdi varlığını qısqanclıq dara,
"Budur Mənsurənin dediyi bəlkə?
*
Bir vaxt "nişanlıyam"-demişdi axı!
Başqa cür anladım onda mən bunu.
Ona kim öyrətdi könül yıxmağı?
Kim yoldan çıxartdı, biləydim, onu?
*
O gün də Rənanı acıladım mən,
İncitdim yazığı lap nahaq yerə.
Bəlkə çıxmaq üçün heyfini məndən,
Bu gün söz veribdi ona Mənsurə?"
***
Rəna çay qoyurdu onlar gələndə,
Baxdı pəncərədən gördü, qayıtdı.
Qızlar dağılışıb, səs çəkiləndə,
Durub ehmallıca onu oyatdı.
*

- Mənsurə, kim idi səni ötürən?
Niyə gec qayıtdın? Hardan gəlirdin?
Təbrik! Mübarəkdir! Artıq gəzirsən!?
Bir zaman axı sən belə demirdin?
*
Sən ki, Qaraxalı "duyurdun" əvvəl,
İndi o "duyğular" hanı, görünmür?
"...Unuda bilmirəm..."—deyirdin əvvəl,
Nooldu? Unutdun? Dillən görüm, bir!
*
- Yaxın qohumumdu o mənim, Rəna!
- Yalandı! Demirdin qohumum yoxdur?
- Bəsdir!... Bilirsənmi!... Doydurma cana!...
- Belə de! Bağışla! Bilmədim! Buyur!!!
***

Rasim itirmədi etibarını,
Küçədə gözlədi, getdilər qoşa.
Birgə düzəltdilər saatlarını,
Gecikə bilərlər sabah görüşə!
*
Gah sirkə getdilər, gah da kinoya,
Hər zaman, hər yerə birgə əsdilər.
Gah da tələsdilər, şənliyə, toya,
Parklarda, Bulvarda qoşa gəzdilər.
*
Rasim düz ilqardan, düz sözdən dedi,
Mənsurə açıldı gül-çiçək kimi.
Rasim: "ilk eşqimsən, gözümsən"—dedi,
İnandı fağır qız, lap gerçək kimi.
*
Dəyişdi Mənsurə o gündən bəri,
Gah dərsə gecikdi, gah da tez getdi.
Saata sancıldı həsrət gözləri,
Xəyalı Rasimə qoşuldu, itdi...
*
Mühazirə oldu, qulaq asmadı,
Zəhləsini tökdü seminar onun.
Elmi dərnəklərə ayaq basmadı,
Qanını qaraltdı dörd divar onun.
*

İmtahana girdi, kəsildi çıxdı,
Uşaqlar təsəlli verdilər ona.
Qaraxal lal oldu, dinmədi, baxdı...
Onun bu halına qarsıdı Rəna.
*
Eşidib-bilənlər, özü görənlər,
Hərə bir söz dedi... Susdu Qaraxal.
Gah gizilti keçdi, gah da basdı tər,
Dolandı fikirli, gəzdi key-kahal.
*
Hərdən son görüşü yadına düşdü,
Qıvrıldı qısqanclıq, doğuldu nifrət.
Sonra da məhəbbət oduna düşdü,
Dağ oldu yağ kimi, qovruldu nifrət.
*
Kədərin qatını açaraq bir-bir,
Şüştər üstə dindi gecəyarı tar.
Qırdı ümidini hər qara fikir,
Yaşadı bir müddət həyatdan bezar.
***

Axşamdır, ulduzlu, aylı bir axşam,
Oturubdu Fikrət iş otağında.
Əsəbi gəzinir, ah çəkir müdam,
Fikri-düşüncəsi dar ayağında.
*
Boğub həyəcanı, təlaşı bir an,
İşləmək istəyir... İşləmək çətin...
"Çoxqat inteqral"la əlləşən insan,
Bu axşam əlində qalıb "limit"in.
*
Oturur, kitaba sancılır gözü,
Heykələ çevrilir masa dalında.
Titrəyir əlləri, tirtəyir dizi,
Ona nə ad verim mən bu halında.
*
Durur ağır-ağır, durur yerindən,
Açır pəncərəni, küçəyə baxır.
Qopur elə bil ki, Yer məhvərindən -
Xəyalın qatında ildırım çaxır.
*

Dünənki hadisə getmir gözündən,
Gah həqiqət sayır, gah inanmayır.
Gah da şübhələnir özü-özündən,
Di gəl, heç nə ilə rahatlanmayır.
*
“Mehrab... Şorgöz gədə, vicdansız gədə,
Qızın saqqızını oğurlayıb ha!.
Qız işin içini indi bilməsə,
Baha başa gələr bu iş, çox baha!
*
...Mən aspirant idim, altı il əvvəl,
O isə şoferdi, taksi sürürdü.
Gül kimi arvadı, uşağı... Di gəl,
Nə pul gətirirdi, nə ev görürdü.
*
Düşdü dedi-qodu, bir il keçməmiş,
Özü-öz evinə söz-söhbət saldı.
Döydü haqlı-haqsız, içib-içməmiş,
Gəlin neçə dəfə sərili qaldı.
*
...Boşadı gəlini “namus, ar”—deyə,
Dilsiz körpəsini çöllərə atdı.
“Kişiyəm, namusum, adım var”—deyə,
Misli görünməmiş günaha batdı.
*
Halal arvadına böhtan atdı o:
“...ar-namus xəstəsi, ismət xəstəsi...”
Öz şirin aşına zəhər qatdı o,
Qısqanclıq xəstəsi, qeyrət xəstəsi.
*
...Aliment dərdindən işsiz gəzdi o,
Girlədi başını bazarda-zadda.
O, müftəxor gədə, vicdan oğrusu,
Min oyun çıxartdı yüz-iki adda.
*
Tələbə qızlara dadanıb indi?
Bu yeni rolunda qazansa, dəhşət!
Qıza dil oxuyub əclaf yəqin ki,
Basıb-bağlayıbdı, aldadıb əlbət.”
*

Səs gəldi, xəyaldan ayrıldı Fikrət,
Mənsurə sevincək otağa girdi.
Soyuq qarşılandı bu dəfə, fəqət,
Fikrəti içindən qurd gəmirirdi.
***

Sərin yaz axşamı, qaynayır Bulvar,
Dayanıb Mənsurə, nədənsə, təkdir.
Görüşə gəlibdir, qəmgin, intizar,
gözləyir Rasimi. O, gələcəkdir.
*
Dolaşır başında qara fikirlər,
Ləpələr aparır baxışlarını.
Yaxır udlağını xəcalət, qəhər,
Talayır xəyanət könül varını.
*
Çəkir ürəyini axşamkı söhbət,
Dayısı evində deyilən sözlər.
Hər deyilən kəlmə ağır bir töhmət,
Bir cüt, qan içində tüyünən, gözlər.
*
Üşüdür içini sərt rüzgar kimi,
Üzünə sillə tək çırpılan nida!
Bu cür tanımayıb heç vaxt Rasimi,
İndi gör nə deyir qəfil bir səda.
*
Əriyir varlığı xəyal içində,
Dayanır önündə əsəbi Fikrət.
Köçür ümidləri şübhə köçündə,
Doldurur içini dağ boyda nifrət.
*
Əsir yarpaq kimi zərif bədəni,
Yaxın keçmişini varaqlayır o.
Yad edir Rasimlə olub-keçəni,
Ötən xoş anları soraqlayır o.
*
“Dayım nələr deyir? Nə Mehrabdı bu?
Bəlkə yanılır o? Oxşadır onu?
Əgər o, Mehrabsa, bəs Rasim kimdir?
...Hər kimsə, ən böyük qəbahətimdir...
*

Yenəmi aldandım şux baxışlara?
Ovladımı yenə qəlbimi gözlər?
Oxum bu dəfə də dəydi daşlara?
Bu nədir, hey məni xəyanət izlər?”

*

Ayrılır xəyaldan, saata baxır,
Ötür dəqiqələr... Gecikir Rasim.
Yenidən içində ildırım çaxır,
İnləyir qəlbində yaralı bir sim.

*

Vaxt keçir... Qız dönür Yataqxanaya,
İsladır könlünü qəm yağışları.
Gedir, hər ötənə göz qoya-qoya,
Axtarır Rasimi hey baxışları.

*

Uzanır yatağa, yumşaq yun döşək
Yaylı çarpayıda taxtaya dönür.
Qarşı binadakı görünən tək-tək,
Yanan işıqlar da nəhayət, sönür.

*

Qor dolub içinə, çırpınır xəyal,
Karıxır təkliyin səssizliyindən.
Tar da dinmir daha, bezib Qaraxal,
İçindəki qəmin hədsizliyindən.

*

Durur pəncərəyə söykənir səssiz,
Bu gün tar səsinə ehtiyac duyur.
Fəqət səs-səmir yox, qalır kimsəsiz.
Qaraxal kədərli, qəmli, uyuyur.

*

Doğub pıçıltıdan ucalır bir səs: -
“Ərit lal sükutu, dillən, ərit tar!
Tələs, qurban olum, amandı, tələs!
O şaqraq səsinə ehtiyacım var!

*

Azmışdım elə bil, dumanda, çəndə,
Dolaşan kələfdi duyğularım, tar!
Pərdələr gözünə qəm çiləndə,
Qaysaq bağlayırdı yaralarım, tar!

*

Əsdi acı rüzgar, soldu baharım,
Öldü beşikdəcə körpəcə ilqar.
İçimdəki simlər dartıldı tarım,
Dillən, qoy inləsin o simlər də, tar!
*
Gurla, dəniz kimi, əs, külək kimi!
Çağla sellər kimi, bir anlığa, tar!
Xəzan soldurduğu bir çiçək kimi,
Ölən arzuları özümə qaytar!
*
Susma, könlüm kimi titrə sarı sim!
Dillən, qəmli səsin inildəsin, tar!
Boğulur içimdə arzum, həvəsim,
Al məni, gəl, məni bu dardan qurtar!"
***

Şəhər bər-bəzəkli, küçələr qaynar,
Bayram libasını geyinib hamı.
İnsan dalğa-dalğa, kükrəyir Bulvar,
Göyə nur çiləyir şəhər axşamı.
*
Al-əlvan fişənglər sancılır göyə,
Sonra da tökülür fəvvarələr tək.
Yol verir dənizdə yolçu gəmiyə,
Göz qırpan mayaklar, səyyarələr tək.
*
Yüksəlir hər yandan tar-kaman səsi,
Əriyir uzaqda şən qəh-qəhələr.
Dənizin qabarır-enir sinəsi,
Qovur bir-birini şıltaq ləpələr.
*
İzdihamdan kənar, xalqdan aralı,
Əlləri qoynunda durub Mənsurə.
Məchula zillənib, donub xəyalı,
Sanki heykəl olub o, birdən-birə.
*
Nədir xəyalında gəzib dolaşan?
Gözü bir nöqtədə niyə donubdur?
Nədir kipriyində o, parıldaşan?
Sürmə əvəzinə şehmi qonubdur?
*

Niyə danışmayır, niyə gülməyir?
Ona qəm çeynədən söylə, nədir, nə?
Nədəndir bəs bölən düzgün bölməyir?
Sevinci birinə, qəmi birinə.
*
O mehriban qızın, zərif gözəlin,
Niyə taleyi kəm, bəxti kəm belə?
Məhəbbət! Payında əsdimi əlin?
Niyə çulğalayıb onu qəm belə?
*
Məsum bir nəvaziş, nədəndir, bəzən,
İnsana məhəbbət kimi görünür?
Odlu bir eşq isə, əllərdə gəzən,
Qara pula dönür, kirə bürünür.
*
Kiçik bir hörmətə, adi bir sözə,
Ürək cavab verir saf məhəbbətlə,
Bəzənsə şövq ilə közərən közə,
Məhəl də qoymayır, susur o, şəstlə.
*
Bir də görürsən ki, qəfil bir səsə,
Çılğın bir gülüşə aldanır ürək.
Uğursuz yolları o, bir nəfəsə
keçir... Ümidinsə qanadı kövrək...
*
Bəzən tapdığını itirir insan,
Bir inciklik üstə, ya bir söz üstə.
Bəzən səadəti o, tapır asan,
Əvvəl duymadığı yabançı kəsdə.
*
Hərdən dil deməyir, ürək deyəni,
Tüstüsüz, alovsuz yanır duyğular.
Sonra da gəmirir içindən səni,
Yalançı vədlərə, sözə uyğular.
*
Birdən elə olur bircə görüşlə,
Tüyünüb, tələsik evlənir biri.
"Raşot"a söykənən o tək görüşlə,
Bağlanır əbədi könül dəftəri.
*

Bəzən insan dinmir, susur nədənsə,
Elə bil ki, qorxur özü-özündən.
Dünya dağılacaq sanki o dinsə,
Hamı inciyəcək onun sözündən.
*
Eləsi də var ki, gözü kölgəli,
Qorxu zülmətində əriyir günü.
Yıxır öz evini, yıxır öz əli,
Qısqanclığa qurban verir ömrünü.
*
Eləsi də var ki... Necə deyəsən?
Mümkünmü hər şeyi açıb-söyləmək?
Bir də ki, bunları saymasam da mən,
Düşünən tez duyar, artıqdır demək.
*
Söhbəti qurtaraq qələm, burda gəl,
Mənsurə də getmək istəyir, odur!
O da düşüncədən artıq çəkdi əl,
Sən də fəlsəfənə burda yekun vur.
*
O gedir, izdiham udur onu, bax!
Könül, gəl, izləyək o bəxti kəmi.
O gedir aramla, gedir susaraq,
Süzülür gözünə kədərin nəmi.
*
Yarır dalğa-dalğa izdihamı o,
Baxışlar sancılır nəmli gözlərə.
Qəmlə qarşılayır bu bayramı o,
Cürbəcür fikirlər söyləyir hərə.
*
Qəflətən dayanır, durur yolunda,
Yox! Donur yerində, dayanır—dedim.
Tutub rus qızının çılpaq qolundan,
Qonşu xiyabanla yeriyir Rasim.
*
Baxır... Gözlərində gilələnir yaş,
Qışqırmaq istəyir, səsi çatmayır.
Dönür otağına o yavaş-yavaş,
Qaralır gözləri... Dizi tutmayır...
***

Göy ulduzlu, gecə sərin,
Şəhər nura boyanıbdı.
Səsi gəlir ləpələrin,
Dəniz nə tez oyanıbdı?
*
Yatır şəhər, yatır hələ,
Çil gecənin qucağında.
Ay da işvə satır hələ,
Göz qırpanlar yığnağında.
*
Meh tərpənir, dinir yarpaq,
Xısın-xısın pıçıldaşır.
Dan ağarır... Gecəyə bax,
Daban alıb uzaqlaşır.
*
Nur süzülür pəncərədən,
Mənsurədir, yatır həmən,
bəd röyalar qucağında,
Sərt xülyalar qucağında.
*
Tibb bacısı daban üstə,
Göz gəzdirir yatan üstə,
Düzəldərək o, yorğanı,
dönür geri.
Süzür bir də o, yatanı,
dönür geri.
*
Dinlə könül, bir səs gəlir,
Sənə tanış palatadan.
İniltili ah yüksəlir,
Kimdir elə qəmə batan?
*
Mənsurədir, inildəyir,
Qəmli-qəmli nəğmə deyir.
Xəyal küsüb, ümid hanı?
Uçub könül xanimanı.
*
"Can ağrılı, könül qəmli,
həm naləli, həm sitəmli,
Eşqim nakam, gözüm nəmli,
Yüz ahım var, amanım var.

*

Ürək susub, dillənməmiş,
Coşub-daşıb sellənməmiş,
Üstümə nur çilənməmiş,
Çiskinim var, dumanım var.

*

Bəxtim küskün, tale qara,
Bağrım olub para-para,
Nə ümidim tanışlara,
Nə dostlara gümanım var”.

*

Ağlama, gözəlim, küsmə bəxtindən,
Dağlama məni də bu ahınla sən.
Bil ki, hamar deyil məhəbbət yolu,
Onda yoxuş olur, sıldırım olur.

*

Sevgi dedikləri o ülvi əməl,
Aşiqdən əhdinə sədaqət istər.
Çılğın ehtirasdan, atəşdən əvvəl,
Əyilməz iradə, mətanət istər.

*

Səadət gülməyir hər zaman üzə,
Aşiqin üzülməz dərdi-səri var.
Kərəmin ürəyi dönəndə közə,
Dağları əridən nalələri var.

*

Məcnunun boynunu zəncirə verən,
Yusifi zindanda çürüdən nəydi?
Fərhadı külünglə dağa göndərən,
Şirini şam kimi əridən nəydi?

*

Demə ki, “yıxıldım eşqin buzunda”,
Qəm yemə, yıxılan yerində qalmaz.
Darıxma, vaxt gələr, gülər arzun da,
Dar gün ötəridi, əbədi olmaz..

*

Xəyanət çəksə də yüz yerdən dara,
Kiri, ağlamaqla azalmaz kədər!
Cavan ürəyini üzmə boş yerə,
Tökmə göz yaşını, ağlama, yetər!

*

Kəs bu hıçqırtını, bir dinlə məni,
Gör sənə nə deyir könül, Mənsurə!
Pəncərən döyülür, axtarır səni,
tələbə dostların, di gül, Mənsurə!
*
Gəl aç pəncərəni, dostunu tanı,
Odur, lap arxada durub Qaraxal.
Tərpən, bağrına bas, gözəl Rənanı,
Qədirli dostların sovqatını al!
***

Üfüqlər tər-təmiz, hər tərəf əlvan,
Üzür mavilikdə bulud parçası.
Baxdıqca şövq ilə aləmə insan,
Nə lövhələr cızır xəyal fırçası!
*
Atlas paltarını geyinib bağlar,
İlin bahar fəsli—qız vədəsidi.
Oyanır yuxudan körpə duyğular,
İşvə vədəsidi, naz vədəsidi.
*
Nəğməkar bir könül, çağlar bir həvəs,
Gülşən təbiətdən nələr duymayır!
Ülvi gözəlliklə qidalanan kəs,
Zinətə, sərvətə məhəl qoymayır.
*
Çəkilib xəyalın bir guşəsinə,
Gözəllik önündə donub Qaraxal.
Susub, qulaq asır könül səsinə,
Fikirlər çalpaşıq, baxışlarsa lal.
*
Nifrət hakim olub, məhəbbət məhkum,
Üz-üzə dayanıb qılıncla qalxan.
Nifrət hökm eləyir: “Sus, ağzını yum!
Mütilikdi səni içində boğan!
*
Həlim təbiətin əritdi səni,
Gecdi, uduzmusan, başa düş bunu!
Acizlik içindən çürütdü səni,
Anla məhəbbətin baş qanununu!
*

Çəkil bu sevdadan, zərif hissiyyat!
Unut—bu cəzandır—olub-keçəni!
Müti bir varlığı qorumaz həyat,
Yaşada bilməzdi bu halda səni!
*
Söylə son sözünü, xitam dəmidir!
Danış məhəbbətin yüksək adından!"
"Cəzaya məhkumam, adım müqəssir,
Kəsildim ən vacib bir imtahandan.
*
Fəqət ölməmişəm, durmuşam, sağam!
Odur, o silinməz iz də mənimdir.
Zindanda olsam da, yaşayacağam,
Tüstü də mənimdi, göz də mənimdir.
*
Məni qorxutmayır zülmət qəfəslər.
Bu, varlıq yolumdur, dönməyəcəyəm!
Məni hədələyən müxənnət kəslər,
Əbəs çalışmasın, sönməyəcəyəm!
*
Bir bunu etiraf edirəm ancaq,
Sakit bir könüldə mən doğulmuşam.
Zəif olmuşamsa, fəqət yaxşı bax,
Aciz olmamışam, körpə olmuşam.
*
Ərimədim xeyir, sən deyən kimi,
Daha da bərkidim bu yollarda mən.
Büdrədi ayağım, büdrəyən kimi,
Yapışdı son ümid, tutdu əlimdən.
*
Zillətə tuş gəldim körpə yaşımdan,
Bu müdhiş məchulda azmadım amma.
Həsrət qoz sındırdı müdam başımda,
Əhdi-peymanımı pozmadım amma.
*
Sığnacaq axtaran bir dərviş kimi,
Döydüm qapısını qəmli bir qəlbin.
Göynədi yarası duycaq səsimi,
Çaşdım, boğazımda qaldı mətləbim.
*

Fəqət qaytarmadı o, məni geri,
Bir küncdə yer verdi sığındım, qaldım.
Qovdum gəlişimlə, qəmi, kədəri,
Odlu ahlarını çöllərə saldım.

*

Dindi ürkək-ürkək aldanmış könül,
Ürəyin üstünə sevinc ələndi.
Zülmət qəfəsinə salınmış könül,
Mənim gəlişimlə nura bələndi.

*

O güldü, sevindi, boy atdım mən də,
Yaşadıq baş-başa, cüt duyğu kimi.
Döyüldü qapısı... Səs eşidəndə,
Atıldım bir oyun muncuğu kimi.

*

Bəli, atıldım mən... Fəqət bu nə sirr?
Nə anladım bunu, nə qana bildim...
Cəzaya məhkumam, adım müqəssir,
Sevda imtahanı, girdim, kəsildim.

*

Yenə də deyirəm: - zülmət qəfəslər,
Çalışmasın əbəs, ölməyəcəyəm!
Çəkilsin yolumdan solğun həvəslər,
Odumu heç kimlə bölməyəcəyəm!”

*

Gedir yavaş-yavaş, gedir Qaraxal,
Gözündə uyuyan, o yatan nədir?
Alıb hisslərini əlindən xəyal,
Özü də bilmir ki, haraya gedir.

*

Gedir... Yox, dayanır. O, dönməlidir.
Qarşıdakı həmin xəstəxanadır.
Nifrət: ”Dur! Geri dön!”
Eşq: “Gözlə bir!
Onun dediyi yol burulğanadır!”

*

Gözləyir... Yorulur, qayıdır geri,
Sarır üşütmələr canını onun.
Oxşayır pərdəni, simi əlləri,
Bu da qızdırmayır qanını onun.

***

Həmin xəstəxana, tanış pəncərə,
Şüşələr arxadan pərdələnibdi.
Qonubdur qəm yükü nəmli gözlərə,
Ağrılı bir cana dərd ələnibdi.

*

Xəyalı göylərdə... Gözü yol çəkir...
Nəmli naz balışa dirsəklənibdi.
Qaldırır qatını keçmişin fikir,
İnamı, ümidi gərdəklənibdir.

*

Dartılıb əsəbi, dartılıb tarım,
Sönür içindəki ümidlər bir-bir.
“Hanı dünya boyda səadət varım,
Göyəmi çəkildi? Yerəmi girdi?
Niyə saf olmadım dağda qar kimi,
Aldandım Şimşəyə buludlar kimi.
Vicdanım, namusum, ismətim, arım,
İlk eşqim, ilk sözüm, ilk etibarım,
O dağlar misalı arzum, amalım,
İçimdə ucalan cahi-cəlalım,
Möhnət bağçasından ah dərə-dərə,
Nə tez xəzəllənib töküldü yerə?
Niyə yaşayıram? Niyə ölmədim?
Mən ki, ömrüm boyu deyib-gülmədim.
Azdım məhəbbətin dolanbacında,
Ürəyim sədaqət ehtiyacında.
Kimə əl uzatdım, əlimə vurdu,
Kimə könül verdim, göyə sovurdu,
Eşqimi, hissimi, sədaqətimi,
Tapdadı, çığnadı dəyanətimi.
Hər yoldan ötənə yar-yoldaş dedim,
Hiyləgər əclafa uca, baş dedim.
Oduma yananı sevə bilmədim,
Dərdimi qananı görə bilmədim.
Niyə kor kəsildim?
Üzünə güldüm
Alçağı, əyyaşı saf adam bildim.
Neyləmişdim ona, nə üçün, nədən
ağlar qoydu məni... Göz yaşım dən-dən,
damla-damla axdı, axdı göl oldu,

Od alan eşqimi,
güclü sel kimi
söndürdü, soyutdu... aldı, apardı...
İçimi, çölümü çaldı, apardı.
Apardı nəğməmi, dilim lal oldu,
Yenəmi həmdəmim qiylü-qal oldu?
İstəmirəm daha
fəryada, aha,
qan qusan qəmlərə,
nəm sitəmlərə
pəriskar olmağı istəmirəm mən!
Dərdəcər olmağı istəmirəm mən!
Qoy pərdə çəkilsin gözümə mənim,
Qəlbimə, hissimə, sözümə mənim.
Bir daha xəyanət görməsin gözüm,
Bir daha həqarət görməsin gözüm.
Bir də fırıldağa uymayım gərək,
Hiyləni yaxına qoymayım gərək".

*

- Hiylə yox! Amma ki, sevgisiz ürək,
Bu gözəl dünyada nəyinə gərək?
- Rəna? Haçan gəldin? Çoxdan burdasan?
Nə yaxşı ki, gəldin, tək darıxırdım.
- Bayaqdan dayanıb sənə baxırdım.
A-az! Nə olubdu? Buludlardasan!
Yaman sözlərin var,
qatarbaqatar
elə düzürsən ki, sanki şairsən.
Düzü lap kövrəldim dinlədikcə mən.
Niyə darıxırsan, nə olub bəyəm?
Harana yaraşır bunca qüssə-qəm?
Bir də ki, həyatdı, nə desən olar,
Ömrün açılmamış min düyünü var,
Açıq gözlə baxsın həyata insan!
Nə çıxar ötmüşü varaqlamaqdan?
"Keçənə, bil, güzəşt"-deyib babalar,
Çalış pis şeyləri yadından çıxar.
Arzudan, diləkdən zərrin qanad tax,
Həyati gerçəyin gözünə düz bax!
- Eh... Nə danışırsan? Kimə deyirsən?
Unuda billəmmi bu ağrıları?

Sinəm nələr görüb, yaxşı bilirsən.
Dindirib od vurma, qoy susum barı.
 - Yox, Mənsurə, yox! Unutmalısan,
Sabahın əlindən bil, tutmalısan.
Unudub kədəri, qəmi gərək sən,
Büllur bir sevgiyə cavab verəsən!
Elə bir eşqə ki, xalları rəng-rəng,
Hər bir guşəsində yeni bir ahəng;
Elə bir eşqə ki, göylərdən təmiz,
Ləpəli, dalğalı, çılğın bir dəniz.
Elə bir eşqə ki, qar-boran görüb,
Sənsiz bu dünyanı boş, viran görüb.
Elə bir eşqə ki, ağlayıb, gülmüş,
Hər cür kəm-kəsirdən qopmuş, üzülmüş...
 - Dayan! Saxla görüm! Nədir bu sözlər?
De, kimdən öyrəndin bu tərifi sən?
Kimindi dediyin "həsrətli gözlər"?
Bu gün gözlərimə çox şad dəyirsən,
 - Bəli, sevinirəm, gülürəm bu gün,
Gəlmişəm səni də güldürmək üçün.
Mənsurə, əzizim, bəxtin sökür dan,
Qanad tax, arzunun zər qanadından!
 - Yaxşı, görək, a-az! Nə olub sənə?
Açıq danışsan a, bu nə pərdədir?
 - Yox, onu görməzsən!
 - Yaxşı da, yenə!
 - Açılası deyil, dərin yerdədir!
O getmək istəyir. Fəqət Mənsurə
kəsir qarşısını, buraxmır onu.
 - Asılma yaxamdan sən, nahaq yerə,
Yaxşıca bilirsən tərs olduğumu.
Üz vurma, Mənsurə, "deməərəm" dedim,
Tezliklə bilərsən, burax mən gedim.
Baxır gözlərinə, sonra çarəsiz,
Çəkilir qapıdan yana Mənsurə.
Rəna göz vuraraq çıxır... Fəqət tez
qayıdır... Açıqdır yenə pəncərə.
Dayanır Mənsurə, susur anbaan,
Çəkilir yenə də fikri, xəyalı.
Yenə bir sızıltı qopur canından,
Beyni dumanlanır, pozulur halı.

Sonra çarpayıya yönəlir səssiz,
Dolaşır başında fikirlər bir-bir.
Açır bağlamanı, açır həvəssiz,
İştahı varmı ki? İştah nə gəzir?
Birdən gözlərində od parıldayır,
Fikrinə, hissinə gur işıq yayır.
Ümid dalğa-dalğa, ürək bir ümman...
İndicə üzündən dərd-ələm daman,
Uzaq xəyallardan səadət uman,
Küskün bir könüldə bu sevinc hardan?
Ulduzmu göründü gün-günortadan?
Kimin nəfəsiylə isindi görən?
Hansı mizrab ilə o, dindi görən?
Susuz bir səhraya şehmi çiləndi?
İşıqsız bir evə nurmu ələndi?
Onu dilləndirən, onu güldürən,
Kədəri, ələmi boğub öldürən,
De, hansı qüvvədir?
Söylə bir nədir?
Kimdəndir əlində tutduğu kağız?
Nədir oxuduğu o, ağız-ağız?
Oxucum, gəl bunu sormayaq ondan,
Özümüz oxuyaq sətirbəsətir.
Mən olanı deyim, sən şerə gətir:
"Salam. Qaraxalam.
Bağışla, Mənsurə,
bəlkə boş yerə
sənə baş ağrısı verirəm... Ancaq
bunu yazmalıyam olsa da nahaq.
Qınama, dərdimin tərcümanıyam.
Odur ki, bir qədər həyəcanlıyam,
titrəyir varlığım, əsir bədənim.
Əllərim titrəyir,
dilim büdrəyir,
Büdrəyir sözüm də, fikrim də mənim.
Xəyalım ötəndən nəm çəkə-çəkə,
Yenə qayıdıram həmin söhbətə.
Allaha sirr deyil, deyirəm bəlkə,
eşqimin oduyla,
"hə" umuduyla
İşıq sala biləm qəlbizülmətə.

Ancaq... “hə” desən də,
bil, deməsən də
sevəcəyəm səni ömrüm uzunu.
Tamam ciddiyyətlə deyirəm bunu.
Onda bacarmadım... Titrədi səsim,
Qovruldu varlığım, yandı nəfəsim.
Sənisə üşütdü bu odlu naləm...
Yetdim vüsalına yalnız xəyalən...
Hər səni görəndə bədənim əsdi,
Qılınc baxışların dilimi kəsdi.
Dindirə bilmədim,
deyib-gülmədim,
susdum, öz canıma yağı kəsildim,
tənələr altında qaldım, əzildim.
Güldü dost-düşmən də,
yeri düşəndə
üzümə də vurdu naşılar bunu,
başqa birisinə yar olduğunu.
Coşdu dalğa-dalğa kinim, nifrətim,
Di gəl, sənə görə öldü qeyrətim.
Düzü, unutmağa çalışdım. Ancaq
mümkünmü belə bir dərdi unutmaq?
“Unudum” dedikcə, tapdım yenidən,
Haraya getdimsə, xəyalımda sən.
Gözümdə oyandın,
gözümdə yatdın,
yuxuya gedəndə yuxuma girdin,
şirin röyalardan bəzən oyatdın.
Sevinc gözləyirdim, kədər gətirdin.
Neynim, dönəmmədim, dönə bilmədim,
dözdüm, dinmədim.
Sən verən qəmi də şərbət tək içdim,
içdikcə içdim.
Bəzən titrədim də—qorxudan deyil—
həyəcanımdan.
Bəzən inlədim də—ağrıdan deyil—
həyəcanımdan.
Bəzən “dostum” dedim, tənə edənə,
Yaltaqlıqdan yox,
Səni sevdiyim üçün!
Əclafın yanında pislədim. Yenə,

Alçaqlıqdan yox,
Səni sevdiyim üçün!
Dözdüm hər tənəyə, sözə, töhmətə,
Dözdüm ürəyimi didən hiddətə.
Həsrət çənə döndü,
gözümə endi,
Qəlbim kökdən düşmüş bir simə döndü.
Gül açan diləyim yandı, qaraldı...
Zillət qılıncını başıma çaldı.
Dözdüm... Məhəbbətim ölmədi ancaq.
Qorudum, saxladım... Sən ümidə bax!
Dedim, solan çiçək bir gün açacaq.
İnamla yaşadım, inamla, bəli,
İnamla yetişdi eşqimin əli,
bu günkü ümidlər səltənətimə!
Güləcəkmi, bu gün, görən, bəxtimə?!"

*

Oxudu, dünyadan aralandı o,
Oxudu, ikiyə paralandı o.
Titrədi fikirlər qasırğasında,
İki sim dil açdı könül sazında.
- Doğrudanmı məni sevir Qaraxal?
Bu onun xəttimi? Onun səsimi?
Doğrudanmı gülür üzümə vüsal?
Duyduğum hənirti de, nəfəsimi?
Budur, addım səsi...
Kişi kölgəsi...
Nə qədər ucadır, nə qədər böyük!
Nədir sinəsində daşıdığı yük?
Kimdir, ətəyindən tutmaq istəyən?
Kimdir, yazıq-yazıq "sevirəm" deyən?
Kimdir, əl uzadır, əli çatmayır,
Osa, dinməz durub, əl uzatmayır.
O baxır gözümə, baxır vüqarla,
Baxır ümid dolu bir intizarla.
Axır, bədənimə axır, baxışı,
Açılır qəlbinin min-min naxışı.
Mənə əl uzadır o, mənə yalnız.
Eşqinə "yox" sözü deyənə yalnız!
İndi mən neyləyim? Nə deyim ona?
Azmış məhəbbətin məzlum oğluna.

Mən ona taymıyam? O, uca, yüksək!
O, dağdır. Yanında mənsə, təpə tək!
Bir də ki... Ona mən "hə" desəm əgər
Gözümə durmazmı olub-keçənlər?
Mənalı sandığım ötən günlərim,
"Rasim"lə qol-boyun keçən günlərim,
Parkların qaranlıq guşələrində,
Şəhərin ən ucqar, hicra yerində,
öpüşlər verdiyim bu dodaqlarım,
bu şahid gözlərim, bu yanaqlarım
"sevirəm" söyləsəm, alışmazmı bəs?
Yanıb, torpaqlara qarışmazmı bəs?

*

Sönmüşdü, alışdı yenə yandı, o,
Bir idi ikiyə paralandı, o.
Ürəyi isindi eşqin odunda,
Dondu xatirələr, dondu yadında.
Büdrədi fikirlər qasırğasında,
İki sim dil açdı könül sazında.

***

Bakı. Yaz axşamı, səfalı Bulvar,
Yenə xiyabanlar çiçək-çiçəkdir!
Burda hər gözəllik bir aləm açar,
Salxım fəvvarələr gör neçə rəngdir!

*

Söyüd saçlarını töküb üzünə,
Həzin gilavardan daraq istəyir.
Nərgiz sürmə çəkib xumar gözünə,
Şehli dodağına boyaq istəyir.

*

Bu ülvi gözəllik qoynunda yenə,
Başqa bir ahəng var, nəğməli, səsli.
İnsan təbiətin gözəlliyinə
Min-bir məna verib, insan nəfəsli.

*

Şəhər axın-axın gəlir sahilə,
Ağbirçək Xəzərin dalğaları tək!
Onu duyan könül gəlməzmi dilə?
Axı gözəllikdən zövq alır ürək!

*

Sahil xiyabanın boyunca bu dəm,
Bir cüt kölgə gəzir, tanış kölgələr.
Gah hürküb ayrılır yad hənirtidən,
Gah gəlib birləşir, durur bir qədər.

*

Biri dağ gövdəli, polad ürəkli,
Biri al yanaqlı, lalə kimidir!
Biri gen sinəli, meydan kürəkli,
Biri gül üzündə jalə kimidir!

*Bakı*

## *Lal*

*1*

Saçlar qara,
qaşlar qara,
od çilənib baxışlara!
Dodağına qonub sükut,
qonan kimi donub sükut.
Nə dərdini deyə bilir,
nə qəmini yeyə bilir...
Dildən zəlil, sözdən yanıq
bir gül üzlü lal yaranıb.
Nə deyəsən yaradana!
Bu cür oğul doğan ana
müqəssirmi doğduğuna?
Deyəmmərəm, məchuldu bu.
Fəqət haqdı doğulduğu.
Bir də...
Min bir sual dolu
qəribə bir oğuldu o.

*2*

Yazıq ana
lal oğluna,
ağzı-dili yana-yana,
kəlmə-kəlmə, xana-xana,
ilmə-ilmə dil öyrədir...
Gözlərini silə-silə,
bilə-bilə, elə-belə
eyni sözü təkrar edir.
Fəqət susur, danışmır lal.
Sönür ümid, küsür xəyal.

*3*

Yazıq ana
istəyirdi hamı kimi,
dil öyrədə uşağına.
Günlər ötdü...
Lallığıyla
dil öyrətdi uşaq ona.

*4*

Yaşadı lal, böyüdü lal,
yetginləşdi tamam-kamal.

Mətləbini ilmə-ilmə
dırnağıyla toxudu o;
nəğməsini kəlmə-kəlmə
barmağıyla oxudu o.
*5*
Sahil bağı.
Axşam çağı...
Skamyada düşüncəli,
çənəsində qoşa əli,
səs-səmirsiz oturmuşdu,
gözlərində sonsuz maraq...
Bu arada
yol sarıdan
bir qız ona yanaşaraq
söz soruşdu.
Sanki quşdu,
dik atıldı,
qaş çatıldı,
qəribə bir görkəm aldı.
Elə baxdı, elə bil ki,
cazibəli bir şəkildi.
Anlamadı qız deyəni...
Od götürdü burda məni.
Başa düşdü, qız pərt oldu,
bu da Lala bir dərd oldu.
Nəsə demək istədi o, bacarmadı,
əllərini açdı, bükdü, çarpazladı...
Sonra döndü öz yerinə,
qan sağıldı gözlərinə.
Ətrafına boylandı Lal,
göyə baxdı!
Nəyə baxdı?!
Niyə baxdı?!
Deyəmmərəm.
Heykəl kimi dayandı Lal.
İstədim ki, yaxın duram,
dilindəki düyünləri
bir-bir açam, bir-bir qıram,
danışdıram.
Baş tutmadı.
Danışmadı.

*6*
Döymə sənət, danışan əl!
Vurğun ürək, nurlu əməl!
Dilə gəlir mis əlbəəl,
Sən Laldakı qüdrətə bax!
Qüdrətə yox, heyrətə bax!
*
Ara-sıra çəkic səsi,
Yaşıl-sarı od şöləsi—
Yanır könül şikəstəsi—
Qamarlayır sel Saranı,
Ağlar qoyur Xançobanı.
*
Usta döyür—
asta döyür,
adda-budda əzir, əyir.
Sevə-sevə əzizləyir
mis gövdəli bir ceyranı.
Sanki deyir: balan hanı?
*
Usta döyür sətir-sətir,
Qonur qumda karvan gedir.
İlğım doğur...Çinar bitir,
səhra dönür gülüstana,
yanğın düşür odlu cana.
*
Çəkic qalxır, çəkic enir—
qartal süzür, pələng dinir,
maral hürkür, kəklik sinir,
haray düşür dağa-daşa,
boz turaclar qalxır qoşa.
*
Sahil meşə, yamac da dik,
Yaşılbaşlar bölük-bölük.
o taydakı körpə əlik
elə baxır yetim-yetim,
od yalayır buz diqqətim.
*
Ana-bala, mis üstündə,
baxır yola, mis üstündə.

Əzab varmış kündə-kündə—
Ata itgin, oğul da lal;
Gözdə qübar, dildə məlal.
*
Durna uçur qərib-qərib,
qanadını açıb, gərib...
Nalə çəkir Kərəm, Qərib
misin qızmar səhrasında;
çəkiclə od arasında.
*
Bir ah qopur al dodaqdan,
qəm süzülür kal dodaqdan.
Busə dərir Lal, dodaqdan—
xəyal şirin, vüsal uzaq,
nə biləsən nə olacaq...
*
Həsrət qonur nəmli gözə,
Fəryad hopur dilsiz misə.
Çəkicburnu düzə-düzə
öz ömrünü toxuyur Lal;
Gizli-gizli oxuyur Lal.

*7*

Bir ailə tanıyıram,
başdan-başa sehir-sual.
Bir ailə tanıyıram,
arvad da lal, kişi də lal.
*
Tək lal deyil bu bədbəxtlər,
həm də kardı, sən dərdə bax!
Burda laldı xeyirlə şər,
Burda kardı haqla nahaq.
*
Ər cüssəli, arvad gözəl,
biri aydı, o biri gün.
Paslı qulaq, qıfıllı dil,
baxış da ki, düyün-düyün.
*
Nə dünyadan ad umurlar,
nə taledən giley-güzar.

Nə tamahda payları var,
nə də xiffət bilir onlar.
*
Bir ailə tanıyıram,
Bir ailə, sehir dolu.
Bir ailə tanıyıram,
Bir qönçədi, nur yuxulu.

*8*
Ev-evə sökəkli, dəhliz-dəhlizə,
Ülfət ola bilməz ülfətimiz tək.
Ayrı cür qayğıdı—kara, dilsizə
yaxşı qonşu olmaq—dözəsən gərək.
*
Gərək dünya boyda hövsələn ola
ki, Lalla oturub-dura biləsən.
Ürəyin arzundan gərək gen ola,
Xudbinlik belini qıra biləsən.
*
Qaşını, gözünü sahmana sal ki,
qaş-gözdən oxuyur lallar ürəyi.
Amandı, kipriyi ehmallı çal ki,
kiprik səhv eləyər, oxlar ürəyi.
*
Əlin laldan ötrü əl deyil daha,
hər barmaq durumu—dil dönümüdü.
Lalın sifətinə diqqətlə bax ha!
Çünki hər cizgisi söz dilimidi!
*
Qaş-qaşa çatılsa, bir mətləb üstə,
qanıb-qanmasan da, qaşını tərpət.
Durub höcətləşmə hər mətləb üstə,
düzsə də, səhvsə də başını tərpət.
*
Ev-evə sökəkli, dəhliz-dəhlizə,
Ülfət ola bilməz ülfətimiz tək.
Ayrı cür qayğıdı—kara, dilsizə
yaxın qonşu olmaq—dözəsən gərək.
*
Yox, elə bilmə ki, günün pis keçər,
qapıbir, üzbəüz qonşun laldısa.

Hər səhər ömrünə xoş dilək biçər,
qapıbir, üzbəüz qonşun laldısa.
*
Arzusu bir yana, hələ üstəlik
lal səninlədirsə, qəm çilik-çilik.
Darılma, külfətin olsa bir bölük,
qapıbir, üzbəüz qonşun laldısa.
*
Səksəkə yurd salar qulaqlarında,
Başqa cür səyriyər dodaqların da!
Lal dili öyrənər uşaqların da,
qapıbir, üzbəüz qonşun laldısa.
*
Könüllü-könülsüz, inaddan əl çək,
Üzünə təbəssüm, dilinə bal çək.
Ürəyin güləcək, gözün güləcək
qapıbir, üzbəüz qonşun laldısa.
*
Minnətsiz yaxşılıq etməyi öyrən,
Umusuz köməyə yetməyi öyrən,
İstəyin əksinə getməyi öyrən,
qapıbir, üzbəüz qonşun laldısa.
*
Pis sözü dilindən didərgin elə,
Saxta səxavəti qov, sürgün elə.
Ədanı evindən süpür, gen elə,
qapıbir, üzbəüz qonşun laldısa.
*
Çalış təmiz olsun əməlin, təmiz,
Həm ürəyin təmiz, həm əlin təmiz.
Nə qısqan, nə çəkin, əziz ol əziz,
qapıbir, üzbəüz qonşun laldısa.
*9*
Soyuq bir axşamdı, yelli, yağışlı,
ildırım şaxıyır, sazaq kəsirdi.
Birdən doluxsunmuş, qəlbi təlaşlı,
Lal qonşum tələsik içəri girdi.
*
Baxdı mənə sarı, baxdı qayğılı,
dodağı titrədi, gözləri doldu.

Başına budamış döndü o, dala,
Lal dilində: aman istəməkdi bu!
*
Sən demə, qıvrılıb sancıdan gəlin,
Can oda düşsə də çığırammayıb.
Lal karıxıb...bir də...əldən nə gəlir?...
Zavallı həkim də çağırammayıb.
*10*
Oğlun oldu!-dedi köməkçi qadın,
Muştuluq istədi, Lal unamadı.
Boğdu qəhər məni, boğdu, ağladım,
Döydü gözlərini Lal, qanammadı.
*
O, elə bildi ki, bəd xəbərdi bu,
Uçundu bədəni, üzü titrədi.
Qandıra bilmədim sözün doğrusu,
Üzümə sancılan gözü titrədi...
*11*
Qorxu zülmətində, şübhə çənində,
Bir lal ata-ana artdı dünyada.
Düzünü deyim ki, o gün mənim də,
dincliyimin sonu çatdı dünyada.
*
Yox-yox! Nə gileydi, nə qeybətdi bu,
Qəlbimi qızdıran hərarətdi bu!
Bəlkə də ən böyük səadətdi bu—
Dilim bir nemət də daddı dünyada.
*
Elə ki, qapıdan içəri girdi,
özüylə bir dünya qayğı gətirdi.
Bu necə möcüzə, bu necə sirdi? -
Bir evin sükutu batdı dünyada!
*
Lal-kar ata-ana, bələkli çağa—
səksəkə qor ələr yerə-yatağa.
Mürgülü gözümə nur sağa-sağa
bir körpə yuxumu qatdı dünyada.
*
Nələr kəşf elədim gecələr, nələr—
səyriyən işıqlar, qarğı dürtmələr...

Heç nə istəmirəm, bircə biləlár
ürəyim nə qədər şaddı dünyada.

*12*

Damın yatsın, lal oğluna lal deyən!
Qumru kimi ötməyinə fikir ver!
Minbir qayğı bitirməyən çiçəyin
sal qayada bitməyinə fikir ver!

*

Nə bilmisən təbiətin işini!
Şimşək yalar zirvələrin şişini.
Ana Yerin ağ düyməli döşünü,
Göy, ağzına dürtməyinə fikir ver!

*

Görübsənmi dimdiyindən bitəni?
Duyubsanmı qəmə sinov gedəni?
Yuvasından perikəni, itəni
fəlakətin güdməyinə fikir ver!

*

Necə dilin döndü buna, bilmədim,
dil açmamış bir körpəyə lal dedin.
Düyün düşən hər yumulu mətləbin
cövhərinə yetməyinə fikir ver!

*

Körpə gəldi Lal evinə, közərdin.
Ağız burdun, yalan-yanlış söz hördün.
Mənimkinə lal desəydin, dözərdim,
İnsafıyın itməyinə fikir ver!

*

Nə Lal bildi, nə arvadı, nə uşaq,
Tərəddüdüm ümidimə çəkdi dağ.
Lal him-cimi bal bələyir sözə, bax!
Qızınla bir getməyinə fikir ver!

*

Qızın verib ona dili, Mehriban!
Ləhcə nabat, vurğu gözəl, dil rəvan!
Heç olmasa, ay nainsaf, bir utan,
sənə hörmət etməyinə fikir ver!

*

Eh, bir də ki, nə vecinə, məzən tox,
Yaxşı-yaman qayğısıyla aran yox.

Göz şüşədən, ürək qüzey, dil soyuq...
Mən nə deyim, özün bilən yaxşıdı.
*
Qonşuluğun dağdan ağır yükü var,
Diz çatladan, dırnaq tökən diki var.
Külfətlisi, qonaqlısı, təki var—
Necə olsa, deyib-gülən yaxşıdı.
*
Elə ola, şərik ola qəminə,
Xof bilməyə, şad gününə sevinə.
Axşam-səhər, vaxtlı-vaxtsız, evinə
düz ürəklə gedib-gələn yaxşıdı.
*
Eybi yoxdu, laldı, kardı, hər nədi,
xoşdu, əgər bilməyirsə şər nədi.
Bəlkə lallıq saxtalığa zərbədi,
Saxta sözü dildə ölən yaxşıdı!?
*
Bir də... axı... xata çıxıb dilimdən,
yanılmışam, lal demişəm ona mən.
Neçə dili səndən, məndən pak bilən,
sərrast yazıb, düz oxuyan laldımı?
*
Bir o var ki, dil tərpənib danışmır,
Qonşuluqda adi dillə qonuşmur.
Fərqi nədir, hər him-cimi tanışdır,
barmağıyla söz toxuyan laldımı?
*
Ona qalsa, bu dünyada hər nə var,
bizim kimi qonuşmursa, lal və kar?
Yox, əzizim!
Yox, lal da var, lal da var.
Nahaq üstə düz şığıyan laldımı?
*
Hər şerimə mis üstündə can verən,
Hər sözümdə eyham görən, xal görən,
Çəkiciylə sevgi əkib, nur dərən,
eşqi, hissi gül qoxuyan laldımı?

*13*

Öyünməyək dilimizin balıyla,
Anlamırıq birbaşa çox dili biz.
Tərcümansız danışır Lal Lal ilə,
Zənci, hindu, rus, azəri, ingilis...

*

Vaxt olur ki, pərt eləyir dil bizi,
Saxtalaşır ülvi duyğu, ülvi hiss.
Sükutunda qınamayaq dilsizi,
Yerli-yersiz azmı donub nitqimiz?

*

Çılpaq haqqı bəzəyirik çox zaman,
Bir görünür bizə haqq da, nahaq da.
Bircə yalan min doğrunun adından,
Söz uydurur, vədə verir, dodaqla.

*

Söz qoşmasan təbəssümün yanına,
Təbəssümü təbəssüm tək alarlar.
Hər sükutun, söz hopdursan, canına,
Sükutundan çox qulaqlar kar olar.

*

Lal hökmdar, lal sərkərdə, lal hakim
Olmayıbdı, bundan sonra olmaz da.
Lal usta var, lal rəssam var, lal həkim,
Lal şair var, dillilərdən qalmaz ha!

*

Diqqət elə, Lala baxma lal kimi,
Azıxdakı dilimizdi lal dili.
Sanma onu yetişməmiş, kal kimi,
Gör nə vaxtkı dilimizdi lal dili.

*

Ariflərdi işarədən qananlar,
Aşiqlərdi işartıdan yananlar.
Nə qədər ki, yad, yağı var, yaman var
Kölgə qatlı dilimizdi lal dili.

*

Quş dilidi—dedi buna, Nəsimi,
Açıqladıq quş dilini, nəs kimi.
Sehr dolu qulaqtutmaz səs kimi,
Sirr qanadlı dilimizdi lal dili.

*

Mən dinməmiş mətləbimi duyan var,
Ürəyimdə tutduğumu deyən var.
Ay zahiri haya-küyə uyanlar,
İdrak adlı dilimizdi lal dili!
Can tək dadlı dilimizdi lal dili!

*1979—1994-cü illər, Bakı*.

## Borçalı toyu

Mətləbini sinəsinə qısa-qısa
harda dedi, necə dedi oğlan qıza?
Gur bulağın başındamı?
Sarf dərənin qaşındamı?
Tarladamı, ya toydamı?
O taydamı, bu taydamı?
Deyəmmərəm. Bu bir sirdi.
Bir də axı nə fərqi var,
harda dedi, necə dedi?
Hamısı birdi:
dil-diş susar kilidlənər,
ürək yanar, baxış dinər:
"Öldü varsa, döndü yoxdu,
özgəsində könlüm yoxdu,
gözlə məni vəfalı yar!"
Sevişdilər,
and içdilər düz ilqara,
And içdilər,
and içdilər etibara!

*

"Qız ağacı - qoz ağacı,
hər yetən bir səlbi atar".
Elçi gələr, minnət elər,
süzmə kimi, ya süzülər,
pərt qayıdar,
ya mətləbi xoşa gələr,
dilə-dişə qənd qatılar.
Qızıl üzük - ər nişanı,
saf bir eşqin zər nişanı
öpər, qucar qız əlini,
qoyar toyun təməlini.

*

Şirinliyi yeyildimi,
"bizimkidi" deyildimi,
qız vəkili şərtlərini
bircə-bircə elan edər.
Bəy vəkili xərclərini
saya-saya fikrə gedər...
Əsər, coşar,

qarşılaşar
iki hakim, iki hüquq,
hər ikisi işdən duyuq!
*
Nişanlı qız evlərində
qonaq tək oturar, durar.
Umuları gözlərində
alovlanar, sönər...susar...
Tez-tez küsər, qəhərlənər,
get-gedə də sehrlənər,
bir köçəri quşa dönər
nişanlı qız,
ürkək gəzər, hey diksinər
nişanlı qız.
*
Toy evinə gedən yolun
həndəvəri, sağı, solu
bərbəzəkli qız sərgisi!
Diqqət elə gözə, qaşa,
od çilənib hər baxışa!
Oynaq olar körpələri,
həyalanar gedərgisi.
Hərəsi bir iynə boyu
boy artırar toy oldusa;
ağlı başdan itkin salar,
sol göz azca qıyıldısa!
*
Qara zurna,
basma zurna zil üstündə,
lovğalanar dəf-nağara
qol üstündə,
yerə, göyə sığmaz səsi,
gumbuldayar gurum-gurum.
Qatarlaşar,
qanadlaşar,
gah üzülər,
gah düzülər,
burumlanar burum-burum,
ilgəklənər fənd-fellər,
yallı gedər İncəbellər!
Yallı gedər könüllərə

çin-çin ilmə sala-sala;
Yallı gedər sağa-sola
neştər kiprik çala-çala!
*
Polad yallı,
rezin nallı
bərbəzəkli kəhərlərin
fınxırtısı, kişnərtisi
haray salar dağa-daşa.
Karvanlaşar qatar-qatar
tutar, tıxar yolu-izi
qaqqıldaşa-qaqqıldaşa!
Şaxta vurmuş çox ümidlər
puçurlayar;
Qəsdə durmuş çox fitnələr
qaysaq qoyar!
*
Şax bəzənər qoz ləpəli,
qızqaytaran almasıyla.
Qız evinə simsar əli
ismət rəmzi güzgü tutar,
hörmə, həşgə çalmasıyla.
Lampa yanar yol uzunu
evdən evə işıq gedər!
Bir adətdi, ellər bunu
zaman-zaman təkrar edər.
*
Qulbeçələr
cərgələnər,
kimdə hünər
varsa əgər,
şaxdan alma
çalıb gedər,
toy bəyinə
təqdim edər,
nəmər alar, kişilənər,
asta gəzər, usta dinər,
bığ yerinə tər düzülər
narın-narın,
Ürəyinə nur süzülər
narın-narın.

*

Toydan-toya
barmağına qızıl xına
qoya-qoya
kişiləşər ərgənlər.
Bir vaxt olar,
meydan sular
bu gün ağzıqatıqlılar,
yedəklərdə yeriyənlər
günü-günə düyə-düyə
böyüyərlər,
bir-birini döyə-döyə
böyüyərlər.

*

Tül fatanın çətri altdan
nur yoluna çıxar gəlin;
ətrafına, yola, izə
oğrun-oğrun baxar gəlin;
əsə-əsə, susa-susa
dişi-dişə sıxar gəlin;
əli ağ gün ətəyində
xısın-xısın ağlar gəlin;
neçə qızlar bulağından
suiçmişi dağlar gəlin;
bu gedişlə çox şübhəni
yatağında haqlar gəlin!
dedi-qodu
ilim-ilim itgin düşər!
qoşalaşan
ürəklərə ağ gün düşər!

*

Bəy buludu qonar dama
ətəyindən nabat damar...
Cəhəl-cumru yaraqlanar -
şimşək çaxar, dolu yağar.
Uşaqların
cümlə-cahan davaları,
yavaşıyar,
yatar yalnız gecəyarı.

*

Nəlbəkisi üstə

fağır
mis gövdəli lahıc qazan,
toyun gəlin maşınından
yerə enən ağır-ağır
gəlin-qıza
ağ ulduza
quluncunu ayaqladar,
Bəydən əvvəl əhdə çatar.

*

Qaragözlü, qaradırnaq
qurban gedər gəlinə, bax!
Bir əlindən qız yengəsi,
bir əlindən bəy oğlanın öz yengəsi
tuta-tuta
iki quda
bəy evinə gətirərlər.
Bəy almazdı, gəlinsə zər,
Üzükləşər, yurdu bəzər!

*

Bəy evinin ortasında
sac çevirər yengələri;
sonra sacın qucağına
kösöv yığar yengələri;
o üzündən, bu üzündən
tutub öpər yengələri.
Sac başına dolandırar yengələri,
Kösövləri odlandırar yengələri.
Yanan közə -
yaman gözə
şiş batırar Gəlin-xanım!
Bax beləcə tilsimləri
bir-bir qırar Gəlin-xanım!

*5 oktyabr, 1977-ci il. Bakı.*

**Toy-bayramdı Kosalarda**

Meyli çəkən çəkinməsin,
Miz üstündə yer düzəlib;
Qulaqlara xəbər çatıb,
Göz üstündə yer düzəlib;
Sazandalar söz alıblar,
Diz üstündə yer düzəlib;
Çöhrələrə nur süzülüb -
Toy-bayramdı Kosalarda!

Bir səsə min səs verildi,
Eşidən-bilən, yeridi;
Ukraynadan, Rusiyadan,
Bakıdan gələn, yeridi;
Borçalıya səda düşdü,
Adı çəkilən, yeridi;
Könüllərdə çiçək açdı -
Toy-bayramdı Kosalarda!

Tarix boyu bir belə iş
Görünməyib bu dünyada;
İllərlə ayrı düşənlər
Bir məclisdə qovuşmada;
Qoca-cavan öpüşmədə,
Sarım-sarım sarışmada;
Həsrət itib ilim-ilim -
Toy-bayramdı Kosalarda!

Uzun-uzun avtobuslar -
Mersedeslər, İkaruslar...
Yol boyu pişvaza çıxıb,
Müntəzirdi açıq postlar;
Düşmən gözü kor olubdu,
Çal-çağıra gəlib dostlar;
Qəh-qəhə bax! Cəh-cəhə bax! -
Toy-bayramdı Kosalarda!

Ağ birçəkli Xram çayı
Ağ günlü insana dönüb;
Çadır şəhəri salınıb,

Bəzənib, seyrana dönüb;
Mühərriklər gurhagurda -
Sahil çıraqbana dönüb;
Əcik-cücük Xramdadı -
Toy-bayramdı Kosalarda!

Bir tərəfdə kəndirbazlar
Havada qanad açmada;
Bir tərəfdə pəhləvanlar
Güc vurmada, yarışmada;
Bir tərəfdə Arif olan
Qadı-qadı danışmada;
İnsan olan haldan gedir -
Toy-bayramdı Kosalarda!

Xram hara, Gövhər hara!
Barmağa bax! Qarmona bax!
Göydə qanad, yerdə büsat,
Bir ona bax, bir buna bax;
Gürcü, Acar heyrətdədi,
Sağına bax, soluna bax;
Can deyib, can eşidilir -
Toy-bayramdı Kosalarda!

Bir dəfəyə Xram üstə
Bir belə adam olmayıb;
Bir dəfəyə naz-nemətdən
Bir belə dadan olmayıb;
Bir dəfəyə arzusuna
Bir belə çatan olmayıb;
Bülbül kimi ötür dillər -
Toy-bayramdı Kosalarda!

Başçı burda, işçi burda -
Polis, həkim iş üstündə;
Qız-gəlinlər kölgələrdə
əyləşiblər kündə-kündə;
Hamı bir nəfər kimidi,
Kimlər yoxdu bu düyündə!
Əqidələr tənləşibdi -
Toy-bayramdı Kosalarda!

Zil qaranlıq yay gecəsi -
Yer Göyə qovuşub gedir;
Xram çayı bu büsatdan
Vəcdə gəlib, coşub, gedir;
Əlvan rəngli fişənglərin
Səsi dağlar aşıb gedir;
Borçalıya gün doğubdu -
Toy-bayramdı Kosalarda!

Qaşa çıxan maşınların
Ulduza çatır işığı;
Axın-axın işıq seli
Yerin-göyün yaraşığı;
Bu adi bir toy deyil ki!
Könüllərin barışığı!
Kirvələr karvan tutubdu -
Toy-bayramdı Kosalarda!

Bu büsatı quran oğul
Kosaların tacı kimi;
Fağırların ümid yeri,
Dərdlərin əlacı kimi;
Bir sözü iki olmayıb,
ən müqəddəs yazı kimi;
Vaqif dedi, olmalıdı! -
Toy-bayramdı Kosalarda!

Düz avqustun ortasıdı -
Kosaların ad günüdü!
Kənddən kənar düşənlərin
Kəndə etiqad günüdü;
Şübhələr qına çəkilib,
Bu gün etimad günüdü!
Vaqif dedi, olmalıdı! -
Toy-bayramdı Kosalarda!

Çox kişilər gəlib-gedib,
Kasıbı, dövlətlisi var;
Hərə bir cür yaşayıbdı,
Arığı var, ətlisi var;

Alimi, sənətkarı var,
Şəhərlisi, kəndlisi var;
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Çoxları çox işlər görüb,
Qəlblərə həyan, olmayıb;
Kasıb-kusuba əl tutan,
Dərdlərə loğman, olmayıb;
Yaxşı kişilər çox olub,
Vaqif tək İnsan, olmayıb!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Bir Bolinin oğlu deyil,
Bir millətin oğludu O!
Alnı açıq, qəlbi geniş,
Başdan-başa qayğıdı O!
Ürəklərdə arzudu O!
Könüllərdə duyğudu O!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Şaha əl açan olubdu,
Şahla əl tutan bir odur!
Sərnişin uçan olubdu,
Şturval tutan bir odur!
Şan-şöhrətin zirvəsinə
Kimsəsiz çatan bir odur!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Varlı pula qaçan olur,
Vaqif isə puldan qaçan;
Varlı var ki, lələöyündü,
Vaqif isə, süfrə açan;
Çoxdu özgə qoltuğunda,
Vaqif isə, məğrur, uca!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Balasının büsatına
Əhsən!- deyir Nigar xanım;
Di gəl, elə əvvəlki tək
Sadə geyir Nigar xanım;
Var-dövlətə məhəl qoymur,
Zəhmət sevir Nigar xanım;
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Nəyi varsa, halalıdı,
Haramı yoxdu Bolinin;
Oğurluqla, əyriliklə
Arası yoxdu Bolinin;
Çətin görüb, asan görüb,
Gördüyü çoxdu Bolinin!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Vaqif - bizim sərvətimiz!
Vaqif - bizim qüdrətimiz!
Vaqif - bizim şöhrətimiz!
Vaqif - bizim qeyrətimiz!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Adına tərif söylədim,
Demə saray şairiyəm;
Nə danım mən, nə gizlədim,
Mən də sizlərdən biriyəm;
Bu dünyada yaxşılığın,
Səxavətin əsiriyəm;
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Qəlblərə dəyməsin deyə
Köməyini pərdələyər;
Niyyətini çox hallarda
Uduzduğu nərd eləyər;
Özü daim öndə gedər,
Lovğaları üstələyər;

Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Yağmalama məclislərin
Memarıdı nə müddətdi;
Məktəb tikən, yol çəkdirən
Nurlu niyyət şəxsiyyətdi;
İlk sözü də, son sözü də,
Tərəqqidi, təravətdi;
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Varlı görmüşəm, canını
Hər şeydən əziz tutandı;
Suyu üfürüb içəndi,
Kölgəsindən qısqanandı;
Di gəl, bunda qorxu yoxdu,
Risk eləməkdə bir candı!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Ovçuluqda yoxdu tayı,
Şikarı gözündən vurur;
Səyahəti çox sevəndi,
Çox yeriyir, az oturur;
Saza-sözə vurğun gəlib,
Harda olsa, məclis qurur;
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Əyriqarda şəhər salan,
Başqası yox, Vaqif olub!
Şamdüyəyə lərzə salan,
Başqası yox, Vaqif olub!
Sarf dərəyə mator salan,
Başqası yox, Vaqif olub!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Nələr keçib taleyindən,
Yaxşı-yaman, olan-olub;

Qayğısına qalan, olub,
Yoluna daş salan, olub;
Rusiyanın paytaxtları
Ona hörmət qılan olub!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Kosalara qəsd edənin
Barışmaz düşməni odur!
Əyri yolla yol gedənin
Barışmaz düşməni odur!
Şərəf satıb, pul güdənin
Barışmaz düşməni odur!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!

Ağlı başda olan gərək
Ona cangüdən dayana;
Kölgəsinə sığınanlar
Başı üstə bayraq sana;
Kosalara, Borçalıya,
Elə də Azərbaycana
Vaqif birdi! Bir İncidi!
Bir insandı Kosalarda!

Bir də deyim: Sərvətimiz,
Qeyrətimiz, Qüdrətimiz,
Şöhrətimiz, Hörmətimiz
Bir Vaqifdi! Anlayaq biz!
Vaqif birdi! Birincidi!
Bir insandı Kosalarda!
Vaqif harda, Kosalar da
Gərək orda, Gərək orda!!!

*17 iyul, 2006, Quba, Nügədi.*

**Puçur duyğular**

Sevgilim yar, tək səni,
Könlüm istər tək səni.
Gözümün ilk ovusan,
əl mənim, ətək sənin!
*
Mən aşiqəm, qoy olsun,
Yüküm qəmdi, qoy olsun.
Ömrü qəmə verdim ki,
Məndən sonra toy olsun.
*
Mən aşiqəm, gedərgi,
yol üstəyəm, gedərgi.
İtiyim var, ay ellər,
Didərginəm, didərgin!
*
İnan, Gülüm, dərmanım,
Düz ilqarın—dərmanım.
Şeytan girsə araya,
Vallah, od tutar canım.
*
Mən dinmirəm, el desin,
Nəyimiz var, el desin.
Var-dövlət istəmirəm,
İsmət olsun cehizin.
*
Nə deyirəm, öyün yar,
Haqqın da var, öyün yar!
Bir gün biz tərəfdə də
olar o toy-düyün, yar!
*
İşə bax bir, yıxarmış,
Evi dayaq yıxarmış.
"Sənə güvəndiyim dağ,
sənə də qar yağarmış!"
*
Vəfalı yar, durma, gəl,
Əziz gündü, durma, gəl.
Ellər toya yığışıb,
Könlümdə yas qurma, gəl!

*

Diqqət elə, can istər,
Sevda odlu can istər.
Cəfadan qorxan könül
sağkən ölüdən betər.

*

Mən neyləyim, nəm çəkir,
Göz həsrətdən nəm çəkir.
Eşqə sarban ürəyim
dağdan ağır qəm çəkir.

*

Heç bilmirəm bu dərdi,
kimə deyim bu dərdi?
o qədər ah çəkdim ki,
sinəmdə qəm cücərdi.

*

Bilən-bilir, yağıdı,
Yalan eşqə yağıdı.
Qəlbə yalan hakimsə,
Vicdan göz dustağıdı.

*

Görən bilir, xal incə,
Qamət şümşad, xal incə.
Canım boyda can verdim,
Səndən səni alınca.

*

Mən mənəmsə, ürəyim,
Haqq bildiyim—ürəyim.
Ata—arxa, qardaş—qol,
Dost—hər işdə gərəyim.

*

Diqqət elə, dan yeri,
Sevgi—ömrün dan yeri.
Qısqanclıqsa—sevginin
ürəkdən qopan yeri.

*

Dinlə, ağlar kamanı,
Habil dağlar kamanı.
Segah quzu itirib,
mələyir: “balam hanı?”

*

Diqqət elə, ahı var,
Kamanın min ahı var.
Dərdə divan elə sən,
Simin nə günahı var?
*
İsa, de ki: dərdi min,
Ürək təkdi, dərdi min.
Dedim:-"bəsdi, ayrılaq",
gözü doldu dərdimin.
*
Diqqət elə, inci tər,
Lalə yanaq, inci tər.
Kipriyimlə alım qoy,
Tər, xalını incidər.
*
Dedilər ki, haqq acı,
Yalan şirin, haqq acı.
Heç xəcalət çəkirmi
görən, qoltuq ağacı?
*
A sevgilim, qınama,
Sevən kəsi qınama.
Hədiyyə verdi məni,
Minnətdar ol anama.
*
A dil bilən, qan məni,
Anla məni, qan məni!
Bir ovxarsız Qılınc var,
didir nahaqdan məni.
*
Sən özün de, haqq belə,
Nahaq belə, haqq belə.
Faydasızdı, bu halda,
Lap şimşək ol, çax belə!
*
Diqqət elə, dərd izi,
Üzdə qırış—dərd izi.
Könül dustaq, arzu kəm,
Eşq—tənələr sərgisi.
*

Sən buna bax, əndəza,
Ölçüsüzmüş əndəza!?
Elə geydirdilər ki,
Yad tük gəldi tən, daza.
*
Söylə görüm, Dağ niyə,
Çal-çarpaz dağ-dağ, niyə?
Qəm qara donlusa, bəs
saçda izi ağ niyə?
*
Çox şükür, inkarı yox,
Karsızın inkarı yox.
Bədgüman olma, könül,
İnkarın inkarıyıq!
*
Diqqət elə, şər bizi,
kölgə tək izlər bizi.
Bizi yaşadan ümid
bir gün də gizlər bizi.
*
Mənə qalsa, dost odu,
Qəlbə çıraq—dost odu.
Dost dostuna qıymırsa,
Dost dostunun dostudu.
*
Mənə qalsa, əlacı
Öpüş—dərdim əlacı.
Sən dəva qıymasan, yar,
Gedim kimə əl açım?
*
Mən neyləyim, cilvəli
Baxışın od, cilvəli!
Sən verdiyin həsrəti
silməsən, kim silməli?
*
Bilən-bilir, tel titrər
Yel tərpədər, tel titrər.
Bir qiyqacı baxışdan
can ürpəşər, dil titrər.
*

Görən bilir, xal qara,
Dodaq yaqut, xal qara.
Öpdüm, telin dağıldı,
Kipriyimi al, dara!
*
Bir buna bax, bəndiymiş,
Vəfa—görüş bəndiymiş!
Hər görüşə gecikmək
demə, qızda fənd imiş!
*
İşə bax bir, pərdə ağ,
Sinən bəyaz, pərdə ağ.
Əksimədir pərdə də,
Çəkəcəyim dərdə bax!
*
Bilən-bilir, kəməndi,
İlqar—sevda kəməndi.
“Eşq yalandı”-deyən kəs
görən nəyə güvəndi?
*
Diqqət elə, həmdəmi,
Həsrət—könlüm həmdəmi.
Özüm özümə yağı,
Həm tufanam, həm gəmi.
*
Görən bilir, keçən günüm,
nə keçib ki, nə öyünüm!
Qəm eləmə, dəli könül,
Qabaqdadır toy-düyünüm.
*
Bilən bilir, tələbəyəm,
heç bilmirəm hələ nəyəm?
Adım dolu, cibimsə boş,
Adlı-sanlı lüt bir bəyəm.
*
Bilən-bilir, çox dedilər,
Sənə məndən çox dedilər.
Məni sənə pisləyənlər
səni mənə yox dedilər.
*

Bilən-bilir, vəzifədə,
Şir gücü var vəzifədə.
Başımızda qoz sındırır
dünənki bir fərsiz gədə.
*
Mənə qalsa, qədirbilməz
Yarsız qalar qədirbilməz.
Bir ürəkdə eşq olmasa,
Vüsal, hicran nədir, bilməz.
*
Mənə qalsa, vəfalıya
Canım qurban vəfalıya.
Ağıl kəsməz: cəllad olan
dərdli cana dəva qıya.
*
Mənə qalsa, dağda qaram,
Eşq olmasa, dağda qaram.
Eşqin boyda könlüm ki, var,
Dünyada ən bəxtiyaram.
*
Bilən-bilir, odlu sinə
Od püskürər odlu sinə.
Elə yanar vulkanam ki,
alovumda od isinər.
*
Vəfalı yar, dözüm dərdə,
De, nə qədər dözüm dərdə?
Göyərçin tək uçub getdin,
Canım səndə, özüm yerdə.
*
Mən neyləyim, düşəsiymiş,
Canım oda düşəsiymiş.
Qəh-qəh bilib aldanmışam,
Sınan könlüm şüşəsiymiş.
*
Mənə qalsa, odam oda,
Suya suyam, odam oda.
Aşiqini, sevdiyiçün
heç atarmı adam oda!
*

Canım-gözüm, ülkərim, gəl!
Bəxt ulduzum, Ülkərim, gəl!
Gəlişinə canım qurban,
Canım çıxdı, gəl görüm, gəl!
*
Bağban oldum, qönçə dərdim,
Eşq bağından qönçə dərdim.
Sənsiz səbrim-qərarım yox,
Gəlsən, canım dincələrdi.
*
Bilən-bilir, söz alışar,
Ürək yansa, söz alışar.
Ahım elə odludur ki,
közə düşsə, köz alışar.
*
Diqqət elə, ömür gedir,
Yedəkdədir ömür, gedir.
Gəl, görüşək vəfalı yar,
Gedən heç nə demir, gedir.
*
Bilən-bilir, qul olunca,
Öldüm, eşqə qul olunca.
Özüm, sözüm, əməlim—od,
Yanmalıyam kül olunca.
*
Bilən-bilir, gözə düşər,
Həsrət çəni gözə düşər.
Od üstünə düşən canın
yağı damar, közə düşər.
*
Demədimmi, güləndə yar,
könlüm gülür, güləndə yar.
Öpüşünə bükəydilər,
kaş ki, məni, öləndə, yar!
*iyul-avqust, 1969-cu il. Yaylaq.*

# Mündəricat

Səh.
Tut əlimdən 8
Şerlər (poetik gündəlik) 11
Gördüm 11
İnciyərmi? 11
Necəsən? 12
Əlvida 13
Möhtacam 15
Deyər 16
Tapdım - itirdim 16
Yadigar 18
Yun corab 18
Var 19
Qorxma! 20
Qorxuram 20
Peşmanam 22
Azəriyəm mən 22
Adam ol! 24
Təbiət və biz 25
Vətən səsi 25
Yanığıyam 27
Gözlə 29
Qoşalaşmaq istəyirəm 30
Neyləsin? 30
Ay Sona bulağı! 31
Kişilik 32
Ay meşə 32
Qınamıram-qınayıram 33
Səni düşünürəm 35
Kül başına, niyə sağsan?! 36
İlk görüşə gedəsiyəm 36
Elə uç... 37
Öpüş 38
Urvasız kündə 38
Lap arxayın ol! 40
Əmi 41
El adəti poladdandı 41
Dayanmaz 42
Tək əlli məhəbbətim 43
Oldu 44

Ölmərəm 45
Bayramın mübarək, Ana! 46
Qovuşsaq... 46
Az qalıb 47
Vüsal 47
Çox sağ ol, Oğlum! 48
Bu Vüsal 48
Qısqanma! 50
Necədir, Oğlum? 50
Əyriqardadı 51
Aldanma - İnan 52
Mən də mənəm 52
Qızıma 53
Dindirmə, qadan alım 54
Yan, görüm! 55
Dur itil! 56
Dözəmmirəm 56
Zarafat 57
Ürək qoruğu 58
Kursda 59
Ömür - gizlənpaç 59
Ata həsrəti 60
Səhvlərim... 61
Bezmişəm 61
Danlama məni! 62
İndi başa düşmüşəm 63
Şeytan qızım 63
Yeridi 64
Özün de 65
Bilmirəm 66
Qardaş 66
Elədim - elədin 67
Etiraf 68
Gəlirəm 69
Heyrət 70
Nə var-nə yox? 71
Kosalar 73
Gizlənpaç 74
Müəllim 74
Saz 75
Nur övladı nuruq biz 76

Vicdan nəqqaşıyıq 77
Özün bil 78
Şair ürəyi 79
Yan beləcə 79
Nə ola 80
Mən nə deyim 81
Qeyrət elə 81
Var 82
Aşıq Ənvərlə deyişmə 82
Səbr elə 84
Sazı qoru 84
Aşıq Ənvərlə deyişmə 85
Aşıq Ənvərlə deyişmə 87
Birdi 88
Eyləyəcək 88
Sevgilim kimi 89
Nə ki, canın sağdı, döşə! 90
Bilməmişəm 90
Lələ 91
Palıd 94
Qurban olum 96
İllər 97
Əyləmişəm 97
Ağlama, oğlum! 98
Qalanını deyəmmərəm 99
Diş ağrısı 99
Axır ki! 100
Bir dəli şeytan deyir 101
Düyündən-düyünə 102
Bədbin və nikbin 102
Tapmaca 104
Növbə 105
Qayıt gəl 105
Amandı, təzə il! 106
Bu da bunun burası 107
Məkan-zaman içində 107
Düşərsən 110
Yeddi bilmə yeddiləri 111
Koroğlunun bizə səfəri 111
Yarızarafat 112
Qurdalama! 114

Bir də mən 115
Ay bacanaq 115
Uzaqda qaldı 116
Nə yaxşı qayıtdın 116
Nizami 117
Qurban olum sənə, Vətən! 118
Vətən eşqi 119
Salam, ay təzə il! 120
Mən mənəmsə... 121
Sizsiniz 121
Oldu 122
İndi 123
Səbuhi 123
Çörək 124
Daşlar deyirlər ki 125
Ata, kövrəlmə, kövrəlmə! 127
Daha sənə inanmaram 128
Vətənə qayıt! 129
Çənlibel nəğməsi 131
Ah, necə kef çəkməli günlər idi! 131
Qardaş 132
Eşqim 133
Yaz gəlir! 133
Mənim küçələrim 134
Elə-belə 135
Necədir sənin üçün? 136
Yaxşı dünya yaxşıdı 137
Necəsən? 137
Çox şükür! 138
Bağışla, ləngidim 139
Soruş 139
Salamat qal 140
Bulaq 141
Qayıt geri 141
Dünyamızı qoruyağın! 142
Şer yazmaq istəyirəm 144
Mənə demə, mən bilirəm 145
Niyə inciyirsən? 146
Qınama! 146
Gözlə gözü 147
Bilən varsa, desin, kimik? 148

Xəcalət 148
Azərin əziz xatirəsinə 149
Gələrgetməz 150
Bəsimdi 151
Gedərdim 151
Çalkeçir 152
Özünə fikir ver 153
Nə vecinə! 154
Sən mənə baxma 155
Bağışla, tanımadım 156
Eşqim 157
Borçalıya apar məni 158
Dur duruca 159
Tülkü-tülkü tünbəki 159
Gecdi 161
Kim yatıbdı, kim oyaq? 161
Soyuqluq 162
Yanan da mən, yaman da mən 163
Qarmon 164
Mənim həqiqətim 165
Arzun nədir dünyada? 165
Yaxşı-pis 166
Çağla, Tütəyim! 167
Dünya, bəxtəvər başına! 168
Bircə 169
Qalan kimə qalır-qalsın 169
Nəyinə yaraşır söz SÖZün? 170
Mənimki deyil 172
Kəpənək 172
Oktyabr 173
Zəncirləmə 174
Var-yox 175
Yenidən qurur 176
Ay Lələ 177
Nə qədər teylənim mən? 179
Ala-bula boz keçi 179
Tikənə sökən deməzdi 180
Asta yeri 181
Təkərləmə 182
Köçhaköç 185
Belə-belə işlər... 186

Salam, Ana Sözü! 187
Dönəlgəsi dönənə bax 188
Xoruz 189
Düşmən mənə neyləyəcək? 189
Adamın gülməyi gəlir 190
Ş Ə H İ D 191
Yurd həsrəti 192
İnsan olmusan 193
Şüşəbəndin dastanı 193
Xudu sənət məktəbində 197
İşıqdı 198
Demə, demə! 199
Bağışla 200
Telman kimi 201
Müəllimin Vicdan ola! 202
Mətləb MİSİR 202
Rəhmanın toyu 203
Şükür! 204
Hərbə-zorba 205
Bax 206
Qınqılı 206
Vüsalə 207
Ramal 207
Azərbaycan 208
Nəzifə xanım 209
Çox su aparacaq bu xəmir hələ! 210
Allah qüvvət versin 211
Nə qədər dözüm? 213
Allah bilən yaxşıdı 214
Aldatma özünü 215
Çal, oyna! 216
Aralı dur 216
Allaha qurban olum 217
Əlli yaş 218
Vüsala 219
Gəldi!!! 219
Vəfaya 220
Şüşanəyə 220
Ənvərə 220
Baldı bu, bal, ayə! 221
Verdilər-götürdülər 222

Fırıq Dünya! 222
Kamoşa 223
Yeznə, postal amanatı! 223
Yaramaz 224
Öyüd 225
Yalannan-Gerçəkdən 225
Mən ləpə həsrətindəyəm 226
Qara naxış 227
Daha 228
Ucalır 229
Olmaz 230
Nə gözəl! 230
Dönərəm 231
Gül üstə yeri! 232
Mən nə deyim bu həyata! 232
Şair olmaq istəyirəm 233
Apar 234
Yaradıb 235
Ağ maşın 235
Dərdindən öldüklərim 236
Ürəyim qəbristandı 237
Qəzəl 237
Daha nəyə umudlusan 238
Oyna, babalı bəxtəvər! 238
Laqeydlik 239
Min yaşa! 240
İlan imiş 241
Viran qalsın Xramı 241
Məni bu qız öldürəcək 242
Yalandımı? 242
Toydu bu gün 243
Meydana çıx 244
Buyursun 245
Salam olsun 245
On altıdı 246
Altımış yaş 246
Çox yaşadı 247
Göyə daş atma... Arvad kişinin hasasıdı... 248
Öz anamın xətrinə bu dünyaya gəlmişəm 248
Anam öləndən bəri 249
Sağ əlim başına sonra gələnlərin 250

| | |
|---|---|
| Yazıqlar olsun | 251 |
| Daha yazmıram | 251 |
| İndi söylədiklərim söyləmədiklərimdi | 252 |
| Üzüm, gözüm, özüm, sözüm | 253 |
| Nə məchul duyğudu bu sevgi belə? | 254 |
| Özü hara, üzü hara? | 255 |
| Biri belə, biri elə | 255 |
| Onun dostu, onun düşməni | 255 |
| Sən ol ki, mən də olum | 255 |
| Adam ol, ev yıxan olma | 256 |
| Günəbaxan | 256 |
| Xoşbəxtlik | 256 |
| Pritçalar | 259 |
| Bulud | 259 |
| Dəniz | 261 |
| Poemalar | 265 |
| İlqar | 265 |
| Mənsurə | 316 |
| Lal | 349 |
| Borçalı toyu | 360 |
| Toy-bayramdı Kosalarda | 365 |
| Puçur duyğular | 372 |

## Son söz

Şerim mənim—
ötən ömrün göy qurşağı,
Ötdü ömrüm bircə anlıq
leysan kimi başaşağı.

Şerim mənim—
ötən ömrün göy qurşağı,
Qumru kimi ötən ömrün
yeddi rəngli yaraşığı.

Şerim mənim—
ötən ömrün göy qurşağı,
Getdi gənclik təravəti,
itdi gözümün işığı.

Şerim mənim—
ötən ömrün göy qurşağı,
Ondan mənə, məndən ona
bər-bəzəkli körpü tağı.

Şerim mənim—
ötən ömrün göy qurşağı,
Qaldır məni O Zirvəyə,
Ruhum bir Onun aşiqi.

*24 oktyabr, 2008-ci il, Bakı.*



**İsa Musayev** (Yarıcan Miskəroğlu) 1947-ci ildə Gürcüstanın Ağbulaq nahiyəsində (Gürcüstan SSR-inTetri-skaro rayonunda) yerləşən Kosalar kəndində dəmirçi Kərimin ailəsində dünyaya gəlmişdir. Kiçik yaşlarında şəxsi həyatında faciə baş vermiş, sol güzünü itirmişdir. Bu hadisə onu dərin psixoloji sarsıntıya məruz qoymuş, lakin malik olduğu hərtərəfli parlaq istedadı onu elmi-bədii yaradıcılıq yoluna çıxara bilmişdir. 1965-ci ildə Arıxlı orta məktəbini əlaçı attestatı ilə, 1970-ci ildə isə Azərbaycan Xalq Təsərrüfatı İnstitunu (AzXTİ-ni) fərqlənmə diplomu ilə bitirmişdir. Ali məktəb auditoriyalarında "iqtisadçı-mühəndis" ixtisasına yiyələnməklə yanaşı, sözügedən institutun nəzdində fəaliyyət göstərən "Tər sətirlər" adlı dərnəyin fəal üzvlərindən biri olmaqla, alim-xanəndə Vəli Məmmədovun rəhbərlik etdiyi "Mədəniyyət Universiteti"nin  diplomunu almışdır. İsa Musayev 1970-ci ildən bu günədək ümumi həcmi 216,6 çap vərəqi olan 83 adda elmi əsər, o cümlədən, 8 elmi monoqrafiya və 18 dərslik və dərs vəsaiti nəşr etdirmişdir. İsa müəllim 1970-ci ildən AzXTİ-də pedaqoji fəaliyyətə başlamış, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin İnformatika kafedrasında aparıcı dosent kimi elmi-pedaqoji fəaliyyətini davam etdirir. 2011-2013-cü illərdə İnformatika kafedrasının müdiri vəzifəsində çalışmışdır. Ötən əsrin 60-cı illərindən bədii yaradıcılıqla məşqul olan İsa Musayev müxtəlif janrlarda qələmini sınamış, şeirlər, poemalar və bir pritça yazmışdır. İsa müəllim bu kitaba daxil edilməyən və uzun illərdən bəri nəşr ediləcəyi günü gözləyən "Ay işığına ömür oxu" adlı romanın da müəllifidir. O, bədii yazılarının nəşrinə cəhd göstərməmiş, onları üzə çıxarmaqdan çəkinmiş, əsasən "İqtisadçı" qəzetinin ədəbiyyat səhifələrində, "Yeni səslər" almanaxında və ADİU-nun 85-illik yubileyi ilə bağlı olaraq professor Maarifə Hacıyeva tərəfindən tərtib edilib nəşr edilmiş "İqtisadi və ədəbi təfəkkür işığında" adlı kitabda bəzi şerlərini çap etdirmişdir.

Əsas elmi monoqrafiyaları aşağıdakılardır:

1. Dil, Yaddaş, Vətən, Vətəndaş (Assosiativ incələmələr). Bakı,1995.
2. Problemə yiyələnmək səlahiyyəti. Bakı, 1999.

3. Assosiativ kibernetika. Bakı, 2000.
4. Assosialogiya və ya assosiasiyalar nəzəriyyəsi. Bakı, 2001.
5. Assosiativ dünya. Bakı, 2001.
6. İqtisadi assosialogiya. Bakı,2005.
7. İqtisadiyyatın idarə edilməsinin assosiativ optimallaşdırılması. Bakı,2005.
8. Assosialogiya. Bakı, 2010.